AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
AMEA NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU

XANIM BAYRAM QIZI MUSTAFAYEVA

Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI

(Ali və orta ixtisas məktəbləri üçün dərs vəsaiti)

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 2 iyul 2009-cu il tarixli 25 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

Bakı – «Elm» – 2011

Elmi redaktoru:

Nizaməddin Şəmsizadə
filologiya elmləri doktoru, professor

Rəyçilər:

Nizami Cəfərov
AMEA-nın müxbir üzvü

Əgdər Ağayev
pedaqoji elmlər doktoru, professor

Xanım Mustafayeva. Azərbaycan uşaq ədəbiyyatı.
Bakı, «Elm», 2011, 292 səh.

ISBN 978-9952-453-22-5

4603000000
655 (07) – 2011

© «Elm» nəşriyyatı, 2011

DƏYƏRLİ DƏRSLİK

Uşaq ədəbiyyatı Azərbaycan ədəbiyyatının əsas tərkib hissəsi, onun mühüm təmayüllərindən biridir. Ədəbiyyatımızın böyük simaları olan Xaqani, Nizami, Nəsimi, Füzuli öz didaktik əsərlərində uşaqlar üçün də müdrik fikirlər söyləyiblər. Nizaminin «Xəmsə» sində, xüsusən «Sirlər xəzinəsi» əsərində uşaq və yeniyetmələr üçün didaktik öyüd və nəsihətlər, maraqlı, məzmunlu, təlim-tərbiyə üçün gərəkli cəhətlər kifayət qədərdir. Bununla yanaşı, zəngin folklorumuzda, əvəzsiz aşıq ədəbiyyatında, layla, bayatı və nəğmələrimizdə uşaqların əqli və mənəvi tərbiyəsinə ünvanlanan dəyərli ədəbi nümunələr var. Müxtəlif dərslik və müntəxabatlarda, uşaq ədəbiyyatı ilə bağlı tədqiqat əsərlərində bütün bunlar kifayət qədər əsaslandırılıb.

XIX əsrdən başlayaraq ədəbiyyatda maarifçiliyin güclənməsi uşaq ədəbiyyatına olan marağı artırdı. Çünki məktəb, maarif, yeni nəslin müasir ruhda tərbiyə alması bütün dövrlərdə, xüsusən, XX əsrin əvvəllərində maarifçi məfkurənin diqqət mərkəzində olmuşdur. Bu dövrdə həm realistlər, həm də romantiklər gələcəyin vətəndaşı olan uşaqların təfəkkürü uğrunda mübarizəyə başladılar. Azərbaycanın müxtəlif bölgələrində yeni üsullu məktəblər açıldı. Ənənəvi dini məktəblərdən fərqli olaraq həmin tədris ocaqlarında ana dili və ədəbiyyat, tarix, riyaziyyat, coğrafiya fənləri tədris olunmağa başladı. S.Ə.Şirvani, F.Köçərli, A.Çernyayevski, M.Mahmudbəyov, M.Şahtaxtinski kimi maarifçi ziyalılarımız müasir tipli dərsliklər hazırladılar. Bununla ibtidai məktəblərimizin dərsliyə olan ehtiyacı müəyyən qədər ödənildi. XIX əsr Azərbaycan maarifçilərindən A.Bakıxanov, M.Ş.Vazeh, Q.Zakir, S.Ə.Şirvaninin uşaq ədəbiyyatını ədəbi irsin müstəqil bir sahəsinə çevirməsi, ilk ibtidai məktəblərin və dərsliklərin meydana çıxması təbii olaraq uşaq ədəbiyyatı tənqidinin yaranmasını şərtləndirdi. Xanım Mustafayevanın «Azərbaycan uşaq ədəbiyyatı» dərs vəsaiti məhz bu problemə həsr olunub.

Əsərin mövzusu çox genişdir. Tədqiqatın məntiqi tələbatına uyğun olaraq müəllif uşaq ədəbiyyatı və tənqidinin ədəbi

tarixi ənənələrinə yığcam bir ekskurs etmiş, əsas diqqəti XX əsr ədəbiyyatı və onun öyrənilməsi üzərində saxlamışdır. Qeyd etməliyik ki, Xanım Mustafayeva qarşısına uşaq ədəbiyyatı tarixi və tənqidinin xronologiyasını yazmaq məqsədi qoymamışdır. Onun əsas məqsədi Azərbaycan milli uşaq ədəbiyyatının bədii-tarixi təkamül mərhələlərini, onların ədəbi tənqiddə nəzəri dərkinin metodoloji mahiyyətini müəyyən etməkdir. Bunu isə müəllif hər biri üç yarımfəsildən ibarət iki fəsildə əhatə etməyə nail olmuşdur.

Kitabda uşaq ədəbiyyatının poetik və estetik özünəməxsusluğu, XX əsrin əvvəllərindəki təkamül xüsusiyyətləri, 20-30-cu illər tənqidində uşaq ədəbiyyatının dərki, 40-50-ci illərdə uşaq ədəbiyyatına totalitar ideologiyanın təzyiqi kimi ciddi nəzəri problemlər araşdırılır. Xanım Mustafayeva müxtəlif ədəbi mərhələlərdə uşaq ədəbiyyatının nəşri, təbliği, tədqiqi məsələlərinə xüsusi diqqət yetirmiş, 1938-ci ildə Azərbaycanda fəaliyyətə başlayan «Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı»nın avropa klassiklərini, milli uşaq ədəbiyyatı nümunələrini müntəzəm nəşr etməsini, onun ətrafına A.Şaiq, M.C.Paşayev, M.Seyidzadə kimi ədiblərin toplanmasını nəzərəçarpan ədəbi hadisə kimi dəyərləndirmişdir. Eyni zamanda marksist tənqid və ədəbiyyatşünaslığın bədii düşüncəni sinfi mübarizə vasitəsinə çevirmək, ədəbiyyatı inzibati-amirlik metodları ilə idarə etmək cəhdlərini milli uşaq ədəbiyyatının inkişafını ləngidən səbəb kimi göstərmişdir. Burada Azərbaycan uşaq ədəbiyyatının və nəzəri fikrinin tarixi və təşəkkülü, tipoloji təsnifatı, tarixi ənənələri haqqında sistemli, əhatəli fikir irəli sürülür, uşaq ədəbiyyatının bədii düşüncədəki yeri və rolu ədəbi-tarixi mövqedən izah olunur. Uşaq ədəbiyyatı ilə böyüklər üçün nəzərdə tutulan ədəbiyyatın oxşar və fərqli xüsusiyyətləri, uşaq ədəbiyyatının təbiəti, spesifik xüsusiyyətləri, milli maarifçi məfkurədə yeri əsas tədqiqat predmeti kimi götürülür.

XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatının keyfiyyətcə fərqlənən mərhələsi başladı. Yeni dərslik və məktəblərlə müvazi yeni uşaq ədəbiyyatının yaranması ədəbi-tarixi prosesdə canlanma yaratdı, uşaq və yeniyetmələr üçün nəzərdə

tutulan ədəbiyyatın təbliğatında, məktəb həyatına nüfuz etməsində mühüm rol oynadı. Kitabda bu cür mühüm məsələlər geniş aspektdə öyrənilir, «Məktəb», «Dəbistan», «Rəhbər» kimi uşaq mətbuatının ədəbi prosesə təsir imkanları nəzərdən keçirilir.

Dərs vəsaitində uşaq ədəbiyyatında yeni insan konsepsiyası, janr, üslub axtarışları, sənətkarlıq məsələləri və uşaq ədəbiyyatının tədqiqi metodologiyası kimi aktual problemlər hərtərəfli öyrənilir. Bəllidir ki, ədəbiyyatda insan amili bütün dövrlərdə diqqət mərkəzində saxlanılıb. Əsatirlərdən, mifoloji təfəkkürdən, antik mədəniyyətdən üzübəri çağdaş dövrümüzə qədər ədəbi düşüncənin əsas qayğısı, problemi insan və onun cəmiyyətdəki mövqeyidir. Ədəbi nəzəriyyələr, fəlsəfi sistemlər ədəbiyyatda insan amilinə müxtəlif aspektdən yanaşmış, onun təbiətini, mahiyyətini diqqət mərkəzinə çəkmiş, insan cəmiyyətinin, dövlət təsisatlarının gələcək perspektivlərini müəyyənləşdirməyə çalışmışlar. Müəllif ədəbiyyatın həmin prioritet məsələsinə də yeni aspektdən yanaşmış, uşaq ədəbiyyatında yeni insan konsepsiyasının mahiyyətinə, tipologiyasına işıq salmağa çalışmışdır.

Ayrı-ayrı tarixi dövrlərdə müxtəlif siyasi quruluşlu cəmiyyət və dövlətlər öz siyasi-ideoloji prinsiplərinə uyğun olaraq insan amilinə xüsusi münasibət formalaşdırmışlar. Böyüklər üçün nəzərdə tutulan ədəbiyyatla birlikdə, uşaq ədəbiyyatında da bu problem nəzarətə götürülmüşdür. 70 il müddətində marksist estetika kommunizm cəmiyyəti xülyalarını həyata keçirmək üçün uşaq ədəbiyyatından bir vasitə kimi istifadə etməyə çalışmış, bu məqsədlə uşaq ədəbiyyatında insan amilinə marksist dünyagörüşünün tələbləri nöqteyi-nəzərindən yanaşmışlar.Dərs vəsaitində sovet ideoloqlarının və sənət nəzəriyyəçilərinin uşaq ədəbiyyatı ilə bağlı ədəbi qayğıları, inzibati-amirlik metoduna əsaslanan tədbirləri araşdırılır.

Orta əsrlər romantik ədəbiyyatında kamil fərd ideyası ilə cəmiyyət və yeni dünya yaratmaq axtarışları, Azərbaycan maarifçiliyinin ağıla, zəkaya, elmə, maarifə əsaslanan cəmiyyət yaratmaq üçün insan amilinə diqqət yetirməsi, sovet haki-

miyyəti illərində marksist estetikanın müttəfiq respublikaların ədəbiyyat və incəsənətlərində yeni dövrün, sosializm cəmiyyəti insanlarının mənəvi dəyərlərini formalaşdırmaq cəhdləri - eyni məqsədlə və yeni insan konsepsiyasına önəm verməsi «Azərbaycan uşaq ədəbiyyatı»nda prioritet ədəbi məsələ kimi tədqiqat obyektinə çevrilir.

Şübhəsiz ki, indiyə qədər uşaq ədəbiyyatının müxtəlif dövrləri, problemləri ilə bağlı elmi-nəzəri axtarışlar aparılmış, uşaq ədəbimyyatına münasibətdə estetik fikrin meyar və prinsiplərinə diqqət yetirilmişdir. Ancaq bu əsərlərin əksəriyyətində marksist tendensiya, siyasi konyuktura özünü göstərməkdədir. Marksist metodologiya prinsipləri həmin əsərlərin müəlliflərinə ədəbi prosesə obyektiv mövqedən yanaşmağa imkan verməmişdir. Oxucuların istifadəsinə verilən bu kitab isə həmin metodoloji qüsurlardan uzaqdır.

Milli ədəbiyyatın müstəqil sahəsi olan uşaq ədəbiyyatı kiçik yaşlı məktəblilərin, yeniyetmələrin bədii zövqünün formalaşmasına, oxu və yazı vərdişinin yaradılmasına, zehni qabiliyyətiinin güclənməsinə xidmət göstərir. Buna görə də ali və orta ixtisas təhsili məktəblərində uşaq ədəbiyyatı ayrıca kurs kimi tədris olunur. Azərbaycan uşaq ədəbiyyatı istər ədəbi tarixi ənənələrinə, istərsə də çağdaş bədii təcrübəsinə görə zəngindir. Şifahi xalq ədəbiyyatımızda, orta əsrlər humanist poeziyamızda, maarifçi realist ədəbiyyatımızda və ən yeni ədəbi irsimizdə uşaq və yeniyetmələr üçün nəzərdə tutulan kifayət qədər bədii nümunələr var. Bu mənada uşaq ədəbiyyatının tarixi və nəzəriyyəsinin yazılması, obyektiv-tarixi mövqedən öyrənilməsi aktuallıq kəsb edir. Xanım Mustafayevanın bu kitabı ədəbiyyatşünaslığımızın mühüm bir mövzusunu əhatə etməklə yanaşı, elmi-pedaqoji mühitdəki boşluğu da müəyyən dərəcədə doldurur.

Uşaq ədəbiyyatının filoloji aspektini ədəbiüyyatşünaslıq, elmi-pedaqoji yönümünü, təlim-tərbiyə ilə bağlı tərəflərini isə pedaqoğika elmi öyrənir. Təqdirəlayiqdir ki, «Azərbaycan uşaq ədəbiyyatı» əsərində hər iki istiqamət nəzərə alınmış, uşaq ədəbiyyatının spesifikası, məqsəd və vəzifələri, uşaq ədə-

biyyatına verilən tələblər ciddi elmi araşdırmaların predmetinə çevrilmişdir. Burada sovet hakimiyyətinə qədərki uşaq ədəbiyyatımızda milli şüur və təfəkkür faktoru diqqətlə izlənilməklə yanaşı, sosialist realizmi ədəbiyyatında ədəbi irsə ideoloji-siyasi təzyiqlər və ədəbi təcrübədə bunun izləri-təsirləri də önə çəkilir.

Xanım Mustafayevanın haqqında bəhs etdiyimiz əsəri böyük tədqiqatçılıq əməyi, zəngin ədəbi-bədii faktlar, sənədlər əsasında tarixi-nəzəri və elmi metodik planda yazılıb. Müəllif çalışıb ki, XX əsr uşaq ədəbiyyatı haqqında yazılan bir dənə də kitab və məqalə tədqiqatdan kənarda qalmasın. Aparılan analitik təhlilllər, ciddi nəzəri ümumiləşdirilmələr əsərin nəzəri xarakterini müəyyənləşdirir. İlk dəfədir ki, bu əsərdə uşaq ədəbiyyatının iki əsrə qədərki böyük bir ədəbi mərhələsi ədəbi tənqid və ədəbiyyatşünaslığımızın ümumi nailiyyətləri kontekstində diqqət mərkəzinə gətirilir. Uşaq ədəbiyyatı tarixinə ümummilli liderimiz H.Əliyevin azərbaycançılıq ideologiyası mövqeyindən yanaşılır. Bu mənada hesab edirik ki, Xanım Mustafayevanın «Azərbaycan uşaq ədəbiyyatı » kitabı pedaqoji ictimaiyyət, filologiya mütəxxəsisləri, ziyalılar tərəfindən maraqla qarşılanacaq.

Xanım Mustafayevanın «Azərbaycan uşaq ədəbiyyatı» kitabı ədəbiyyatşünaslıq elminin müasir metodologiyası və standartları baxımından diqqəti cəlb etməklə bərabər, eyni zamanda müasir təhsil sisteminin tələblərinə də cavab verir. Odur ki, bu kitabdan ali və orta ixtisas təhsili məktəblərində tədris vasitəsi kimi istifadə etmək olar.

Nizaməddin Şəmsizadə

filologiya elmləri doktoru, professor

GİRİŞ

Azərbaycan uşaq ədəbiyyatının tarixi təşəkkülü, inkişaf mərhələləri, ayrı-ayrı ədəbi şəxsiyyətlərinin bədii irsi tənqid və ədəbiyyatşünaslığımızın diqqət mərkəzindədir. Ədəbi prosesdə uşaq ədəbiyyatının yeri və mövqeyi əhəmiyyətli dərəcədə böyükdür. Uşaq və yeniyetmələrin cəmiyyətdə öz yerini tapmasında, onlarda dövlətçilik təfəkkürünün formalaşdırılmasında bədii irsin müstəsna xidmətləri vardır. Müstəqilliyimizin, dövlətçiliyimizin tarixi taleyi bugünkü gənc nəslin təlim-tərbiyəsi, əxlaqi-mənəvi keyfiyyətləri ilə bilavasitə bağlıdırsa, bu halda onların bədii tərbiyəsini, təhsilini yüksək səviyyədə həyata keçirməliyik. Bu ədəbi-tarixi prosesdə uşaq ədəbiyyatının əvəzsiz xidmətləri barədə kifayət qədər danışmaq mümkündür.

Yeni nəslin formalaşdırılmasında bilavasitə iştirak edən uşaq ədəbiyyatı istər çar hakimiyyəti dövründə, istər sover rejimi, istərsə də milli müstəqillik illərində həmişə dövlət qayğısı ilə əhatə olunmuşdur.XIX əsrin ilk onilliklərində çar hökuməti yerlərdə dövlət məmurları, dəftərxana işçiləri yetişdirmək üçün ibtidai məktəblər açır, yeni dərsliklərin meydana çıxmasına şərait yaradır, müxtəlif seminariyalar açırdı. Bu zaman canişinliklərdə fəaliyyət göstərən milli ziyalılardan, müəllimlərdən istifadə olunurdu. M.Ş.Vazeh, S.Ə.Şirvani, S.M.Qənizadə, F.Köçərli, A.Şaiq və başqaları yeni üsullu məktəblərin, ilk dərsliklərin yaranmasında xeyli əmək sərf etmişlər.

Şübhəsiz ki, Sovet hakimiyyəti də işğalçı sələfi olan çar hakimiyyətinin müstəmləkəçilik siyasətini yeni şəraitdə davam etdirir, müxtəlif millətləri böyük bir imperiyanın tərkibində saxlamaq üçün kommunizm təbliğatı adı altında rejimin ömrünü uzatmağa çalışırdı.Bu prosesdə təbii ki, uşaq və yeniyetmələrin kommunist tərbiyəsi ruhunda tərbiyələndirilməsində uşaq ədəbiyyatından da bir vasitə kimi istifadə olunurdu.

İki yüzilliyin qovşağında Azərbaycan öz milli müstəqilliyini əldə etdi.Müstəqil dövlət quruculuğu üçün əlverişli şərait yarandı.Bütün bunları həyata keçirməyin yeganə və ən optimal yolu yeniyetmələrin mənəvi tərbiyəsindən keçir ki, bu da

uşaq ədəbiyyatında milli məfkurə və milli şüur faktoruna xüsusi diqqət yetirməklə başa gələ bilər.Buna görə də dövlətimizin humanitar siyasətində uşaq ədəbiyyatı ilə bağlı elmi-nəzəri fikrin yüksəldilməsi, yeni metodoloji bazanın yaradılması diqqət mərkəzində olmalıdır.

«Azərbaycan uşaq ədəbiyyatı» adlı bu dərs vəsaitində bir əsr yarımlıq uşaq ədəbiyyatının (XIX-XX əsrlər) ədəbi təcrübəsinin bir əsrlik ədəbiyyat tarixçiliyində (XX əsr) tədqiqi, təbliği və nəşri ilə bağlı məsələlər obyektiv-tarixi mövqedən oxucuların istifadəsinə verilir. Müxtəlif mərhələlərdə uşaq ədəbiyatına münasibətdə tənqid və ədəbiyyatşünaslığın ədəbi meyarlarını dəqiqləşdirmədən bədii irsin, ayrı-ayrı sənətkarların həqiqi qiymətini vermək mümkün deyil.XX əsrin 20-30-cu illərində ədəbi tənqid uşaq ədəbiyyatında bədii keyfiyyətdən daha çox siyasi mündərəcəyə fikir verdiyindən, bədii təcrübədə xeyli sayda zəif əsərlər meydana çıxmışdır.Bu gün həmin əsərləri həqiqi sənət nümunəsi kimi balaca oxucuların istifadəsinə vermək mümkün deyil.

Eyni vəziyyət İkinci Dünya Müharibəsindən sonra da təkrar olunub. Kommunist Partiyasının «Leninqrad və «Zvezda» jurnalları haqqında», «Böyük həyat» kinofilmi haqqında» «Anna Axmatova haqqında» qərarları ədəbiyyatda totalitar təfəkkürün formalaşmasını şərtləndirdiyi kimi, uşaq ədəbiyyatının inkişafında və onun öyrənilməsində də əlavə problemlər yaratdı. «Azərbaycan uşaq ədəbiyyatı» dərsliyində marksist metodologiyanın bədii təfəkkürə vurduğu zədələr konkret faktlar, ədəbi-nəzəri ümumiləşdirmələr və obyektiv dəyərləndirmələrlə oxucuların istifadəsinə verilir.

Milli ədəbiyyatın müstəqil sahəsi olan uşaq ədəbiyyatı kiçik yaşlı məktəblilərin, yeniyetmələrin bədii zövqünün formalaşmasına, oxu və yazı vərdişinin yaradılmasına, zehni qabiliyyətiinin güclənməsinə xidmət göstərir. Buna görə də humanitar istiqamətli ali və orta ixtisas təhsili məktəblərində uşaq ədəbiyyatı ayrıca kurs kimi tədris olunur. Azərbaycan uşaq ədəbiyyatı istər ədəbi tarixi ənənələrinə, istərsə də çağdaş bədii təcrübəsinə görə zəngindir.Şifahi xalq ədəbiyyatımızda, orta

əsrlər humanist poeziyamızda, maarifçi realist ədəbiyyatımızda və ən yeni ədəbi irsimizdə uşaq və yeniyetmələr üçün nəzərdə tutulan kifayət qədər bədii nümunələr var. Bu mənada uşaq ədəbiyyatının tarixi və nəzəriyyəsinin yazılması, obyektiv-tarixi mövqedən öyrənilməsi aktuallıq kəsb edir. Bu dərs vəsaitində ədəbiyyatşünaslığımızın mühüm bir sahəsini əhatə etməklə yanaşı, elmi-pedaqoji mühitdəki müəyyən boşluğu doldurmağa çalışmışıq.

Uşaq ədəbiyyatı bədii fikrin spesifik bir sahəsi olduğu üçün daha həssas münasibət, qayğı tələb edir. Uşaq və yeniyetmə ədəbiyyatı bir sıra tələblərə cavab verməli, bədiiliyi, yüksək poliqrafik keyfiyyəti ilə fərqlənməlidir. Əyanilik, konkretlik, inandırıcılıq uşaq ədəbiyyatının aparıcı xəttinə çevrilməlidir. Uşaq yazıçısı öz oxucuları ilə dil tapmağı bacarmalı, uşaq təfəkkürünə və marağına cavab verən əsərlər yazmalıdır. Kitabda bu məsələlərə xüsusi fikir verilmiş, ədəbi prosesdə uşaq ədəbiyyatının inkişafına təsir göstərən amillər ətrafında maraqlı diskussiyalar aparılmışdır.

Bir məsələni də qeyd edək ki, bəzi uşaq ədəbiyyatı dərsliklərı və dərs vəsaitlərıində ədəbi şəxsiyyətlərin və bədii parçaların seçilməsində yüksək estetik meyarlar nəzərə alınmamış, ədəbiyyat tarixçiliyimizə dəxli olmayan müəlliflərin həyatı və ədəbi fəaliyyətləri ön plana çəkilmişdir.Bir sıra hallarda ədəbi mühitdə heç kəsin tanımadığı imzalar uşaq dərsliklərində tez-tez yer tapır və həmin əsərlər balaca oxucuların bədii zövqünün formalaşmasına mənfi təsir göstərir.Dərs vəsaitində uşaq sənətkarlarının seçilib yerləşdirilməsinə xüsusi fikir verilmiş,ancaq ədəbiyyat tariximizdə önəmli rol oynayan uşaq yazıçılarına müraciət olunmuş,ədəbi mühitdə daha çox seçilən, əsərləri kütləvi şəkildə oxunan şairlərin,dramaturqların bədii irsindən istifadə edilmişdir.

Azərbaycan ədəbiyyatının mühüm bir sahəsi olan uşaq ədəbiyyatının özünəməxsus spesifik xüsusiyyətləri, ədəbi-tarixi missiyası var.Uşaq və yeniyetmələrin təlim-tərbiyəsi, bədii zövqünün formalaşması ilə bilavasitə bağlı olan uşaq ədəbiyyatı həmişə filoloji fikrimizin diqqət mərkəzində olmuşdur.

Haqqında bəhs etdiyimiz dərs vəsaitində uşaq ədəbiyyatının tədqiqi və öyrənilməsi məsələlərində milli məfkurə və dövlətçilik ənənələrinə söykənilmişdir.

«Azərbaycan uşaq ədəbiyyatı» sərlövhəli dərs vəsaitində şifahi xalq ədəbiyyatımızda, klassik irsimizdə uşaq ədəbiyyatı nümunələri kifayət qədər əhatə edilmiş, bədii təcrübənin faktları ədəbi-tarixi mövqedən, müasir ədəbiyyatşünaslığın prinsipləri nöqteyi-nəzərindən qiymətləndirilmişdir. Belə ki, N.Gəncəvi M.Füzuli, A.Bakı xanov, Q. Zakir və S.Ə.Şirvanidən üzübəri çağdaş ədəbi prosesə qədərki uşaq ədəbiyyatının nailiyyətlərini diqqət mərkəzində saxlamış, eyni zamanda onların bədii irsinin öyrənilməsi və tədqiqi problemlərinə də ciddi nəzər yetirmişik.

«Azərbaycan uşaq ədəbiyyatı» kitabında ədəbi fikrə ədəbiyyatşünaslıq elminin müasir metodologiyası və standartları baxımından yanaşmaqla yanaşı, müasir təhsil sisteminin tələblərinə də cavab verməyə çalışmışıq. Odur ki, bu kitabın orta ixtisas təhsili məktəblərində, ali təhsil ocaqlarında ən yaxşı tədris vəsaiti kimi tanınacağına ümidliyik.

1 FƏSİL

UŞAQ ƏDƏBİYYATINDA MİLLİ MƏFKURƏ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

Tarixin istənilən mərhələsində dövlətin və dövlətçiliyin yaranması ideologiya ilə baglıdır. «İdeologiya» yunan sözündən götürülüb, mənası ideya, fikir, loqos-söz, anlayış deməkdir. Avropa alimlərindən Bone de Kondilak, K.A.Helvitsi, Hegel, L.Feyerbax, Kant, marksist nəzəriyyəçilərdən F.Engels və başqaları ideologiyanın cəmiyyətdəki mövqeyi, dövlətin və dövlətçiliyin yaranmasındakı rolu ilə baglı qiymətli fikirlər söyləmişlər. M.Dikkens ideologiyanı fikirlər, düşüncələr və inanclar sistemi kimi dəyərləndirirdi. Fransız filosofu Destüt de Trasi idealogiyanı insanın tarix və cəmiyyətə dair «fikirlərini təsdiq edən elm» hesab edirdi. K.A.Helvitsi uğurlu idarəçiliyin tapılmasını idealogiyanın kamilliyində görür və bu mənada qanunların kamilliyinə xüsusi önəm verirdi. Azərbaycanşünas alim Nizaməddin Şəmsizadənin fikrincə, «ideologiya tarixin gedişi ilə meydana çıxaraq, həmin gedişi təsdiq edən və bu gedişin sonrakı istiqamətini müəyyənləşdirən, həmin prosesdə xalqın rolunu təyin edən, ona bəraət qazandıran ən parlaq və obyektiv ideyaların sistemi və məntiqi məcmusudur» (s.17).

Fikir versək görərik ki, bütün hallarda ideologiya dövlət və dövlətçiliyin qorunması, milli məfkurə ilə sıx bağlıdır. Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra milli ideologiyanın yaranması və formalaşdırılması problemi ortaya çıxdı. Şübhəsiz ki, bu məsələ müxtəlif siyasi dairələrdə, cəmiyyətdə, elm və mədəniyyət xadimləri arasında birmənalı qarşılanmadı. Unitar dövlət olan Azərbaycanda müxtəlif xalqlar –azəri türkləri, talışlar, ləzgilər, kürdlər, gürcülər, tatlar, udinlər və başqaları yaşayır. Dövlətin təşkilində və formalaşmasında azəri türkləri ilə yanaşı, bu azsaylı xalqlar da yaxından iştirak edib. Dövlət ideologiyasının müəyyənləşməsində ölkəmizdə yaşayan azsaylı xalqların da mənafeyi, vətəndaşlıq

hüququ qorunmalıdır. Buna görə də müstəqil dövlətimizin memarı, ümummilli liderimiz H.Əliyev Azərbaycan dövlətçiliyinin əsasında azərbaycançılıq məfkurəsinin dayandığını müəyyənləşdirdi. Elə bir dövlət sistemi yaratdı ki, burada istiqlala qovuşan bir dövlətin əsasını təşkil edən azəri türkləri ilə birlikdə azsaylı xalqlar da siyasi, iqtisadi və mədəni quruculugun bərabərhüquqlu subyektinə çevrildilər.

Milli ideologiyanın konsepsiyasını hazırlayarkən H.Əliyev aşağıdakı komponentləri əsas götürürdü; 1) Azərbaycan qanunlarının aliliyini təmin etmək; insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq. 2) Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, 3) Azərbaycanın müstəqilliyinin qarantı olan ordu quruculuğunu başa çatdırmaq. 4. Azərbaycanda yüksək təhsil sistemi yaratmaq, ümumtəhsil sistemini həyata keçirmək. 5) Gənclərdə yüksək əxlaqi-mənəvi keyfiyyətlər formalaşdırmaq. O həmişə xüsusi olaraq vurğulayırdı ki, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Bu gün mənəvi tərbiyə keçmiş illərdən daha çox lazımdır. Cənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Onlar tariximizi, ədəbiyyatımızı, dilimizi, mənəviyyatımızı və dini dəyərlərimizi yaxşı bilməlidir. Diqqətlə fikir versək görərik ki, H.Əliyevin dövlətçilik siyasətində uşaq və yeniyetmələrin tərbiyəsinə xüsusi diqqət yetirilir. Bütün bunların həyata keçməsi üçün cənclərin mənəvi tərbiyəsinin əsasında dayanan uşaq ədəbiyyatı və onun öyrənilməsinin ən yeni metodologiyasını günün tələbləri səviyyəsində həyata keçirmək vacibdir.

H. Əliyevin bu müdrik addımından sonra azərbaycanşünas alimlərimiz onun dövlətçiliyimizin təməl prinsipini təşkil edən ideyalarını sistemləşdirdi, çoxcildli Azərbaycan tarixi və ədəbiyyat tarixi kitabları azərbaycançılıq məfkurəsi istiqamətində yazıldı, eyni mövqedən milli mədəniyyət tariximiz öyrənildi, xalqımızın etnogenezisinin formalaşdırılması tarixi və buna təsir edən amillər tədqiq edildi, əldə olan nəticələr ümumiləşdirildi. Yaşar Qarayevin «Milli «mən» şüuru və etnik yaddaş-azərbaycançılıq», Azad Nəbiyevin «Azərbaycançılıq-estetik dəyərdən milli ideologiyaya», Nizaməddin Şəmsizadə-

nin «Azərbaycancılıq», Nizami Cəfərovun «Azərbaycanşünaslığa giriş», Səlahəddin Xəlilovun «Heydər Əliyev və azərbaycançılıq məfkurəsi» əsərləri bu sahədə ilk addım kimi çox qiymətlidir.

Qeyd edək ki, Nizaməddin Şəmsizadənin «Azərbaycan ideologiyası» (1996) monoqrafiyası milli ideologiya ilə bağlı yazılan ilk əsərdir. Kitabın nəşrindən on il sonra müəllif yenidən bu məsələyə qayıtmış, «Azərbaycançılıq» (Bakı,«Nurlan»,2006) adlı fundamental əsərində azərbaycaçılıq məfkurəsinin ideya-nəzəri əsaslarını yüksək elmi səviyyədə oxuculara çatdırmışdır. Nizaməddin Şəmsizadə ilk sinifli cəmiyyətdən üzübəri ideologiyanın insan həyatında, dövlət təsisatlarında oynadığı rolu konkret faktlarla açıb göstərmiş, müxtəlif fəlsəfi sistemlərin dövlət quruculuğundakı roluna diqqət çəkmişdir. Müəllif yazır: «Azərbaycan türkcəsi ölkəmizin Konstitusiya ilə «Azərbaycan dili» kimi təsbit olunmuş rəsmi dövlət dilidir. Bu ölkədə yaşayan bütün xalqlar və milli azlıqlar ona hörmətlə yanaşır. Azərbaycan türkləri hakim millət, Azərbaycan türkcəsi hakim dil deyil. Bu milli ideologiyanın ifadə tərzi, ümumi ünsiyyət vasitəsidir. Onu bilmək və qorumaq Azərbaycanda yaşayan bütün millətlərin vətəndaşlıq borcu, əxlaqi vəzifəsidir. (s.159)

Nizami Cəfərov «Azərbaycanşünaslığa giriş» (Bakı, Az ATaM, 2002) kitabında Azərbaycanşünaslıq probleminə geniş aspektdə yanaşmış, milli mədəniyyət, milli təfəkkür tariximizin alt qatlarına nüfuz etmiş, ümumtürk təfəkkürünün «Kitabi- Dədə Qorqud»dan üzübəri tarixi təkamül mərhələlərini diqqətlə izləmiş, azərbaycançılığın yaranması və təşəkkülü mənasında XVII-XVIII əsrləri Azərbaycan intibahı dövrü kimi səciyyələndirmişdir. Alim belə qənaətə gəlir ki, «XVII-XVIII əsrlər intibah dövrüdür; səlcuq mədəniyyəti ancaq ətalətlə mövcud olur, etnik (mifoloji) təfəkkürə əsaslanan milli mədəniyyət formalaşır; M.V.Vidadi, M.P.Vaqif kimi şairlər yazıb-yaradırlar, «Şəhriyar» meydana gəlir, Şəki xan sarayı, Şuşa qalası tikilir. Folklor mədəniyyətinin (ümumən folklor təfəkkürünün) oyanışı klassik mədəniyyətin standartlarını da özün-

də ehtiva edir-beləliklə, intibah təfəkkürü faktlaşır…XVI əsrin sonu XVII əsrin əvvəllərindən etibarən Azərbaycan mədəniyyəti ilə türk (osmanlı) mədəniyyəti arasında milli səviyyədə fərqlər yaranır» (s.18-19). Cöründüyü kimi, tədqiqatçı Azərbaycan intibahı probleminə tamam başqa aspektdən yanaşır, onun XVII-XVIII əsrlərdəki mövcudluğunu, intibah faktorunu şərtləndirən amilləri konsepsiya səviiyysində əsaslandırır. Şübhəsiz ki, milli uşaq ədəbiyyatının yaranması və təşəkkülü, yeni milli təfəkkürün dirçəlişi və müstəqilləşməsi amili ilə bağlı idi. Yenə N.Cəfərovun fikirləri ilə desək, «XIX əsrin sonu, XX əsrin əvvəlləri milli təfəkkürün tarixində mürəkkəb hadisə kimi diqqəti cəlb edir, XIX əsr boyu düşünən xalq bir neçə on ildə az qala bütün yaradıcılıq imkanlarını reallaşdırır» (s.20)

Azərbaycan uşaq ədəbiyyatı milli ədəbiyyatın müstəqil bir sahəsi kimi məhz həmin mərhələdə yaranıb. X1X əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda ilk yeni üsullu məktəblər açılıb, anadilli ilk dərsliklər hazırlanıb, uşaq hekayələri, povestləri, dram əsərləri yazılıb, XX əsrin əvvəllərində ilk uşaq mətbuatı fəaliyyətə başlayıb. Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Seyid Əzim Şirvani, Firudin bəy Köçərli, Abdulla Şaiq, Abbas Səhhət kimi ədibləirimiz milli məfkurə uğrunda mübarizədə uşaq ədəbiyyatı və mətbuatını ilk addım kimi dəyərləndirib.

1920-ci ildə ilk müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması milli uşaq ədəbiyyatının inkişafı üçün də əlverişli şərait yaradıb. A.Şaiq, C.Cabbarlı, S.S.Axundov, R.Əfəndiyev, S.M.Qənizadə kimi ziyalılarımız yaranmış tarixi şəraitdən istifadə edərək ilk milli məktəblərin açılmasına nail olublar. Bir sıra uşaq əsərlərinin tamaşası hazırlanıb. Yazıçılarımız yeni uşaq əsərləri yazmağa başlayıblar. Təəssüf ki, müstəqil dövlətin süqutu və sovet hakimiyyətinin yaranması bu böyük ədəbi-tarixi missiyanı yarımçıq qoyub.

Sovet hakimiyyəti dövründə mədəniyyət və incəsənətin bütün sahələri kimi, uşaq ədəbiyyatına da marksist metodologiya tətbiq olundu. Yeni fəlsəfi sistemə, yeni dünyagörüşə əsaslanan kommunist ideologiyası uşaq və yeniyetmələrin

kommunist tərbiyəsi uğrunda mübarizəyə başladı ki, müttəfiq respublikalardakı uşaq ədəbiyyatları və mətbuatı da bu mübarizəyə tabe etdirildi. Uşaq əsərlərindən bədii keyfiyyətdən çox ideoloji mübarizə, proletariatın sinfi mübarizəsinə xidmət tələb olundu. Odur ki, sovet hakimiyyətinin mövcud olduğu 70 il müddətində bədii keyfiyyətdən məhrum, uşaqların yaş və bilik səviyyəsinə uyğun gəlməyən, uşaq və yeniyetmələrin təlim-tərbiyəsində istifadə etmək mümkün olmayan saysız-hesabsız əsərlər meydana çıxdı.

Ancaq buna baxmayaraq uşaq ədəbiyyatının inkişafında sovet dövrünü «itirilmiş mərhələ» hesab etmək doğru olmaz. Bu dövrdə yazılan müxtəlif ədəbiyyat tarixlərində uşaq ədəbiyyatından ayrıca bəhs olunmuş, Moskvada və müttəfiq respublikalarda uşaq ədəbiyyatı nəşriyyatları yaradılmış, çoxsaylı uşaq mətbuatı fəaliyyət göstərmiş, MK-nın, Yazıçılar İttifaqlarının plenum və müşavirələrində, qurultaylarında uşaq ədəbiyyatı məsələləri müzakirə edilmiş, verilən qərarların icrasına nəzarət gücləndirilmiş, uşaq ədəbiyyatı ilə bağlı milyonlarla kitab nəşr olunmuşdur.

90-cı illərin əvvələrində ölkəmiz yenidən müstəqillik əldə etdi. Ümummilli liderimiz H.Əliyevin sistemli şəkildə həyata keçirdiyi hüquqi, siyasi, iqtisadi və mədəni islahatlar dövlətçiliyimizi daha da möhkəmləndirdi. Yeni təhsil islahatları milli təhsilin Avropa təhsil sisteminə inteqrasiyasını təmin etdi. Yuneskonun xoşməramlı səfiri, H.Əliyev fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın yaxından köməkliyi və ziyalı qayğısı ilə paytaxtda və regionlarda orta və ali məktəblər, uşaq bağcaları əsaslı təmir olundu və yaxud yeniləri inşa olundu. Təhsilə dövlət qayğısı gücləndirildi. Mədəniyyətin bütün sahələri liə yanaşı, uşaq ədəbiyyatı və onun öyrənilməsinə də xüsusi diqqət yetirildi. Zahid Xəlil, Məstan Günər, Məmməd Aslan, İlyas Tapdıq, Xəlil Rza, Rafiq Yusifoğlu kimi uşaq sənətkarları bu gün müasir uşaq ədəbiyyatının ən yaxşı nümunələrini yaradır, tədqiqatçılardan Qara Namazov, Zahid Xəlil, Vüqar Əhməd, Təyyar Cavadov, Yaqub Babayev və başqaları uşaq ədəbiyyatının öyrənilməsinin müstəqillik dövründəki metodologiyası ilə bağlı elmi axtarışlarını davam etdirirlər.

ŞİFAHİ XALQ ƏDƏBİYYATI VƏ KLASSİK ƏDƏBİ İRSİMİZ

Qədim tarixi keçmişi, zəngin mədəniyyəti, əxlaqi-mənəvi sərvətləri olan xalqların şifahi xalq ədəbiyyatı da zəngin olur. Qədim insanlar həyat və yaşamaq uğrunda mübarizə, təbiət hadisələrini və qüvvələrini dərketmə prosesində bədii söz sənətini meydana çıxarmışdır. Bəşəriyyətin, insanlğın müəyyən inkişaf mərhələlərində əsatirlər, miflər, arxaik folklor janrları, mərasim folkloru, bayatılar, xalq mahnıları, əfsanə və rəvayətlər, atalar sözü və məsəllər, tapmacalar, uşaq folkloru, dastanlar, aşıq sənəti və s. yaranmışdır.

Geniş xalq kütlələri tərəfindən yaradılan və yaşadılan şifahi söz sənətinə folklor deyilir. «Folklor» sözü ingiliscədən götürülmüşdür. «Folk»-xalq, «loqe-bilik, hikmət deməkdir. Bu sözü ilk dəfə 1846-cı ildə ingilis alimi Vilyam Toms işlətmişdir. Daha sonra müxtəlif xalqlar həmin sözdən beynəlxalq termin kimi istifadə etmişlər.

Şifahi xalq ədəbiyyatının tarixi yazılı ədəbiyyata nisbətən çox qədimdir. Ona görə də müəllifi məlum deyil. Zaman keçdikcə formasını dəyişib, kollektiv yaradıcılıq məhsulu olub. Ancaq bu o demək deyil ki, hər hansı folklor nümunəsini yüzlərlə, minlərlə insanlar bir yerə yığışaraq yazıb. Bütün hallarda folklor nümunələri bir nəfər tərəfindən yaradılır, sonrakı mərhələlərdə həmin variant təkmilləşdirilir, bugünkü kamil vəziyyətinə gətirilir. Folklorun əsas xüsusiyyəti və mahiyyəti çoxvariantlı olmasıdır.

Azərbaycan şifahi xalq ədəbiyyatı ümumtürk xalq yaradıcılığının bir hissəsidir. Ümumiyyətlə, bütün türk xalqlarının şifahi xalq ədəbiyyatı ortaq dəyərlərə malikdir. Ümumxalq yaradıcılığının məhsulu olan folklor müxtəlif dövrlərdə «el ədəbiyyatı», «xalq ədəbiyyatı», «el sözləri», «ağız ədəbiyyatı», «şifahi xalq ədəbiyyatı», «folklor» adları ilə xalq arasında geniş yayılmışdır. Anadolu türkləri, azəri türkləri, özbək, qaqauz, qazax, qırğız və başqa türkdilli xalqların şifahi xalq ədəbiyyatını müqayisə etsək, görərik ki, fərq çox azdır. Türkdilli xalq-

ların ortaq folklor mədəniyyəti- oğuznamələr türk xalqlarının tarixi ənənələrini, məişətini, milli təfəkkürünü özündə əks etdirməkdədir. Bunların ən mükəmməl nümunəsi «Kitabi-Dədə Qorqud» dur.

Lakin ayrı-ayrı türk tayfaları zaman-zaman etnosun etnoqrafik yaddaşını, məişət və yaşayışını, tarixi-mədəni özünəməxsusluğunu özündə əks etdirən sənət əsərləri meydana çıxarmışlar ki, Azərbaycan folkloru anlayışı da bu yolla meydana gəlmişdir. Xalqımız «Koroğlu», «Qaçaq Nəbi», «Qaçaq Kərəm», «Dəli Alı» kimi qəhrəmanlıq, «Qurbani», «Abbas və Gülgəz», «Xəstə Qasım», «Valeh və Zərnigar» kimi məhəbbət dastanları yaratmışdır.

MƏRASİM VƏ MƏİŞƏT FOLKLORU

Mərasim və məişət folkloru xalqın məişəti, gündəlik həyatı və qayğıları ilə bağlıdır. Toy və yas mərasimlərində insanlar öz emosional vəziyyətini, hiss və duyğularını ifadə etməyə çalışmışlar. Xalqımız uşağın anadan olması, yaşlı insanın dünyadan getməsini bədii sözlə ifadə etməyə çalışmışlar. «Azərbaycan ədəbiyyatı tarixi»ndə (Bakı, Elm, 2004) yazılır: «İnsan duyğusunun iki təzadlı qütbü» olan sevinc və kədər məişət mərasimlərinin başlıca istiqamətləndirici quruluşu olmuşdur. Bu mərasimlərdəki folklor örnəkləri də (toy-düyün mahnıları, şadlıq çal-çağırları, eləcə də yas nəğmələri, ağılar) insanın sözün magik gücünə inamını ifadə edir» .Aşağıdakılar mərasim nəğmələridir: 1) Mövsüm mərasimləri; 2) Ailə-məişət mərasimləri: «Toy mərasimi», «Yas mərasimi», alqış və qarğışlar.

Lirik növün janrları: 1) Əmək nəğmələri; 2) Bayatılar; 3)Vəsfi-hallar; 4) Ağılar.

Epik növün janrları: miflər, nağıllar, əfsanələr, lətifələr, atalar sözü və məsəllər, dastanlar, aşıq yaradıcılığı, xalq dramları, uşaq folkloru.

Mərasim nəğmələri sırasında ağılar daha çox populyardır. Ağılar öz formasına görə bayatılara bənzəsə də, məzmunca ondan xeyli dərəcədə fərqlənir. Əsas fərq bundadır ki, ağılar yas mərasimlərində söylənilir:

Mən aşiq ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir igid ölüb,
Göy kişnər, bulud ağlar.

Mövsüm və mərasim folkloru insanların cəmiyyət halında formalaşdığı, özünü ictimai varlıq kimi dərk etməyə başladığı dövrün məhsuludur. Qədim insanlar ətraf aləmi, təbiət qüvvələri ilə bağlı inam və etiqadlarını mövsüm və mərasim nəğmələri vasitəsi ilə ifadə etməyə çalışmışlar. Əcdadlarımız çeşidli təbiət hadisələri ilə qarşılaşır, təbii fəlakətlər, quraqlıq, leysan

yağışlarının şahidi olur, bunların qarşısını almaq üçün mövsüm nəğmələri yaradırdılar. Bir qayda olaraq mövsüm nəğmələri müxtəlif fəsillərin gəlməsi, mərasim nəğmələri isə qədim insanların gündəlik həyat və məişəti ilə əlaqədar olmuşdur:

Bizdən hərəkət,
Yerdən bərəkət,
Göydən yağmur,
Ver tanrım, ver.

Qışda boz ayın çərşənbələrində qışın yola salınması, yazın qarşılanması ilə əlaqədar mərasimlər keçirilir. Bunların sırasında ilaxir çərşənbəsi xüsusi ilə fərqlənir. Xalq arasında geniş yayılan "Kosa-kosa" mərasimi də qış və yaz fəsillərinin qarşılaşmasının, rəmzi təsvirini nümayiş etdirərək ilaxir çərşənbə də keçirilir. Mərasimdə camaat tərəfindən seçilən bir nəfərə kürk geyindirilir, üz-gözünü rəngləyir, başına şiş papaq qoyur, əlinə rəngli ağac verilir, boynuna zınqırov keçirilir.Kosanın köməkçisi Keçəl oxuya-oxuya deyir:

Ay uyruğu, uyruğu,
Saqqalı it quyruğu,
Kosam bir oyun eylər, quzunu qoyun eylər,
Yığar bayram xonçasın
Hər yerdə düyün eylər.

Bu sözləri söyləyə-söyləyə camaatı öz hərəkətləri ilə güldürür və arxasınca deyir:

A kosa, kosa gəlsənə,
Gəlib salam versənə.

Bu zaman Kosa camaatın içinə gəlir, keçəl oxuyur:

Qoxmayın kosa gəldi,
Əlində əsa gəldi

Kosa meydana girən kimi müxtəlif komik hərəkətlərə yol verir. Camaat gülməyə başlayanda keçəl üzünü ətrafdakılara tutaraq ucadan səslənir:

Xanım ayağa dursana,
Çömçəni doldursana,
Kosanı yola salsana.

Bundan sonra keçəl yenidən Kosaya müraciət edir:

A kosa, kosa, gəlmisən,
Gəlmisən meydana sən
Almayınca payını,
Çəkilmə bir yana sən.

Mərasim və məişət folkloru xalqın etnoqrafik yaddaşını, milli adət-ənənələrini çox yaxşı qoruyub saxladığına görə onları toplayıb sistem şəklində çap etdirmək və əhali arasında geniş yaymaq daha məqsədəuyğundur.

ƏMƏK NƏĞMƏLƏRİ

Qədim insanlar gördükləri işin ahənginə uyğun olaraq öz ovqatlarına, əhvali-ruhiyyələrinə uyğun gələn nəğmələr oxuyublar. Ovçuluq, əkinçilik və maldarlıqla məşğul olan insanlar ilk əmək nəğmələrini yaratmışlar. Əmək nəğmələri əsasən əmək prosesində yaranan nəğmələrdir. Bu zaman insanlar əməyi ritmləndirmək və yüngülləşdirmək məqsədi güdmüşlər. Məsələn,

Güc ver ho, güc ver, ho, güc ver, ho!
Avalım düzdə qalıb.
Güc ver ho, güc ver, ho, güc ver, ho!
Ehhe, ehhe, güc ver, ho!

Əmək nəğmələri xalqın yaradıcılığının ən qədim növüdür. Bu nəğmələr əmək prosesində əməyi ritmləndirmək, yüngülləşdirmək məqsədi ilə yaranmışdır. Əmək nəğmələrinin ən ibtidai forması ovçuluq nəğmələridir. Qədim insanlar ovlamaq istədikləri ovun (keçi, öküz, maral və.s) sülietini qaya üzərində cızaraq, bu rəsm üzərində nişanalma və atıcılıq qabiliyyətlərini təkmilləşdirirlər. Əgər oxu hədəfə düz vurarlarsa ovlarının uğurlu keçməsi inancı ilə qaya ətrafında, ov uğurlu keçdikdə isə ovun ətrafında kollektiv şəkildə əl-ələ verərək keçirdikləri şənlik mərasimləri yallı rəqsinin və musiqi ritminin yaranmasına səbəb olmuşdur.

Ay ahum bala ahum,
Dırmaşıb yala ahum.
Kamanda oxum yoxdur,
Düşəsən tora ahum.

Əmək nəğmələrinin böyük bir qismi əkinçiliklə bağlı yaranmışdır. Bu nəğmələr əmək prosesində əməyi ritmləndirmək və yüngülləşdirmək məqsədi ilə yaranmışdır. Bir söz bir neçə dəfə ritmlə təkrar edilərək kollektivi həvəsləndirmək, səfərbər

etmək, əmək prosesindəki çətinliyi aradan qaldıraraq, ağırlığı yüngülləşdirmək məqsədi güdülmüşdür.

Ən qədim poetik nümunə sayılan, ibtidai insanları birgə əməyə səfərbər edən, onların gücünü, qüvvəsinin bir nöqtədə birləşdirmək üçün zərurətdən yaranmış əmək ritmləri, "ho-ho", "ıhı-ıhı-ıhı", "hola-hola-holalay" və sonrakı dövrlərdə inkişaf edib əmək nəğmələrinə, hodaq, sayaçı, biçin, qırxın, məhsul yığımı və.s nəğmələrə çevrilmişdir. El yaddaşı dinəndə. V.Paşayev. (s.4).

Azərbaycanın müxtəlif bölgələrindən toplanan enoqrafik materiallar bunu deməyə əsas verir ki, rəncbər-əkinçilərimiz torpağa daim öz dolanacaqlarının, keçinəcəklərinin əsası kimi baxmış və buna görə də ona övlad qayğısı ilə yanaşmışlar. Torpaqdan yüksək məhsul götürməyin başlıca yolunu onun şumlanmasında, əkinə hazırlanmasında görən rəncbər-əkinçilərimiz quruluşuna, habelə torpağı şumlama xüsusiyyətlərin görə bir-birindən fərqlənən xış, girdəxış, kolaxış, hodaq, ulamalı xış, diyircəkli kotan və qara kotan kimi şum alətləri kompleksi yaratmışlar.

Zaman keçdikcə nəğmələrdə əmək alətləri, köməkçi qüvvələr tərifləndirək, əmək nəğmələriinin daha kamil nümunəsi "holavar"lar yaranmışdır.

Qara kəlim naz eylər,
Quyruq bular toz eylər.
Ay qaranlıq gecədə,
Kotanı pərvaz eylər.

Kotanın hodaqları,
Partlayıb dodaqları.
Qarğayın kotan sınsın,
Dincəlsin hodaqları.

Etnoqrafik materiallar Azərbaycan əkinçisinin ilk şuma gələcək məhsulun əsası kimi baxdığını təsdiq edib. Buna görədə hər yerdə şuma çıxmanı təntənə ilə bayram edildiyinin göstərir. Şum bayramı mərasimində ulu babalarımız öküzü,

kəli eləcə də kəndlinin əsas çörək ağacı olan xışı, kotanı oxşar bir sözlə görüləcək tarla işləri cütçü-holavar mahnıları ilə müşayət olunardı.

Bahar gəldi yer oyandı,
Soyuq qışın yaşı gəldi.
Ala öküz çək kotanı,
Örüşlərin yazı gəldi.

Öküzüm cütə gedər ho de,
Açılıb ota gedər ho de.
Malı mallılar ho de,
Qolu canlılar ho de.

və yaxud

Qızıl öküzüm yeri,
Qoyma şum qala yeri.
İti tərpən maralım,
Düşmənlər baxır bəri.

Əmək nəbmələrinin bir qismini də sayaçı sözləri təşkil edir. Sayaçı sözü haqqında müxtəlif fərziyyələr söylənilmişdir. F.Köçərli göstərir ki, saya fars dilində kölgə deməkdir. Məcazi mənası isə himayə, müdafiədir. Zaqafqaziya tatarları (azərbaycanlılar) bu sözü nemət, yaxşılıq, xeyirxahlıq mənasında işlədirlər. Yəni sayaçı nemət gətirən, bolluq gətirən mənasında işlənir. Sayaçı nəğmələrində qoyuna və keçiyə məxsus əlamətlər (kərə, kürə, qumral, səkil və.s) verdikləri məhsulların keyfiyyətindən söz açılır.

Nənəm a nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri kəsmmə-kəsmə,
Qatığı üzlü qoyun.
Nənəm qoyunun qarası,
Qırxılı polad parası,
Yaz günü dələməsi,

Payızda kürəməsi,
Qış günü qovurması.

Sayaçı sözlərinin bir qismini də çobanlar haqqında mahnılar təşkil edir. Burada çobanın zəhmətkeşliyi, qəhrəmanlığı, xeyirxahlığı, həyat tərzi təsvir olunur:

Göydə gəzən buludlar,
Yorğanıdır çobanın.
Yastı-yastı təpələr,
Yastığıdır çobanın.
Yumru-yumru qayalar,
Yumruğudur çobanın.

Heyvanlarla bağlı sağın nəğmələri, eydirmələr də əmək nəğmələri sırasına aiddir.

Maral, maral inəyim,
Qarnı xaral inəyim.
Qatığın bıçaq kəsməz,
Südü yaral inəyim.

Xanaçılığa hasr olunmuş nəğmələrdə yunun daraqda əlçim daranması, cəhrədə əyrilməsi, ipin boyanması, ilmə, əriş, arğac, corab, xurcun, palaz, xalça, kilim və.s toxunması tərənnüm olunur.

Oxu xanam, oxu xanam,
"Xonça gül"lər, "Qönçə gül"lər,
Toxu xanam, toxu xanam!
"Ağ gül"lərin ağ baxt olsun,
"Qızıl gül"ün xoşbəxt olsun.

Azərbaycan çəltikçilik rayonlarında çəltik ştilinin cücərdilməsi, əkilməsi, becərilməsi, biçilib döyülməsi mərasimi ilə bağlı olan "Biçar nəğmə"ləri adlanan əmək nəğmələri:

Ay çəltiyin iki başı,
Suluf onun yoldaşı.
Şitili bir-bir düzün,
Arada yoxdur naşı.

Əkin çəltiyi əkin!
Biçarın var ucağı,
Göyərib hər bucağı.
Əkin çəltiyi əkin!
Çəltiyə çəpək çəkin.

Yaşı bilinməyən bu nəğmələr uzun əsrlər ifa olunmuş, xalqın bədii-poetik təfəkkürü ilə cilalanmışdır. Maraqlıdır ki, indiyə qədər bənna və ustalarımızın dilindən bir çox sırf mili memarlıq terminləri toplandığı halda, təəssüf ki, həmin sənətə məxsus əmək nəğmələri hələ qeyd olmamışdır. Müəllif müxtəlif əmək fəaliyyətləri ilə yanaşı, şəhərdə bənnalıq, ustalıq edəndə də müvafiq nəğmələrin "Zümzümə" edildiyini qeyd etmişdir.

BAYATILAR

Bayatı şifahi xalq ədəbiyyatının qədim, çox yayılan və xalq arasında daha çox sevilən janrıdır. Bu janr qısa, lakonik, dərin mənalı, fəlsəfi tutumlu folklor növüdür. Bayatı yaratmaq çətin bir işdir. Cəmi dörd misrada hikmətli və məzmunlu söz demək o qədər də asan başa gəlmir. Bayatılar adətən musiqi ilə bağlı olur. İnsanlar həm şad, həm qəmgin günlərində bayatı deməyə üstünlük vermişlər. Ona görə də folklorun bu janrı xalq arasında daha populyardır.

Bayatılar dörd misra və yeddi hecadan ibarət olur. Bayatı sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bütün hallarda «bayatı» sözünün qəbilə adı ilə bağlı olduğuna heç kəsin şübhəsi yoxdur. Bayatılar, adətən, «əzizinəm», «eləmi», «mən aşiq» sözləri ilə başlayır. Bəzi tədqiqatçılar bu sözləri bayatı qoşan insanların adı ilə bağlayıb. Çünki hər bir bayatı ayrıca bir əsər təsiri bağışlayır, bitgin parçalardan ibarətdir. Görkəmli tədqiqatçı Salman Mümtaz bayatıları Bayat qəbiləsi ilə əlaqələndirmişdir. Bir sıra tədqiqatçılar isə «bayatı» sözünün tanrı adı olduğu qənaətindədir.

Düzdür, hər bir bayatının konkret yaradıcısı olmuşdur. Lakin ayrı-ayrı adamların söylədiyi bayatı el arasında dolaşmış, bu zaman müəyyən dəyişikliklərə məruz qalmış, ilk variantından fərqli bir şəkildə meydana gəlmişdir. Bu prosesdə həmin nümunələr cilalanmış, daha yaxşı formaya düşmüş və xalq yaradıcılığı kimi qəbul olunmuşdur.Bayatıların qafiyələnmə sistemi belədir: Birinci, ikinci, dördüncü misralar qafiyələnir. Üçüncü misra isə sərbəst buraxılır.

LAYLALAR

Poetik obrazlılığın bədii yaradıcılıqda ən qüdrətli tərbiyə vasitəsi olduğunu düzgün qiymətləndirən Əbu Əli İbn Sina təkidlə deyirdi ki, ilk yaşlarda dodağı süd qoxulu hər bir körpənin tərbiyəsində iki mühüm amil əvəzsiz rol oynayır: 1) Onu beşikdə ahəstə-ahəstə yelləmək, yırğalamaq: 2) Ona ana mahnısı oxumaq. Laylalar məzmununa görə bir neçə varianta bölünür: Yuxulatmalar, oyatmalar, əyləndirmələr, bəsləmələr, arzulamalar, bənzətmələr, inam və etiqadlarla bağlı olanlar:

Laylay beşiyim laylay,
Evim eşiyim laylay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin laylay.

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yuxudan duranda,
Canımı qurban dedim.

Arzulamalar və oxşamalarda analar öz balalarını ovundura – ovundura oxşayır, onlarla bağlı arzularını belə ifadə edirlər:

Mən çalım oyna,
Qurban boyuna.
El oba gəlsin,
Sənin toyuna.

Arzulamalar da məzmun etibarı ilə oxşamalara yaxındır. Lakin arzulama dörd yox, iki misradan ibarətdir:

Balama qurban ilanlar,
Balam haçan dil anlar.
Balama qurban inəklər,
Balam haçan iməklər.

İlin mərhələləri haqqında xalqın arasında belə bir tapmaca işlədilir: Bir ağacım var, on iki budaqlı, bir budağın otuz yarpağı, hər bir yarpağın bir üzü ağ, bir üzü qaradır. Bu tapmacanın açması il, ay, gecə və gündüzdür. Bu bölgüdə də fəsillərin insanların həyatında oynadığı rol, kəsb etdiyi əhəmiyyət əsas meyar, başlıca ölçüdür.

ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

Atalar sözü və məsəllər xalqın həyat və məişəti ilə bağlı olan yığcam, bitkin folklor janrıdır. Burada xalqımızın zəngin həyat təcrübəsinin, hikmətinin, zəkasının əsrlərdən bəri təkmilləşən, cilalanan nəticələri, ümumiləşdirilmələri öz əksini tapıb.

Dərin mənalı, hikmətli sözləri qısa, lakonik, az sözlə çatdıran şifahi xalq ədəbiyyatı növü atalar sözü və məsəllərdir. Xalqımızın müdrikliyi, dünyagörüşünün genişliyi, zəngin həyat təcrübəsi burada öz əksini tapıb. Türk xalqlarının milli xüsusiyyətləri, adət- ənənələri atalar sözləri və məsəllərdə bu günə kimi qorunub saxlanır. Obrazlı təfəkkürün ifadəsi olan atalar sözlərində vətən məhəbbəti, igidlik, düşmənə əyilməzlik, dosta, ailəyə sədaqət təbliğ olunur.

Atalar sözləri və məsəllər xalqımızın etnoqrafik yaddaşıdır. Çoxəsrlik mədəniyyətimizin, ədəbi irsimizin çağdaş günümüzə qədər qorunub saxlanan qiymətli ədəbi inciləri, söz, hikmət bilicilərinin ümumiləşdirilmiş həyat fəlsəfəsidir. Buna görə də həmişə söylədiyimiz sözlərin, fikirlərin daha təsirli, inandırıcı və həqiqəti əks etdirdiyini qarşımızdakılara çatdırmaq üçün atalar sözləri və məsəllərdən istifadə edirik. Atalar sözləri və məsəllərdə dilimizin zənginliyi, onun lüğət tərkibinin genişliyi, hər dilin nəsib olmadığı geniş məcazlar sistemi daha qabarıq nəzərə çarpır.

Tarixi çox qədimlərə gedib çıxan Oğuznamələrdə, «Dədə Qorqud» dastanlarında kifayət qədər atalar sözləri və məsəllər var. Təkcə «Dədə Qorqud» da Dədə Qorquda aid 70-dən çox atalar sözü və məsəllər mövcuddur. «Kitabi-Dədə Qorqud» dastanlarımızda bu cür atalar sözləri və məsəllər kifayət qədərdir. «At işlər, ər öyünər», «Kül təpəcik olmaz», «Ölən adam dirilməz», «Qarı düşmən dost olmaz» və s. Atalar sözü və məsəllər bir-birinə çox bənzəyir. Fərqli cəhətləri isə məzmunla bağlıdır.Məsəllər hər hansı hadisə,əhvalatla bağlı olur. Məsələn «Sən çaldın» məsəlində göstərilir ki, bir gün Molla Nəsrəddin səfərə hazırlaşır. Bunu eşidən qonşular hərə bir şey tapşı-

rır. Ancaq heç biri Molla Nəsrəddinə pul vermək istəmir.Bu zaman bir uşaq Molla Nəsrəddinə yaxınlaşaraq bir abbası pul verib ona tütək almasını xahiş edir.Molla Nəsrəddin uşağa deyir: «Sən çaldın». «Sən çaldın» ifadəsi ayrılıqda heç bir məna ifadə etmir. Ancaq əhvalatla bir yerdə işlədiləndə yerinə düşür.

Bu qiymətli xalq inciləri X1X əsrin sonundan etibarən toplanılmış və nəşr olunmağa başlamışdır.1926-cı ildə Hənəfi Zeynallı «Azərbaycan atalar sözü» kitabını nəşr etdirmişdir. 1938-ci ildə isə Ə. Hüseynzadə atalar sözlərindən ibarət ikinci kitabı çapdan buraxdırmışdır. Həmin kitaba ön sözü Həmid Araslı yazmışdır.

NAĞILLAR

Nağıllar epik folklor janrına daxildir. Bu xalq yaradıcılığı da ağızdan-ağıza, əsrdən-əsrə keçərək yaşamış və bugünkü kamil formasına düşmüşdür. Nağıllarda xalqın məişəti, düşüncəsi, etnik ənənələri qorunub saxlanılır. Nağıllarda zülmə, ədalətsizliyə qarşı mübarizə hissi çox güclüdür. Burada xeyirlə şərin mübarizəsi bir qayda olaraq xeyrin qələbəsi ilə bitir. Nağıl qəhrəmanları güclü, böyük qüvvələrə qarşı mübarizə aparır və sonda qalib gəlir. Oxucuların diqqətini cəlb etmək, onlarda nikbin əhvali-ruhiyyə yaratmaq üçün nağılların başlanğıcında, hadisələrin müəyyən inkişaf mərhələsində və yaxud qəhrəmanlar səfərə çıxarkən standart ifadələr işlədilir. Nağıllar adətən «biri vardı, biri yoxdu» ifadələri ilə başlayır. Qəhrəman səfərə çıxarkən « az getdi, üz getdi, dərə –təpə düz getdi», «dərələrdən sel kimi, təpələrdən yel kimi» ifadələrindən istifadə olunur.

Nağıllar folklorun daha çox fantaziyaya əsaslanan janrıdır və üç qrupa bölünür: 1) Sehrli nağıllar; 2) Heyvanlar haqqında olan nağıllar; 3) Məişət nağılları.

Sehrli nağıllar uşaq və yeniyetmələr arasında daha populyardır. Bu növ nağıllar «xüsusi nağıllar» adlandırılır, daha çox qeyri-adi hadisələrlə, müəyyən gözlənilməz əhvalatlarla, möcüzələrlə yadda qalır. Burada hadisələrin baş verdiyi yerlər də əfsanəvi məkanlardan ibarət olur. Sehrli nağıllarda «az getdilər, çox getdilər, dərə-təpə düz getdilər», «dərələrdən sel kimi, təpələrdən yel kimi» ifadələr işlədilir. Bu ifadələr nağıl qəhrəmanlarının yolunu qısaltmaq və balaca oxucuların diqqətini cəlb etmək üçün işlədilir. Yolu qısaltmaq üçün çox vaxt sehrli yardımçılar- zümrüd quşları, göyərçinlər- bir sözlə çoxsaylı yardımçı qüvvələr iştirak edir. Sehrli nağıllar həmişə xeyrin şər, yaxşılığın pislik üzərindəki qələbəsi ilə bitir.

Bu cür nağılların qəhrəmanları özləri sehrli qüvvəyə malik olduqları kimi, ətrafındakı qüvvələr də gündəlik həyatdakından fərqlənir, ecazkar qüvvələrdən ibarət olur. Məsələn, sehrli almanı kim yeyirsə, dərhal cavanlaşır. Quş lələyini yandıran

kimi sehrli qüvvə peyda olur və nağıl qəhrəmanını çətinliklərdən xilas edir. «Sehrli üzük», «Məlikməmmədin nağılı», «Şəms-qəmər», «Üç bacı», «Kəl Həsənin nağılı» sehrli nağıllar hesab olunur.

Heyvanlar aləmindən bəhs edən nağıllar- Bu növ nağılların tarixi daha qədimdir. Nağılın bu növündə ev və çöl heyvanları, quşlar iştirak edir. Folklorun bu janrındakı hadisələrin mərkəzində də bu cür qüvvələr dayanır. Sehrli nağıllarda qəhrəman sehrli qüvvələrin yardımından faydalanır. Bu tip nağıllarda heyvan və quşların özü sehrli qüvvə kimi fəaliyyət göstərir. Heyvanlar haqqında olan nağıllarda isə heyvan və quşlar öz xüsusiyyətinə, davranışına, ətraf aləmə münasibətinə görə diqqət mərkəzinə gətirilir. Misal üçün, tülkü qorxaq, hiyləgər, xoruz təkəbbürlü, it sədaqətli göstərilir. «Tülkü və hacıleylək», «Tülkü və kəklik», «Ac qurd», «Tülkü və canavar» nağılları heyvanlar haqqında olan nağıllardır.

Məişət nağılları- Belə nağıllar reallığa, həqiqət anlayışına daha çox uyğun gəlir. Məişət nağıllarında insanların gündəlik həyatında baş verənlər, real həyat həqiqətləri üstünlük təşkil edir. Onlar hər gün rast gəldiyimiz adamlardan heç nə ilə fərqlənmir. Dövrün, zəmanənin haqsızlığına, ədalətsizliyinə dözməyən bu adamlar fəal mübarizə vasitələrindən istifadə edir. Məişət nağıllarının nağılların digər növləri ilə müştərək cəhətləri olduğu kimi, fərqli xüsusiyyətləri də vardır. Məişət nağıllarında sehrli və yardımçı qüvvələrin fəaliyyəti kölgədə qalır. Demək olar ki, hiss olunmur. Daha çox reallığa əsaslanır, gündəlik həyatımızı xatırladır. Buna əsaslanaraq deyə bilərik ki, sehrli nağıllara nisbətən məişət nağılları daha sonrakı dövrlərdə meydana çıxmışdır. Azərbaycan nağıllarından «Dərzi şagirdi Əhməd», «Üç şahzadə», «Bostançı və şah Abbas», «Loğmanla şagirdi» məişət nağıllarıdır.

LƏTİFƏLƏR

Bu söz ərəb dilindən götürülüb. «Lətif» kəlməsindən yaranan lətifə «incə», «gözəl», «xoşagələn» mənasındadır. El içində buna bəzən «gülməcə», «bəzəmə», «dodaqqaçdı» da deyirlər. Həmin janrda incə yumor, hikmətli ifadə, ironiya özünü daha çox göstərir. Lətifələri bəzən nağıla da bənzədirlər. Nağıllarda hadisələr təfsilatı ilə təsvir olunursa, lətifələr nisbətən yığcam, lakonik, sadə və yumorla zəngindir. Nağılları xüsusi nağılçılar ifadə edir. Lətifələr isə daha kütləvidir, onu hamı yadda saxlaya bilir. Azərbaycanda lətifələrin yaranması müəyyən ictimai-siyasi və tarixi mühitlə bağlı olmuşdur. Bu mənada Harun-ər-Rəşidin (IX əsr), Səlcuq və monqol istilaları dövrünün (XII-XIII), Teymurləng zamanının (XV) lətifələri daha çoxdur. Azərbaycanda həmin lətifələrin bir qismi Molla Nəsrəddinin adı ilə bağlıdır.

Lətifələr adətən, hikmətli, nəsihətamiz xarakteri ilə seçilir. Onların hamısı insanlara necə yaşamağı, nədən uzaq durmağı, kimə və nəyə arxalanmağı öyrədir, ibrət verir. İnsanı nəticə çıxarmağa sövq edir. Lətifələrimizin bir qismi Şərqdə müdrik insan və danəndə kimi qiymətləndirilən Bəhlul Danəndənin və Molla Nəsrəddnin adı ilə bağlıdır. Rəvayətə görə o, ərəb xəlifəsi Harun-ər-Rəşidin qardaşı olub

Haqsızlığa, ədalətsizliyə, zorakılığa, mənəm-mənəmliyə qarşı lətifələrdə mübarizə ideyası güclüdür. Lətifələr yazılı ədəbiyyatımızda satira və yumorun inkişafına müsbət təsir göstərib. Bunu da qeyd edək ki, X1X-XX əsrlərdə ədəbiyyatımızda bədii gülüşün ədəbi cərəyan səviyyəsinə yüksəlməsində lətifələrin rolu böyük olub .Bu da maraqlıdır ki, böyük ədibimiz C.Məmmədquluzadə XX əsrin əvvəllərində milli şüurun oyanması yolunda mübarizəyə başlayarkən nəşr etməyə başladığı jurnalın adını « Molla Nəsrəddin» qoymuşdur.

UŞAQ FOLKLORU

Uşaq folklorunda uşaqların yaş və psixologiyasına daha çox fikir verilir. Eyni zamanda onların əyləncələri, oyunları, istirahətləri, maraq və qayğıları ilə bağlı olur. Uşaq folkloru bir tərəfdən böyüklərin, digər tərəfdən uşaqların yaradıcılığı vasitəsilə yaranır. Biz xalqımızın yaratdığı «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Qaçaq Nəbi» dastanlarını həm də uşaq folkloru nümunəsi hesab edirik. Bu dastanlar təkcə böyüklər tərəfindən deyil, həm də uşaqlar tərəfindən maraqla oxunur. Bəzən xalq nağılları, rəvayət və əfsanələrini sadələşdirib uşaqların istifadəsinə verirlər. Azərbaycan maarifçiləri A.Səhhət, A.Şaiq, S.S.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə folklor janrlarının bir qismi üzərində işləyərək onları uşaqların istifadəsinə veriblər. Demək olar ki, bütün nağıllar uşaq folkloruna daxildir. Uşaqlar alleqorik nağıllara daha çox üstünlük verirlər. Çünki burada müxtəlif heyvanlar iştirak edir ki, bu da uşaqlar üçün çox cəlbedicidir.

Uşaq folkloru onların yaş və bilik səviyyəsinə uyğun olur. Yığcam, lakonik və tərbiyəvi xarakterə malikdir. «Oxşamalar», «Laylaylar», «Bayatılar» uşaq folklorunun klassik janrlarıdır. Laylalar əsasən musiqi ilə bağlıdır, buna çox vaxt beşik və nənni nəğmələri də deyilir, musiqi və ritmlə əlaqədardır. Laylalarda ananın balasına olan məhəbbəti əsas yer tutur. Laylalar təkcə uşaqları yuxuya vermək üçün deyil, həm də onların gələcək tərbiyəsinin ilk mərhələsidir.

Azərbaycan uşaq folklorunda yenicə dil açmağa başlayan körpə ilə ananın bir növ dialoqundan ibarət olan maraqlı şeir örnəklərinə rast gəlinir ki, onları dil açmalar yaxud öyrətmələr adlandırmaq olar. ”Bu nədir?” “o kimdir”- sualları ilə bədən üzvlərinin, ətrafda görünən əşyaların, qohum-əqrabanın adını xəbər alırlar, körpə dili dolaşa-dolaşa cavab verir, ana düz cavab alarsa fərəhini gizlədə bilmir, uşağın dediyi sözlə həmahəng olan misra ilə balasını alqışlayır, yaxud onunla zarafatlaşır ehmallıca qulağını dartır, burnundan tutub

”burur”. Bu zaman uşağın dilinin açılması, sözlərə öyrəşməsi ilə bərabər ananın da yaradıcılıq qabiliyyəti inkişaf edir:

- Bu nədir?
- Burun.
- Bir elə burum, bir belə burum.
- Bu nədir?
- Qulaq.
- Sənin dilinə biz qurban olaq.

Böyüklər körpələrə müxtəlif suallar verməklə də dilaçma düzəldə bilirlər. Söz ehtiyacları çoxaldıqca uşaqlar sorğuya düzgün cavab verir və buna görə də alqışlanırlar:

- Nə görürsən?
- Dağ.
- Qızım düz tapdı, üzü oldu ağ.
- Göydə nə var?
- Ay.
- Balam düz dedi, balama bir pay.

Dilaçmalar körpələrə söz öyrətməklə yanaşı, həm də onları əyləndirməyə xidmət edir. Analar uşaqlara barmaqları ilə bağlı maraqlı oyunlar göstərirlər. Bunlara «barmaq oyunları» demək olar. Əvvəl körpənin barmaqlarının hərəsinə bir ad qoyurlar:

Baş barmaq,
Başala barmaq,
Uzun hacı,
Göy turacı,
Xırdaca bacı.

Sonra onun ovuclarına işarə edib deyirlər: ”Burdan bir dovşan çıxdı”. Uşağın barmaqlarını bir-bir qatlayaraq, davam edirlər: ”Bu vurdu, bu tutdu, bu bişirdi, bu yedi, vay bəbəyə qalmadı”. Uşaqlar bu cür oyunu məzmunundan çox

analarının jestlərinə, mimikalarına, səslərindəki dəyişikliyə (böyüklər sözləri ifadə edərkən çalışırlar ki, səslərini körpələr kimi çıxarsınlar) maraq göstərir, gülür, sevinir və dəfələrlə təkrarlanmasını istəyir.

Ana və körpəsi arasında yaranan bu şən və əyləncəli oyun dar və bəsit çərçivədən çıxıp, formalaşır, kamilləşərək milli tərkibli, ictimai xarakterli uşaq oyunları və oyun nəğmələri ilə əvəz olunur. Uşaq oyunları obrazlı, didaktik, teatral, musiqili-əyləncəli olmaqla yanaşı məzmun və xaraktercə uşaqların yaş xüsusiyyətlərinə uyğun nəzərdə tutulur.

Oyunlar uşaqların əqli və zehni qabiliyyətinin inkişafına, fiziki tərbiyəsinə, ətraf mühiti düzgün dərk etməsinə nitq, hiss və duyğularının inkişafına kömək edir və onları məqsədyönlü idrakı əhəmiyyətə malik fəaliyyətə yönləndirir. Kiçik yaşlı uşaqların bu tipli oyunları ilə əlaqədar çoxlu folklor nümunələri yaradılmışdır. Buraya "Motal-motal", "İynə-iynə","Bir, iki, bülbül təki", "Əlimi bıçaq kəsibdi", "Mırt, mırt, adın nə?", "Beşdi-beşdi, ha beşdi" və s. Uşaqlar arasında ən çox söylənən nəğmələrdən biri də "Motal-motal" sanamalarıdır.

Motal, motal,
Tərsə motal,
Qıl atar,
Qaymaq qatar,
Ağ quşum,
Ağarçınım,
Göy quşum,
Göyərçinim,
Qarğa qara,
Durna çala,
Çiləmə çilik,
Bircə əmlik.
Çəmbər çarıq,
Əmrəqulu.
Vur nağara,
Çıx qırağa.

Uşaq oyunlarına “Üzük gizlətmə”, ”Boğça-boğça”, ”Göy, sarı, mindili”, ”A teşti” və s kimi oyunları misal göstərə bilərik. Uşaq oyunları içərisində ən çox diqqəti cəlb edən “Səməndər, ay Səməndər” oyunudur. Bu oyun toplantılarda, mərasimlərdə, yığıncaqlarda daha çox oynanılır. Oyunun qaydası belədir: Dəstə bir yerə toplanır, bir nəfər ortaya çıxır, oyunda iştirak edənlər isə onu dövrəyə alırlar. Həmin şəxs özünə köməkçi seçir və onunla gizlicə bir quş adı tapır və onu təsvir etməyə başlayır:

Bir quşum var bu boydana,
Səməndər, ay Səməndər

Bu sözləri hündürdən deyən şəxs əli ilə fikrində tutduğu quşun böyüklüyünü göstərir, oyun iştirakçıları, ”Səməndər ay Səməndər” sözünü xorla təkrarlayırlar:

Başı vardı bu boydana,
Səməndər, ay Səməndər.
Gözləri var bu boydana,
Səməndər, ay Səməndər...

Beləliklə, quşun əsas əlamətləri təkrarlanır. Bundan sonra o, bir nəfərin əlindən tutub ortaya çəkıp və quşun adını soruşur: ”Kim adını deyə bilməsə ”cəza” yerinə qoyurlar. Beləliklə, ”Cəza” yerinə 5-6 nəfər yığılanda oyuna fasilə verilir, cəza olaraq onlara bəzi işlər tapşırılır. (oynamaq, oxumaq...toy evinin bəzi işlərini görmək, Novruz bayramında isə evlərdən şirniyyat toplamaq. Tonqal qalamaq uçün ot, odun və s. əldə etməyə göndərilirdilər. Beləliklə, oyun bir neçə saat davam edir.

Ulu əcdadlar əkilən torpaq sahələrini ölçəndə, naxırdan qayıdan mal-qaranı sayanda işi asanlaşdırmaq və alınan rəqəmləri uzun müddət yadda saxlamaq məqsədilə xüsusi nəzm nümunələri yaratmışlar. Çobanların “Yoxlama və

cütləmə mahnıları bu cür formalaşmışdır. Sonralar böyüklərdən uşaqlara keçən sanamalarda cütləmə bu gün də özünü göstərir.

Bir, iki – Bildirki.
Üç, dörd – Qapını ört.
Beş, altı – Daş altı
Yeddi, səkkiz – Qırx səkkiz
Doqquz ,on – Qırmızı don.

Sanamada cüt rəqəmlərə münasibət bildirilir: ilk cüt bildirkidir, yəni, ötən ildən qalmadır, ikinci cüt xəstədir, çölə çıxarılmalıdır,üçüncü cüt dar gün üçündür, qorunmalıdır və dördüncüsü və dördüncüsü, beşincisi cütlər şişlik üçündür, mağara aparılmalıdır, qırmızı donlu gəlinin ayaqları altında kəsilməlidir. İkinci qism sanamalarda sayların əvəzinə gözlərdən, səslərdən, səs birləşmələrindən istifadə olunur.

Acıtmada uşaq təfəkkürünə uyğun məzəli təsvir və təşbehlərə təsadüf olunur: əli süpürgəli, köhnə tumanlı, saçı sirkəli, yaxası bitdi. Acıtmaların əksəriyyəti "Neynərəm onu?" misrası ilə tamamlanır və pis keyfiyyətlərə malik qızlar, oğlanlar inkar edilir:

Zibeydə çöldə,
Ayağı göldə.
Başı dumanlı,
Köhnə tumanlı,
Əli süpürgəli,
Saçı sirkəli,
Yanı itdi,
Yaxası bitdi.

Dolamalar iki nəfərin deyişməsindən ibarət olan bir növ söz oyunudur. Şeir söylənən zaman ikinci tərəfin diqqətli olması gərəkdir. Əks təqdirdə ifa zamanı axıradək söz güləşdirməkdə davam etsə, gülünc vəziyyətə düşər. Oyunun

şərtinə əməl edərək, qalib tərəfin təkliflərinə boyun əyməlidir .(at kimi kişnəmək, xoruz kimi banlamaq, it kimi hürmək və i. a.)

Gəl gedək bağa.
Mən də, mən də
Çıxaq budağa.
Mən də, mən də
Şaftalı yığaq.
Mən də, mən də.
Bağban gəlsin.
Mən də, mən də
İti qısqırsın.
Mən də, mən də.
İt mənə hürsün.
Mən də, mən də.

Düzgülər də uşaq folklorunun digər janırları kimi ovçuluq, maldarlıq, toxuculuq nəğmələrindən götürülmüşdür. Misraların bir-birinin ardınca zəncirvari düzülüşünə görə uşaq folklorunun bu növü düzgülər adlanır:

Aslan –ağamız,
Qapılan –qara qağamız,
Xoruz –bizim mollamız,
Çaqqal – çavuşumuz,
Ala qarğa – carçımız,
Sağsağan xəbərçimiz.

Uşaq oyunun bir qismini də öcəşmələr təşkil edir. Bu oyuna söz oyunu da deyirlər. Oyunda iki tərəf iştirak edir.Birinci tərəf əvvəlcədən qafiyələndirə biləcəyi hər hansı bir sözü tələffüz etməyi qarşı tərəfdən tələb edir. Qarşı tərəf isə onun istəyi ilə həmin sözü ona qaytarır. Birinci tərəf qafiyəli misra ilə ikinci tərəfi bağlayır. Məsələn, söz oyunları içərisində ən çox işlənən oyun yanıltmacdır. Yanıltmaclarda

oxşar səs və söz birləşmələrinin cümlə boyu biri-birini izləməsinə görə uşaqların diqqətli olması gərəkdir. Yanıltmaclar uşaqların əqli qabiliyyətlərini, nitqini, diqqətini formalaşdırmaqla yanaşı, həm də əyləncə və tərbiyə vasitəsidir.

DASTANLAR

Azərbaycan şifahi xalq ədəbiyyatının daha çox populyar olan irihəcmli janrlarından biri də dastanlardır. Milli ədəbiyyatda «dastan» sözü hadisə, əhvalat, təsvir-tərif, tərcümeyi-hal və s. mənalarda işlənmişdir. Dastanlar nəsr və nəzmdən ibarətdir. Aşıqlar el şənliklərində, müxtəlif mərasimlərdə dastanların nəsr hissəsini danışmış, nəzm hissəsini isə aşıq havalarına uyğun olaraq oxumuşdur. Başqa cür desək, dastanların süjetində təhkiyə aparıcı mövqeyə malikdir. Şeirlərdə isə lirik hisslər, kədər və sevinc, həsrət, nisgil özünü daha çox büruzə verir. Türk dastanlarının əksəriyyətində igidlik və qəhrəmanlıq motivləri əsas təşkil edir. Bu da qədim türk tayfalarının həyat və məişət tərzi ilə əlaqədardır. Daha sonrakı dövrlərdə türk dastanlarında lirik əhvali-ruhiyyə, sevgi hissləri də özünü göstərməyə başlamış və beləliklə, ilk məhəbbət dastanlarımız meydana çıxmışdır.

Qeyd etdiyimiz kimi, dastanların əsas ifaçısı aşıqlardır. Keçmişdə aşıqlar bəzən bir neçə gün və yaxud bir həftə toy aparmış, toyun uzun gecələrini dastanla, saz-söz vəhdəti ilə qısaltmağa çalışmışlar. Dastanların kütləviləşməsinə, daha çox yayılmasına və sevilməsinə şərait yaratmışlar.

Azərbaycan dastanları üç qismə bölünür:

1. Qəhrəmanlıq dastanları
2. Məhəbbət dastanları
3. Ailə-əxlaq dastanları

Qəhrəmanlıq dastanları. Qəhrəmanlıq dastanlarında türk xalqlarının yaşamaq uğrunda əsrlər boyu apardığı mübarizələr daha qabarıq nəzərə çarpır. Bu dastanlarda müsbət qəhrəmanın fəaliyyəti diqqət mərkəzinə çəkilir, şaxələnmiş süjet xətlərinin hər biri əsas qəhrəmanın xarakterinin, dastanda qoyulan ideyanın açılmasına xidmət edir. Qəhrəmanlıq dastanlarında da nəsr və nəzm bir-birini əvəzləyir. Nəsr hissəsində qəhrəmanın igidliyi, qəhrəmanlığı, hünəri epik yolla təsvir olunursa, nəzm hisssəsində onun lirik düşüncələri, duyğuları, hiss və həyəcanı önə çəkilir. Hər iki təsvir vasitəsi bir məqsədə- qəhrəmanın xarakterini açmağa xidmət edir.

Məhəbbət dastanları. Türk dastanları sırasında məhəbbət dastanlarının xüsusi yeri var. Əgər qəhrəmanlıq dastanları xalqımızın istiqlal mücadiləsi, azadlıq arzuları və onu reallaşdırmaq uğrunda mübarizəni əks etdirirsə, məhəbbət dastanları dinc dövrün həyat və məişət tərzindən xəbər verir. Dastanlarda təmiz və saf məhəbbət, sədaqət, vəfa kimi insani keyfiyyətlərdən bəhs olunur. Əsərin əsas qəhrəmanları aşiq və onun sevgilisidir. Onlar ilk məhəbbət yolunda çoxsaylı maneələrə rast gəlir, qovuşmalarına imkan verməyənlərlə açıq mübarizəyə girişir, çox zaman qalib gəlirlər. Məhəbbət dastanları adətən ustadnamə ilə başlayıb, duvaqqapma ilə tamamlanır. İstisna olaraq faciə ilə bitən məhəbbət dastanları duvaqqapmasız bitir. Ustadnamə və duvaqqapmanı aşıq özü seçir, dastanın məzmununa müvafiq söyləyir. Qəhrəmanlıq və məhəbbət dastanları arasında müştərək cəhətlər də az deyil. Hər ikisində qəhrəmanlıq və lirik duyğular növbələşir, vəhdət təşkil edir. «Şah İsmayıl», «Abbas və Gülgəz», «Novruz və Qəndab», «Məhəmməd və Güləndam» bu qəbildəndir.

Ailə-əxlaq dastanları. Ailə-əxlaq dastanlarımızın ilk ənənəsi «Kitabi-Dədə Qorqud» dastanları ilə qoyulub. «Dirsə xan oğlu Buğacın boyu»nda əsası qoyulan bu ənənə sonrakı dövrlərdə də davam etdirilmişdir. «İbrahim və Hürnisə», «Alıxan və Pəri xanım», «Səlim şah» dastanları tipik ailə-əxlaq dastanlarıdır. Ailə-əxlaq dastanlarında real həyat hadisələri üstünlük təşkil edir. Ağlasığmayan, qeyri-real hadisələr bu dastanlarda olmur.

«KİTABİ-DƏDƏ QORQUD» DASTANLARI

Dastanlarda qədim oğuz tayfalarının qəhrəmanlığı,ailə-məişət münasibətləri, adət-ənənələri öz əksini tapıb. Dastanların əlimizdə olan ilk əlyazması X1V-XV əsrlərə aiddir. Qədimliyinə, mükəmməlliyinə görə «Kitabi-Dədə Qorqud» dastanları türk xalqlarının ən parlaq qəhrəmanlıq dastanlarıdır. Elm aləminə dastanların iki nüsxəsi məlumdur; Bunlardan biri Almaniyanın Drezden kitabxanasındadır. Digəri isə İtaliyanın Vatikan kitabxanasına məxsusdur. Birinci-Drezden kitabxanasındakı nüsxədə bir müqəddimə, 12 boy var. Alimlərin fikrncə, Vatikan nüsxəsi Drezden nüsxəsindən köçürülmüşdür. Tədqiqatçılar birmənalı olaraq bildirirlər ki, eposdakı hadisələr IX-XII əsrləri əhatə edən tarixi hadisələrdir. Ancaq eposun tarixinin daha qədimlərə gedib çıxdığını iddia edən alimlər də az deyil.

Dastanı Şərq və Qərb şərqşünasları, tanınmış ədəbiyyatşünaslar Henrix Fridrix Fon Dits, Teoder Nyoldeol, Xalıq Koroğlu, Orxan Şaiq Kökyay, Əmin Abid, İsmayıl Hikmət, Həmid Araslı və başqaları tədqiq etmişlər.

Əsər həm nəzmlə, həm də nəsrlə yazılmışdır. XIV əsr tarixçisi Rəşidəddin Dədə Qorqudun tarixi şəxsiyyət olduğunu bildirmiş və onun 215 il yaşadığını yazmışdır. Müxtəlif boyların sonunda hadisələrin daha qədimdə baş verdiyi, qəhrəmanların isə çoxdan həyat ilə vidalaşdğı göstərilir. Dədə Qorqudun dili ilə deyilir: «Onlar dəxi bu dünyaya gəlib keçdi. Karvan kimi qondu, köçdü. Əcəl aldı, yer gizlədi, fani dünya yenə qaldı. Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya».

1815-ci ildə Alman alimi Dits eposun XV əsrdə yazıya alınan nüsxəsini əldə etmişdir. Kitabın üstündə belə qeyd var: «Kitabi Dədə-Qorqud əla lisani-taifeyi-oğusan». Yəni Oğuz tayfasının dilində Dədə-Qorqud kitabı. Dastanın ilk tədqiqatçısı Ditsdir.

Ədəbiyyat tarixçilərinin bir qismi Dədə-Qorqudun tarixi şəxsiyyət olduğunu bildirsə də, bu versiya özünü doğrultmur. Bir sıra rəvayətlərdə Dədə-Qorqudun 300 ilə qədər yaşadığı, 6

metr boyu olduğu göstərilir. Şübhəsiz ki, bu Dədə Qorqudun əfsanələşmiş bədii obraz olduğunu bir daha təsdiq edir.

Dastanların əsas qəhrəmanı Qazan xandır. O, dastanın 8 boyunda iştirak edir. Bəylərbəyi olan Qazan xan oğuzlar arasında Bayandur xana bərabər tutulur. Bəzi şifahi və yazılı mənbələrdə Qazan xanın adı çəkilsə də, onun haqqında ilk geniş məlumatı «Kitabi Dədə Qorqud» dastanlarından alırıq.

Boyların sonunda Dədə Qorqud peyda olur, ağıllı məsləhətlər söyləyir, igidlərə ad verir, şəninə tərifl ər söyləyir. O, oğuz tayfasında geniş şöhrətə malik olan ozandır. Boyların hamısını Dədə Qorqud birləşdirir.

Dastanlarda qadın obrazları da maraqlı və dolğundur. Onlar döyüşlərdə həyat yoldaşları ilə bir yerdə olur, onları darda qoymur, at çapır, qılınc oynadırlar. Burla Xatun, Banuçiçək, Selcan Xatunun simasında oğuz qadınlarının ailəyə, namusa, tayfa adət-ənənələrinə münasibəti üzə çıxır. «Qazan xanın evinin yağmalanması» boyunda Burla Xatunun nə qədər mərd, sədaqətli, dəyanətli bir qadın olduğunu görürük.

Şəkli Məlik Qazan xanı sındırmaq üçün Burla Xatunu məclisə gətirmək istəyəndə, mərd oğuz qadını qırx incəbelli qızın arasına girir, düşmənlər onu tanıya bilmir. Şəkli Məlik əmr edir ki, xanın oğlu Uruzu şişə çəkib, ətindən qara qovurma etsinlər. Şişləri qırx incəbelli qızın qabağına qoysunlar. Kim əti yeməsə, demək Burla Xatun odur. Oğlu Uruz anasına ürək-dirək verir, namus yolunda ölməyə hazır olduğunu deyir və anasına məsləhət görür ki, əgər qırx incəbelli qız onun ətindən bir tikə yeyiərsə, sən iki tikə ye, təki düşmənlər səni tanımasın.

XIX əsrin II yarısında «Dədə Qorqud» dastanları Şərqşünasların diqqətini cəlb etmiş, rus alimi B.Bartold 1894-cü ildə abidəni rus dilinə tərcümə etmişdir. O, belə qənaətə gəlmişdir ki, dastanı Qafqaz arealından ayrı təsəvvür etmək mümkün deyil. Türk alimləri eposla XX əsrdən etibarən maraqlanmış, 1958-ci ildə türk tədqiqatçısı Orxan Şaiq Koğyay dastanın Drezden nüsxəsini yeni əlifba ilə çap etdirmişdir. A.Musaxanlı, İ.Hikmət, Ə.Abid kimi tədqiqatçılar dastan haqqında maraqlı fikirlər irəli sürmüşlər.

DASTANİ-ƏHMƏD HƏRAMİ

«Dastani- Əhməd Hərami» məsnəvi formasında yazılan poemadır. XII əsrdə qələmə alınan bu əsərin ilk əlyazmasını türk alimi Tələt Onay 1928-ci ildə aşkara çıxarmış, əsər haqqında geniş məlumat vermişdir. 1978-ci ildə Ə.Səfərli əsərə ön söz yazaraq Bakıda onu nəşr etdirmişdir.

Anadilli şeirimizin ilk örnəklərindən olan «Dastani-Əhməd Hərami» 1632 misradan ibarətdir. Poemanın müəllifi hələlik elm aləminə məlum deyil. Elmi mənbələrdə də bu barədə heç nə yazılmır. Əsərdən öyrənirik ki, müəllif poemanı yaşlı vaxtlarında yazmış, cavanlıqda boş keçən vaxtları ilə bağlı təəssüf hissini gizlətməmişdir.

Bildiyimiz kimi, orta əsrlər klassik Şərq ədəbiyyatında dastan-məsnəvi forması dəbdə olub. Poemada isə nağıl üslubu və motivləri daha çox özünü göstərir. Qəhrəmanların nəsil-nəcabəti, keçmişi barədə əsərdə geniş təfərrüat verilmir. Dastan maraqlı və orijinal bir mövzuya həsr olunub, bir çox mənada klassik aşiqanə məsnəvilərdən fərqlənir. Klassik məsnəvilərdə əsərin adı baş qəhrəmanların adından götürülürdü. Baş qəhrəmanlar, adətən, müsbət obrazlar kimi təsvir və tərənnüm olunurdu. «Dastani-Əhməd Hərami» bu cəhətdən də fərqlənir. Əsərdəki mənfi obrazlar daha çoxdur və müəllif poemada onların daxili aləminin açılmasına xüsusi diqqət yetirmişdir. Poemada xeyirlə şərin mübarizəsi diqqətlə izlənilir, şər lənətlənir və xeyir işlər görmək məsləhət görülür.

Dastanın mənfi qəhrəmanı olan Əhməd Hərami şər qüvvələri təmsil edir. O ətrafına yığılan doqquz hərami ilə yol kəsir, adamları incidir, öldürür, hamını qorxu altında saxlayır. Həyasızlığı o həddə çatır ki, hətta Bağdad sultanının xəzinəsini belə oğurlamaqdan çəkinmir. Bu yolda yaldaşlarını qurban verir. Özü də ağır yaralanır. Güləndam adlı tacir qadınla evlənir. Hətta öz qadınından da intiqam almağa çalışır. Onu Krıma aparır, hətta tonqalda yandırmaq niyyətinə düşür. Lakin dünya yaxşı insanlardan xali deyil. Xoca Rüstəm ona

mane olur, qızı ölümdən qurtarır. Nəhayət, Əhməd Hərami öz cəzasına çatır, bəd əməllərinin qurbanı olur.

Dastanda Əhməd Hərami şər, Güləndam isə xeyir qüvvələri təmsil edir, konflikt qadının qələbəsi ilə başa çatır. Güləndamın qabağına həmişə nəcib, xeyirxah insanlar çıxır. Əhməd Hərami isə həmişə şər qüvvələrin arasındadır. Xoca Rüstəm Güləndamı ölümdən qurtarıb Şiraza gətirir. Burada Şiraz hökmdarı onu görür və evlənirlər. Güləndam qırx pilləkanlı saray tikdirir, qırx igid sarayın keşiyini çəkir ki, Əhməd Hərami bura gəlməsin. Ancaq Əhməd Hərami sehrlə saraya gəlir. Güləndam həyat yoldaşını oyatmaq istəmir, quldura yalvarır ki, ona toxunmasın. Sonda qız özündə güc tapır, Əhməd Həramini itələyib pilləkandan salaraq öldürür.

«Dastani-Əhməd Hərami» türk dastançılığında «Kitabi-Dədə Qorqud» dastanlarının davamıdır və dil, üslub, məzmun xüsusiyyətlərinə görə də diqqətəlayiqdir.

AŞIQ YARADICILIGI

Azərbaycan ədəbiyyatının mühüm bir sahəsi olan Aşıq-Ozan yaradıcılığı Türkiyədə, Qafqazda, İranda, İraqda, o cümlədən türk etnik- mədəni sisteminə daxil olan xalqlar arasında geniş yayılmışdır. İlk tarixi təşəkkül mərhələsindən bu günə kimi Ozan- Aşıq adı ilə tanınan bu xalq sənətkarı el-el, oba-oba gəzmiş, xalqın ictimai vəziyyətinin, gündəlik qayğılarının ifadəçisinə çevrilmişdir. Aşıqlıq sənətin üç növünü –musiqi, rəqs və oxumaq sənətini özündə birləşdirmiş, şairlərdən fərqli olaraq saz çalmaq, rəqs etmək, oxumaq, nağıl və dastan söyləmək qabilyyətini birləşdirmişdir.

İgidliyi, mərdliyi, bahadırlığı xalq arasında təbliğ edən aşıq sənəti İslam dininin qəbulundan əvvəl türk xalqları arasında geniş yayılmış, islam dininin qəbulundan sonra da böyük çətinliklər hesabına öz mövcudluğunu qoruyub saxlaya bilmişdir. Professor Məhərrəm Qasımlının sözləri ilə desək, «İslama qədərki dünyagörüşlə -qam- şaman sistemi ilə əlaqəsi olduğuna görə ozan sənəti hakim idealogiya tərəfindən küfr sayılmış və sıxışdırılmışdır. Türklər həmin dövrdə atlı həyat tərzi keçirdiklərindən bu proses ləng getmiş və uzun sürmüşdür. Ozan sənətini orta çağ sosial –siyası iqliminin meydana gətirdiyi yeni və alternativ aşıq sənəti sıradan çıxarmışdır». (134, s.28)

Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsğər, Dədə Şəmşir və başqaları usdad aşıq kimi tanınmışlar. Aşıqlar el şənliklərində, toylarda günlərlə dastanlar söyləmiş, ustadnamələr oxumuşlar. Onların söylədiyi dastanların təqribi sayı 50 -ə yaxındır. Tarixən gənc aşıqlar özünü təsdiq etmək və müstəqil fəaliyyət göstərmək üçün «Abbas və Gülğəz» dastanını tam şəkildə söyləməli, ustad aşıqlardan xeyir-dua almalı idilər. Bu dastanda iki yüzə qədər aşıq şeri mövcuddur. Aşıqların ən çox müraciət etdiyi şeir formaları qoşma, gəraylı, bayatı və təcnislərdir. Hər məclisə uyğun olaraq aşıqlar lətifə, qaravəlli, məsəllər və başqa şifahi xalq ədəbiyyatı janırlarına da müraciət edirlər. Aşıq sənəti adətən iki mövzu ilə bağlı

olur; birincisi, məhəbbət mövzusu, ikincisi, qəhrəmanlıq motivləri.

Məhəbbət mövzusunda yazılan aşıq şeirlərində iki gəncin saf, təmiz, qarşılıqlı məhəbbəti, bu yolda onların düşdükləri çətinliklər, çəkdikləri iztirab öz əksini tapır. Qurbani A.Tufarqanlı, A.Ələsgər, Aşıq Şəmşir və başqaları məhəbbət mövzusunda əsərlər yazmışlar

Qəhrəmanlıq mətnləri aşıq yaradıcılığının mayasını təşkil edir. Orta əsrlərdə hərbi–siyasi mərasimlərdə aşıq havaları, cəngilər ifa olunardı. Türk sərkərdələri, qəhrəmanları sazla-sözün vəhdətinin yenilməz gücünü dərk edir, hərbi yürüşlərdə qəhrəmanlıq motivli aşıq -ozan sənətinin ecazkar qüvvəsindən istifadə edirlər. Şah İsmayıl Xətainin hücum edərkən bir əlində qılınc, bir əlində saz tutması rəvayəti və aşıq deyimi deyiklərimizin sübutudur. «Koroğlu», «Şah İsmayıl» dastanlarında kifayət qədər qəhrəmanlıq təbliğ edən aşıq şeiri nümunələri vardır. XIV əsrdən etibarən saz həm yazılı ədəbiyyatda, həm də xalq yaradıcılığında mühüm estetik tutum kəsb etmiş, öz ənənələrini qoruyub saxlaya bilmişdir.

Ozan-qopuz sistemi islama qədər türk mədəni-mənəvi həyat tərzinin göstəricisidir. Orta əsrlərdə Şərq dünyasında yayılmağa başlayan sufi eşq fəlsəfəsi aşiq-ozan sənəti ilə daha da parlaq təzahür etmiş, ilahi eşq daşıyıcıları olan sufilər ozan sənətinin inkişafına təkan vermişdir. Ozanlar əslində ilahi eşq tərənnümcüsü kimi, tanrıya, nura qovuşmaq ideyasını təbliğ edirdilər. Sufi eşqin insani məhəbbətlə heç bir əlaqəsi yoxdur. Doğrudur, sonrakı əsrlərdə ozan anlayışı aşıqla əvəz olundu, ancaq buna baxmayaraq ozanların ruhu, həyata, ilahi eşqə münasibəti, ifaçılıq ənənələri aşıqlar tərəfindən müəffəqiyyətlə davam etdirildi.

NİZAMİ GƏNCƏVİ

(1141-1209)

Azərbaycan ədəbiyyatının dünya mədəniyyətinə verdiyi böyük dühalardan biri də Nizami Cəncəvidir. Yaradıcılığındakı ideyalar, humanizm, insanpərvərlik, müdriklik əsrlərdən bəridir ki, öyrənilir və yazıçının şöhrətini daha da artırır. Hər bir əsərində türk təfəkkürü, etnoqrafiq xalq yaddaşı güclü olan Nizami Gəngəvi mükəmməl lirik şeirləri, «Xəmsə»si ilə bədii düşüncə tarixində yeni səhifə açmışdır.

Şair 1941-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Uşaqlığında mükəmməl mədrəsə təhsili görmüş, astranomiya, məntiq, psixologiya, fəlsəfə, riyaziyyat və s. elmləri mükəmməl öyrənmişdir. Maraqlıdır ki, Nizami tez-tez yunan mənbələrinə müraciət etmiş, ayrı-ayrı əsərlərində yunan mədəniyyəti və fəlsəfi fikri ilə bağlı qiymətli fikirlər söyləmişdir. «İskəndərnamə» nin ikinci- «İqbalnamə» hissəsində yunan filosofları Sokrat, Hermes, Valis, Əflatun, Ərəstu və başqaları ilə baglı fikirləri bu gün də öz əhəmiyyətini saxlayır. Xeyli sayda qəzəlləri, qəsidələri, 20 min beytlik divanı bədii fikir tariximizi xeyli zənginləşdirmişdir. Bu günə qədər elm aləminə 120-yə yaxın qəzəli, 30-a qədər rübaisi və bir neçə qəsidəsi məlumdur.

Epik-lirik şeirin qüdrətli sənətkarı olan şair Afaq adlı bir qızla ailə həyatı qurmuş, ondan Məhəmməd adlı oğlan uşaqları dünyaya gəlmişdir. «Xosrov və Şirin» əsərində N.Gəncəvi Afaqın gözəlliyini və məlahətini tərənnüm etmişdir. Çox gənc yaşlarından şeir yazmağa başlayan Nizami ərəb və fars dillərini də mükəmməl öyrənmiş, Yaxın və Orta Şərq ədəbiyyatında humanist poeziyanı zirvəyə qaldırmışdır. Bir sıra elmlərin, o cümlədən də poetik yaradıcılığın sirlərinə yiyələnmək üçün bu dillər ona çox yaxından köməklik göstərmişdir.

Nizami Cəncəvinin yaradıcılığı təkcə böyüklər üçün nəzərdə tutsulmayıb. Şairin əsərlərinin bir qismindən uşaq və yeniyetmələrin təlim-tərbiyəsində, bədii zövqünün formalaşmasında istifadə etmək olar. Bu mənada 1147- ci ildə qələmə aldığı «Sirlər xəzinəsi» («Məxzənül- əsrar») əsəri səciyyəvidir. Əsər

müqəddimə və 20 hekayətdən ibarətdir. Fəlsəfi-didaktik bir əsər olan «Sirlər xəzinəsi»ndə «Sultan Səncər və qarı», «Kərpickəsən kişinin dastanı», «Ovçu iə tülkü», «Zalım padşahla düz danışan qocanın nağılı», «Ağıllı uşağın hekayəsi», «Bülbül ilə qızılquşun hekayəsi» və başqa hekayətlərdə düz danışmaq, ədalətli olmaq, tərbiyəli davranmaq, heç kəsə zülm etməmək, tamahkarlqdan uzaq olmaq və s. tövsiyyə olunur. Şair, hər şeydən əvvəl, şahın ədalətli olması məsələsinə toxunub. «Zalım padşahla Zahidin dastanı» hekayətində təsvir olunur ki, xalq arasında şahın zülmkarlığından danışan Zahidi tutub onun yanına gətirirlər. Boynuna kəfən dolayan Zahiddən şah bunun səbəbini soruşduqda, Zahid qorxmadan cavab verir ki, əgər sənin üzündə ləkə varsa, onu təmizlə, güzgünü nə üçün sındırırsan? Zahidin bu cavabı şahın xoşuna gəlir. Onu cəzalandırmaq əvəzinə mükafatlandırır. Burada şair həqiqəti, düzlüyü, sözü üzə açıq deməyi vacib şərt kimi irəli sürür.

«Sirlər xəzənəsi»ndə şair xalq dastanlarından, rəvayətlərindən, hikmətli ifadələrdən bol-bol istifadə etmişdir. Yusif və Züleyxa, Süleyman və Bilqeys haqqında olan əfsanələri şair dəfələrlə xatırlamışdır. Bu əsərdə də Nizami əfsanə və rəvayətlərdən, müxtəlif folklor qaynaqlarından kifayət qədər faydalanmışdır. «Nuşirəvan və bayquşların söhbəti»ndə də yenə ədalətli şah və xalq məsələlərindən bəhs olunur. Sasani hökmdarı Nuşiravan günlərin birində yaxın adamları ilə ova çıxır. Səfər zamanı onlar xaraba bir kəndə rast gəlir. İki bayquş xarabada bir-birilə söhbət edir. Nuşiravan vəzirindən quşların nə danışmasını soruşur.Vəzir diqqətlə qulaq asıb deyir ki, quşlardan biri qızını o biri quşun oğluna ərə vermək istəyir. Qızın atası oğlanın atasından süd haqqı kimi bir neçə xaraba kənd istəyir. Oğlanın atası cavab verir ki, nə qədər məmləkətimizin başında Nuşiravan kimi padşah dayanıb, mən sənə kifayət qədər xaraba kənd verə bilərəm. Bu söhbəti eşidəndən sonra Nuşirəvan zülmdən əl çəkiir və ölkəni ədalətlə idarə edəcəyinə söz verir.

«Yeddi gözəl» əsərində də şair həmin ideyanı davam etdirmişdir. «Fitnə» hekayəsində Fitnə ağıllı məsləhətləri ilə Bəh-

ramı heyran qoyur. Buna görə də şah onu özü ilə ov-ovlamağa, at çapmağa və bir sıra məclislərə aparır. Qızın ağlı, düşüncəsi, tədbirliliyi sonda Bəhrama da təsir edir və o, ədalətli şah olacağına söz verir. Fitnə surəti vasitəsi ilə şair Azərbaycan qızlarının mərd, qeyrətli obrazını ümumiləşdirmişdir.

Yenə həmin əsərdə «İtini asan çobanın hekayəsi»ndə göstərilir ki, bir gün şah öz əyanları ilə vilayəti səyahət eləməyə çıxır. Görür ki, bir çoban ağacın altında əyləşib çörək yeyir, itini isə altında əyləşdiyi ağacdan asıb. Bunun səbəbini çobandan soruşanda o deyir ki, sürünü bu itə etibar etmişdim. Günlərin birində it bir dişi canavarla yaxınlıq etməyə başladı. Hər gün sürüdən bir qoyunu ayıraraq canavara yem etdi. Əhvalatı eşidən kimi iti asmağı qərara aldım. Onun sözlərini eşidən şahın gözlərindən qəflət pərdəsi götürülür. Başa düşür ki, o da ölkəni yaxın əyanlara etibar etməkdə səhvə yol verib. Cünki həmin əyanlar etibardan sui-istifadə edərək xalqı talayıb, sadə insanları incidiblər.

Nizami Cəncəvi humanist sənətkardır. Onun bütün əsərlərində böyük hikmət, fəlsəfi ümumiləşdirmələr və bəşəri ideyalar öz əksini tapmışdır.

MƏHƏMMƏD FÜZULİ

(1448-1556)

Azərbaycan və Yaxın Şərq ədəbiyyatının qüdrətli ədəbi simalarından olan M.Füzulinin həyatı haqqında məlumat olduqca azdır. Günümüzə qədər haqqında kifayət qədər əfsanələr, rəvayətlər söylənmişdir ki, əsil həqiqət bu gün də həmin əhvalatlar içində itib-batmışdır. Şairin harada anadan olması, milli mənsubiyyəti, divan yaradıcılıgı və s. barədə bu gün də bir-birinə zidd fikirlər səsləndirilir. Lakin akademik Krimov, ingilis alimi Gibb, Əli Nəhad Tərlan, İsmayıl Hikmət, F.Köprülüzadə, H.Araslı və başqaları şairin həyatı, ədəbi mühiti və yaradıcılığı haqqında sanballı elmi tədqiqat əsərləri yazmışlar. Füzulişünaslığın son elmi araşdırmaları da təsdiq edir ki, o, 1448-ci il İraqın Kərbala qəsəbəsində Süleyman adlı bir ziyalının ailəsində anadan olmuşdur. İlk təhsilini mədrəsədə almış və divanının müqəddiməsində bu barədə məlumat vermişdir. Dövrün bir sıra elmlərini mükəmməl mənimsəyən şair 70 ildən artıq yaşamış, bəzi əsərlərində «Bağdadi» təxəllüsündən istifadə etmişdir. Atası Süleyman kişi haqqında da əlimizdə çox az material var.

İlk bədii yaradıcılığa mədrəsədə başlayan M.Füzuli aşiqanə şeirləri ilə diqqəti cəlb etmişdir. Hələ sağlığında « Mövlana» kimi qiymətləndirilən M.Füzuli ərəb, fars dillərini də mükəmməl öyrənmiş, eyni zamanda Şərq ölkələrinin mədəniyyət tarixi haqqında ətraflı bilgi əldə etmişdir. O, öz əsərlərində Platon, Aristotel, Heroklit kimi yunan filosoflarından bəhs etmiş, onların elmini yüksək qiymətləndirməklə, özünün də mütəfəkkir sənətkar olduğunu təsdiq etmişdir. Hətta fars dilində yazdığı «Divan»ına müqəddimədə müxtəlif elmi biliklərə yiyələndiyini etiraf etmişdir.

Şairin yaradıcılığında uşaq ədəbiyyatı nümunələri maraqlı və cəlbedicidir. X1X əsrin ikinci yarısında, XX əsrin əvvəllərində, sovet hakimiyyəti illərində orta və ali məktəblərdə uşaq ədəbiyyatına daxil olan alleqorik əsərləri məktəblərdə tədris olunub. Şair «Bəngu-Badə», «Söhbətul-Əsmar» alleqorik əsər-

lərini Şah İsmayılın hakimiyyəti dövründə yazıb. Təmsilləri, alleqorik poema və hekayələri ilə dövrün haqsızlığına, ictimai zülmə öz etirazını bildirib, bu məqsədlə müxtəlif bədii vasitələrdən istifadə edib, xalq yaradıcılığından orijinal şəkildə faydalanıb. Bu cəhətdən şairin «Bəngu-Badə» əsəri balaca oxucuların diqqətini daha çox cəlb edir. Həmid Araslının fikrincə, əsər 1510-1524-cü illər arasında yazılmışdır. Süjetdəki hadisələr başdan-başa Bəng ilə Badənin mübarizəsindən ibarətdir. Əslində müəllif alleqorik tərzdə Səfəvilərlə Osmanlıların qanlı qardaş qırğınlarına öz etirazını bildirmiş, bu mənasız müharibəni ifşa etmişdir. «Bəngu-Badə» dəki Saqi, Ərəq, Buzə (pivə), Nəbiz(xurma şərabı), Məcun, Ətyun və başqa obrazlar vasitəsi ilə şair saray əyanlarının iç üzünü açaraq, onların yaltaq simalarını oxuculara tanıtmışdır.

Bəng və Badə son dərəcədə təkəbbürlü, lovğa saray əyanlarıdır. Hər ikisi birincilik iddiasındadır. Bir-birinə boyun əymək istəməyən bu iki insan sonda müharibə etməli olur. Nəticədə Badə qalib çıxır. Ancaq əsərin ideyasından məlum olur ki, bu döyüşün qalibi yoxdur. Hər iki əyanın iddiası minlərlə insanın qırılmasına səbəb olub.

«Söhbətül-Əsmar» alleqorik əsəri məsnəvi formasında yazılmışdır. Poema şairin alleqorik əsərləri içərisində ən mükəmməlidir. İstər ideyası, istərsə də məzmununa görə bu əsər «Bəngu- Badə»yə bənzəyir. Meyvələrin söhbəti zamanı onların müxtəlif cəhətləri üzə çıxır. Şair meyvələrin vasitəsi ilə insan cəmiyyətindəki qeyri-insani sifətləri, xudpəsəndliyi, mənəm-mənəmliyi, təkəbbürlülüyü tənqid etmişdir. Əsər kiçik, lakin gözəl bir bahar təsviri ilə başlayır:

Nərgiz ki, göz açdı bağə girdi
Bir baxmağılən özün itirdi.
Kəcgərdan olub bənövşeyi-zar,
Bir nəşəyi-meylə oldu xumar.
Qönçə yaxasını eylədi çak
Bülbül baxuban olub fərəhnak.

Poemada müxtəlif meyvələr - alça, gilas, ərik, alma, armud, heyva və narın dadı, rəngi və başqa xüsusiyyətləri qeydə alınıb. Meyvələr bir-bir özünü tərifləyir. İnsanların onlara ehtiyacı olduğunu sübut etməyə çalışır, öz üstün cəhətlərini daha da qabardırlar. Beləliklə, müəllif balaca oxuculara müxtəlif meyvələr haqqında məlumat verməklə yanaşı, eyni zamanda ictimai həyatdakı reallıqlarla bağlı kankret təsəvvür oyadır. Aydın olur ki, meyvələr arasında olan rəqabət eyni ilə insan cəmiyyətində də təkrar olunur, eyniyyət təşkil edir. Bağdakı mənzərədən sonra şair bostandakı vəziyyətlə oxucuları tanış edir. Burada da bağdakı vəziyyət eyni ilə təkrar olunur. Qovunun şah, qarpızın vəzir olduğu bu məkanda bostan məhsulları müxtəlif vəzifələr daşıyır. Bağdakı və bostandakı vəziyyətlə oxucuları tanış edən şair fikirlərini belə yekunlaşdırır:

Dünya işinin mədarı yoxdur,
Heç kimsəyə etibarı yoxdur.
Eylər birisini sahibi-tac,
Ol birisini eylər ona möhtac.

Şairin «Leyli və Məcnun» poeması təkcə onun yaradıcılığında deyil, Azərbaycan, Yaxın və Orta Şərq ədəbiyyatında da mühüm ədəbi hadisə idi. Bu möhtəşəm sənət əsəri ilə M.Füzuli romantik Şərq poeziyasının zirvəsinə yüksəlmişdir. Poemada sufi-panteist fəlsəfə, insanın tanrıya məhəbbəti və ona qovuşması ideyası yüksək bədii dillə, poetik vüsətlə verilmişdir. Şair diqqəti əsas qəhrəmanların- Leyli və Məcnunun dünyasına, mənəvi təkamülünə yönəldib. İnsan cəmiyyətindən təcrid olunmağa çalışan Məcnun çöldə heyvanlara üz tutur, onlarla ünsiyyət bağlayır. O, insani məhəbbətdən çox ruhani sevgiyə tapınır, öz ruhi sarsıntıları və həqiqətə, ideala can atan duyğuları ilə oxuculara qüvvətli təsir göstərir, istər-istəməz onları düşünməyə, varlığın mahiyyətini dərk etməyə çağırır.

Sərkərdə Nofəl Məcnunun yazıq, çıxılmaz vəziyyətini görüb ona kömək etmək niyyətinə düşür. Öz tabeçiliyindəki döyüşçüləri ilə Leylinin atasının tabeçiliyində olanlara hücuma

keçir. Nofəlin qələbə çalacağına əmin olan Məcnun qəflətən onun döyüşçülərini daşa basır. Nofəl Məcnunun bu hərəkətini görüb döyüşü davam etdirməyin mənasız olduğunu anlayır və öz adamları ilə birlikdə döyüş meydanını tərk edir.

İlk baxışdan oxuculara elə gəlir ki, Nofəlin Məcnunun Leyliyə qovuşmasını təmin edən döyüşünün nəticəsiz sona çatması ilə hər şey məhv olur, Məcnun məhəbbət məngənəsinə düşür. Əslində həmin döyüşə qədər Məcnun «öz Leylisinə» - haqqa, ədalətə, yüksək mənəvi zirvəyə, tanrıya qovuşmuşdu.

«Leyli və Məcnun» əsərinin əxlaqi-mənəvi nəticələri uşaq və yeniyetmələrin tərbiyəsi, mənəvi cəhətdən zənginləşməsi üçün çox gərəklidir. Hər bir insan xeyirxah əməlləri, tərbiyəsi, isanlarla xoş rəftarı, yaradana inamı ilə özünü dərk edir, kamilləşir, nura, Tanrıya qovuşur.

Bu cür yüksək əxlaq və tərbiyə sistemi ilə M.Füzuli yaradıcılığı uşaq ədəbiyyatımızın mənəvi xəzinəsi kimi əbədiyyat qazanıb.

II FƏSİL

UŞAQ ƏDƏBİYYATININ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

İnsanın mənəvi-fikri aləminin inkişafında bədii ədəbiyyatın rolu və əhəmiyyəti müstəsna dərəcədə böyükdür. Bu prosesdə bəzən ədəbiyyat həyat, dünya, cəmiyyət haqqında təsəvvürümüzü, biliyimizi genişləndirir və zənginləşdirir; bununla da bədii ədəbiyyat insana özünüdərkində kömək və təsir etmiş olur. Həmin xüsusiyyətinə görə də bədii ədəbiyyat yalnız böyük yaşlı insanlar üçün yox, uşaqlar üçün də çox əhəmiyyətlidir: uşaqların da əqli və mənəvi təşəkkülündə bədii əsərlərin rolu son dərəcə böyükdür. Məhz həmin səbəbdən bilavasitə uşaqlar və yeniyetmələr üçün yazılmış bir sıra ədəbi-bədii əsərlər mövcuddur. Bu tipli əsərlər milli ədəbiyyatımızın xüsusi bir sahəsini təşkil edir ki, həmin ədəbiyyata müasir ədəbiyyat nəzəriyyəsində uşaq və gənclər üçün bədii ədəbiyyat, yaxud sadəcə olaraq uşaq ədəbiyyatı deyilir.

Uşaq ədəbiyyatının tarixi qədimdir. İlkin təşəkkül dövründə o, ədəbiyyatın müstəqil bir sahəsi olmasa da, bədii ədəbiyyatın daxilində mövcud olmuşdur. Məsələn, bir çox Azərbaycan klassikləri məxsusi olaraq uşaq ədəbiyyatı janrlarında əsərlər yazmasalar da, onların əsərlərinin daxilində uşaqlar üçün maraqlı ola biləcək müəyyən hissələrə, bitkin bədii fraqmentlərə təsadüf etmək mümkündür ki, bunları uşaq ədəbiyyatına aid etmək olar. Məsələn, böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə" sində belə bitkin bədii fraqmentlərə təsadüf olunur ki, biz bu cür bədii parçaları, hissələri uşaq ədəbiyyatına daxil edə bilərik. Azərbaycan folkloru uşaq ədəbi nümunələri və janrları ilə-nağıl, şeir, mahnı, tapmaca və s. nümunələrlə zəngindir. Məhz bu səbəbdən belə hesab etməyə əsas vardır ki, uşaq ədəbiyyatı bütövlükdə bədii ədəbiyyatın tərkib hissəsidir, onun ayrılmaz bir qoludur. Uşaq ədəbiyyatımızın spesifikası uşağın tərbiyəsi ilə bilavasitə əlaqədardır. Vaxtilə böyük rus tənqidçisi V.Q.Belinski belə hesab edir-

di ki, məxsusi olaraq uşaqlar üçün yazılan kitablar tərbiyənin işinə onun çox vacib bir tərəfi kimi daxil olmalıdır.

Bədii əsər insanda emosional həyəcan oyadır, uşaq xəyalında yeni dünya yaradır. Vaxtilə V.Q.Belinski antik yunan eposunu, Homerin poemalarını uşaqlar üçün işləyib onları nağıl formasına salmağı təklif edirdi. O göstərirdi ki, belə nağıllar uşaqlara yaxşı təsir bağışlayır.Tənqidçi yazırdı: "Biz böyüklər də romanın uydurma olduğunu bildiyimiz halda, onu bir uydurma kimi deyil, olmuş bir hadisə kimi oxuyuruq. Biz həyəcana gəlirik, bu və ya digər şəxsiyyətin taleyinə şərik oluruq, bəzən onun həlak olmasından kədərlənirik, ağlayırıq və əsla özümüzə təsəlli vermək istəmirik ki, bu uydurmadır. Uşaqları bu zövq və həzzdən nə üçün məhrum edək?" [20, s.88].

Uşaq ədəbiyyatının dünya ədəbiyyatında böyük və qiymətli ənənələri vardır. İlk uşaq ədəbiyyatı əsərləri elmi və tərbiyəvi məzmuna malik kitablardan-əlifba, müxtəlif ensiklopedik, ədəb qaydalarını təlim edən əsərlərdən ibarət olmuşdur. Belə tipli əsərlər, məsələn, Avropada XIV-XVI əsrlərdə yaranmışdır. Rus dilində isə ilk uşaq kitabı-əlifba kitabı olmuşdur ki, onun müəllifi İvan Fidorovdur (1574) [16, s. 91].

Azərbaycanda uşaqlar üçün ədəbiyyatın özünəməxsus tarixi vardır. İlkin mərhələdə bu ədəbiyyat şifahi xalq yaradıcılığından, folklor əsərlərindən ibarət olmuşdur. Ötən əsrlərdə də uşaqlar əsasən mollaxanalarda təhsil ala bilirdilər və bu tipli mədrəsələrdə, məsələn, Sədinin "Gülüstan" kimi kitabları öyrədilirdi. Maarifçilik hərəkatının və düşüncəsinin təşəkkülü ilə XIX-XX əsrlərdə uşaqlar üçün ədəbiyyatın yaradılması məsələsi aktuallıq kəsb etməyə başlayıb. Xüsusi ilə XX əsrdə uşaq ədəbiyyatı milli ədəbiyyatın ayrıca bir sahəsi kimi yeni inkişaf prosesi keçirib.Təbii və qanunauyğun olaraq uşaq ədəbiyyatı problemləri ədəbi-nəzəri fikrin, ədəbi tənqidin, müəyyən mərhələlərində hətta ədəbiyyatşünaslığın predmetinə çevrilib. Ədəbi tənqiddə uşaq ədəbiyyatının elmi-nəzəri ümumiləşdirilməsi bu mərhələdə ədəbiyyatın birinci dərəcəli yaradıcılıq vəzifələrindən olmuşdur. XX əsr uşaq ədəbiyyatı problemləri

milli ədəbi-nəzəri fikrin, ədəbi tənqidin daim diqqət mərkəzində dayanmışdır. Bu əsrdə ədəbiyyatın xalqın mənəvi həyatında, onun milli intibahında və özünüdərkində artan rolu ilə bilavasitə əlaqədardır.

Azərbaycan uşaq ədəbiyyatından, ilk dərsliklərimizin yaranmasından, milli pedoqoji fikrin təşəkkül tarixindən bəhs edərkən A.O.Çernyayevskinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Təkcə Azərbaycanda deyil, Qafqazın müxtəlif regionlarında maarif, məktəb məsələlərinin pedaqoji proseslərin canlanmasında, ilk müəllim kadrların hazırlanmasında A.O.Çernyayevskinin xidmətləri əvəzsizdir. O Azərbaycan uşaqlarının ana dilində ibtidai təhsilinin elmi cəhətdən əsaslandırılan metodikasını meydana çıxarmışdır. «Vətən dili» dərsliyinin müəllifi olan bu böyük pedaqoq azərbaycanlı uşaqlar üçün «Rus dili» dərsliyinin tərtibatçısıdır. 1868-ci ildə Mərəzədə Şamaxı qəzasının ilk xalq məktəbini açan A.O.Çernyayevski Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılmasında mühüm xidmətlər göstərmişdir. Bu dəyərli şəxsiyyət Azərbaycanlılar yaşayan şəhər və kəndləri bir-bir gəzir, istedadlı uşaqları Qori Müəllimlər Seminariyasında təhsil almağa gətirirdi.

Uşaq ədəbiyyatı ədəbi fikrin nisbətən cavan sahəsi olsa da, cəmi iki əsrə yaxın bir müddətdə müəyyən inkişaf yolu keçmiş, öz zəngin bədii arsenalı, tərbiyəvi mahiyyəti, əxlaqi-mənəvi dəyərlər sistemi ilə ədəbi-tarixi prosesin müstəqil bir sahəsi kimi özünü təsdiq etmişdir. Hansı coğrafi ərazidə, hansı ictimai-siyasi sistemdə yaranmasından asılı olmayaraq ancaq bir məqsədə xidmət etmişdir; yeni nəslin təlim-tərbiyəsini düzgün istiqamətdə aparmaq, onlara müxtəlif elmlərin əsasını mənimsətmək, təbiət və cəmiyyət hadisələri haqqında təsəvvürləri genişləndirmək və sistemli bilik vermək. Həmin kontekstdən yanaşsaq, əvvəlki dövrlərdə olduğu kimi, milli müstəqillik illərində də uşaq ədəbiyyatı və onun tədqiqi məsələləri öz aktuallığını daha da artırıb.

Azərbaycanda uşaq ədəbiyyatının yaranması və təşəkkülü milli maarifçi ideologiyanın meydana gəlməsi ilə bilavasitə

əlaqədardır. Millətin təhsilə, təlim-tərbiyəyə, ana dilini qoruyub saxlamağa olan mənəvi ehtiyac bu ədəbiyyatın zəruriliyini şərtləndirirdi. XX əsrin II yarısında milli qiraət kitablarına, ana dilli dərsliklərə olan ehtiyac maarifçi yazıçılarımızı yeni uşaq əsərləri yaratmağa sövq edirdi. Həmin dövrə qədər uşaq ədəbiyyatı ədəbi irsin müstəqil bir qolu kimi təmsil olunmadığından, dərslik müəllifləri daha çox uşaq ədəbiyyatının folklor qanadını – nağıl, dastan, rəvayətləri, klassik sənətkarlarımızın bir sıra əsərlərini dərsliklərə salırdılar. Eyni zamanda, dövrün maarifçi ziyalılarına müraciət olunur, onların yeni əsərləri dərsliklərdə yer alırdı. Həmçinin dünya klassik uşaq ədəbiyyatından yeni tərcümələrdən də istifadə olunur, bu əsərlər seçmə yolla balaca oxucuların istifadəsinə verilirdi. Elmə, maarifə, tərəqqiyə çağırış, böyüyə hörmət, vətəni sevmək, insanlara məhəbbətlə yanaşmaq uşaq əsərlərinin başlıca qayğılarından idi.

Azərbaycanın ilk mətbuat orqanı olan «Əkinçi» qəzeti, daha sonra «Kəşkül» və «Ziya» uşaqların bədii zövqünün inkişaf etdirilməsi, əqli potensialının gücləndirilməsi üçün çox vacib olan ədəbi-tarixi missiyanın həyata keçməsi yolunda böyük işlər görür, H.Zərdabi, C.Ünsizadə, A.O.Çernyayevski, S.Vəlibəyov, R.Əfəndiyev kimi ziyalılarımız öz əsərləri və dərslikləri ilə mədəni tərəqqiyə xidmət edirdilər. 1879-cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılması ölkəmizdə məktəb, maarif, təhsil məsələlərinə diqqətin artmasının nəticəsi idi.

Marksist tənqid və ədəbiyyatşünaslıq kommunist ideologiyasını təsdiq və təmin etmək, yaşamaq və yayılmaq imkanlarını gerçəkləşdirmək məqsədi uğrunda mübarizədə uşaq ədəbiyyatından bir vasitə kimi istifadə edirdi. Cəmiyyətin ideoloji dayaqlarının möhkəmləndirilməsi prosesində uşaq və yeniyetmələrin tərbiyəsinə, siyasi yetkinliyinə diqqət yetirən marksist sənət nəzəriyyəçiləri uşaq ədəbiyyatının tədqiqini siyasi amillərlə bağlayırdılar. Bu zaman uşaq ədəbiyyatı üçün daha vacib olan bədii sənətkarlıq, estetika məsələləri belə arxa plana keçir, uşaq sənətkarlarından tarladan, zavoddan, pambıqdan, neftdən, əmək qəhrəmanlarından yazmaq tələb olunurdu. Be-

ləliklə, uşaqların yaş və bilik səviyyəsinə uyğun gəlməyən, onların zövqünü oxşamayan, diqqətini cəlb etməyən çoxsaylı, məzmun və forma cəhətdən bəsit əsərlər meydana gəlirdi ki, bu gün həmin əsərlərin əksəriyyəti öz dəyər və qiymətini itirmişdir.

Lakin buna baxmayaraq sovet hakimiyyəti dövründə uşaq ədəbiyyatının inkişafı, tədqiqi xüsusi diqqət və qayğı ilə əhatə olunmuşdu. 30-cu illərdən fəaliyyətə başlayan Uşaq və Gənclər Nəşriyyatı Dünya, Qərbi Avropa və Rus Uşaq Ədəbiyyatı ilə birlikdə, milli uşaq ədəbiyyatının bir çox nümunələrini nəşr etmişdi. Müxtəlif partiya, dövlət sənədlərində, Yazıçılar İttifaqının qurultay və plenumlarında uşaq ədəbiyyatı ilə bağlı geniş diskussiyalar aparılmış, uşaq ədəbiyyatının məktəb həyatı ilə, təhsillə birləşdirilməsi təmin edilmişdi. Ədəbiyyat tarixlərində, dərslik və dərs vəsaitlərində, ədəbiyyat müntəxabatlarında uşaq əsərlərinə ayrıca yer ayrılmış, məzmunlu, yığcam, konkret təhlillər aparılmışdı.

Uşaq ədəbiyyatı XX əsr ədəbiyyatının aparıcı sahələrindən olmuşdur. Hələ əsrin əvvəllərində uşaqlar üçün ilk jurnallar meydana çıxmışdır; həmin jurnallarda fəaliyyət göstərən ədiblər uşaqlar, yeniyetmələr üçün bədii ədəbiyyatın yaradılmasının zəruriliyini dərk edərək bu yolda yorulmadan mübarizə aparırdılar. Bu isə qanunauyğun olaraq uşaq ədəbiyyatı problemini tənqidin, ədəbi fikrin təxirəsalınmaz bir problemə çevirmişdi. Əsrin əvvəllərindən tənqiddə qoyulan bu problem 1920-ci ildən sonrakı ədəbi prosesdə, başqa sözlə desək, sovet ədəbiyyatının yarandığı, təşəkkül və inkişaf etdiyi dövrlərdə daha böyük, geniş miqyaslı əhəmiyyət kəsb etmişdir: uşaq ədəbiyyatı ədəbi inkişafın ayrılmaz bir hissəsi olmuşdur; onun cəmiyyətin həyatında, yeni nəslin tərbiyəsində, xarakterinin formalaşmasında rolu və vəzifələri müntəzəm olaraq ciddi müzakirələrin və yaradıcılıq problemləri ətrafında həyata keçirilən tədbirlərin mövzusu və predmeti olmuşdur.

Tənqid bütövlükdə ədəbiyyatın problemlərini, cari vəzifələrini nəzərdən keçirərkən uşaq ədəbiyyatı da həmişə onun diqqət mərkəzində dayanmışdır. Buna görə uşaq ədəbiyyatı,

onun spesifikası, vəzifələri ədəbi tənqidin ayrılmaz bir problemi olmuşdur ki, onun tarixini üzə çıxarmaq əslində əsrin ədəbi tənqidinin çox geniş probleminin öyrənilməsi deməkdir. Tədqiqatın mövzusunun aktuallığı da ilk növbədə bununla izah edilə bilər. Lakin problemin, mövzunun elmi aktuallığı yalnız bununla məhdudlaşmır. Bu amil onun elmi aktuallığının əsas cəhəti olsa da, problemin tədqiqat aktuallığının digər aspekti yox deyildir. Belə ki, əsrin ədəbi tənqidində uşaq ədəbiyyatı mövzusu bütövlükdə XX əsr ədəbi tənqidinin tarixi baxımından çox mühüm bir mövzudur. Əsrin ədəbi tənqidinin tarixini öyrənərkən bu problemdən də sərf- nəzər etməmək qeyri-mümkündür.

Dərs vəsaitinin tədqiqat obyekti ədəbi tənqiddə uşaq ədəbiyyatının yaradıcılıq axtarışlarının necə dərk olunmasıdır; ədəbi tənqid və ədəbiyyatın qarşılıqlı əlaqəsini göstərməkdir. Lakin dərs vəsaitində bu böyük mövzu yalnız uşaq ədəbiyyatının mərhələləri, onun öyrənilməsinin müxtəlif aspektləri ilə konkretləşdirilir. Buna əsasən də uşaq ədəbiyyatının tənqiddə qoyuluşu və işıqlandırılması, uşaqlar üçün yeni, daha maraqlı, məzmunlu əsərlərin yaranmasının ədəbiyyatşünaslığımızda və ədəbi tənqidimizdəki meyarları araşdırılır.

Ötən əsrdə Azərbaycan ədəbiyyatında uşaqlar üçün yeni, müasir məzmunlu ədəbi-bədii əsərlərin yaradılması, uşaq ədəbiyyatı janrları sahəsində yeni axtarışların qüvvətlənməsi və intensiv xarakter alması bütövlükdə milli ədəbi-nəzəri prosesin ən xarakter xüsusiyyətlərindən olmuşdur. Bu mühüm vəzifə hələ əsrin əvvələrində ədəbi prosesin qarşısında durmuşdu və bilavasitə uşaqlar üçün mətbuatın yaranması da bu tələblə əlaqədardır. Sonrakı mərhələdə, xüsusilə 20-ci illərdən sonra, sovet ədəbiyyatının təşəkkül və inkişafı dövrlərində uşaq ədəbiyyatı daha böyük ideya-tərbiyəvi əhəmiyyət kəsb etmişdir. Ədəbiyyatın bu sahəsinə dövlət səviyyəsində, yeni cəmiyyət quruculuğu vəzifələri, yeni insanın yetişməsi və tərbiyə olunması məsələləri mövqeyindən daha ciddi və müntəzəm diqqət yetirilmişdir. Bu isə ilk növbədə ədəbi tənqiddə uşaq ədəbiyyatının xüsusi bir problemini təşkil etməsi ilə nəticələnmişdir. Tən-

qidin həmin ədəbi sahəyə müntəzəm müraciət etməsini öyrənmək uşaq ədəbiyyatının inkişafında tənqidin rolunu, problemlərinin miqyasını meydana çıxarmağa imkan verə bilər.

Uşaq ədəbiyyatının inkişafına, həyatın, cəmiyyətin onun qarşısına qoyduğu yaradıcılıq vəzifələrinin gerçəkləşməsinə tənqidin təsirini, onun bu mürəkkəb prosesdəki rolunu göstərmək dərs vəsaitinin başlıca problematikasıdır. Uşaq ədəbiyyatı və ədəbi tənqidinin zaman etibarilə böyük bir tarixi dövr ərzindəki əlaqələrini, tənqidin uşaq ədəbiyyatına müraciətinin səbəblərini göstərməyi də qarşıya məqsəd qoymuşuq. Bu əsas tədqiqat məqsədi dərs vəsaitinin elmi vəzifələrini təyin edir. Şübhəsiz ki, əsas vəzifə-uşaq ədəbiyyatının təşəkkülündə və inkişafında ədəbi tənqidin rolunu göstərməkdən ibarətdir.Bu məqsədə nail olmaq üçün monoqrafiyada bir sıra tədqiqat vəzifələri yerinə yetirilmişdir:

- əsrin ədəbi prosesində uşaq ədəbiyyatı problemlərinin aktuallığını göstərmək; həmin problemlərin ümumi ədəbi inkişaf kontekstində həllini işıqlandırmaq;
- uşaq ədəbiyyatı sahəsində həyata keçirilən ictimai-mədəni tədbirlərin ədəbiyyatın bu mühüm sahəsinin inkişafında rolunu təyin etmək;
- görkəmli yazıçıların fəaliyyətində və görüşlərində uşaq ədəbiyyatı məsələlərinə münasibəti aydınlaşdırmaq;
- ədəbi tənqiddə uşaq ədəbiyyatının nəzəri dərki istiqamətlərini müəyyənləşdirmək, uşaq ədəbiyyatına münasibətdə tənqidin metodoloji imkanlarını müəyyən etmək;
- uşaq ədəbiyyatının janr, üslub aydınlığı və əlvanlığı istiqamətində ədəbi tənqidin fəaliyyətini üzə çıxarmaq.

Dərs vəsaitində əsas məqsəd uşaq ədəbiyyatı tənqidinin bütövlükdə əsrin ədəbi tənqidinin çox mühüm tərkib hissəsi olmasını göstərməkdir; tənqidin ümumi yaradıcılıq problemləri zəminində uşaq ədəbiyyatı tənqidinin xüsusi bir sahə təşkil etdiyini əsaslandırmaqdan ibarətdir.

Məlumdur ki, milli ədəbiyyat tarixini öyrənmək ötən əsr ədəbiyyatşünaslığının ümdə elmi və metodoloji istiqamətini təşkil etmişdir. Bu prosesdə, təbii ki, uşaq ədəbiyyatı da elmi-

nəzəri fikrin diqqətindən kənarda qalmamışdır. Məsələn, belə əsərlər sırasında 1987-ci ildə Moskvada nəşr olunan "Azərbaycan uşaq ədəbiyyatı" (Zahid Xəlil), "Azərbaycan sovet uşaq ədəbiyyatının inkişaf yolu", "Uşaqların sevimliləri" (Ə.Əzizov), "Azərbaycan uşaq ədəbiyyatı" ("Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları əsasında, Ə. Məmmədov), "Azərbaycan uşaq ədəbiyyatı" (Q.Namazov), "Azərbaycan uşaq ədəbiyyatı tarixi" (F.Fərhadov, A.Hacıyev), "Azərbaycan sovet uşaq nəsri" (A.Hacıyev) monoqrafiya və kitablarını qeyd etmək mümkündür. Son illərdə prof. Xeyrulla Məmmədov "Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı" nı hazırlamışdır. Bu əhatəli əsərin artıq XIX əsrin sonu XX əsrin əvvələrinə həsr olunan birinci və ikinci cildləri nəşr olunmuşdur. Beləliklə, artıq uşaq ədəbiyyatı problemlərinin öyrənilməsi istiqamətində müasir ədəbiyyatşünaslığın müəyyən qiymətli təcrübəsi vardır və bu təcrübə əsasında milli uşaq ədəbiyyatının tədqiqini davam etdirmək və dərinləşdirmək mümkündür. Bu cəhətdən uşaq ədəbiyyatı tədqiqinin XX əsr ədədi tənqidində xüsusi və geniş bir sahəni təşkil etdiyini göstərmək lazımdır. Bununla yanaşı eyni zamanda aşagıdakı müddəaları da qeyd etməyi lazım bilirik:

- uşaq ədəbiyyatı tənqidin spesifik bir müzakirə mövzusu və predmeti olmuşdur;
- uşaq ədəbiyyatının ideyası, yaradıcılıq xüsusiyyətləri, janr-üslub məsələləri tənqidin problem miqyasını təyin etmişdir;
- uşaq ədəbiyyatını öyrənərkən tənqid yeni insanın obrazını yaratmaq problemini bu ədəbiyyatın başlıca yaradıcılıq vəzifəsi səviyyəsində qoymuş və aydınlaşdırmışdır.

Uşaq ədəbiyyatının öyrənilməsi sahəsində Azərbaycan tənqidinin və ədəbiyyatşünaslığın müəyyən təcrübəsi vardır. Bu da ilk növbədə gənc nəslin yetişməsində, tərbiyəsində və yeni insan olaraq formalaşmasında milli uşaq ədəbiyyatının Azərbaycan cəmiyyətindəki artan rolu və mövqeyi ilə bilavasitə bağlıdır. Xüsusilə, uşaq ədəbiyyatı ötən əsr boyu milli ədəbi prosesin ayrılmaz bir yaradıcılıq sahəsini təşkil etmişdir.

Uşaq ədəbiyyatı ilə bağlı ədədi tənqidin, nəzəri fikrin təşəkkülü bu amillə izah oluna bilər. Uşaq ədəbiyyatı tənqidinin öyrənilməsi də bu ədəbi yaradıcılıq növünün bütövlükdə cəmiyyətin, xalqın tərəqqisində, mənəvi mədəniyyətinin inkişafında rolunu özündə əks etdirir. O biri tərəfdən uşaq ədəbiyyatı tənqidi, məlumdur ki, bütövlükdə əsrin ədəbi tənqidinin, onun tarixi və nəzəri-metodoloji təşəkkülünün tərkib hissəsidir. Deməli, onun öyrənilməsi bütövlükdə əsrin ədəbi tənqidinin elmi tarixini yaratmaq baxımından da əhəmiyyətli, gərəkli bir ədəbiyyatşünaslıq vəzifəsinin gerçəkləşdirilməsidir.

UŞAQ ƏDƏBİYYATININ SPESİFİKASI

Artıq qeyd edildiyi kimi, XX əsr Azərbaycan ədəbiyyatında uşaq ədəbiyyatı ən aktual və zəruri bir yaradıcılıq sahəsini təşkil etmişdir. Ancaq bunu da qeyd edək ki, klassik ədəbiyyatımız da uşaq ədəbiyyatı nümunələri və ənənələri ilə zəngindir. Bədii ədəbiyyatla yanaşı, şifahi ədəbiyyatımızda da uşaq ədəbiyyatı xüsusi bir sahəni təşkil edir. Şifahi ədəbiyyatımızda uşaq ədəbiyyatına xas spesifik mövzular və janrlar təşəkkül tapmışdır ki, bütün bunlar XX əsr uşaq ədəbiyyatının ənənələri olaraq yeni dövr uşuq ədəbiyyatına son dərəcə müsbət təsir göstərmişdir.

İlk Azərbaycan maarifçilərindən hesab olunan A.Bakıxanov uşaq və yeniyetmələrin təlim-tərbiyəsi, maariflənməsi ilə bağlı 1830-cu ildə fars dilində "Qanuni- Qüdsi" adlı dərslik hazırlamışdır. Burada balaca oxuculara maraqlı görünən şer parçaları verilmişdir. Dərslik fars dilinin qayda-qanunlarından bəhs etsə də, əxlaqi –mənəvi keyfiyyətinə görə uşaq və yeniyetmələrin zövqünü oxşayırdı. "Təhzibi- əxlaq", "Kitabi- Nəsihət" əsərlərində də o, uşaqları mənəvi təmizliyə, düzlüyə, əqidə saflığına çağırırdı. Bunlar ilk maarifçilik cərəyanının uşaq ədəbiyyatına verdiyi ilk tərbiyəvi əsərlərdir. Hər iki əsərdə A.Bakıxanov Azərbaycan gənclərini elmə, maarifə çağırırdı. Maraqlıdır ki, özü yüksək rütbəli çar çinovniki olmasına baxmayaraq, ədib islam adət-ənənələrinə hörmətlə yanaşır, uşaqları da bu ruhda tərbiyə etməyə çağırırdı. A.Bakıxanovun "Ümidin boşa çıxması", "Uşaq və Günəş", "Qarı və Harun" və s. mənzum hekayələrini də uşaq ədəbiyyatı nümunəsi hesab edə bilərik. A.Bakıxanovun əsərləri Azərbaycan dilində dərsliklərin olmadığı onilliklərdə uşaqlar tərəfindən dərslik kimi istifadə edilmişdir.

Satirik poeziyamızın ilk yaradıcılarından olan Q.Zakirin uşaqlar və yeniyetmələr üçün nəzərdə tutulan "Dəvə və Eşşək", "Tısbağa, Qarğa, Kəsəyən, Ahu", "Tülkü və Şir", "Tülkü və qurd" təmsillərində də azyaşlılarda zülmə, əsarətə qarşı mübarizə, gözəl insani keyfiyyətlər, mərdlik, insanpərvərlik

təbliğ olunur. "Həyasız dərvişlər haqqında", "Tərlanlar və Elçilər", "Həyasız dərviş və ismətli qadın" mənzum hekayələrində avamlıq, sadəlövlük, axmaqlıq tənqid olunur.

XIX əsrin II yarısında yeni dərsliklərin hazırlanmasında, müasir üsullu məktəblərin açılmasında, uşaq əsərlərinin yazılmasında S.Ə.Şirvaninin xidmətləri böyükdür. O, ilk dəfə Şamaxıda " Üsuli-cədid " məktəbi açmış, həmin məktəbdə uşaqlara ana dili və ədəbiyyatdan, coğrafiya, tarix və hesabdan dərs demişdir. Bununla kifayətlənməyərək "Məcmueyi-asari Hacı Seyid Əzim Şirvani" adlı dərslik-müntəxabat da yazmışdır. Dərsliyə fars ədəbiyyatından nümunəvi parçalar, Sədi Şirazinin "Gülüstan" və "Büstan" əsərlərindən maraqlı nümunələr verməklə yanaşı, öz uşaq şeirlərini də daxil etmişdir.

1887-ci ildə Şamaxıda S.M.Qənizadə və M.Mahmudbəyovun fəaliyyəti nəticəsində rus-müsəlman məktəbi açılıb. Məktəbdə dini elmlərlə birlikdə, dünyəvi elmlər də tədris olunurdu. Fədakar Azərbaycan maarifçilərinin bu cür səmərəli fəaliyyəti nəticəsində Şuşa, Şəki, Lənkəran və başqa bölgələrdə də yeni tipli məktəblər açılmağa başladı. Yeni üsullu məktəblərdə tədris vasitələrinin olmadığını nəzərə alaraq A.O.Çernyayevski "Vətən dili", R.Əfəndiyev "Uşaq bağçası" dərsliklərini nəşr etdirdilər.

XIX əsrin 90-cı illərindən başlayaraq xalqımızın mənəvi inkişafında, maarifçilik ideyalarının yayılmasında, uşaq ədəbiyyatının təşəkkülündə S.S.Axundov müstəsna xidmətlər göstərmişdir. Azərbaycan müəllimlərinin birinci və ikinci qurultaylarında ana dilinin tədrisi, yeni dərslik və proqramların yazılması, yeni əlifbanın yaradılması ilə bağlı çıxışları ilə xalqımızın rəğbətini qazanan ədib 40 ildən artıq müəllimlik fəaliyyəti göstərmişdi. 1911-ci ildə Bakıda "Məktəb" jurnalının nəşrindən ilham alaraq "Qorxulu nağıllar"ı tamamlamış, jurnalın muxtəlif nömrələrində əsərin "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız" hissələrini nəşr etdirmişdir. Balaca oxucular S.S.Axundovun bu hekayələrini çox maraqla qarşılamışdır. Çünki hekayələrdə müəllif uşaq psixologiyasını, düşüncəsini, marağını düzgün ifadə etməyi bacarmış,

uşaq və yeniyetmələrin hər cür çətinliyə, gözlənilməzliyə, qorxulu hadisələrə hazır olması fikrini aşılamışdır. Yazıçı "Cəhalət qurbanı", "Qan bulağı", "Qatil uşaq", "Sona xala" hekayələrində düzlük, doğruçuluq alicənablıq, zülmə, hər cür cəhalətə qarşı mübarizə ideyasını irəli sürmüşdür.

S.S.Axundovun "Qorxulu nağılları" nın əsas qəhrəmanları uşaqlardır. Balaca qəhrəmanlar çətin sınaqlardan keçir, həyatda yaxşı və pis adamlarla təmasda olurlar. Yazıçı çox vaxt əsərlərində tünd boyalardan istifadə edir, öz kiçik qəhrəmanlarını ağır imtahan qarşısında qoyur. Buna görə də hələ o dövrdə bəzi ədəbiyyat mütəxəssisləri "Qorxulu nağıllar" ın uşaq psixologiyasına ağır zərbə vurduğunu deyirdilər.

XX əsrin əvvəllərində ictimai-siyasi həyatda olduğu kimi, ədəbi düşüncədə də böyük bir sıçrayış, yeniliyə, müasirliyə güclü meyl özünü göstərməyə başladı. Maarifə, elmə, müasir təlim-tərbiyəyə Azərbaycan maarifçiləri daha çox diqqət yetirir, epiqonçu, sxolostik, formalist şeir ənənələrinə maraq azalırdı. Ədəbiyyatın qarşısına qoyulan məlum tələb və meyarlara A.Səhhətin (1874-1918) "Təzə şir necə olmalıdır" məqaləsində cavab tapmaq mümkündür. "Təzə şeir necə olmalıdır" məqaləsi təkcə A.Səhhətin ədəbi mövqeyini ifadə etmirdi. Burada XX əsr Azərbaycan maarifçiliyinin, milli romantik poeziyanın ədəbi-tarixi missiyası açıq-aydın ifadə olunurdu. A.Səhhət "insan üçün mərifət və ibrət tərsi hüsula gətirməyən" sxolastik ədəbiyyatı kəskin tənqid edir, müasirlərini " hissiyyatitərbiyyə" yə daha çox üstünlük verməyə çağırırdı. Şair eyni tələbi uşaq ədəbiyyatının da qarşısına qoyur, özü bu yolda yorulmadan, fədakarcasına çalışır, bir tərəfdən müəllimlik edir, maarifçilik fəaliyyətini genişləndirir, yeni məktəblərin açılmasına nail olmağa çalışır, kitabxanaların yaradılmasına cəhd edir, eyni zamanda özü yeni uşaq əsərləri yazırdı. A.Səhhət uşaqlar üçün yazdığı lirik şeirlərdə, təmsillərdə, səhnə əsərlərində əxlaqi-mənəvi məsələlər, vətənpərvərlik, milli şüur və milli təfəkkür kimi problemləri önə çəkirdi. O öz əsərlərində Azərbaycanın füsunkar təbiətini sevə-sevə tərənnüm etmiş, uşaq və yeniyetmələrdə vətənpərvərlik hissinin tərbiyəsinə xid-

mət göstərmişdir. Ədib həm də tərcüməçilik fəaliyyətini genişləndirmiş, rus, Avropa, gürcü xalqlarının ədəbi irsindən yeni tərcümələr edərək həmin əsərləri "Məğrub günəşləri" adlı iki kitabda, "İlk qiraət", "Yeni məktəb", "İkinci il", "Gülzar" dərsliklərində, "Dəbistan" "Məktəb" jurnallarında nəşr etdirmişdir. A.Səhhətin rus və Avropa ədəbiyyatından çoxsaylı tərcümələri bu gün də balaca oxucular tərəfindən maraqla oxunur.

Tədqiqatçılarımızın hamısı birmənalı olaraq Abdulla Şaiq Talıbzadəni Azərbaycan uşaq ədəbiyyatının banilərindən biri hesab edir. Uşaq dərsliklərinin və proqrammlarının, uşaq bədii nəsri, dramaturgiyası və şeirinin yaranmasında, uşaq və gənclərin təlim-tərbiyəsində bəlkə də onun qədər ardıcıl, məqsədyönlü mübarizə aparan ikinci bir ədəbi şəxsiyyət göstərmək mümkün deyil. Ona görə də o hələ sağlığında müasirləri tərəfindən müəllimlər müəllimi kimi qiymətləndirilmişdi. Xalq müəllimi, şair, dramaturq, nasir, tərcüməçi kimi XX əsr Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutur. Əsrin əvvəllərində fəaliyyətə başlayan bu böyük maarifçi ədib məktəblərdə tədris olunmaq üçün ana dili və ədəbiyyatı dərsliklərinə olan ehtiyacı hiss edərək bir tərəfdən yazıçı dostlarına üz tutmuş, onlara yeni uşaq əsərləri yazmağı tövsiyyə etmiş, digər tərəfdən özü uşaq şeirləri yazaraq yeni dərsliklərin meydana çıxmasına şərait yaratmışdır.

Millətin bu ehtiyacını nəzərə alan A.Şaiq müxtəlif illərdə "Uşaq çeşməyi", " İkinci il", "Gülşəni-ədəbiyyat", "Gülzar", "Milli qiraət", "Qiraət kitabı", "Dördüncü il " kimi dərsliklər tərtib etmişdir. Şairin əsrin əvvəllərində yazdığı "Tıq-tıq xanım", "Tülkü həccə gedir ", "Şəlalə" kimi mənzum hekayələri, "Əhdəm", "İki familyanın məhvi", "Zəhmət və Ziynət", "Qoçpolad" kimi poemaları, "Gözəl bahar", " Danışan kukla", "İntiqamçı xoruz", " Çoban", " Tütək səsi", " Bir saatlıq xəlifə", "Xasay" kimi dramları bu gün də oxucular tərəfindən sevilə –sevilə oxunur, bir sıra əsərləri səhnələşdirilərək balaca oxuculara təqdim olunur. 1934-cü ilə qədər pedaqoji fəaliyyət göstərən ədib ömrünün sonrakı illərində daha çox bədii yara-

dıcılıqla məşğul olmuşdur. O, 1910-cu ildə yazdığı " Köç" əsəri ilə ədəbiyyatımıza ilk dəfə hekayə janrı gətirmişdir.

Müstəqil Azərbaycan Cumhuriyyəti rəhbərlərinin önəm verdiyi, daha çox etibar etdiyi müəllimlərdən, ədiblərdən biri də A.Şaiq idi. Təhsil ocaqlarının milliləşdirilməsi işində böyük işlər görən ədib " Məktəblərimiz" məqaləsində məktəbi millətin nur və səadət çırağı adlandırır, milli məktəblərin yaradılması zərurətindən danışır, eyni zamanda uşaq və gənclərin təhsili, təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərin azlığından şikayətlənirdi. 1918-ci ildə A.Şaiq beş məktəbi milliləşdirməyə nail olmuşdu. Həmin məktəblərdə ədib ana dili və ədəbiyyatdan dərs deyirdi. Onu da xatırladaq ki, 1923-cü ildə pedaqoji fəaliyyətinin 20 illiyi ərəfəsində bu məktəb " Şaiq adına nümunə məktəbi" adlandırılmışdır.

A.Şaiq müstəqillik dövründə hər vasitə ilə müəllimlərin maaşının artırılmasına çalışırdı. "Məktəblərimiz" məqaləsində maarif işinin dirçəldilməsində müəllimlərin şəxsi təşəbbüsünə, maddi rifahına xüsusi diqqət yetirməyi vacib hesab edirdi. Onun 1920-ci ildə tərtib etdiyi "Türk ədəbiyyatı" dərsliyində Azərbaycan və Türk ədəbiyyatına, eyni zamanda Avropa ədəbiyyatı nümunələrinə müraciət olunmuşdur.

Olduqca səciyyəvi bir haldır ki, bu bütün əsr boyu ədəbiyyatımızın, milli ədəbi prosesin əsas istiqamətlərindən biri olmuşdur. Ədəbi tənqidimizdə uşaq ədəbiyyatının spesifikası, vəzifələri və problemlərinin geniş miqyasda qoyulması və həlli bilavasitə uşaq ədəbiyyatının əsrin ədəbi inkişafındakı bu mövqeyi və səviyyəsi ilə bağlıdır: bilavasitə uşaq ədəbiyyatının izlədiyi məqsəd və ideallarla izah oluna bilər və olunmalıdır.

Ədəbiyyatımızın bu sahəsində fəaliyyət göstərən, bütün yaradıcılıq imkanlarını uşaqlar üçün əsərlər yaratmağa sərf edən yazıçılar bir nəcib məqsəd güdmüşlər; uşaq təbiətinin, uşaq aləminin gözəlliyini, yüksək poeziyasını açıb göstərmək, sadə, lakin mənalı obrazlarla təsvir etmək. Vaxtilə böyük şairimiz S.Vurğun belə demişdir: "Uşaq insandır! Onun sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur. Düşünmək, duymaq, sevmək, kü-

süb-incimək, ağlamaq, gülmək, qəzəblənmək, xatırlamaq, xəyala dalmaq, ümid və arzulara bağlanmaq, yaxınlıq, hörmət-bütün insan xassələri uşaq aləmində mövcuddur"[115, s.311].

Bu sözlərlə S.Vurğun əslində uşaq ədəbiyyatının spesifikasını, mövzu və fikri aləmini açıb göstərmişdir. Həqiqətən böyük ədəbiyyata məxsus bütün xüsusiyyətlər uşaq ədəbiyyatına da xasdır: hətta belə hesab etmək olar ki, ədəbiyyatda uşaq aləmini, uşaq hisslərini və psixologiyasını yüksək bədiiliklə əks etmək daha çətin və mürəkkəb bir yaradıcılıq vəzifəsidir. Bu da ilk növbədə, şübhəsiz ki, uşaq ədəbiyyatının təbiəti, bir sıra spesifik xüsusiyyətləri ilə bağlıdır. Bu xüsusiyyətlərin bəzilərini, ən səciyyəvi olanları göstərməzdən əvvəl belə bir cəhəti qeyd etməyi lazım bilirik ki, əsasən XX əsr milli ədəbi-nəzəri fikrimizdə uşaq ədəbiyyatı bədii yaradıcılığın xüsusi bir sahəsi olaraq meydana çıxır, milli maarifçilik düşüncəsinin inkişafı ilə əlaqədar olaraq təşəkkül tapır və müəyyənləşir.

Əlbəttə, uşaq ədəbiyyatı nümunələri, janrları həmişə mövcud olmuşdur; xüsusilə də XIX əsrdə bu ədəbiyyata xas janrların yarandığını görə bilərik. Bilavasitə özündə uşaq ədəbiyyatı xüsusiyyətlərini, tərbiyəvi vəzifələri daşıyan əsərlərə XIX əsrdə yazıb yaradan bir çox yazıçıların, maarifçilərin yaradıcılığında təsadüf edirik. Lakin XX əsrdə bu ədəbi sahə milli ədəbi prosesin əsas hərəkatına çevrilir, yeni nəslin tərbiyəsi, müasir ruhda yetişməsi qayəsi ilə aşılanır, forma və janr etibarilə sadə uşaq ədəbiyyatı formalaşır.

Uşaq ədəbiyyatı da bütövlükdə bədii ədəbiyyata daxildir. Bədii ədəbiyyata xas olan əsas səciyyəvi xüsusiyyətlər uşaq ədəbiyyatının mahiyyətinə və məzmununa da aiddir. Ümumilikdə bir bədii yaradıcılıq forması kimi bədii ədəbiyyata xas olan xüsusiyyətlər uşaq bədii ədəbiyyatının da spesifikasını, özünəməxsusluğunu təşkil edir. İncəsənətin növü olmaq etibarilə bədii ədəbiyyat dünyanı, xarici aləmi, gələcəyi bədii, obrazlı göstərən idrak formasıdır. Bədiilik uşaq ədəbiyyatının əsas spesifikasıdır. Bədiiliyin əsası isə obrazlılıqdır: həyatı və hadisələri obrazlı təcəssüm etdirməkdir. İncəsənətin hər növündə obrazı yaratmağın, obrazı təcəssüm etdirməyin vasitə-

ləri vardır. Bədii ədəbiyyatda bu vasitə sözdür. Məhz bu səbəbdən də bədii ədəbiyyatın digər xüsusiyyəti onun söz sənəti olmasından ibarətdir. Uşaqlar üçün bədii sənətin müxtəlif növləri vardır: hər növ də özünəməxsus bədii ifadə vasitələrinə malikdir. Söz bədii təxəyyülü ifadə edir, onu obraza çevirir. Bədii ədəbiyyatın əsas janrları uşaq ədəbiyyatının janr tipologiyasını təşkil edir. Lakin böyüklər, yaşlılar üçün yaradılan bədii ədəbiyyatdan fərqli olaraq uşaq ədəbiyyatının başlıca məqsədi-yetişməkdə olan nəslin bədii zövqünü formalaşdırmaq, təfəkkürünü genişləndirməkdir.

Uşaq ədəbiyyatının, beləliklə, dünya ədəbiyyatında çox zəngin, yüksək bədiiliyi ilə seçilən nümunələri və ənənələri vardır ki, biz bu təcrübəni və ənənələri Azərbaycan ədəbiyyatında da görə bilərik. Azərbaycan ədəbiyyatında uşaq ədəbiyyatının bir yaradıcılıq sahəsi kimi formalaşdığı dövr əsas etibarilə XIX əsr və sonrakı dövrdür.

Zaman tamamilə yeni uşaq ədəbiyyatı tələb edirdi. Bunu qabaqcıl ziyalılar, yazıçılar çox dərindən, uzaqgörənliklə başa düşürdülər. Məhz bunun nəticəsidir ki, yeni əsrin əvvəlində xüsusi uşaq jurnalları meydana çıxmağa başladı və beləliklə uşaq mətbuatı yarandı. Bu, şübhəsiz ki , geniş mənada milli intibahın çox mühüm bir əlaməti idi. "Dəbistan", "Rəhbər", "Məktəb" jurnalları bu cəhətdən milli mətbuatın tarixində çox böyük bir mədəni və ictimai hadisə idi. Bu göstərir ki, dövrün qabaqcıl ziyalıları yeni nəslin yetişməsi və tərbiyəsini milli tərəqqinin əsas amillərindən biri səviyyəsində başa düşür və bununla biləvasitə bağlı vəzifələri əzmlə həyata keçirmək yolunda fəaliyyət göstərirdilər. Bu isə Azərbaycan ədəbi fikrində uşaq ədəbiyyatı probleminin aktual əhəmiyyət kəsb etməsinə səbəb olurdu. O da çox səciyyəvi idi ki, ədəbi fikirdə uşaq ədəbiyyatı xalis yaradıcılıq məsələsi olaraq qoyulmurdu; yeni tipli dərsliklər yaratmaq, yeni tədris üsullarını inkişaf etdirmək məsələləri də irəli sürülür və müzakirə olunurdu. Bu da ilk növbədə uşaq ədəbiyyatının spesifikası ilə bilavasitə bağlı xüsusiyyətidir.

Uşaq ədəbiyyatı xarici aləmin, dünyanın obrazlarda bədii inikasıdır; buna görə bədiilik ədəbiyyatın bu qolunun əsas meyarıdır. Bu mənada uşaq ədəbiyyatı ilə, ümumiyyətlə, bədii ədəbiyyat arasında əsaslı bir fərq axtarmaq düz olmazdı. Elə buna görədir ki, dünya ədəbiyyatının, eləcə də Azərbaycan ədəbiyyatının bir çox yeni əsərləri vardır ki, həmin əsərləri həm yaşlı oxucular, həm də uşaqlar, yeniyetmələr mütaliə edirlər. Məsələn, dünya ədəbiyyatının "Robinzon Kruzo", "Qulliverin səyahəti", "Ovod" və s. bu tipli əsərləri dünya uşaq ədəbiyyatına daxil edilir.

Janr baxımından da uşaq ədəbiyyatını ümumən bədii ədəbiyyatdan geniş mənada fərqləndirmək olmaz. Məsələn, hekayə, povest, hətta roman janrı da uşaq ədəbiyyatının janr sisteminə yaxındır. Çünki uşaq ədəbiyyatı yalnız azyaşlı uşaqlar üçün yaradılan əsərlərdən ibarət deyildir. Yeniyetmə gənclər üçün nəzərdə tutulan bədii əsərlər də bilavasitə bu ədəbiyyatın janr sisteminə uyğundur və buna görə də roman kimi bu janr da uşaq və gənclər üçün ədəbiyyatın janr sisteminə daxil edilə bilər. Dünya ədəbiyyatının təcrübəsi də bunu təsdiq edir. Eyni sözü biz Azərbaycan ədəbiyyatı haqqında da deyə bilərik. Məsələn, A.Şaiqin "Köç", "Məktub yetişmədi" kimi hekayələri, yaxud "Araz" romanı XX əsr nəsrinin görkəmli əsəri olduğu kimi, həm də bu əsərlərin uşaq və gənclər üçün ədəbiyyatın da diqqətəlayiq bədii nümunəsi olduğu məlumdur.

Uşaq ədəbiyyatının spesifikası bu tipli əsərlərin idrakı əhəmiyyətə malik olmasıdır. Uşaq oxuduğu əsər vasitəsi ilə, onun məzmununu, obrazları vasitəsi ilə dünyanı dərk edir: müəyyən həyat həqiqətini qavrayır. Belə tipli əsərlərə verilən ikinci mühüm tələb əxlaqi-mənəvi tələbdən ibarətdir. Uşaq üçün yazılan əsər uşağın mənəvi aləmini əks etmək yolu ilə onun dünyanı dərk etməsinə kömək etməli, uşağı düşündürən suallara aydın və ətraflı cavab verməlidir. Məlumdur ki, uşaq ətraf mühitə, xarici aləmə, təbiətə, onun hadisələrinə qarşı çox həssasdır; bütün gördükləri marağına səbəb olur, onda suallar doğurur; yeniyetmələr, gənclər üçün yazılan əsərlərdə də bu belədir. Buna görə uşaq ədəbiyyatında əsas məsələ həyatı düzgün əks

etdirmək tələbidir, həyatı bütün dərinliyi ilə, eyni zamanda sadə, bədii üslubda təsvir etmək bu tipli ədəbiyyatın başlıca sənətkarlıq və bədii şərtidir. Çox səciyyəvidir ki, Azərbaycan ədəbi tənqidi uşaq ədəbiyyatı məsələlərini bu spesifik vəzifədən çıxış edərək irəli sürmüş və həll etməyə çalışmışdır.

Azərbaycan ədəbiyyatının uşaq ədəbiyyatı sahəsində təcrübəsi və ənənələri zəngindir. Klassik ədəbiyyatımızda uşaq ədəbiyyatı xüsusi bir yaradıcılıq istiqamətini təşkil etməsə də, klassiklərinmizin əsərlərində elə məqamlar olmuşdur ki, onlardan uşaqların tərbiyə və təliminde istifadə olunmuşdur. Bunu da qeyd etmək lazımdır ki, məktəb dərsliklərində, xüsusi ilə aşağı sinif şagirdləri üçün yazılan dərsliklərdə klassiklərin bu tipli əsərləri diqqətdən kənarda qalmışdır. Lakin bununla belə klassiklərimizin yaradıcılığında bilavasitə uşaq bədii marağına səbəb ola biləcək əsərlərə də rast gəlirik.

Uşaq ədəbiyyatı yeni Azərbaycan ədəbiyyatının xüsusi bir sahəsi səviyyəsində yaranırdı ki, bu da ədəbi tənqiddə onun aktual bir problem səviyyəsində müzakirəsini, vəzifələrinin dərk olunmasını zəruriləşdirirdi. Azərbaycan ədəbiyyatının XX əsrdəki inkişafının ən xarakter xüsusiyyətlərindən biri onun öz nəzəri əsasları ilə, öz tənqidi dərinliyi ilə ayrılmaz vəhdətdə təşəkkülüdür. Əsrin əvvələrində "yeni ədəbiyyat necə olmalıdır?", "yeni şeir necə olmalıdır?" milli ədəbi prosesin, ədəbi hərəkatın əsas sualları və məsələləri idi. A.Səhhət əsrin əvvəlini ədəbiyyatımızın islahata ehtiyacı olan dövrü kimi səciyyələndirir, poeziyada təbii insan hisslərinin ifadəsini təzə şeir konsepsiyası üçün əsas prinsip və meyar olaraq müdafiə edirdi. O, nəinki bu konsepsiyanı irəli sürür, həm də təzə şeirin nümunəsini verir, məqaləsinə "Yaz mövsümü endikcə səmadan yerə axşam" şeirini əlavə etmiş olurdu. Onu da qeyd edək ki, A.Səhhət özü uşaq şeirlərini məhz elan etdiyi prinsip əsasında-yəni təbii hissləri ifadə etmək prinsipi əsasında yazırdı.

AZƏRBAYCAN UŞAQ MƏTBUATININ YARANMASI

Sovet ədəbiyyatşünaslığı və ədəbi tənqidində bir qayda olaraq XX əsrin əvvəllərində ədəbi-tarixi prosesin fəallaşmasını, o cümlədən uşaq ədəbiyyatı və mətbuatının dövrün tələbləri səviyyəsinə çatdırılmasını 1905-ci il birinci rus inqilabının danılmaz rolu ilə izah edirdi. Əslində əsrin əvvəllərində uşaq ədəbiyyatına olan marağı XIX əsrin II yarısından Azərbaycanda getdikcə genişlənən maarifcilik hərəkatında, eyni məqsədə xidmət edən məktəbdarlığın ənənə şəkli almasında, uşaq dərsliklərinin hazırlmanmasında axtarmaq lazımdır. İctimai fikirdə milli şüurun aparıcı faktora çevrilməsi, bu zəmində uşaq və yeniyetmələrin təlim-tərbiyəsinə xüsusi əhəmiyyət verilməsi hansısa bir inqilabın yox, ədəbi-mədəni varsliyin qırılmaz, pozulmaz qanunauyğutluqları ilə bağlı idi. 1906-cü ildəki Azərbaycan müəllimlərinin I qurultayı da bu məqsədlə çağırılmışdı. Burada əlifbanın təkmilləşdirilməsi, müasir təhsil sisteminə keçid, yeni dərsliklərin hazırlanması ətrafında qızğın diskussiyalar aparıldı. N.Nərimanov yeni üsullu məktəblərin açılması ilə bağlı maraqlı təkliflər verdi.

Çox mühüm bir məziyyətdir ki, ilk uşaq jurnalları da müasir uşaq ədəbiyyatının məqsədini bütövlükdə yeni ədəbiyyatın vəzifələri sırasında qoyub həll edirdi. Məsələn, "Dəbistan" jurnalının mövqeyi bu cəhətdən səciyyəvidir. Əliİskəndər Cəfərzadə və Məmməd Əfəndizadənin Bakı qubernatoruna müraciətindən sonra jurnalın nəşrinə icazə verilib. 1906-cı il yanvar ayında "Dəbistan" jurnalının birinci nömrəsi çapdan çıxıb. Burada hekayə, şeir, tərcümə və bir sıra elmi-kütləvi məqalələr işıq üzü görüb. Jurnalın ətrafına toplaşan H.Zərdabi, S.M.Qənizadə, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, A. Divanbəyoğlu, M.Ə.Rəsulzadə kimi ədiblərimiz uşaqların təlim-tərbiyəsi, milli ruhda böyüməsi üçün əllərindən gələni əsirgəməmişlər.

Jurnal təkcə Azərbaycanda deyil, bütün islam dünyasında ilk uşaq jurnalı idi ki, çar senzurasının ciddi qadağaları, yasaqları şəraitində öz mövcudluğunu davam etdirirdi. "İrşad"

qəzetinin səhifələrində M.Ə.Rəsulzadə yazırdı ki, "Dəbistan" Rusiyada, bəlkə də aləmi-islamda əvvəlinci jurnaldır. Doğrudur, Türkiyədə "Cocuqlara məxsus qəzetə" çıxır, lakin Sultan Həmid tərzi-idarəsinin senzurasından keçən bu jurnal bəsit müqəvvadan ibarət qalmışdır. Cəmi Türkiyə mətbuatından məqfuz olunan ciddiyyət bundan da götürülüb. Təməllüq və yalan ilə məmlu olmuşdur, həm də cəbrən yazılan bir təməllüq və yalan ilə doldurulmuşdur. Müəllif "Dəbistan"ın belə məcburi yalandan azad olduğunu yazırdı. Lakin buna baxmayaraq bu jurnalın tək-tənha olduğunu dərin bir qəlb ağrısı ilə qeyd etmiş olurdu. O təəssüf hissi ilə soruşurdu:"Lakin özlüyündə tək-tənha olan bu jurnal 25 milyon Rusiya müsəlmanları demirəm, 5 milyon Qafqaz müsəlmanları arasında olsun, necə kediyor? İnsan xəyal ediyor ki, 2 həftədə bir dəfə çıxan jurnal nədir ki, o da yeriməsin, o da xərcini ödəməsin. Lakin heyhat, heyhat!! Müsəlman jurnalı olduğu üçün bu fikrin əksini görürsünüz" [11, s.9].

Jurnalın məruz qaldığı maliyyə çətinliyini müəllif yalnız qeyd etmirdi, onu ümummilli bir problem səviyyəsində qoyur, ictimai fikri onun üzərində cəmləşdirirdi. Yaranmış vəziyyətdən yeganə çıxış yolunu bu tipli jurnalların milli tərəqqiyə gətirib çıxaracağına bütün xalqın inanmasında görürdü. Müəllif mətbuatı çıraq adlandıraraq yazırdı: "Mətbuat ki var, millətin çırağıdır. "Dəbistan" bu çıraqlardan biridir. Biz gərək əlləşək ki, bacardıqca bu çıraqlar çoxalsın, işıqlansın. İndi qarşımızda, iki yol var. Birisi, bu yağsızlığa fikir verməyib həmişəki qayda ilə soyuq əlaqədə bulunub qaranlıqda oturmaq. Digəri isə, çalışıb bu çıraqlara yağ vermək ki, tərəqqi edib işıq salsınlar. Haydı qardaşlarım, ya çırağı, ya qaranlığı, ya da işığı-ikisindən birini qəbul ediniz! " [11, s. 9].

Bu müraciəti ciddi maarifçi publisist çıxış hesab etmək doğru olmazdı. Onda uşaq ədəbiyyatının dərin mənasının, milli tərəqqidəki rolunun təsirini görmək lazımdır. Qaranlıqda qalmaq, ya da işığa doğru getmək-uşaq ədəbiyyatı problemini dövrün tənqidi fikri bu şəkildə qoyur və həll etməyə çalışırdı. Bu da bizə əsrin ictimai və maarifçi fikrində uşaqlar üçün ədə-

biyyatın milli tərəqqi ideyasının tərkib hissəsi səviyyəsində irəli sürülməsini deməyə imkan verir.

"Dəbistan" jurnalının iki səhifəsində şeir və nəsr əsərləri ilə yanaşı, elmi-publisistik yazılar da verilirdi. Maraqlıdır ki, belə səpgili yazılar bütünlüklə milli tərəqqi ideyası ilə aşılanmış yazılardan ibarətdir. Məsələn, bu tipli məqalələrdə milli dilin rolundan söz açılırdı. Məqalələrin birində jurnal yazırdı: "Hər millətin baqi olması üçün lazım gələn şərtlərdən biri də millətin mükəmməl və məzbut bir dilə malik olmasıdır. Dil hər millətin onu icad etdiyi bir vasitə, həyatdır. Və bu vasitə qeyb olduqda o millət dilsiz heyvan kimi alınıb satılmağa məhkumdur. Hər millətin dili nə qədər əcnəbi təsirdən azad olub, müstəqil surətdə tərəqqi etsə, o qədər o millətin qiraət və kitibətəti asan olub, millət müstəqil surətdə tərəqqi edir. Buna görə müstəqil surətdə tərəqqi etmək xahiş edən millət gərək öz dilini əcnəbi əlfaz və tərkibatdan təmizləyib dilinin vəsətinə səy etsin" [11, s. 10].

Başqa sözlə, jurnal millətin müstəqilliyi ideyasını milli dil amili ilə əlaqələndirir, bu amilin olmasını milli müstəqillik üçün vacib bir şərt səviyyəsində əsaslandırırdı. Bu mövqedən çıxış edən jurnal türk xalqının, yəni Azərbaycan xalqının dil məsələsində müəyyən mürəkkəbliklərə mübtəla olduğunu xatırlayır və yazırdı ki, türk dili ərəb və fars dillərinin təsirinə məruz qalmışdır; buna görə bu dili tədris etməyin çətinlikləri vardır. Həmin çətinlik budur ki, bu dili tədris edən şəxs əslində bir dili yox, üç dili, yəni ərəb, fars və türk dillərini tədris etmiş olur. Məhz bu səbəbə görə jurnal belə hesab edirdi ki, türk dilinin tədrisində uşaqlar çətinliklərlə üzləşirlər: "Öz dilimizi təhsil edəndə bizim balaların zəhməti sair millətlərə və dillərə nisbətən üç qat artıqdır" [11, s. 51].

Əsrin ilk uşaq ədəbi məcmüəsi olan "Dəbistan" özünün "Valideynə məxsus vərəqə"sində yazırdı: "Öz hallarına dair gülməli və ibrətamiz hekayələr və mənzumələr qiraəti ilə uşaqlarımız zəif və bivüsət əql və dərrakələrini gücləndirib gözəl hisslər və təcrübələr əxs edirlər. Böylə bir mühüm və əhəmiyyətli mətləbə yetişməklikdə ancaq məktəblərimizə ümüdvar

ola bilmərik. Çünki uşaqlarımızın məktəblərdə keçirdikləri üç və ya dörd saat vaxt yazıb oxumaq və dərs kitablarında bulunan hekayələri öyrənməyə ancaq kifayət edir. Məsələn, lazım gəlir ki, uşaqlarımız məktəblərdən azad olandan sonra asudə vaxtlarını şagirdlərə, uşaqlara məxsus hekayələr və mənzumələr qiraətinə sərf etsinlər. Ta ki, elm və tərbiyəyə dair məktəbdə öyrənilməsi mümkün olmayan əhvalatları böylə jurnal və kitablar öyrədir. Sair tayfaların mədəni və ziyalı əhli-qələmləri öz millətlərinin balalarına bu yolda böyük xidmətlər edib və bu vasitə ilə onları qabağa aparıblar" [13,s.11]. Demək lazımdır ki, bu ideya bütün əsr boyu ən müxtəlif siyasi-ictimai hadisələrin baş verməsi və inkişafı prosesində milli uşaq ədəbiyyatımızın əsas, hərəkətverici yaradıcılıq proqramı olmuşdur: o, bu ideya kontekstində inkişaf etmiş, öz zəngin tarixini yarada bilmişdir. Ümumiyyətlə, jurnal belə əqidəni rəhbər tuturdu ki, dil milli tərəqqinin əsas amillərindən biridir, bəlkə də ən mühüm olanıdır. "Dəbistan"da H.B.Zərdabinin bu sözləri xatırlanırdı: "İstəyirsinizmi türk milləti yaşasın? Qabağa getsin? Elm və mərifəti olsun? Mədəniyyəti olsun? Ona dil verin. Türklər öz dillərini itiribdir. Sizin sözünüzü onlar anlamayırlar. Onların dilini verin, onlar yaşasın. Qabağa getsin!" [11,s.50].

H.B.Zərdabinin bu sözləri haqqında "Dəbistan" belə yazırdı: "Pəh! "Pəh!" Nə gözəl söz! Nə ali fikirlər! Nə uca nəzər! Nə böyük həqiqət!" [11, s. 51].

"Dəbistan" jurnalı 9-cu nömrəsindən sonra 1908-ci ildə bağlandı. Azərbaycan ədiblərinin, ziyalılarının ciddi fəaliyyətinə və çoxsaylı cəhdlərinə baxmayaraq 1911-ci ilə qədər anadilli jurnal nəşr etmək mümkün olmadı. 1911-ci ildə rus-tatar məktəbəlrinin müəllimləri Qafur Rəşad və onun yaxın dostu Əbdürəhman Tofiq Əfəndizadə uzun get-gəllərdən sonra "Məktəb" adlı yeni uşaq jurnalı buraxmağa nail oldular. Jurnalın birinci nömrəsində "İdarədən" sərlövhəli yazıda jurnalın redaktorları məqsəd və vəzifələrini açıq şəkildə bildirir və qeyd edirdilər ki, əsas vəzifəmiz şagirdlərin inkişafına, dünyagörüşünün genişlənməsinə yardım göstərməkdir. Əgər bunu bacarsaq, məqsədimizə çatmış hesab olunarıq. Məqalədə

müəlliflər uşaqları mütaliəyə alışdırmağı başlıca məqsəd kimi qarşıya qoyurdular. Həmin müqəddəs vəzifəyə çatmaq üçün müəllimlərlə yanaşı, valideynlərin də yardımından istifadə etməyi məsləhət görürdülər. "Məktəb" jurnalı müxtəlif nömrələrində lətifələr, atalar sözləri, nağıllar və maraqlı, gülməli hadisələr verirdi. Xüsusən bədii əsərlərin nəşrinə daha çox diqqət yetirilirdi. A.Səhhət, M.Hadi, A.Şaiq, Ə.Cavad, Ə.Nəzmi və başqalarının uşaqlar üçün şeir və hekayələrinə daha çox yer verilirdi. Bu jurnal bilavasitə uşaqlar üçün, məktəblilər üçün nəzərdə tutulmuşdu. "Dəbistan" jurnalı da müəyyən çətinliklərlə üzləşdi. Başlıca çətinlik camaat tərəfindən məcmuənin layiqincə təqdir olunmaması idi. Belə biganə münasibətdən demək olar ki, bütün dövrü mətbuat şikayətlənirdi. "İqbal" qəzeti bu jurnalla əlaqədar yazırdı: "Fəqət, əcabə camaatımız bu jurnalı layiqincə təqdir edə bilərmi?" [11, s.52]. qəzet bu suala qəti cavab verməkdə çətinlik çəkirdi. Bu isə dövrün, milli gerçəkliyin reallığı idi. Lakin əksəriyyətin mətbuata, o cümlədən uşaq mətbuatına biganəliyi mütərəqqi qüvvələri ruhdan salmırdı. Dövrün qabaqcıl ziyalıları, müəllimləri uşaq mətbuatını hər vasitə ilə inkişaf etdirmək səylərində qətiyyətli idilər. "İqbal" qəzetinin səhifəsində Ə.Əfəndizadə "Məktəb" jurnalı ilə əlaqədar yazırdı: "Buyurunuz, ey müəllim və mühərrir əfəndilər! Bildiklərinizi yazınız, bizə öyrədiniz. Biz də bəzi əlmühakimə əmək etməyə müfətəxir olaq. Yoxsa, qeyri lafdan nə çıxar? Haydı, gəliniz, uşaqlar arasında mətbuatın inkişafına səy edək, onları indidən mətbuat aləminə təşviq edək" [11, s. 77].

Uşaq ədəbiyyatı problemi əsrin əvvəlində yalnız bədii yaradıcılıq problemi deyildi, həm də, hər şeydən əvvəl, yeni nəslin tərbiyəsi problemi idi. O da olduqca xarakterik bir haldır ki, ədəbiyyatın inkişafı bütövlükdə xalqın, millətin elm və maarif cəhətdən inkişafı ilə əlaqələndirilirdi. Müəlliflərdən biri "İrşad" qəzetinin səhifələrində yazırdı: "Yer üzündə olan millətlərin, tayfaların cümlələrinin öz doğma (yəni ana) dilində məxsusi ədəbiyyatları vardır. Hər o tayfa ki, elm və mərifətdə irəli gedibdir onların ədəbiyyatı dəxi mükəmməl sürətdədir. Amma biz Qafqaz-Azərbaycan türklərinin indiyə kimi ədəbiy-

yatımız fəna halda bölünüb, çox-çox işlərimizdə asari-tərəqqi görünməyir. Məktəblərimizdə köhnə üsul ilə dərs verilib, neçə illər, bəlkə qərinələr bundan əvvəl İranda uşaqlardan ötrü ərəbcə yazılmış bir nüsxə indi də bizim məktəblərimizdə oxunur. Biçarə müsəlman balalarından ötrü məxsusi milli kitablarımız yoxdur ki, onların vücudu ilə təlim alsın. Bizim əllərimizdə olan kitablar İranın həcviyyat və şagirdlərə əl verməyən kitablardır... Məgər biz Azərbaycan türklərinin heç bir milli şairlərimiz və naşirlərimiz yoxdur ki, onlar təzə üsul ilə öz məcmuələrində İslam cocuqlarına töhfə göndərələr? Şairlərimizdən hətta Füzuli kimi ədib və ustad şairlərimizdən əsla xəbərimiz yoxdur. Və aya, bizim də qeyri millətlərinki kimi ədib və mahir ustalarımız vardır, ya yox? Heç kəs bundan da xəbər deyildir. Biz yazıq millət balalarına lazımdır kitab! Təlim kitabları, nəinki həcviyyat!" [11, s.121]. Bu fikirdə çox mənalı və dərin bir ideya-millətin balalarına kitab gərəkdir ideyası vardır. Bu əsrin əvvəllərində başlayan milli intibahın əsas pafosunu ifadə edən bir ədəbi-nəzəri və siyasi-ictimai konsepsiyadır. N.Nərimanov, F.Köçərli, S.M.Qənizadə, R.Əfəndizadə və başqa ziyalılar, yazıçı və ideoloqlar öz ədəbi-publisist görüşlərində bu konsepsiyanı ifadə etmişlər ki, bu da əsrin əvvəllərində uşaq ədəbiyyatı probleminin yalnız ədəbi yaradıcılıq problemi olmadığını, bununla yanaşı, milli inkişaf, milli-mənəvi tərəqqi problemi olduğunu təsdiq etməyə əsas verir.

1906-cı ilin sentyabr ayında Bakıda görkəmli maarif xadimi M.Mahmudbəyovun redaktorluğu ilə yeni bir uşaq jurnalının - "Rəhbər "in əsası qoyuldu. Redaktor jurnalın məqsəd və məramı haqqında deyirdi ki, bir zaman bir millət o biri millətə zor, qüvvə ilə qalib gəlirdisə, indi məktəb, ədəbiyyat, elm və təlim-tərbiyə ilə qalib gələcək. Jurnalda S.M.Qənizadənin "Körpə uşaqların tərbiyəsi", F.Köçərlinin Nəbati, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir haqqındakı yazıları, A.Səhhətin "Dəvət" əsəri dərc olunub. Firudin bəy Köçərli jurnalın birinci nömərsində deyirdi ki, Azərbaycan türklərinin Sədisi, Hafizi, Şekspiri yoxdur, ancaq onun Vaqif, Vidadi, Nəbati, S.Ə.Şirvani kimi əvəzsiz şairləri var. Həmin şairlərin min bir əziyyətlə

yazdığı əsərlər itib-batmaqdadır. Onları toplayıb yeni nəslə çatdırmaq lazımdır.

Əsrin qabaqcıl ziyalıları, maarifçiləri onu da çox gözəl başa düşürdülər ki, dövrün bu probleminin gerçəkləşməsi üçün yeni nəsil gərəkdir. Yeni ədəbiyyatın üzərində ali vəzifə-bu yeni nəsli yetişdirmək vəzifəsi düşürdü. Əsrin əvvəlində ədəbi-nəzəri fikrin uşaq ədəbiyyatı problemi ilə əlaqədar axtarışlarını, səylərini və mübarizəsini bu şəkildə ümumiləşdirmək olar.

III FƏSİL

MAARİFÇİ- REALİST VƏ ROMANTİK ƏDƏBİYYAT

ABBASQULU AGA BAKIXANOV QÜDSİ (1794-1847)

Mirzə Məmmədxan oğlu Abbasquluağa Bakıxanov Qüdsi 1794-cü il iyun ayının 10-da Bakının Əmirhacıyan kəndində anadan olub. O, Bakı xanları nəslindəndir. Babaları Səfəvi hakimiyyəti dövründə dövlət qulluqçusu kimi fəaliyyət göstərib. Şah Abbasa üsyan edənləri müdafiə etdiklərinə görə məcburiyyət qarşısında Bakıya köçməyə qərar veriblər.

Bir müddət Ramana kəndində yaşayıblar. Dördüncü babası Dərgahqulu bəy Bakının hakimi işləmişdir. O ilk təhsilini Bakıda almış, daha sonra Qubada davam etdirmiş, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Azərbaycan və Şərq klassik ədəbiyyatının Firdovsi, Xəyyam, Nizami, Əssar Təbrizi, Arif Ərdəbili, Mollayi- Rumi, Sədi, Hafiz, Yunis Əmrə, M.Füzuli kimi böyük sənətkarlarının yaradıcılığını dərindən öyrənən A.Bakıxanov Qərb və Şərq mədəniyyətinə, elminə də yaxından bələd olmuşdur. «Gülüstani-İrəm», «Qanuni- Qüdsi», «Eynülmizan», «Əsrarül məlaküt», «Təhzibi-əxlaq, «Nəsihətnamə», «Kitabi- Əsgəriyyə» və s. əsərləri Azərbaycan maarifçi-realist ədəbiyyatının yaranması və təşəkkülündə mühüm rol oynamışdır.

A.Bakıxanovun «Gülüstani-İrəm» əsəri təkcə Azərbaycan tarixçiliyini yaratmaq yolunda ilk təşəbbüs olmaqla məhdudlaşmır, həm də milli ədəbiyyat tarixini yaratmaq sahəsində irəliyə doğru atılan addımdır. Görünür ki, müəllif Qərb və Şərq mənbələrini kifayət qədər öyrənmiş, Herodot, Strabon, Plutark kimi tarixçilərin əsərləri ilə yaxından tanış olmuşdur. Ədibin əsərlərinin əksəriyyəti əxlaqi-tərbiyəvi mövzudadır. Hətta satiraları da bu cəhətdən fərqlənmir. « Təbriz əhlinə xi-

tab» əsərində rüşvətxorluq, nadanlıq kimi qeyri-insani keyfiyyətlər tənqid olunur.

İlk Azərbaycan maarifçisi kimi A.Bakıxanov uşaq və gənclərin təlim-tərbiyəsinə, təhsilinə daha çox diqqət yetirirdi. Bu cəhətdən «Kitabi- nəsihət» və «Nəsihətnamə» əsərlərinin əhəmiyyətini ayrıca qeyd etməliyik. Hər iki əsər Azərbaycan və fars dillərində yazılmışdır. Ədibin pedaqoji görüşlərini şərh etmək üçün bu əsərlərin əhəmiyyəti böyükdür. A.Bakıxanov «Kitabi-nəsihət» əsərində uşaqlar üçün nəzərdə tutulan kitablar haqqında orijinal fikirlər irəli sürür və deyir ki, yazılmış nüsxələrin bəzisi ibarədə və bəzisi də mənada bir növ qarışıqdır ki, təlim edənlər özləri onları anlamırlar və bir parasında mətləblər elə uzun və pərişandır ki, onu zəbt etmək və anlamaq müşkül görünür. Uşaqlarda elmi öyrənmək- daşda nəqş salmaq kimidir.

Maarifçi bir sənətkar olaraq A.Bakıxanov uşaqlar üçün müasir standartlara uyğun dərsliklərə ehtiyacın olduğunu dərk etmiş, maarifçilik ideologiyasının xalq arasında yayılmasını təmin etmək məqsədi ilə uşaqların təhsilinə xüsusi diqqət yetirməyi vacib bilmişdir. Əsərlərindən aydın olur ki, o, Qərb və Şərq təlim-tərbiyə sistemlərini, xalq ədəbiyyatını kifayət qədər öyrənmişdir.

«Təhzibi-əxlaq» yazıçının pedaqoji və psixoloji görüşlərini əks etdirir. Əsər fars dilində yazılan müqəddimə, on iki fəsil və nəticədən ibarətdir. Burada uşaq və yeniyetmələri tərbiyələndirmək üçün mükəmməl əxlaq dərsi verilir. «Təhzibi-əxlaq»da şəxsiyyətin formalaşdırılması, tərbiyəsi, pis əməllərdən çəkinməsi, xeyirxah insan olması üçün əxlaq qaydalarına əməl etməyin vacibliyi irəli sürülüb.

«Nəsihətnamə» əsəri də pedaqoji yönümdən diqqətəlayiqdir. 102 nəsihətdən ibarət olan bu əsərdə çox maraqlı elmi, dini nəsihətlər yer alıb. «Nəsihətnamə» də müəllif yazır: «Faydasız sözə əməl etmə, bədbəxtə gülmə, yaxşı adamlarla dost ol, yalan danışma, elmü kamalın təhsilini hamı şeylərdən əzizraq say, yüngül olma, qəzəb vaxtı özünü saxla, heç kəsə paxıllıq eləmə». Bu nəsihətlərdən məlum olur ki, A.Bakıxanov Azər-

baycan folklorunu, xüsusən atalar sözlərini, məsəllərimizi, hikmətli kəlamları diqqətlə öyrənmişdir.

A.Bakıxanov daima elmini, dünyagörüşünü artırmağa çalışır, bu məqsədlə səyahətlərə üstünlük verirdi. Ömrünün son vaxtlarında yenidən səyahətə çıxmaq istəmiş, Türkiyə və Ərəbistanı gəzmiş və elə səyahət zamanı qəflətən vəfat etmiş, Məkkə ilə Mədinə arasındakı «Vadiyi-Fatimə» qəbristanlığında dəfn olunmuşdur.

QASIM BƏY ZAKİR
(1784-1857)

XIX əsr Azərbaycan maarifçi realist ədəbiyyatının nümayəndələrindən biri də Q.Zakirdir. Poeziyamızda satirik cərəyanın yaradıcılarından olan şair 1784-cü ildə Cavanşir mahalının Sarıçalı kəndində anadan olmuşdur. O, Şuşa şəhərinin əsasını qoyan Pənah xanın qardaşı Hüseynəli aganın nəticəsidir. İlk təhsilini mollaxanada almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Qarabağ xanlarından olan Mehdiqulu xan ona Xındırıstan adlı kənd bağışlamış və ömrü boyu bu kənddə yaşamış, Qarabağ atlıları tərkibində rus qoşunları ilə birlikdə döyüşlərə də qatılmışdır. Mehdiqulu xan Zakirə 20 evdən ibarət kənd bağışlamışdır. Q. Zakir ilin əksər vaxtını bu kənddə keçirmiş, ancaq yay aylarında Şuşaya üz tutmuşdur.

Q. Zakir həm satirik, həm də lirik şairdir. Azərbaycan satirasının inkişafında, onun ictimai məzmununun genişlənməsində şairin xidmətləri böyükdür. «Təbriz əhlinə xitab», «M.F.Axundova məktub», «Nüsxəbəndlər» və s. şeirlərində dövrün ictimai bərabərsizliyinə qarşı etiraz, rüşvətxorluğa, haqsızlığa, ədalətsizliyə qarşı mübarizə ön plana çəkilmişdir.

Azərbaycan ictimai satirasının yaranmasında müstəsna xidmətləri olan Qasım bəy Zakiri Y.V. Çəmənzəminli yüksək qiymətləndirmiş, «XIX əsr bizim ədəbiyyat tariximizdə Mirzə Fətəli və Zakirlə başlayan həqiqət dövrüdür» -demişdir. O, ədəbiyat tariximizdə lirik şair kimi tanınır. Xalq şeiri üslubunda qəzəllər, tərkibbəndlər, tərcibəndlər, müxəmməslər, müsəddəslər yazmışdır. Bu əsərlərdə nikbinlik, insanlara, təbiətə sevgi hissləri, torpağa, vətənə məhəbbət özünü daha çox göstərir. Müxtəlif janrlarda, mövzularda yazdığı əsərlərində əxlaq, tərbiyə məsələləri ön plana çəkilir. «Bu bahar fəslində, gül mövsümündə», «Yenə bizdən küsüb bivəfa dilbər», «Badi-səba, mənim dərdi-dilimi», «A ləbləri badə, ağzı piyalə» əsərləri qoşma üslubunda yazılmışdır. Həmin şeirlərdə də nikbin əhvali-ruhiyyə, sabaha ümid güclüdür.

Şübhəsiz ki, Qasım bəy Zakirin satiraları daha çox tanınır. Şairin M.F.Axundova, Baba bəy Şakirə, İsmayıl bəy Qutqaşınlıya yazdığı məktublarındakı satiraları ictimai kəskinliyinə, dövrün ədalətsizliklərini açıq tənqid etməsinə görə fərqlənir. Xalqın var-yoxunu talan edən qazılar, bəylər, mülkədarlar, dindən başı çıxmayan, ancaq iddiası böyük olan mollalar və camaatın mənafeyini düşünməyən insanlar şairin satirik əsərlərinin açıq hədəfinə çevrilmişdir.

Klassik ədəbiyyatda uşaq ədəbiyyatı nümunələrindən bəhs edərkən tədqiqatçılar bir qayda olaraq Q. Zakirin mənzum hekayələrinə və təmsillərinə müraciət edirlər. Bildiyimiz kimi, X1X əsr Azərbaycan yazıçıları milli maarifçi məfkurənin tələblərinə uyğun olaraq didaktik məzmunlu mənzum hekayələrə üstünlük verirdilər ki, Q. Zakir də bu yolla getmiş, « Məlikzadə və Şahsənəm », «Aşiqin təam bişirməyi», «Aşiq və məşuq haqqında », « Zövci-axər», « Həyasız dərviş », « Əxlaqsız qazı» və s. sərlövhəli mənzum hekayələrində elmə, maarifə qarşı çıxanları, rüşvətxor məmurları, xalqın malına xor baxanları kəskin tənqid etməklə yanaşı, məhəbbət mövzusuna da toxunmuşdur. Onun məhəbbət mövzusunda yazdığı mənzum hekayələrdə insana məhəbbət, şəxsiyyət azadlığı, adət-ənənələrdəki neqativ cəhətlərə qarşı mübarizə dərhal nəzərə çarpır.

Bu mənada «Zövci-axər» mənzum hekayəsi maraqlıdır. «Əmiri-Tüccarın» qızı üç dəfə evlənir. Hər dəfə ailə həyatı alınmır. Atası onu dördüncü dəfə ərə verməyə can atır. Qanuna görə isə bu mümkün deyil. Qız ancaq başqa kişiyə gedib boşandıqdan sonra bu mümkün ola bilər.Ona görə də ata yaxında boşanmaq şərti ilə qızını öz nökərinə verir. Qızla nökər evləndikdən sonra bir-birinə bağlanır və ayrılmaq fikrinə düşmürlər. Q. Zakir «zövci-axər» qanununa qarşı çıxır və azad sevgi məsələsini ortaya qoyur.

Şairin «Aslan, Qurd və Çaqqal», «Tülkü və qurd », «Tülkü və Şir », «Dəvə və eşşək », « Xain yoldaşlar haqqında », « Sədaqətli yoldaşlar haqqında », «Sədaqətli dostlar haqqında» təmsilləri həm ideya-məzmun, həm də sənətkarlıq baxımından maraqlıdır.

Q. Zakirin təmsilləri üçün xarakterik olan cəhət budur ki, onların hər biri ibrətamiz və əxlaqi yekunla bitir. İnsanı düşündürür, beyninə təsir edir, pis əməllərdən çəkindirir. « Tülkü və Şir » təmsilindəki əxlaqi nəticə belədir:

Çoxdur yolu bu məsələnin dünyadə,
Mən özüm görmüşəm həddən ziyadə;
Biri o kim, hər kəs xəlqə zülm edər,
Aqibət əql ilə fənayə gedər.
Biri o kim, hakimani bitədbir,
Çahi-intiqama qərq olur, çün Şir.

Q.Zakir yeni dövr ədəbiyyatında öz imzası, orijinal yaradıcılığı olan bir şairdir. Milli satirik şeirimizin ictimai məzmununu genişləndirən Zakir irsi bu gün də aktuallığını saxlayır.

SEYİD ƏZİM ŞİRVANİ
(1835-1888)

S. Ə. Şirvani 1835-ci ildə Şamaxıda ruhani ailəsində dünyaya gəlmişdir. Kiçik yaşlarından atasını itirmiş, Dağıstanın Yaqsay kəndində yaşayan ana babası Mola Hüseynin himayəsinə keçmişdir. Babasından ruhanilik öyrənən balaca Seyid Əzim 10 il Dağıstanda yaşamışdır. Sonra Şamaxıya qayıdaraq mədrəsədə təhsilini başa vurmuşdur. 1856-cı ildə İraqa getmiş, Nəcəfdə, Bağdadda, Şam şəhərində təhsil alaraq Şamaxıya dönmüşdür. O, hər şeydən əvvəl, mükəmməl qəzəlləri ilə tanınıb. Həyata, dünyaya bağlılıq, ata-anaya hörmət, təmiz, saf məhəbbət qəzəllərinin mayasını təşkil edir. «Əkinçi» qəzetinin nəşrindən sonra şair daha çox maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur.

Şamaxıda yeni üsullu məktəb açan S. Ə. Şirvani özü də həmin məktəbdə ana dili və ədəbiyyatdan, başqa fənlərdən dərs demişdir. Eyni zamanda Rusiyada təhsil alan Azərbaycan ziyalıları ilə yaxından dostluq əlaqələri saxlamışdır. O, yeni tipli məktəbin əsasını qoyanlardan biridir. Həmin illər Azərbaycanda maarifçilik hərəkatının gücləndiyi, ilk dərnəklərin meydana çıxdığı dövrə təsadüf edirdi. Maarifçiliyin bu böyük missiyasından o da kənarda qalmamış, «Rəbiül-ətval» (1878), «Tacül-kütub» dərslik-müntəxabatlarını hazırlamışdır. Təəssüf ki, həmin əsərləri vaxtında nəşr etdirmək mümkün olmayıb.

Bunu da qeyd edək ki, həmin kitablarda toplanan poetik nümunələr uşaq ədəbiyyatımızın ilk nümunələri idi. O vaxta qədər yazılan uşaq kitabları balacaların yaş və bilik səviyyəsinə uyğun deyildi. Dilin qəlizliyi və çətinliyi daha çox özünü göstərirdi. S. Ə. Şirvaninin bu kitablarının dili sadə, aydın və rəvan olduğuna görə uşaq və yeniyetmələr tərəfindən sevilirdi.

Seyid Əzimin uşaqlarda görmək istədiyi bu əxlaqi keyfiyyətlərin təbliğinə az və ya çox dərəcədə onun özünə qədərki sənətkarların yaradıcılığında da rast gəlirik. Lakin Seyid Əzimin əsas xidməti ondan ibarət idi ki, o, sözünü birbaşa uşaqlara deyir və təbii ki, bu zaman uşaqların yaş, maraq və bilik dairə-

sinin də tələblərini nəzərə almağa çalışırdı. Öyüd-nəsihət, təmsil, mənzum hekayələr Seyid Əzimin yaradıcılığında müəyyən qədər təkmilləşmiş formada meydana çıxıb.

Məktəbə, maarifə yüksək qiymət verən şair dövrünün görkəmli ziyalıları, o cümlədən də H.M.Zərdabi ilə əlaqə saxlayır, «Əkinçi» qəzetində vaxtaşırı məqalələr dərc etdirirdi. «Təlim-tərbiyə haqqında», «Həsən bəy Məlikov Zərdabiyə», «Puşkinə heykəl qoyulması münasibətilə» və s. əsərlərində, «Qafqaz əhlinə xitab» şeirində elmin, maarifin təhsilin bir çox problemləri haqqında maraqlı fikirlər söyləmişdir.

S.Ə.Şirvani milli Azərbaycan satirik poeziyasının XIX əsrdə ən görkəmli nümayəndəsi olmaqla yanaşı, həm də uşaq ədəbiyyatımızın yaranması və təşəkkülündə mühüm rol oynayan maarifçi realist sənətkardır. Onun «Oğluma nəsihət» şeiri uşaq və gənclərimizə müraciətlə yazılmışdır. Əslində bu nəsihət təkcə bir atanın öz oğluna müraciəti deyil, həm də maarifçi bir ədibin milləti, onun gələcəyi olan yeniyetmələri elmə, maarifə, mərifətə çağırışıdır:

Cəfər, ey nuri-dideyi-Seyyid!
Qönçeyi-növrəsdeyi-Seyyid!
Üləma həqqini rəayət qıl,
Əhli elmə həmişə hörmət qıl.

Şairin uşaq şeirləri sırasında təmsillərini də ayrıca qeyd etmək lazımdır. «Çaqqal və xoruz», «Qaz və durna», «Pişiyin itə cavabı», «Dəvə və balası» və s. təmsillərində ən gözəl insani sifətlər-qorxmazlıq, dostluq, xeyirxahlıq, yoxsula əl tutmaq, bütün işlərdə vicdanlı olmaq təbliğ olunur, xəbislik, paxıllıq, qorxaqlıq, namərdlik kimi qeyri-insani sifətlər pislənilir. «Qaz və durna» təmsilində qaz durnanın yanında yekəxanalıq edir, istedadını gözə soxur, suda necə üzməyindən, havada uçmağından, düzdə qaçmağından danışır. Durna onu diqqətlə dinlədikdən sonra deyir: «Qamətin eybəcər, əqlin dayazdır. Göydə tərlan kimi uçmağın, yerdə maral kimi qaçmağın, suda balıq kimi üzməyin varmı?». Sonda yazıçı bütün insanlara, eyni

zamanda uşaqlara ömrü boyu gərək olan çox hikmətli bir nəsihət söyləyir:

Kişi bir sənəti bilər xalis,
Çoxuna meyl edən qalar naqis.

S.Ə.Şirvani istər satiraları, istərsə də başqa janrlarda yazdığı əsərləri ilə Azərbaycan maarifçi realist ədəbiyyatımızı zənginləşdirmiş, milli realizmin sərhədlərini genişləndirmişdir.

FİRUDİN BƏY KÖÇƏRLİ

(1863-1920)

Firudun bəy Köçərli ilk milli ədəbiyyat tarixçisi, ədəbiyyat tənqidçisi, görkəmli pedaqoq, uşaq ədəbiyyatı müntəxabatının müəllifidir. O, 1863-cü il yanvar ayının 26-da Şuşada anadan olmuş, atasından ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Atası oğluna rus dilində müəllim tutmuş və rus ibtidai məktəbinə göndərmişdir. Az sonra Köçərli A.Çernyayevski ilə görüşərək Qori Müəllimlər Seminariyasında oxumaq qərarına gəlmişdir. Bütün çətinliklərə baxmayaraq, 1879-cu ildə seminariyanın hazırlıq sinfinə qəbul olmuş, 1885-ci ildə seminariyanı məvəffəqiyyətlə bitirmiş, 10 il İrəvan gimnaziyasında işləmiş, A.Çernyayevskidən sonra on il Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə rəhbərlik etmişdir. Köçərli fəaliyyətində uşaq və yeniyetmələrin təlim-tərbiyəsinə, təhsilinə diqqətlə yanaşırdı. Bu məqsədlə Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrini toplayaraq «Balalara hədiyyə» adı altında çap etdirmişdir.

Yazıçı Seyid Hüseyn bu barədə qeyd edirdi ki, hərçənd bu kitab zahirdə uşaqlar üçün yazılmışdırsa da, lakin bütün ənənəyi-milliyyətin nağıl və hekayələri,…milli misal və nəğmələri, uşaqlara məxsus oyuncaqları tərtib etdiyindən bizi keçmişimizə bağlayır. F.Köçərli uşaq ədəbiyyatı məsələsinə çox diqqətlə yanaşırdı. Balacalar üçün hazırlanan dərsliklərdə müasirlərini bədii nümunələrin seçilməsində ehtiyatlı olmağa çağırırdı. «Balalara hədiyyə» əsərinin müqəddiməsində uşaq dərsliklərində Abbas ağa Nazirin, Mustafa ağa Arifin, Mehdiqulu xan Vəfanın, Q. Zakirin əsərlərindən istifadə etməyin mümkünlüyünü qəbul edirdi. Eyni zamanda bu əsərlərin əsil uşaq ədəbiyyatı nümunəsi olmadığını söyləyirdi.

Özünü görkəmli rus pedaqoqu Uşinskinin tələbəsi hesab edən F.Köçərli məktəbdarlıq işində ana dilinə daha çox əhəmiyyət verirdi. Azərbaycan dilini yeni üsullu məktəblərdən sıxışdırıb çıxarmaq istəyənlərə qarşı ciddi mübarizə aparırdı. O, ana dili dərslərinə xüsusi əhəmiyyət verir, müasirlərini bu yön-

də məqsədəuyğun fəaliyyət göstərməyə çağırırdı. Eyni zamanda bu yolda Çernyayevskinin «Vətən dili» dərsliyini yüksək qiymətləndirirdi. Dərslik yazmağı o ciddi iş hesab edir və bu işdə səliqə-səhmanlı, məsuliyyətli, diqqətli olmağı vacib hesab edirdi. Tənqidçi-ədəbiyyatşünas Kamal Talıbzadə «F.Köçərli» monaqrafiyasında (Bakı, Gənclik, 1964) belə bir fikir söyləyir: «Vətən dili» kitabının ikinci nəşrini çapa hazırlayanda, habelə uşaqlar üçün el ədəbiyyatı sahəsində gözəl bir dərslik rolunu oynaya biləcək «Balalara hədiyyə» kitabını tərtib edəndə, yenə də məhz kiçik yaşlılar üçün rus yazıçılarının əsərlərindən nümunələr tərcümə edəndə Köçərli beləcə səliqəli, «ehtiyatlı və diqqətli» olmağın təqdirəlayiq nümunəsini göstərmişdir». (səh.67)

«Balalara hədiyyə» kitabı haqqında müasirləri deyirdi ki, bu dərslikdə vətən qoxusu, dağların ətri duyulur. Doğrudan da «Balalara hədiyyə»dəki şeirlər, tapmacalar, nəğmələrdən keçmişimizin, xalqımızın mübarizələrlə dolu həyatının izi görünür:

Göydəki göy buludlar,
Yorğanıdır çobanın
Yastı-yastı təpələr,
Yastığıdır çobanın,
Yumru-yumru qayalar,
Yumrugudur çobanın

Təkcə bu misralarda elat həyatının özəllikləri özünü göstərməklə yanaşı, həm də təbiət, ətraf aləm haqqında balaca oxuculara yığcam, konkret məlumat verilmişdir.

F.Köçərli Azərbaycan uşaq ədəbiyyatının yaranmasında xüsusi xidmətləri olan ədiblərimizdəndir. O, hər şeydən əvvəl, uşaq ədəbiyyatında dilin sadəliyinə, saflığına əhəmiyyət verirdi. Nəinki özü bu tələblərə cavab verən əsərləri toplayıb nəşr edir, habelə yazıçı dostlarına da müntəzəm olaraq məktublar yazmaqla, onları da uşaqların başa düşə biləcəyi bir dildə yazmağa çağırırdı. «Ana dili» məqaləsində yazırdi ki, hər millətin

özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mənasıdır. Köçərli Abdulla Şaiqə göndərdiyi məktubunda yazırdı ki, təmizlik, güc, vəfa, etbar nümunəsi olan çobanlar haqqında şeir yazmaqla siz böyük iş görmüsünüz. Onları neçə dəfə uşaqlara oxudum, çox xoşlarına gəldi, bu şeirlərin xoşlanmasına səbəb şeirlərin sadəliyi və həqiqi, təmiz hissiyyatdan gəlməsidir. O, Şaiqin «Gülzar»ına irad tutaraq demişdi ki, zülmə boyun əymək yox, ona qarşı mübarizə aparmaq lazımdır. Dilindəki qüsürları, siz «ana» sözünü «validəyə» və ya «annəyə», «ata» sözünü «pədər», «uşaq» sözünü «cocuq», «bala» sözünü yavruya çevirməklə dilimizi əlimizdən almaq istəyirsiniz.

F.Köçərli müasirlərinə məktublar yazaraq öz əsərlərində ərəb və fars sözlərini az işlətməyi məsləhət görürdü. O, Azərbaycan folkloruna xüsusi diqqət və qayğı göstərirdi. Onların bir qismini toplayaraq «Balalara hədiyyə» əsərinə daxil etmişdi. Yazıçı Seyid Hüseyn bu barədə qeyd edirdi ki, hərçənd bu kitab zahirdə uşaqlar üçün yazılmışdırsa da, lakin bütün əməyi - millətin nağıl və hekayələri, milli misal və nəğmələri, uşaqlara məxsus oyuncaqları tərtib etdiyindən bizi keçmişimizlə aşina edir.

SULTANMƏCİD QƏNİZADƏ

(1866-1942)

Sultanməcid Qənizadə 1866-cı il aprel ayında Şamaxıda tacir ailəsində anadan olub. İlk ədəbiyyat tarixçimiz Firudinbəy Köçərli yazır ki, Ağa Məsih Şirvani onun dördüncü babasıdır. Üç il S.Ə. Şirvaninin yeni üsullu məktəbində oxuduqdan sonra ana dilindən başqa fars və rus dillərini də kifayət qədər öyrənmişdir. Şəhər rus məktəbində təhsilini davam etdirib, 1883-cü ildə Tiflis Aleksandrovski Müəllmlər İnstitutuna daxil olmuşdur.

Həmin dövrdə İnstitutut şəhər məktəbi üçün müəllimlər hazırlayırdı. Təhsil ocağında həm dini, həm də dünyəvi elmlər öyrədilirdi. Buradakı ədəbi mühit yazıçının fikri inkişafına müsbət təsir göstərmişdir. Müsəlman övladlarının şəhər məktəblərində dərs deməsi qadağan olunduğuna görə Sultanməcid Qənizadə kənd məktəbində işləməyə məcbur olmuşdu. O tezliklə Bakıya köçmüş, Həbib bəy Mahmudbəyovla birlikdə «Rus-Azərbaycan» məktəbi açmış, Azərbaycan dili və ədəbiyyatı fənnini mükəmməl tədris etməyə başlamışdır.Tezliklə bölgələrdə də bu tipli məktəblər açılmışdır.

Bədii yaradıcılığa X1X əsrin 90-cı illərində başlayan Sultanməcid Qənizadə uşaqlar üçün xalq nağılları əsasında «Tülkü və çıq-saqbəy» (1894) mənzum hekayəsini, «Məktubati-Şeydabəy Şirvani» başlığı altında «Müəllimlər iftixarı» (1898), «Gəlinlər həmayili» (1900) əsərlərini yazmışdır. Onun milli teatr sənətindəki xidmətləri də göz qabağındadır. Yazıçı N.Nərimanov, M.Mahmudbəyov və başqaları ilə birlikdə yeni teatr truppası yaratmış, eyni zamanda özü də müəyyən rollarda çıxış etmişdir.

XX əsrin əvvəllərində Sultanməcid Qənizadə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müfəttişi işləmiş, müsəlman uşaqlarının təlim-tərbiyəsində yaxından iştirak etmiş, dövrün «Məktəb», «Dəbistan», «Rəhbər» kimi uşaq jurnallarında müntəzəm dərc olunmuşdur. «Allah xofu», «Qurban bayramı» kimi əsərləri də həmin jurnallarda işıq üzü gör-

müşdür. Tədqiqatçı alim Xeyrulla Məmmədovun sözləri ilə desək, S.M.Qənizadə hərtərəfli istedada malik sənətkar olmuşdur. O. Azərbaycan ədəbiyyatı tarixində ilk tarixi dramın («Qönçə xanım») , ilk romanın (Cəlinlər həmayili»), ilk publisistik hekayənin («Tülkü və çaqqal») yaradıcılarındandır.(137, s.8)

S.M.Qənizadə uşaq dərslikləri yaratmaq sahəsində də böyük fəallıq göstərmiş, yeni və orijinal «İstilahi-Azərbaycan», «Kilidi ədəbiyyat» dərsliklərini hazırlayıb, rus-müsəlman məktəblərinin istifadəsinə vermişdir. «İstilahi Azərbaycan» dərsliyi 1899-cu ildə yazılmışdır. Yazıçı dərsliyi nəşr olunmaq üçün Kazan Müəllimlər İnstitutunun direktoru N.Y.İlminskiyə göndərmişdir. O da öz növbəsində dərsliyi bəyənmiş və senzura komitəsinə göndərmişdir. Dərslik 1890-cı ildə Bakıda K.Kasabəyovun mətbəəsində 2400 tirajla çap olunmuşdur. Əsər Azərbaycan dilinin fonetika və qrammatikasından bəhs edirdi. Dərslik ana dilini uşaqlara mənimsətmək məqsədi güdürdü.

S. M. Qənizadənin 1900-cu ildə Əliskəndər Cəfərzadə ilə birlikdə hazırladığı «Kilidi-ədəbiyyat» dərsliyi fars dilinin tədrisi məsələlərini əhətə edirdi. Əsərin birinci bölməsində nəsr, ikinci bölməsində isə poeziya nümunələri, Şərq xalqlarının maraqlı folklor nümunuləri, didaktik-yumoristik hekayələr, təmsil və lətifələr də yer almışdır.

SÜLEYMAN SANİ AXUNDOV

(1875-1939)

Süleyman Sani Axundov bədii yaradıcılığa XX əsrin əvvəllərində başlamışdır. Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Bakıda «Üsuli-cədid» məktəbinin təşkilində yaxından iştirak etmiş, öz həmfikirləri olan M.Şahtaxtınski, C.Məmmədquluzadə, A.Səhhət, A. Şaiq kimi maarifpərvər ziyalılarımızla çiyin-çiyinə verərək, əsrin əvvəllərində xalqımızın məktəbə, təhsilə olan ehtiyacını ödəməyə çalışmışdır. Ədəbi yaradıcılığa XIX əsrin son illərində «Tamahkar» (1899) pyesi ilə başlayan ədib ömrünün sonuna kimi uşaq ədəbiyyatı ilə bağlı olmuşdur. Ədibin «Tamahkar» pyesində M.F.Axundovun «Hacı Qara» əsərinin təsiri açıq-aydın özünü pöstərirdi. İlk dəfə Nikitinin sirk-teatrında tamaşaya qoyulan bu əsər hətta sovet dövründə də bir neçə dəfə səhnələşdirilmişdir.

Yazıçının ədəbi fəaliyyətə başladığı dövr-XX əsrin əvvəlləri milli mətbuatın dirçəliş dövrünə təsadüf edirdi. Bakıda birbirinin ardınca «Məktəb», «Rəhbər», «Həyat», «Dəbistan», «Zənbur», «İrşad», «Yeni həyat», «Füyuzat», «Yeni Füyuzat» kimi qəzet və jurnallar nəşr olunurdu. S. S. Axundov həmin mətbuat orqanlarının əksəriyyətinə ədəbi materiallar göndərir, milli mətbuatın inkişafında yaxından iştirak edirdi.

Ədib 1906-cı ildə «Dibdat bəy» əsərini yazaraq, xalqın ağır günlərində çar dumasına deputat seçilmək ehtirası ilə yanan bir Azərbaycan ziyalısını kəskin satirik tənqidə məruz qoymuşdur. Sovet hakimiyyəti illərində o, «Tənqid-təbliğ» teatrının yaradılmasında yaxından iştirak etmişdir. Teatr 1921-ci ildə ədibin «Çərxi-fələk» pyesi ilə açılmışdır. 1921-1922-ci illərdə «Tənqid-təbliğ» teatrının səhnəsində «Çərxi-fələk» (1921), «Şahsənəm və Gülpəri» (1921), «Laçın yuvası» (1921), «Bir eşqin nəticəsi» (1921), «İki yol» (1922), «Şeytan» (1922), «Eşq və intiqam» (1922) kimi yeddi pyesi tamaşaya qoyulmuşdur. «Laçın yuvası» dramı sovet hakimiyyətinin ildönümü münasibətilə keçirilən müsabiqədə birinsi mükafata layiq görülmüşdür. 1922-ci ildə yazdığı «Eşq və intiqam» faciə-

sində yazıçı atalar və oğullar problemini qoymuş, qadın azadlığı məsələlərinə toxunmuşdur.

S. S. Axundov sağlığında dəfələrlə «Uşaqlıq həyatımdan xatirələr» adlı avtobioqrafik əsər üzərində işlədiyini qeyd etmişdir. Lakin sonrakı elmi axtarışlardan məlum oldu ki, xəstəlik səbəbindən nəzərdə tutduğunu tamamlaya bilməmiş, əsərin yalnız xırda eskizləri qalmışdır. O bu eskizlərdə körpəlikdən atasını itirdiyini, anasının himayəsində yaşadığını, dayısı S.Vəlibəyovun himayəsi ilə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında oxuduğunu qeyd etməklə, uşaqlıq xatirələrinə son qoymuşdur. Ədib xatirəsinidə yazıb: «Mən 1875-ci ilin 8 oktyabrında Şuşada anadan olmuşam. Mən iki aylıq, qardaşım iki, bacım isə dörd yaşında olanda atam vəfat etmiş, biz Vəlibəyovlar nəslindən olan anamız Dürdanə xanımın himayəsində qalmışıq. Bizi saxlamaq və tərbiyə etmək anamıza böyük səy və qüvvə hesabına başa gəlibdir.»

Müəllimlik fəaliyyətinə 1894-cü ildə Bakıda II rus-müsəlman məktəbində başlamışdır. O, ilk gündən Nəriman Nərimanovun rəhbərlik etdiyi müsəlman müəllimlərinin kiçik qrupuna düşmüşdür. Sovet hakimiyyəti illərində yazıçı Bakıda 77 nömrəli məktəbdə müdir işləyib. Onun «Qonaqlıq», «Yuxu», «Kövkəbi-hüriyyət» əsərləri klassik hekayəmizin ən yaxşı nümunələridir.

S.S.Axundovun uşaqlar üçün yazdığı əsərlərindən ən maraqlısı, klassik ədəbiyyat nümunəsinə çevriləni «Qorxulu nağıllar» dır. Əsərin adında «nağıl» sözü olsa da, təsvir olunan hadisələr real həyat həqiqətləridir. «Qorxulu nağıllar» silsiləsinə daxil olan hekayələrin - «Əhməd və Məleykə», «Abbas və Zeynəb», «Nurəddin», «Qaraca qız», «Əşrəf»in qəhrəmanlarının bir qismi talesiz uşaqlardır. Onlar həyatın amansız zərbələri nəticəsində məhv olur. Lakin Nurəddin kimi sınaqlara mətanətlə dözüb, xoşbəxt olanlar da var.

«Nağıllar»dan biri də «Abbas və Zeynəb» hekayəsidir. Abbasın on, Zeynəbin on bir yaşı var. Ataları öldüyünə görə analarının himayəsinə sığınmışlar. Ana öz övladlarını həmişə mehriban olmağa, bir-birinə hörmət etməyə çağırır. Övladlar

da analarının nəsihətinə qulaq asaraq mehriban yaşayırlar. Ailənin bütün çətinlikləri Abbasın çiynindədir. Meşədə odun doğrayır, çətinliklə ailəni dolandırır. Hər biri böyük arzularla yaşayan bu uşaqlar qan intiqamının qurbanı olurlar.

«Qaraca qız» hekayəsi də silsilənin maraqlı əsərlərindəndir. Əsərin əsas qəhrəmanı əsl adı Tutu olan Qaracaqızdır. Onun müsibəti daha böyükdür. Hələ çox balaca olanda atasının zəlzələ nəticəsində həlak olub. Qaraca qız qaraçı dəstəsinə qoşulub. Sonra Yusif adlı varlı bir kişinin himayəsinə keçib. Sahibi tərəfindən dəfələrlə döyülüb, təhqir edilib. O, çox çətin sınaqlardan keçməli olur; daşqından güc-bəla ilə canını qurtarır, ayının pəncəsindən qaçır, bəylərin ov tulalarının vasitəsi ilə mağaradan çıxarılır. Nəhayət, Ağca xanımı sağaltmaq üçün həyatını təhlükə qarşısında qoyaraq ilan zəhərindən ölür.

Yazıçı bu hekayəsi ilə göstərir ki, həyatdakı çətinliklər, bir-birini əvəz edən bədbəxtliklər, ətrafdakıların amansız münasibəti insanların qəlbindəki insani hissləri, nəcibliyi, fədakarlığı, yaxşılıq etmək niyyətini öldürə bilməz. Xeyir hər yerdə şərə, işıq zülmətə qalib gəlir. Hekayə balaca oxucularda humanist hisslər tərbiyə edir.

S.S.Axundovun uşaq hekayələri bu gün də uşaq ədəbiyyatımızın ən maraqlı nümunələridir.

ALEKSANDR OSİPOVİÇ ÇERNYAYEVSKİ
(1840-1897)

A.O.Çernyayevski milli pedaqoji fikrin inkişafında, müəllim kadrlarının hazırlanmasında, yeni dərsliklərin meydana çıxmasında müstəsna xidmətlər göstərmişdir.O, Şamaxıda anadan olmuş, ilk təhsilini Şamaxı Qəza Məktəbində almışdır. Həmişə azərbaycanlılar arasında olan Çernyayevski hələ uşaqlığında Azərbaycan dilini mükəmməl öyrənmişdir. Rus və Azərbaycan klassik sənətkarlarının yaradıcılığını dərindən mənimsəyərək, eyni zamanda dünya ədəbiyyatı nümunələrini də sevə-sevə oxumuşdur. O, bir müddət Ağsuda poçt xidmətində işləmiş, təsadüfən burada Qafqaz tədris idarəsinin müdiri ilə tanış olmuşdur. Gənc oğlanın rus və azərbaycan dilini mükəmməl bilməsini eşidən qəza müdiri onu Tiflisə dəvət edir.

Tiflis mühiti gənc Çernyayevskinin fikri-mənəvi inkişafında mühüm rol oynayıb.Nücabə məktəbində müəllim işləyən Çernyayevski az sonra müfəttiş vəzifəsinə keçib.Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi təsis ediləndə A.O.Çernyayevski şöbənin müdiri vəzifəsinə təyin olunur. F.Köçərli 1910-cu ildə yazır ki, Çernyayevski "gözəl pedaqoq idi, sadə xalqın və uşaqların danışdığı Azərbaycan dilini də yaxşı bilirdi. Seminariyadakı fəaliyyəti onun həyatının unudulmaz anları idi. O həm dərsliklər hazırlayır, həm klassik sənətkarlardan tərcümələr edirdi. Azərbaycanda ilk qiraət kitablarının müəlliflərindən olan ədib 1883-cü ildə daş basması üsulu ilə nəşr edilən "Vətən dili" dərsliyi ilə milli əlifba kitabının əsasını qoymuşdur. Dərsliyin meydana çıxmasında şagirdi R.Əfəndiyev yaxından köməklik göstərmişdir. Həmin dərslik sonrakı dövrlərdə dəfələrlə nəşr olunmuş, yeni mətnlərlə zənginləşdirilmişdir.

Əlifba üzərində XX əsrin əvvəllərində F.Köçərli də işləmiş, 1910-cu ildə 60 səhifəlik yeddinci çapını üzə çıxarmışdır. F.Köçərli A.Çernyayevski ilə yaxından dostluq etmiş, öz sevimli müəlliminə ehtiram göstərmişdir. Sonralar A.Çernyayevski F.Köçərliyə yazırdı: "Bənövşə", "Çiçək", "Dilənçi" tər-

cümələriniz mənim kitabımın ziynəti mənziləsində olacaqdır. Nəzmi yüngül, musiqili və ahəngdarlıq qafiyələri də yerindədir.

"Vətən dili" dərsliyindəki məntlərin əksəriyyəti nəsr dili ilə yazılıb, əsasən kiçik mətnlər və təmsillərdən ibarətdir. Kitabda "Uşaq və gözlük", "İki dost", "İki yoldaş", "Payız", "Qış", "Əkinçi və oğul", "Kəpənək və arı", "Qaz və durna", "Qurd və durna", "Qurd və quzu" kimi hekayələr də verilmişdir. Kitab o dövrün pedaqoji elminin son nailiyyəti əsasında yazılıb. Mətnlərin içində atalar sözü və məsəllər, tapmacalar, hikmətli sözlər də yerləşdirilib.

"Vətən dili" dərsliyi 1888-ci ildə Tiflisdə Ünsizadə qardaşlarının mətbəəsində çap edilmişdir. Bu işdə ona şagirdi S.Vəlibəyov yaxından köməklik göstərmişdir. Dərsliyin əvvəlində yeddi səhifədən ibarət giriş sözü yazılıb. Burada müəllifin iistifadə etdiyi nümunələr, dərsliyin məqsəd və vəzifəsi şərh olunub.

Girişdə müəllif K.D.Uşinskinin dərsliklərindən metodik göstərişlərindən faydalandığı da etiraf olunmuşdur. Müqəddimədə oxuyuruq: "Bu kitabçada dərc olunan şeir və nəzmə dair təmsilatın çoxusu zəmanə şairlərinin möhtərəmi cənab Həsənəli ağa xan Qaradaqskinin nişanıdır və təmsillər məşhur Krılov basniyalarından tərcümədir.

Dərslikdəki materialların dili sadə və aydındır. Burada Azərbaycan şairlərinin də xeyli sayda şeirləri yer alıb. Buna görə də A.O.Çernyayevskinin dərslikləri tədqiqat baxımından diqqəti cəlb edir.

Ömrünü maarif, elmi və məktəb işlərinə sərf edən A.O.Çernyayevski təkcə elmi-pedaqoji fəaliyyətlə kifayətlənməmiş, müxtəlif mətbuat orqanlarında "Zaqafqaziya ölkələrində xalq məktəblərinə dair bir neçə söz", "Nümunəvi birsinifli kənd məktəbi Moskva politexnik muzeyində", "Yeni xalq məktəbləri məsələsinə dair", "Şeyxülislam məktəbləri" və.s məqalələr dərc etdirmiş, həmin əsərlərdə elmə, maarifə qənim kəsilənlər kəskin tənqid olunmuş, ,xalq arasında elmin, maarifin yayılmasında zəif fəaliyyətinə görə Zaqafqaziya ruhani idarəsi

məzəmmətlənmişdir. Məqalədə ədib təəssüf hissi ilə qeyd edirdi ki, 1848-1949-cu illərdə Tiflisdə fəaliyyət göstərən iki müsəlman məktəbini 30 ildə cəmi 37 nəfər bitirmişdir.

Ədibin maraqlı məqalələrindən biri də"Qafqaz müsəlmanları xalq təhsilinin yekunları" məqaləsidir. Əsər "Qafqaz" qəzetinin 1995-ci il 25 yanvar tarixli nömrəsində işıq üzü görüb. Məqalədə bildirilir ki, 1893-cü ilin yanvar ayının 1-nə olan məlumata görə Qafqaz Tədris Dairəsi Tabeliyində olan məktəblərdə xeyli müsəlman uşaqları oxuyub. Həmin vaxt orta təhsil ocaqlarında oxuyan müsəlman uşaqlarının sayı 438 nəfər olub ki, onların səkkizini qızlar təşkil edib. Əlavə olaraq 578 nəfər şəhər məktəblərində təhsil almışdır.

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin təşkilində əvəzsis xidmət göstərən A.O.Çernyayevski F.Köçərlinin sözləri ilə desək S.H.Pesta- lotski kimi həmişə öz yetirmələrinin arasında olur, onları pedaqoji fəaliyyətə ruhlandırırdı. Bu şəxsiyyətlərin sırasında S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev, N.Nərimanbəyov kimi yaxın onilliklərin tanınmış pedaqoqları da var idi.

SƏFƏRƏLİBƏY VƏLİBƏYOV

(1861 - 1902)

Milli pedaqoji fikrin tanınmış simalalarından olan S.Vəlibəyov 1861-ci ildə Şuşada anadan olub. 1879-cu ildə dördsinifli Şuşa şəhər məktəbini bitirib. O vaxt Qori Müəllimlər Seminariyasına şagirdlər toplamaq üçün A. Çernyayevski Qafqazın müxtəlif bölgələrinə getməli olurdu. Bu səfərlərin birində o Şuşada S.Vəlibəyovu görmüş, istedadını, ərəb, fars və rus dillərini yaxşı bilməsini nəzərə alaraq, onu seminariyaya gətirmişdir. S.Vəlibəyov 1881-ci ildə Qori Müəllimlər Seminariyasını bitirib, 1896-cı ilə qədər seminariyada müəllim kimi fəaliyyət göstərmişdir.

Seminariyada işləyərkən S.Vəlibəyov A. Çernyayevski ilə birlikdə iki hissədən ibarət "Vətən dili" dərsliyini yazmışdır. Eyni zamanda "Qüdrəti-xuda" və "Üsuli cədidi-lisani-farsi" dərsliklərini hazırlamışdır. Ədibin "Üsuli cədidi-lisani-farsi" dərsliyi qiraət materiallarından ibarətdir. Burada K.D.Uşinskinin, L.N.Tolstoyun qiraət kitablarından tərcümələr çoxluq təşkil edirdi. Diqqətlə seçilib kitabda yerləşdilrilən əsərlər sırasında K.D.Uşinskinin "Uşaq gözlüyü", "Qarğa və sağsağan", "İki keçi", "Ayı və bağban", Lev Tolstoyun "Yalançı", "Qurd və durna", "Qarı və toyuq" və s. hekayələri də yer almışdır.

Əldə etdikləri ilə kifayətlənməmək S.Vəlibəyovun xarakterini şərtləndirən cəhətlərdən idi. 1888-ci ildə onun 20 qiraət mətnini əhatə edən "Qüdrəti-xuda" kitabı Tiflisdə nəşr olunmuşdur. Dərsliyin üstündə yazılmışdı: "Mübtadi məktəb şagirdlərinə məxsus hüsni-əxlaqə dair Azərbaycan dilində risaliyi qiraətdir".

Materiallar çox diqqətlə seçilib əksəriyyəti tərbiyəvi məzmundadır. Mövzuların arasında dini məzmunlu hekayələr də yer almışdır. Məntlərin dili sadə, məzmunu maraqlıdır. Hekayələrdə təbiət və cəmiyyət hadisələri, ətraf aləmə münasibət daha çox nəzərə çarpır. Təbiətə, onun gözəlliklərinə uşaq və yeniyetmələri cəlb etmək kitabdakı əsərləri səciyyələndirən başlıca amildir.

"Qüdrəti-xuda" dərsliyində gözəl insani keyfiyyətlər təbliğ olunur. Uşaqlara zəhmətə, əməyə, məhəbbət aşılanır, onlar kitab oxumağa həvəsləndirilir, təbiət və cəmiyyət elmləri ilə bağlı müxtəlif bilgilər verilir. Dərslikdə bu gün bizə qəliz görünən söz və ifadələr də kifayət qədərdir. O dövrdə uşaq və yeniyetmələrin asan başa düşdüyü bu sözlərin əksəriyyəti indi arxivləşərək dilimizin lüğət fonduna daxil deyildir.

S.Vəlibəyov milli təhsil sistemimizin tarixində özünəməxsus yer tutub və buna görə ədibin elmi-pedaqoji irsi diqqətlə öyrənilməlidir.

ABBAS SƏHHƏT

(1874-1918)

Abbas Səhhət 1874-cü ildə Şamaxı şəhərində ruhani ailəsində anadan olmuşdur. Çox gənc yaşlarından şeirə maraq göstərmişdir. Atası Molla Abbas kənd müəllimi işləmiş, anası dərman bitkiləri ilə xəstələri müalicə etmişdir. O, ilk təhsilini atasının məktəbində almışdır. Gənclik illərində S. Ə. Şirvaninin əruz vəznindəki əsərlərinə bənzər şeirlər yazmışdır. Daha sonra təhsilini davam etdirmək məqsədi ilə İrana getmişdir. Burada «Mədrəsəyi-nizamiyyəyi-nasiriyyə» yə qəbul olunmuşdur. Həmin tədris ocağı Nəsrəddin Şahın açdığı tibb institutu idi. Cəmi altı il orada işləyərək həkimlik şəhadətnaməsi almış, İranı səyahət etdiyi zaman xanın sarayına həkim təyin olunmuşdur.

Vətənə qayıdandan sonra o bir müddət işsiz qalmış, yaxın dostlarından birinin vasitəsi ilə Şamaxı realnı məktəbinə müəllim təyin olunmuşdur. Şamaxıda M. Ə. Sabirlə rastlaşmış, onunla həmfikir və dost olmuşdur. Bundan başqa A.Səhhət dövrün maarifçi sənətkarları olan Abdulla Şaiq, Mahmudbəy Mahmudbəyov, Firudin bəy Köçərli və başqaları ilə də yaxından dostluq etmişdir

A.Səhhət ədəbi görüşlərində həmişə yeni ədəbiyyata üstünlük verirdi. Rus və fransız ədəbiyyatını mükəmməl öyrənən şair Azərbaycan ədəbiyyatına da yeni mövzular, yeni janrlar gətirmək istəyirdi. Dövrün «Məktəb», «Dəbistan», «Rəhbər» kimi məcmuələrində «Ana və oğul», «İt və kölgəsi», «Vətən» əsərlərini çap etdirmişdir. A. Səhhətin uşaq jurnallarında dərc olunan əsərləri balacaların yaş və bilik səviyyəsinə uyğun idi. Bu barədə görkəmli uşaq yazıçısı A.Şaiq yazırdı: «Sabir və Səhhəti uşaq ədəbiyyatı ilə maraqlandıran Mahmud əmi («Mahmud bəy Mahmudbəyov-X.M.) olmuşdur. Mahmud əmi hər iki şairin uşaqlar üçün yazdıqları əsərləri və tərcümələrini dərsliklərində çap etdirdi» (135, səh.151)

A.Səhhətin uşaq əsərlərində vətənpərvərlik motivləri, təlim-tərbiyə məsələləri daha qabarıq nəzərə çarpır. Bu ideyalar

ədibin 1914-cü ildə yazdığı "Vətən" şeiri üçün də səciyyəvidir. Şeirin hər misrasında vətən məhəbbəti, torpaq qeyrəti öz əksini tapıb. Şairin "Yay səhəri", "Payız", "Qış", "Yaz" şeirlərində vətənin gözəl yerləri, təbiətin müxtəlif fəsillərinin özünəməxsusluğu tərənnüm olunub. "Quşlar", "Cücələr", "Qaranquş balaları" şeirləri isə təbiətdəki müxtəlif heyvanları sevməyə istiqamətləndirilib.

Uşaq mətbuatında çap etdirdiyi əsərlər şairin vətən məhəbbəti, ictimai haqsızlıga etiraz daha çox diqqəti cəlb edir. «Fəryadi-intibah» şeirində bu intizar belə ifadə olunur:

Kim səni didəsi giryan eyləmiş?
Kim səni hali-pərişan eyləmiş?
Sındırıblar nə üçün balü-pərin?
Hanı ol ruhi təzə nəğmələrin?

«Firdövsül-ətval, yaxud cocuqlar bagçası» şeirində ədib balaca oxuculara müraciət edir, onları vətənpərvər, namuslu və bilikli olmağa çağırırdı. Başqa bir əsərində-«Ana və oğul» şeirində isə öz oğlunu məktəbə göndərən ananın keçirdiyi hissləri qələmə alırdı:

Ay oğlum! Bu qədər eyləmə xab,
Dur götür qoltuguna indi kitab,
Məktəbin vaxtı keçir eylə mətab…

«Quşlar, quşlar, a quşlar» şeirində şair uşaqlara quşlar haqqında maraqlı məlumat verib, payızda qaranquşların uçub başqa ölkələrə getməsini niskilli bir dillə qələmə alıb. İlin müxtəlif fəsillərində quşların bir iqlimdən digərinə uçub getməsinin səbəblərinə aydınlıq gətirib. Əsərdə həyat həqiqəti yüksək bədii vasitələrlə oxuculara çatdırılıb.

«Cücələrim» şeirində yumurtadan çıxan cücələrdən bəhs olunur. Onlar civildəşir, umac dənləyir, analarının qanadları altına sığınırlar. Uşaq cücələrə yem verir, onları toppuş əllərinə götürür. Balaca özünə verilən südlü sıyığı da cücələrə ve-

rir. Müəllif bununla uşaqları humanist olmağa çağırır, onlarda ev quşlarına qarşı həssas olmaq duyğusu formalaşdırır.

A.Səhhət ruhən azad, millətini sevən bir sənətkar idi. Sənət və sənətkar mövqeyini belə qəbul edirdi:

Şair oldur ki, həqiqətlə dildadə olsun
Şairin fikri, xəyalı gərək azadə olsun.

Azərbaycan və Şərq ədəbiyyatının Firdovsi, Sədi, Nizami, Füzuli kimi klassik sənətkarlarının divanları ilə yaxından tanış olan romantik sənətkar XX əsrin əvvəllərindən ictimai və pedaqoji fəaliyyətini genişləndirmiş, müəllimlik etmiş, yeni üsullu məktəblərin açılması və fəaliyyət göstərməsi üçün xeyli əmək sərf etmişdir.

A.Səhhət 1906-cı ildən Bakı Realnı Məktəbdə müəllimlik fəaliyyətini davam etdirmişdir. Görkəmli Azərbaycan maarifçisi, romantik sənətkarı realnı məktəbdə ana dilindən dərs demişdir. Öz əsərlərində Nizami, Nəsimi, Füzuli, Vaqif kimi Azərbaycan klassikləri ilə birlikdə, rus ədəbiyyatı sənətkarlarından olan Puşkin, Lermontov, Krılov və başqalarından da ətraflı bəhs etmiş, şagirdlərdə bədii ədəbiyyata maraq yaratmağa çalışmışdır. O bununla kifayətlənməyərək türk ədəbiyyatının Namiq Kamal, Tofiq Fikrət, Əhməd Hamidi kimi ünlü simaları haqqında da ətraflı məlumat vermişdir.

Dövrünün xeyli sayda maarifçi ziyalıları ilə A.Səhhət dostluq, yaradıcılıq əlaqələri saxlayırdı. M. Ə. Sabirlə dostluğu isə daha möhkəm idi və onları əqidə birliyi yaxınlaşdırırdı. 1905-ci ilin yayında Şamaxıya gedən A. Şaiq orada A. Səhhət və M. Ə. Sabirlə tanış olmuş və bu üç sənətkar arasında dərin mehribançılıq və ülvi dostluq yaranmışdır. 1912-ci ildə «Sınıq saz» şeirlər kitabı nəşr olunmuşdur.

Yazıçının «Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi» (1914) adlı bir pərdəli pyesi, «Tağı və Nağı» səhnə əsərləri ədəbiyyatımızda nəsrlə ilk uşaq pyesləri hesab olunur. 1909-cu ildə o, «Yeni məktəb» («Üçüncü il») adlı dərslik hazırlamışdır. Kitabda müxtəlif elmlər-təbiyyət, coğrafiya, anatomiya haqqında ayrıca fəsillər öz əksini tapmışdır.

A.Səhhətin uşaq şeirlərindən «Vətən» daha çox fərqlənir. Burada şair vətən sevgisini, vətəndaşlıq duyğularını poetik bir dillə qələmə almışdır. Şair uşaqları vətəni sevməyə çağırır. Çünki vətən əcdadlarımızın bizə miras qoyub getdiyi müqəddəs bir yerdir, övladlarımızın yaşayacağı məkandır:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir,
Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

Uşaqlar üçün yazdığı əsərlərində dilin sadəliyinə, təbiiliyinə, şeirin yadda qalmasına, bədii keyfiyyətə daha çox diqqət yetirirdi. Məsələn,

Çox yatma dur, a tənbəl!
Yatsan olar iş əngəl.

və yaxud:

Gəl-gəl, a yaz günləri,
İlin əziz günləri,

- kimi beytlərində şair ən yüngül və oynaq vəznlərdən istifadə etmişdir. Bu da şeirin tez əzbərlənməsinə və yadda qalmasına kömək edir.

1906-cı ildə «Dəbistan» jurnalında «Fəryadi intibah» adlı şeirini çap etdirdikdən sonra uşaq jurnallarında və dərsliklərdə yeni uşaq şeirləri ilə çıxış etmişdir. «Yaz», «Bağçam», «İki dana», «Cücələr», «Köç», «Quşlar», «İlk bahar» kimi uşaq şeirləri balacaların psixologiyasına, zövqünə hesablanmış əsərlərdir. «Ana bala» şeirində şair deyir:

Dağın maralı,
Gözü qaralı.
Dünyanın malı,
Bu balama qurban.

Bu kiçik parçada övlad məhəbbəti, ana sevgisi təbii, sadə boyalarla öz əksini tapıb.

A.Səhhət həm də gözəl və məzmunlu təmsillər müəllifidir. Onun "Tülkü və meymun", "İki dana", "Uşaq və Aslan", "İt və kölgəsi" təmsillərində acgözlük, tamahkarlıq, lovğalıq, yersiz təkəbbürlülük kimi mənfi sifətlər pislənilir, mərdlik, doğruçuluq, sədaqət kimi müsbət keyfiyyətlər təqdir olunur. A.Səhhət uşaq əsərlərində həmişə yüngül və oynaq vəznlərdən istifadə edirdi. Odur ki, ədibin əsərləri uşaqların yaddaşından silinmir, onların marağına səbəb olurdu. Şairin "Cəhalətin səmərəsi" və yaxud "Bir yetimin xoşbətliyi" pyesində uşaqların məktəb həyatından maraqlı sujet xətti qurmuşdur.

1914-1917-ci illərdə A.Səhhət «Volqa səyahəti», «Əli və Aişə» romanlarını, «Bədbəxt ailə», «Qaragünlü», «Həlimə», «Cərrahlıq» hekayələrini yazmış, «Kəlniyyat» jurnalında «Şeyx Şeypur» imzası ilə 30-dan çox satirik şeirləri dərc olunmuşdur. O həm də tərçüməçilik fəaliyyəti göstərmiş, Krılov, Puşkin, Lermontov, Qorki və başqalarından xeyli tərcümələr etmişdir.

A.Səhhət 1918-ci ildə inqilabi yüksəlişin ağır vaxtlarında əvvəlcə Kürdəmirə, oradan isə Gəncəyə köçmüşdür. Gəncədə yatalaq xəstəliyindən vəfat etmişdir.

Ömrünün on beş ilini müəllimliyə həsr edən A.Səhhət şeirlərində öz övladlarını məktəbə oxumağa göndərməyən valideynləri, köhnə fikirli adamları, xalq arasında hörməti olmayan təhsilli ziyalıları qəflət yuxusundan oyatmağa çalışmışdır. Onun bir adı oynaq dildə yazdığı uşaq əsərləri XX əsrin əvvəllərində «Məktəb və Dəbistan» jurnallarında dərc olunmuşdur.

A.Səhhətin məktəb yaşına çatmayan uşaqlara həsr olunan şeirləri də az deyil. «Cücələr», «Quşlar» şeirləri bu cəhətdən diqqəti daha çox cəlb edir. Şairin «Yaz», «Bağça», «İlk bahar» kimi şeirlərində insanların əhvali-ruhiyyəsi, gündəlik ovqatları təbiətin əsrarəngiz gözəllikləri ilə vəhdətdə verilir. «Ana və bala», «Köç» şeirlərində isə övlad – valideyn münasibətləri, xalqın etnoqrafiq yaddaşı poetik bir şəkildə qələmə alınmışdır.

Həyatını, fəaliyyətini məktəbsiz, təlim-tərbiyəsiz təsəvvür etməyən A.Səhhət «İki uşaq», «Məktəb şagirdi», «Bir məktəbdə imtahan» şeirlərində Azərbaycan müəlliminin fədakar fəaliyyətini, təlim – tərbiyədə buraxılan nöqsanları və bu sahədəki uğurları qələmə almışdır. Bu cəhətdən «Cəhalət səmərəsi yaxud bir yetimin xoşbəxtliyi» pyesi daha maraqlıdır. Bu əsər Azərbaycan uşaq dramaturgiyasının ilk nümunələrindəndir. Əsərdə XX əsrin əvvəllərində Azərbaycan müəllimlərinin qarşısına çıxan çətinliklərdən, onların bu maneələrə qarşı ciddi mübarizə aparmalarından bəhs olunur. Müəllif övladlarını məktəbə buraxmayan valideynləri nadan hesab edir, bu vacib işdə müəllimlərin qarşısına çıxan çətinliklərdən bəh etmişdir. Əsərdə öz məktəbli dostunun ktiabını oğurlayan uşağın əməllərindən danışılır. Anası bu pis hərəkətinə görə övladını vaxdında tənbeh etmir, onu bu pis yoldan çəkindirmir. Buna görə əd uşaq böyüdükdə onda pis davranış, nalayiq hərəkətlər müşahidə olunur. Nəzakətsiz qalan uşaq oğurluq edir, pis yola düşür, quldurlara rast gələndən sonra isə peşəkar oğru olur. Müxtəlif cinayət əməllərinə qurşanan uşaq nəhayət ki, məhkəmədə səhv etdiyini anlayır və deyir.

Ay hakimlər,
Müqəssirəm doğrudur,
Həqiqətdə mənim annam oğrudur.
Əvvəl dəfə oğurluğa uyarkən,
Yoldaşımdan kitab oğurlayarkən,
Etsə idi annam məni məzəmmət,
Olmaz idim indi bu növ bədbəxt.

ABDULLA ŞAİQ TALIBZADƏ

(1881-1959)

Abdulla Şaiq Talıbzadə ədəbiyyat və mədəniyyət tariximizə ictimai xadim, yazıçı, ədəbiyyatşünas, şair, tərcüməçi kimi daxil olmuşdur. O, 1881-ci ildə Tiflisdə anadan olmuşdur. İbtidai təhsilini Tiflisdə alan balaca Şaiq 1901-ci ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Əsrimizin ilk illərindən pedaqoji fəaliyyətə başlayan ədib H.Zərdabi, R.Əfəndiyev, N. Nərimanov kimi ziyalılarla birlikdə Azərbaycan övladlarının gələcəyi yolunda yorulmaq bilmədən çalışmışdır.

XIX əsrin son onilliklərində Azərbaycan məktəblərində ana dili tədrisi çox vaxt şəriətdən dərs deyən müəllimlərə həvalə olunurdu. Ancaq XX əsrin əvvəllərində maarifpərvər ziyalılarımız yaranan bu boşluğu doldurdu. A.Şaiq ömrünün 30 ildən də çox bir dövrünü müəllimliyə həsr etmişdir. Bədii yaradıcılığa XX əsrin əvvəllərində şeirlə başlayan A.Şaiq «Məktub yetişmədi», «Köç», «Əsrimizin qəhrəmanları», «İblisin hüzurunda», «Qafqaz çiçəyi», «İdeal və insanlıq» əsərləri ilə milli romantik ədəbiyyatımızı zənginləşdirmişdir.

Azərbaycan maarifpərvər ziyalılarının əksəriyyəti ilə əlaqə saxlayan ədib H.M.Zərdabi, N.Vəzirov, F.Köçərli, M.Ə.Sabir, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, S.S.Axundov, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli ilə dostluq edir, onlarla çiyin-çiyinə dayanaraq maarifçilik ideyalarının, demokratik meyllərin, məktəb, təlim-tərbiyə məsələlərinin yayılması uğrunda sistemli fəaliyyət göstərirdi.

XX əsrin əvvəllərində dərsliklərin hazırlanmasında, yeni məktəblərin fəaliyyətində onun xidmətləri müstəsnadır. «İkinci il», «Uşaq gözlüyü», «Gülzar», «Türk çələngi», «Milli qiraət kitabı» dərsliklərini yazmaqla o milli uşaq ədəbiyyatımızın və dərsliklərimizin yeni bir mərhələsinin başlanğıcını qoymuşdur. A.Şaiqin ilk ədəbiyyat tarixçimiz F.Köçərli ilə məktublaşmasından öyrənirik ki, o hələ 1908-ci ildən III və IV siniflər üçün dərslik hazırlamaq istəyirmiş. Hətta həmin dərsliklərə yeni şeirlər yazmaq üçün M. Ə. Sabirə də müraciət etmişdir.

F.Köçərli A.Şaiqin 1912-ci ildə çap olunan «Gülzar» dərsliyini təqdir edərək yazırdı: «Gülzarda təlim və tədrisə layiq məlumat çoxdur. Belə ki, ali siniflərdə oxuyan şagirdlərə ən yarar və ən münasib kitabdır. Xüsusən, onun üçünsü hissəsi mənə xoş gəldi» (115, s.278)

Abdulla Şaiq öz təbiəti etibarilə həssas, humanist, duyğulu bir sənətkar idi. İlk yaradıcılığından xalq nağıl və rəvayətlərinin təsiri altında balacalar ücün şeir və hekayələr yazan ədib bütün yaradıcılığı boyu bu tendensiyanı davam etdirmişdir. Xeyirlə şərin, yaxşı ilə pisin mübarizəsi əsərlərinin başlıca leymotividir. Bu mübarizədə həmişə xeyir şərə, yaxşılıq pisliyə qalib gəlir. Azərbaycan uşaq dramaturgiyası tarixində ilk bədii tərbiyəvi əsər hesab olunan «Gözəl bahar» pyesi diqqətəlayiqdir. Əsərdə səadəti təmsil edən günəşin, baharın müjdəsi çiçəklərin, quşların, kəpənəklərin sevinci maraqlı boyalarla verilmişdir. «Oyunçu bağalar», «Qoç oğlu» əsərləri tərbiyəvi xarakterinə görə öz əhəmiyyətini saxlayır. «Oyunçu bağalar» əsərinin ssenarisi əsasında ilk uşaq filmi çəkilmişdir.

Böyük Vətən Müharibəsi illərində də yazıçı çox məhsuldar işləmiş, «Vətən» pyesi Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. «Ana» pyesi də vətənpərvərlik mövzusunda yazılmışdır. 1944-cü ildə yazdığı «Zəhmət və Ziynət» əsəri 1944-cü ildə uşaqlar üçün yaxşı əsərlər müsabiqəsində birinci mükafata layiq görülmüşdür.

Azərbaycan şifahi xalq ədəbiyyatının zəngin ənənələrini, klassik ədəbiyyat tariximizin müxtəlif dövrlərini yaxşı bilən yazıçı xalq adət-ənənələrinə, etnoqrafiyasına, mədəniyyət tarixinə də yaxından bələd idi. «Şələquyruq», «Tıq-tıq xanım» (1910), «Dağlar Soltanı», «Tülkü həccə gedir» (1911), «Səfər və Bəşir», «Yaxşı arxa» (1910) əsərləri ilə o, uşaq mənzum hekayəmizin ən yaxşı örnəklərini yaratmış, uşaq ədəbiyyatında hekayə janrının əsasını qoymuşdur. F.Köçərli 1911-ci ildə A.Şaiqə göndərdiyi məktubunda yazırdı: «Çobanlar haqqında yazdığınız şeirlər çox xoşuma gəldi. Neçə kərəm onları özüm üçün və şagirdlər üçün oxumuşam, onlara da çox xoş gəlib, üzünü köçürüblər. Onların xoşa gəlməsinə səbəb şeirlərin sadə-

liyi və həqiqi hissiyyatdan doğub vücuda gəlməsidir» (115, s.276).

Rus ədəbiyyatından, Şərq və Qərb klassik və müasir irsindən etdiyi tərcümələr onun istedadının və professionallığının başqa tərəfindən xəbər verirdi. V.Şekspirin «Maqbet», D.Defonun «Robinzon Kruzo», əsərləri, İ.A.Krılovun təmsilləri, M.Qorkinin hekayələri ilə Azərbaycan oxucusu A.Şaiqin tərcümələri vasitəsi ilə tanış olmuşdur.

«Həpimiz bir günəşin zərrəsiyiz» - deyən yazıçı dünyanın bütün xalqlarına və insanlarına humanist gözlə baxır, xeyirxahlıq, mərdlik, humanizm fəlsəfəsinə üstünlük verirdi. Bütün bunlara görə sovet dövründə haqsız tənqidlərə məruz qalır, mücərrəd burjua humanizmi təbliğ etdiyi, siniflər mübarizəsinin mahiyyətini anlamadığı iddia olunurdu.

A.Şaiq istər uşaq və yeniyetmələrin, istərsə də böyüklərin maariflənməsi, gözlərinin qarşısından qəflət pərdəsinin qalxması üçün öz böyük sələfi M.F.Axundov kimi teatra, dramaturgiyaya üstünlük verirdi. O, dramaturgiya fəaliyyətinə də uşaq pyesləri ilə başlamış və ədəbiyyatımızda uşaq dramaturgiyasının əsasını qoymuşdur. 1910-cu ildə «Məktəb» jurnalında «Çoban» pyesi nəşr olunmuş, ardınca «Gözəl bahar» alleqorik mənzum pyesini yazmışdır. Görkəmli ədəbiyyatşünas F.Köçərli «Gözəl bahar» pyesinin əlyazmasını oxuyandan sonra 1911-ci ildə Şaiqə məktubunda öz fikirlərini belə ifadə etmişdir: «Qızlara bir pərdədə «Bahar xanım» ünvanında yazdığınız mənzumə bəd deyil. Ondan yaxşı operetta əmələ gələr. Yaxşı olar ki, bu barədə Ü.Hacıbəyovla məsləhət edəsiniz». Onun bu təklifini nəzərə alan A.Şaiq uşaq operası üçün libretto hazırlamışdır. Şairin müharibə illərində yazdığı «Zəhmət və Ziynət» əsəri də balacalar tərəfindən sevilir.

1911-ci ildə A.Şaiq «Min bir gecə» nağılının motivləri əsasında «Bir saatlıq xəlifə» pyesini yazmışdır. Əsər M.Qorki adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. 1937-ci ildə A.Şaiq Gənclər Teatrının ədəbi pedaqoji hissəsinə müdir təyin olunmuşdur. Bundan sonra onun teatrla əlaqələri daha da möhkəmlənmiş, balaca oxucular tərəfindən daha çox

sevilən «Xasay» dramını başa çatdırmışdır. Əsərin süjet xəttində müxtəlif tərbiyə sistemlərinin, köhnəliklə yeniliyin mübarizəsi dayanırdı.

Azərbaycan Demokratik Respublikasını alqışla qarşılayan ədiblərimizdən biri də A.Şaiq idi. Artıq bu onun həyatının yeni mərhələsindən xəbər verirdi. Azərbaycan məktəblərinin milliləşdirilməsi yolunda fədakarlıq göstərir, «Azərbaycan» qəzetində bu barədə silsilə məqalələrlə çıxış edirdi. Həmin günlərdə milli orta təhsilin yaranmasında müstəsna xidmətlər göstərir, rusdilli məktəblərdə dərslərin Azərbaycan dilində keçilməsinə çalışırdı. Bununla kifayətlənməyərək «Milli qiraət», «Ədəbiyyat dərsləri», «Türk çələngi», «Türk ədəbiyyatı» kimi yeni dərsliklərini yazırdı. Şair «Həpimiz bir günəşin zərrəsiyiz» şeirində deyirdi:

Həpimiz bir günəşin zərrəsiyiz,
Həpimiz bir yuva pərvərdəsiyiz!

Birləşmiş Millətlər Təşkilatının inkişaf proqramının Azərbaycandakı nümayəndəsi cənab Paolo Lembo həmin şeiri «Azərbaycan Respublikasında İnsan inkişafı haqqında hesabat-1995» kitabında epiqraf vermişdir. O, kitabı A.Şaiqin muzeyinə verərkən belə söyləyib: «Azərbaycanın görkəmli şairi Abdulla Şaiqin bu misralarında bütöv bir xalqın, Azərbaycan xalqının qardaşlıq və sülh arzuları, istəkləri özünün parlaq təzahürünü tapmışdır. Bu şeir öz məzmunu ilə BMT-nin proqramını əhatə edir».

A.Şaiq Sovet hakimiyyəti illərində də ədəbi yaradıcılıqla fəal məşğul olmuş, «Xoruz», «Keçi», «Uşaq və dovşan», «Səhər», «Təmizlik», «Çoban mahnısı», «Oyaq oğlum» şeirlərini, 1927-ci ildə «İldırım» pyesini, 1940-cı ildə «Araz» romanını yazmış, «Xasay», «Eloğlu», «Vətən», «Ana», «Qaraca qız», «Fitnə» pyesləri 1938-ci ildən Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. A.Şaiq həmişə xalqımız tərəfindən yüksək qiymətləndirilmiş, ictimai-ədəbi fəaliyyəti diqqət mərkəzində olmuş, əməkdar incəsənət xadimi adı almış, Lenin

Ordeni, Qırmızı Əmək Bayrağı Ordeni ilə təltif olunmuşdur. 1946-cı ildə SSRİ Ali Sovetinə deputat seçilmişdir.

A.Şaiq Talıbzadə 1959-cu il iyulun 24-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

CƏLİL MƏMMƏDQULUZADƏ

(1866-1931)

Cəlil Məmmədquluzadə 1866-cı ildə Naxçıvanda anadan olub, mollaxanada, üçsinifli şəhər məktəbində ibtidai təhsil almış, 1882-ci ildən Qori Müəllimlər Seminariyasında təhsil almağa başlayıb. İkinci Aleksandr öldürüldükdən sonra seminariyada siyasi nəzarət güclənmişdi. Lakin bütün bunlar Azərbaycan maarifçi ziyalılarının, o cümlədən də Qori Müəllimlər Seminariyasının istər müəllimlərinin, istərsə də orada təhsil alan ziyalılarımızın demokratik ruhunu qıra bilməmişdi. 1887-ci ildə seminariyanı müvəffəqiyyətlə bitirən gənc məzun Uluxanlı, Baş Noraşen və Nehrəm kənd orta məktəblərində müəllim işləyib.

XIX əsrin 90-cı illərindən etibarən bədii yaradıcılığa başlayan ədib «Çay dəstgahı» (1887), «Kişmiş oyunu» (1892), «Eşşəyin itməkliyi» (1894) əsərlərini yazmışdır. 1898-ci ildə İrana köçmüş, bir neçə il orada yaşamışdır. 1903-cü ildə Tiflisə getmiş, şəhərdə Məhəmmədağa Şaxtaxtinski ilə tanış olmuş, birlikdə 1903-cü ildə «Şərqi rus» qəzetini nəşr etməyə başlamışlar. 1905- ci ilin yanvarında « Şərqi Rus» qəzeti borca düşərək bağlanıb.

1905-ci ilin mart ayında C.Məmmədquluzadə Ömər Faiqlə birlikdə «Qeyrət» mətbəəsini yaradıb. Mətbəə müasir avadanlıqla təchiz olunub. Çap maşınları Moskvadakı alman firmasından alınıb. «Molla Nəsrəddin» jurnalının ilk nömrələri də bu mətbəədə nəşr edilib. «Mollanəsrəddinci»lərin ilk tanışlığı bu mətbəədən başlayıb. Onu da qeyd edək ki, həmin jurnalı çıxarmaq qərarına gələndə yazıçının cibində 2 manat 75 qəpik pul olub. Lakin bu çətinliklər onu qorxutmayıb. Məşədi Ələsgər Bağırovun maddi, ömər Faiq Nemanzadənin mənəvi köməyi ilə jurnalın birinci nömrəsini çap etdirməyə nail olub.

Mirzə Cəlil 1908-ci ildə «Ölülər» əsərini yazıb. 1913-cü ildə Şuşada, Həmidə xanımın mənzilində ilk dəfə olaraq əsəri öz dostlarına oxuyub.. Həmin hadisənin şahidi olan

R.Q.Nəcəfov o günləri belə xatırlayıb: «Azad Əmirov, Hüseyn Sarabski və başqa ziyalılar da orada idi. Mirzə cürətsiz bir halda əsəri oxuyub qurtardı. O, onu dinləyənlərə əsərin nə cür təsir etdiyini bilmək istəyirdi. Hamı əsərin yeni bir şey olduğuna, səhnə tariximizdə böyük inqilabi rol oynayacağına qane oldu və Mirzənin bu yazısını təqdir etdi. Bu əsərin böyük gurultular qoparacağını bildirdikdə onun Şuşa kimi mövhumatçılar yuvasında, Ağa Əbdül Rəhimlərin fikrinə və zehninə hakim olduğu bir yerdə səhnəyə qoyulmasına tərəfdar olmadılar» («Ədəiyyat» qəzeti, 1936, №6)

Ədibin «Poçt qutusu» hekayəsi milli uşaq hekayəçiliyinin nailiyyətidir. Hekayədə Novruzəlinin başına gələn əhvalatlar şirin bir dillə təsvir edilir. Süjet xətti sadə və orijinaldır. Novruzəli öz «xozeyin»inin məktubunu poçta salmağa yollanır. Məktubu qutuya saldıqdan sonra fikirləşir ki, qutunu sahibsiz qoyub getmək olmaz. Nəzarətsizlikdən istifadə edib onu oğurlaya bilərlər. Buna görə də qutunun qabağında dayanaraq məktubu qorumağa qərar verir. Elə bu vaxt qutunu boşaltmağa gələn poçt işçisini görən Novruzəli onu oğru hesab edərək hüsuma keçir və döyməyə başlayır. Polislər Novruzəlini tutub aparır və bir neçə günlüyə həbs edirlər.

«Poçt qutusu» hekayəsində C.Məmmədquluzadə ilk dəfə olaraq «kiçik adamı» bədii ədəbiyyatın baş qəhrəmanına çevirmiş, onun problem və qayğılarına maarifçi düşüncənin prizmasından yanaşmışdır. Düzdür, klassik ədəbiyyatımızda sadə əmək adamlarının obrazına kifayət qədər rast gəlmək mümkündür. Məsələn ilk Azərbaycan dramaturqu M.F. Axundov Tuğ kəndlilərinin simasında bu cür insanların ümumiləşdirilmiş obrazını yaratmışdır.

Lakin bu əsərlərdə diqqət başqa istiqamətə yönəldilmiş, epizodik rollarda iştirak edən «kiçik adamlar» ancaq əsas obrazların xarakterinin açılmasına xidmət göstərmişdir. «Poçt qutusu» hekayəsində isə yazıçının bütün diqqəti Novruzəliyə yonəldilib, onun yoxsulluğunu, bədbəxçiliyini şərtləndirən amillər önə çəkilib: «C.Məmmədquluzadə, hər şeydən əvvəl,

realist nəsrin tam yeni qəhrəmanını yaradır, onu müasir ictimai əlaqə və münasibətlərin konkret mühitində təsvir edir. Qeyd etdiyimiz kimi, estetik bir istilah kimi də ədəbiyyatşünaslıqda bu qəhrəmanı «adi», «kiçik», «xırda» qəhrəman adlandırırlar. Ümumən XX əsrin realist bədii fikrinə yaxşı tanış olan bu «adi adamlar»ı belə geniş bir şəkildə lk dəfə olaraq bizim nəsrə Mirzə Cəlil gətirir» (141, səh.175)

Novruzəli avamdır, sadəlövhdür, özünü həmişə ağasına borclu hesab edir. Hər vasitə ilə sədaqətini sübut etməyə çalışır. Müəllif demək istəyirk ki, Novruzəli kimi sadə insanlar nə vaxta qədər özlərini ağalarına borclu hesab edəcək, öz hüquqlarını bilməyəcək, həmişə başı bəlaya düşəcək. Hekayədəki incə yumor oxucunu düşündürür, gözüaçıq olmağa, zamanın tələbləri ilə ayaqlaşmağa çağırır.

«Usta Zeynal» hekayəsinin də maraqlı bir süjet xətti var. Usta Zeynal sənətini gözəl bilir, yaxşı suvaqçıdır. Lakin o öz işini görmək əvəzinə bütün günü ibadətlə məşğuldur. Erməni xozeyin Muğdisi Akop Rusiyadan gələn oğlunu qarşılamağa hazırlaşır. O istəyir ki, oğlu gələnə kimi evini təmir etdirsin. Bu məqsədlə Usta Zeynalı evinə dəvət edir. Usta Zeynal tezliklə evin təmirinə başlayır. Erməni xozeyin görür ki, işdə irəliləyiş yoxdur. Çünki Usta Zeynal vaxtının çoxunu mənasız söhbətlərə həsr edir. Öz axmaq sualları ilə xozeynin də canını boğazına yığır. Köməkçinin ermənisinin qabından istifadə etdiyini biləndə isə onu danlayır və mənzili tərk edərək gedir. C.Məmmədquluzadə bununla demək istəyir ki, nə qədər Usta Zeynal və onun kimi adamlar vaxtdan səmərəli istifadə etməyəcək, iş görmək əvəzinə boş söhbətlərə baş qoşacaq, o vaxta qədər kasıb yaşayacaq, hec nəyə nail olmayacaqlar.

C.Məmmədquluzadənin «İranda hüriyyət» hekayəsindən məlum olur ki, Kərbəlayi Məmmədəli İrandan İrəvana çörək pulu qazanmağa gələrək burada ikinci dəfə evlənib. Ona elə gəlir ki, hüriyyət, azadlıq yeməli bir şeydir. Gözləyir ki, İrandan onun hüriyyət payını göndərəcəklər. Dünyanı inqilabların sarsıtdığı bir dövrdə ətrafda baş verənlər haqqında heç bir məlumatı olmayan Kərbəlayi Məmmədəlinin siyasi savadsızlığına ədib istehza edir, ona acıyır.

Ədibin «Danabaş kəndinin əhvalatları» əsərindəki balaca Əhməd uşaqların ən çox sevdiyi obrazdır. Uşaqların taleyi, vaxtında münasib təhsil ala bilməməsi, sahibkarların qapısında günəmuzd işləmələri C. Məmmədquluzadəni həmişə düşündürürdü. Məmmədhəsən əmi ziyarətə getmək üçün uzunqulaq alır. Bu hadisə ailəyə sevinc gətirir. Balaca Əhməd çox sevinir. Lakin ailənin xoş günləri uzun çəkmir. Kəndin kattası Xudayar bəy uzunqulağı aparır.

Ailənin yeganə ümidinin əlindən alınması Əhmədə çox pis təsir edir. Bununla kifayətlənməyən katta ağacla Əhmədin kürəyinə zərbə endirir. Ailədə Xudayar bəyin ədalətsizliyinə qarşı mübarizə aparan yeganə adam balaca Əhməddir. Məmmədhəsən kişi və arvadı qəm-qüssə içərisində yaşayır. Onların ümidləri yenə Əhmədədir. Valideynləri Əhmədi uzunqulağı axtarmaq üçün şəhərə göndərir. Lakin böyük şəhərdə Əhməd uzunqulağı heç cür tapa bilmir və qəm-qüssədən ölür.

C.Məmmədquluzadə ədəbiyyatımızda yeni mərhələ açan, yeni ədəbi məktəbin əsasını qoyan, milli nəsr dilimizi müəyyənləşdirən ədəbi şəxsiyyətdir.

RƏŞİD BƏY ƏFƏNDİYEV

(1863-1943)

Rəşid bəy İsmayıl oğlu Əfəndiyev 1863–cü ildə Şəkidə ruhani ailəsində anadan olub. 7 yaşında mollaxanaya gedib. Burada Sədinin «Gülüstan» və «Bustan», Füzulinin «Leyli və Məcnun» əsərlərini mükəmməl öyrənib. Atası İsmayıl bəy gözüaçıq bir insan olduğu üçün oğlunu 1876-cı ildə Şəki Şəhər Rus Məktəbinə göndərib. 1878–ci ildə Tiflisə gəlib. M.F.Axundov onu yeni açılacaq Zaqafqaziya Müəllimlər Seminariyasına düzəldəcəyinə söz verib. M.F.Axundovla görüşdükdən sonra onda teatra həvəs oyanıb və Şəkidən qayıdandan sonra burada ilk dəfə teatr tamaşası hazırlamağa nail olub.

1879-cu ildə Qoridə Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində müsəlman şöbəsi açılıb. Şöbənin müfəttişi A.O. Çernyayevski Şəki şəhərinə gəlib. Rəşid bəy Əfəndiyevlə birlikdə daha 6 nəfəri oxutmaq üçün seminariyaya gətirib. O, seminariya həyatına çox tez alışıb, fəallığı ilə başqa şagirdlərdən fərqlənib. Burada dram dərnəyi təşkil edib. M.F.Axundovun əsərlərini seminariyada səhnələşdirib. Nəhayət, 1882-ci ildə seminariyanı bitirərək Oğuzdakı yeni açılan ibtidai məktəblərin birinə müdür təyin olunub. 1892-1899–cu illərdə Rəşid bəy Tiflis Azərbaycan məktəbində ana dili və ədəbiyyat müəllimi işləyib.

Rəşid bəy Əfəndiyev öz publisist məqalələrində, bədii yaradıcılığında daim uşaqların təlim-tərbiyəsi məsələsinə toxunmuşdur. «Müsəlman qadınlarının vəziyyəti və uşaqların tərbiyəsi» məqaləsində ədib uşaqların tərbiyəsi ilə bağlı ciddi mətləblərə toxunmuş, yeni qız məktəblərinin açılmasının zəruriliyindən bəhs etmiş, dərs dediyi məktəblərdə K.D.Uşinskinin pedaqoji fikirlərini auditoriyaya çatdırmağı bacarmış, Azərbaycan məktəblərində dərslərin yüksək səviyyədə keçilməsinə nail olmağa çalışmışdır. Bu məqsədlə o, ana dili dərslərinin hazırlanmasına mühüm əhəmiyyət verirdi. A.Q.Çernyayevskinin «Vətən dili» əlifba dərsliyinin nöqsanlarını dərk edən ədib

«Uşaq bağçası» adlı yeni dərslik hazırlayıb. Əsər İstanbulda nəşr olunub.

Kitabda Uşinskinin pedaqoji sisteminə üstünlük verilib. «Uşaq baxçası» dərsliyindən ərəb əlifbasında olan, ancaq dilimizin ahənginə uyuşmayan 8 hərf çıxarılıb. O kitabın cildi üzərinə «Savadlı adam bu kitab ilə bir ayda oxuyur və yazır» - sözlərini əlavə etmişdir. «Uşaq bağçası»na daxil olan oxu materiallarında kənd təsərrüfatı və onun sahələri – maldarlıq, quşçuluq, bağçılıq, bostançılıq haqqında qısa məlumat verilmişdir. Burada atalar sözü və məsəllər, başqa folklor nümunələri də yer almışdır.

1896-1899-cu illərdə Tiflis Aleksandrevski Müəllimlər İnstitutunda təhsil alan R.Əfəndiyev Azərbaycan məktəbləri üçün milli qiraət kitabları hazırlamaq işini davam etdirib, «Uşaq baxçası» əlifba dərsliyinin yeni təkmilləşdirilmiş variantını başa çatdırıb. 1900–cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasına ana dili və şəriət qanunları müəllimi təyin olunub.

Qori Müəllimlər Seminariyasında dərs deyərkən R.Əfəndiyev ana dilində olan dərsliklərə daha böyük ehtiyac olduğunu yəqin edib və hələ Tiflisdə olarkən hazırladığı «Bəsirətül–ətfal» («Uşaq gözlüyü») qiraət kitabını 1901 –ci ildə Bakıda iki min tirajla çap etdirib. Həm seminariyada, həm də başqa yeni tipli məktəblərdə bu kitablardan geniş istifadə olunub. Dərslik bir il istifadəyə verildikdən sonra 1903-cü ildə Qafqaz Maarif Dairəsi onu dərs vəsaiti kimi təsdiq edib və «Bəşirətül–ətfal» Qafqaz müsəlman məktəblərində kütləvi şəkildə istifadə olunub.

Dərsliyə Şərq şairlərinin tərcümə olunmuş əsərləri, təmsil, nağıl və hekayələr salınmışdır. Eyni zamanda kənd təsərrüfatı ilə bağlı bəzi məlumatlar verilən dərslikdə Azərbaycan ədəbiyyatı ilə yanaşı, rus ədəbiyyatı ilə bağlı konkret məlumatlar, gündəlik həyatda lazım olan sənədləşdirmə məsələləri, məktub, ərizə, müqavilələr yazmaq qaydaları da öz əksini tapmışdı. Kitaba ehtiyac böyük olduğuna görə dəfələrlə nəşr olunmuş, hər nəşrdə dərslik yenidən təkmilləşdirilmişdi. R.Əfəndi-

yev təkcə dərsliklər hazırlamaqla kifayətlənmir, tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün metodik vəsaitlər də yazırdı. Bütün bunlara görə 1911 –ci ildə ona Qafqaz Maarif Dairəsinin fərqlənmə medalı verilmişdir.

R.Əfəndiyev bədii yaradıcılıqla da məşğul olur, dram əsərləri, şeirlər yazırdı. Onun «Saqqalın kəraməti» (1909), «Bir saç telinin qiyməti» (1915), «Qonşu qonşu olsa, kor qız ərə gedər» (1913), «Pul dəlisi» (1911-1918) «Qan ocağı» əsərləri M.F.Axundov ənənələrinin yeni şəraitdə davamıdır.

R.Əfəndiyevin tərcüməçilik fəaliyyəti də diqqətəlayiqdir. O, Krılovun təmsillərini, L.Tolstoyun, M. Lermantovun, Firdovsinin, A.S.Puşkinin bir sıra əsərlərini dilimizə tərcümə etmişdir.

MİRZƏ ƏLƏKBƏR SABİR

(1862-1911)

M.Ə.Sabir 1862-ci ildə Şamaxıda dünyaya gəlib. Atası Zeynalabdin xırda ticarətlə məşğul olurdu. İstəyirdi ki, oğlu da özü kimi ticarətdə işləsin, alış-veriş işlərində ona yaxından köməklik göstərsin. Bu məqsədlə onu mollaxanaya, yazıb-oxumağı öyrənməyə göndərib. Lakin balaca Sabir bu mühitdə təhsil ala bilməyəcəyini yəqin edərək qaçıb və mollaxana ilə bağlı fikirlərini belə ifadə edib:

Tutdum orucu irəmazanda,
Qaldı iki gözlərim qazanda
Mollam da döyür yazı yazanda.

Mollaxananı tərk etdikdən sonra o, təhsilini S.Ə.Şirvaninin Şamaxıda açdığı yeni üsullu məktəbdə davam etdirib. S.Ə.Şirvani onu şeir yazmağa həvəsləndirib. Burada Azərbaycan və Şərq ədəbiyyatının sirlərini öyrənərək kiçik şeirlər yazmağa başlayıb. S.Ə.Şirvani şagirdinin şairlik istedadını görəndən sonra ona N.Gəncəvinin «Xəmsə» sini hədiyyə etmişdir. Atası övladının dünyagörüşünü genişləndirmək, biliyini artırmaq üçün Şərq ölkələrinə- Buxara, Xorasan, Səmərqənd, Nişapur şəhərlərinə səyahətə göndərib. Lakin atası qəflətən vəfat etdiyi üçün təcili Şamaxıya qayıtmalı olub.

1908-ci ildə şair S.M.Qənizadənin məsləhəti ilə Bakıya gəlib. Burada müəllimlik imtahanı verib, Zaqafqaziya Şeyxülislamından attestat alaraq, Şamaxıda «Məktəbi-ümmid» adlı məktəb açıb. 1910-cu ildə Balaxanı məktəbində müəllim işləyib. Burada ağır xəstələnərək müalicə olunmaq məqsədi ilə Tiflisə gedib. C.Məmmədquluzadənin və həyat yoldaşı Həmidə xanımın böyük fədakarlığına baxmayaraq, şairin vəziyyəti günü-gündən ağırlaşıb və o, 1911-ci il iyulun 12-də vəfat edib.

Sabir XX əsr Azərbaycan ədəbiyyatının, satirik poeziyamızın yeni bir zirvəsidir. Sovet hakimiyyəti dövründə tənqid

və ədəbiyyatşünaslıq onu «inqilabi satiranın banisi» kimi tanıdırdı. Bildiyimiz kimi, V.İ.Lenin Lev Tolstoyu «rus inqilabının güzgüsü» hesab edirdi. Ancaq Lev Tolstoy heç bir əsərində inqilabı, o cümlədən də 1905-ci il inqilabını tərənnüm və müdafiə etməmişdir. Ortaya belə bir sual çıxır; Lenin nəyə görə inqilabdan yazmayan dünya şöhrətli Lev Tolstoyu «rus inqilabının güzgüsü» hesab edirdi? Cavab çox sadədir; Rus inqilabının lideri Lev Tolstoyun dunyadakı nüfuzundan rus inqilabının xeyrinə istifadə etmək iətəmişdir.

Marksist sənət nəzəriyyəçiləri M.Ə.Sabir irsinə də eyni mövqedən yanaşmışdır. Əslində M.Ə.Sabir də M.F.Axundov, S.Ə.Şirvani, N.Nərimanov, C.Məmmədquluzadə kimi maarifçi-realist sənətkardır. Bir qədər dəqiqləşdirərək deyə bilərik ki, M.Ə.Sabirin istifadə etdiyi janrlar-satirik poeziya, mənzum hekayə, təmsillər, xüsusi qayğı ilə yanaşdığı uşaq şeirləri maarifçi realist ədəbiyyatdan başqa bir şey deyil. Onu da qeyd edək ki, M.Ə.Sabir yaradıcıdlığında satirik istiqamət çox güclüdür. Bu satiranın əsas hədəfləri məktəbə, maarifə, mədəniyyətə biganə olan insanlar, xalqa zülm edən, milli ixtilaf törədən çar məmurları, yoxsulların var-yoxunu əlindən alan «bəylər», «dehqan» lardır.

Maarifçi bir sənətkar kimi M.Ə.Sabir XX əsrin dövrü mətbuatında, o cümlədən də uşaq qəzet və jurnallarında balacalar üçün xeyli sayda satirik şeirlər, mənzum hekayələr, təmsillər yazmışdır. O yaxın dostları və məsləkdaşları S.S.Axundov, M.Mahmudbəyov, A.Səhhət, A.Şaiq və başqaları ilə birlikdə milli uşaq ədəbiyyatının yaranması və təşəkkülündə müstəsna xidmətlər göstərmişdir.

M.Ə.Sabirin poetik istedadının, maarifçilik və məktəbdarlıq bacarığının üzə çıxmasında C.Məmmədquluzadənin xidmətləri böyükdür. O, M.Ə.Sabiri «Mola Nəsrəddin» jurnalına cəlb etmiş, demokratik ideyalar, uşaq ədəbiyyatı və mətbuatı uğrunda birlikdə mübarizə aparmışlar. Jurnal şairin satirik istedadının parlamasında, qələminin püxtələşməsində mühüm rol oynamışdır. Jurnalda Sabir müntəzəm olaraq satirik şeirlərlə çıxış etmiş, dərin ictimai məzmunlu əsərləri ilə nəinki

Azərbaycanda, bütün Yaxın Şərq ölkələrində məşhur olmuşdur. C. Məmmədquluzadə xatirələrində həmin günləri belə xatırlayıb: «Sabirin birinci məktubunu bir uşaq gətirib Ömər Faiqə vermiş, əlbəəl qayıtmışdır.O, məktub çap olunandan sonra ikinci məktubu yenə həmin uşaq gətirib Ömər Faiqə vermişdi. Fəqət məktublar nəzər-dqqəti cəlb etdiyindən bu dəfə məktubların kim tərfindən yazıldığını bilməyi qərara aldıq. Buna görə də həmin uşaq üçüncü dəfə məktub verib qayıdanda Ömər Faiq, onu izləməyə başlayır və Şamaxılı M.H.Zeynalovun dükanına girdiyini görür. Məşədi Həbib də Ömər Faiqi tanıdığı üçün məktubun Sabir tərəfindən yazıldığını ona xəbər verir. Sabir üçün «Hop-hop» imzasını mən qoymuşam». M. Ə. Sabir tez-tez imzasını dəyişərək «Din dirəyi», «Mirat», «Fazil», «Ağlar-güləyən», «Əbunəsr Şeybani» kimi gizli imzalardan istifadə etmişdir.

Şairin yarapdıcılığında hər cür zülmə, istibdada, ictimai ədalətsizliyə qarşı mübarizə cüclü idi. Milləti düşünməyən, xalqa yuxarıdan aşağı baxan vəzifə sahiblərinə üzünü tutaraq deyirdi:

Millət necə tarac olur-olsun, nə işim var!
Düşmənlərə möhtac olur-olsun, nə işim var !...

Bu cür kəskin çıxışlarına görə müxtəlif öyrədilmiş adamlar şairi təhqir etməkdən çəkinmir, hədə-qorxu gəlirdilər. Ancaq «Mola Nəsrəddin» jurnalının baş redaktoru C.Məmmədquluzadə və jurnalın ətrafındakı ədiblər M. Ə. Sabirin yaradıcılığını yüksək qiymətləndirir, onu daim hücümlardan qorumağa çalışırdılar. «Bakı fəhlələrinə», «İnsanmı sanırsan», «Həmşəri», «Əkinçi», «Çığırma, yat», «Səttərxana», «Neylərdin ilahi» satiraları ilə şair milli şüurun oyanmasına, xalqın ictimai bəlaların buxovundan azad olunmasına çalışmışdır.

Yeni nəslin təlim-tərbiyəsi, onların kamil bir vətəndaş kimi cəmiyyətdə faydalı olması M. Ə. Sabiri həmişə düşündürürdü. Bu vacib məsələlərlə müntəzəm məşğul olmaq üçün o, «Ümid» adlı məktəb açmış, həmin məktəbdə ana dili və coğra-

fiyadan dərs demişdir. Ana dilindən dərs keçərkən şagirdlərə klassik ədəbiyyatımızdakı uşaq ədəbiyyatı nümunələri ilə yanaşı, öz şərqilərini, mənzum hekayə və nəsihətlərini, təmsillərini də öyrətmişdir. Belə ki, «Məktəb şərqisi» (1906), «Məktəbə təğrib», «Elmə təğrib»(1907), «Məktəb uşaqlarına töhfə» (1910) adlı lirik şeirlərində vətənpərvərlik, mərdlik, insanpərvərlik kimi keyfiyyətlər aşılamışdır. Şairin mətbuatda dərc olunan ilk əsəri də uşaqlar üçün yazılan «Məktəb şərqisi»dir. Şeirdə valideynin dili ilə uşağa nəsihətedici bir tərzdə müraciət olunur:

Mənim bağım, baharım!
Fikri işıqlı oğlum!
Məktəb zamanı gəldi,
Dur, ey vəfalı oğlum!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

Şairin uşaq şeirlərində müəllimə, ata-anaya hörmət, böyüklərə ehtiram daha çox diqqəti cəlb edir. Uşaqlar üçün yazdığı əsərlərinin birində belə bir bənd var:

Ataya hörmət etməyən cocuğun,
Anaya xidmət etməyən cocuğun
Nə olur kəndi nəfsinə xeyri,
Nə də ondan vəfa görər qeyri!

Uşaq ədəbiyyatının inkişafı yolunda M.Ə.Sabir həm realist ədəbiyyatın yaranması uğrunda mübarizə aparan «Molla Nəsrəddin» jurnalında, həm də xüsusi olaraq uşaqlar üçün nəşr olunan «Dəbistan» və «Məktəb» jurnallarında müxtəlif şeirlər dərc etdirirdi. Bakıya köçən kimi şair «Dəbistan» jurnalının redaksiyasına gəlmiş və jurnalın baş redaktoru Əliskəndər Cəfərzadəni belə gözəl jurnal buraxduğına görə təbrik etmişdir. Redaktor ondan jurnal üçün uşaq şeirləri yazmağı xahiş edəndə, dərhal qələm-kağız götürərək elə oradaca yazmışdır:

Məktəb, məktəb, nə dilguşəsən,
Cənnət, cənnət desəm səzasən;
Şadəm, şadəm təfərrücündən,
Əlhəq, əlhəq, gözəl binasən!

Həmin şeir «Dəbistan» jurnalının növbəti nömrələrinin birində dərc olunmuş və «Məktəb Şərqisi» adlanan bu şeir bu gün də uşaqların dilindən düşmür.

M.Ə.Sabir istər satirik şeirlərində, istər uşaqlar üçün yazdığı əsərlərində, istərsə də təmsillərində bir müəllim olaraq həmişə tərbiyəvi məsələlərə, uşaq və gənclərin cəmiyyətdəki mövqeyinə xüsusi diqqət yetirirdi. Belə ki, «Oxutmuram, əl çəkin», «Bah bu uşaqlar necə bəzzatdılar!», «Hara gedir bu uşaqlar, aman, bu boyda, bu boyda», «Oglum», «Uçitellər», «Üsuli-cədid», «Qoyma gəldi» şeirlərində uşaqların taleyi, təhsili, təlim-tərbiyəsi ilə bağlı çox mühüm problemlər qaldırmışdır.

Şair yeni ruhlu, dərin ictimai məzmunlu satirik şeirlərini, uşaqlar üçün yazdığı hekayələri, mənzumələri «Məktəb», «Dəbistan», «Rəhbər»də dərc etdirirdi. Şairin «Yalançı çoban», «Camış və sel», «Ağacların bəhsi», «Uşaq və buz», «Yaz günləri» şeirləri klassik uşaq ədəbiyyatımızın yaddaqalan nümunələridir. Hələ 30-cu illərdə belə bir fikir söyləməsi diqqətəlayiqdir: «…Sabir, şair Abbas Səhhət və Abdulla Şaiq 1905-ci ildən Aprel revolyusiyasına qədər Azərbaycanda uşaq ədəbiyyatını canlandıran, ona yeniliklər gətirən görkəmli nümayəndələrdəndir. Bu yazıçıların uşaq əsərləri dərindən öyrənilməyə möhtacdır» (62, səh.47).

M. Ə. Sabir yaradısılığı ilə milli satirik poeziyanın yeni mərhələsi başlayır. İstər sovet dövründə, istərsə də müstəqillik illərində şairlərimiz milli oyanışa, istiqlal mücadiləsinə müqavimət göstərənləri satirik bir dillə ifşa və tənqid etmişlər ki, bu prosesdə Sabir ənənəsi ədəbi məktəb səviyyəsində xalqımıza xidmət göstərmişdir.

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

(1870-1933)

Əbdürrəhim bəy Haqverdiyev 1870-ci il may ayının 17-də Şuşada anadan olmuşdur. Üç yaşından atasını itirmiş, əmisinin himayəsində yaşamış, ilk ibtidai təhsilini Şuşada almışdır. Özünün yazdığına görə teatra bağlanmasında Yusif bəy Məliknəzərovun rolu böyük olmuşdur. Şuşa realnı məktəbinin 6-cı sinfini bitirdikdən sonra 1890-cı ildə Tiflisə gəlmiş, təhsilini davam etdirmək üçün Peterburq Yollar İnstituna daxil olmuş və bununla kifayətlənməyərək darülfünün şərq fakültəsində dil və ədəbiyyt məsələlərini mükəmməl mənimsəmişdir.

Peterburq ədəbi mühiti ədibin yaradıcılığına qüvvətli təsir göstərmiş, orada teatr sənətinin incəlikləri ilə tanış olmuş, 1892-ci ildə «Yeyərsən qaz ətini, görərsən ləzzətini» komediyasını yazmışdır. Bundan əlavə, «Dağılan Tifaq» (1896) əsərini də Peterburqda yazmış və dalbadal «Bəxtsiz cavan», «Pəri cadu» əsərlərini tamamlamış, 1899-cu ildə Bakıya qayıtmışdır. Vətənə qayıdan yazıçı müəllimlik fəaliyyəti göstərmiş, müxtəlif teatr tamaşalarının rejissoru olmuşdur. O mətbuatla da sıx əlaqələr saxlayır, «Həyat» qəzetinə, «Molla Nəsrəddin» satirik jurnalına yazılar göndərirdi.

1906-cı ildə Ə.Haqverdiyev yenidən Peterburqa getmiş, Dövlət Dumasına üzv seçilmiş və Tiflisə qayıtmışdır. Həmin illərdə «Marallarım», «Xortdanın cəhənnəm məktubları», «Şeyx Şaban», «Xəyalat», «Ac həriflər».»Ağa Məhəmməd şah Qacar» əsərlərini qələmə almışdır. Sovet hakimiyyəti illərində «Köhnə dudman», «Ağac kölgəsində», «Ədalət qapılarında», «8 mart», «Vaveyla» adlı xırda həcmli əsərlər yazmışdır. 1921-1930-cu illərdə Azərbaycan Dövlət Universitetində dərs deyən Ə.Haqverdiyev 1933-cü ildə Bakıda vəfat etmişdir

Şübhəsiz ki, yazıçının ən mükəmməl və maraqlı əsəri «Dağılan Tifaq»dır. Əsərin faciəvi qəhrəmanı olan Nəcəf bəy əvvəllər zəngin bir mülkədar olub. Lakin o öz mülkünü, var-dövlətini agılla idarə etmək əvəzinə, əyyaşlığa qurşanır. Müntəzəm olaraq kef məclisləri qurur, sərxoşluq edir, rəiyyəti inci-

dir. «Dünya beş gündur, beşi də qara» fəlsəfəsi ilə yaşayan Nəcəf bəy getdikcə müflis olmaga başlayır. Var-dövləti dagılır, rəiyyəti yavaş-yavaş ondan uzaqlaşır. Hətta yaxın adamları da onunla üz-üzə gəlmək istəmirlər. Düzcün qurulmayan tərbiyə Nəcəf bəyin ailəsnə də təsir edir. Oğlu Süleyman bəy də atası kimi normal həyat keçirmir, qumar oynayır, sərxoşluq edir, əyyaş cavanlara qoşulub həyatını məhv edir.

Nəcəf bəyin əksinə olaraq Məşədi Cəfər və Nəcəf bəyin nökəri Cavad getdikcə varlanır. İmkanı olmayanlara sələm verərək əldə edilən faiz hesabına pullarını artırırlar. Əsərdə dramaturq cəmiyyətdə qüvvələr nisbətinin dəyişməsini bəzi qüvvələrin sıxışdırılıb mübarizə meydanından çıxarılmasını bədii bir dillə oxusulara çatdırmışdır.

Dramaturqun maraqlı əsərlərindən biri də1900-cu ildə qələmə aldığı «Bəxtsiz cavan» faciəsidir. Əsərin əsas qəhrəmanı gimnaziya təhsili alan Fərhad bəydir. Onun atası Hacı Səməd ağa rəiyyəti adam yerinə qoymur, onları incidir, istismar edir və bu yolla çoxlu sərvət toplayır. Fərhad isə onun əksinə hərəkət edir, rəiyyəti incitdiyi üçün atası ilə tez-tez münaqişəyə girir, rəiyyətlə bir süfrə arxasında əyləşir, onlara maddi və mənəvi yardım göstərir.

Lakin Fərhad bəy o qədər də mübariz deyil. Onu zorla sevmədiyi qıza nişanlayır, taleyi ilə oynayırlar. Bütün bunlara müqavimət göstərmək əvəzinə, Fərhad bəy taleyindən şikayətlənir, vəziyyətdən çıxmağa çatinlik çəkir.

1906-cı ildə «Molla Nəsrəddin»jurnalı fəaliyyətə başlayandan sonra Ə. Haqverdiyev hekayəçilik yaradıcılığına diqqət yetirmiş, «Cəhənnəm məktubları», «Bomba», «Mozalan bəyin səyahətnaməsi» və «Marallarım» hekayələr silsiləsini yazmışdır. «Marallarım» silsiləsində birinci hekayə «Mütrib dəftəri»dir. Hekayənin qəhrəmanı kəndin keçmiş yüzbaşısı Qasıim əmidir. O, dələduz, əyri yollarla yaşayan hiyləgər insandır. Yüzbaşının idarə etdiyi kənddə qayda-qanun yoxdur. Adamlar bir-birini adları ilə deyil, ayamaları ilə çağırır. Əhali ilə haq-hesab aparmaq üçün ona heç bir dəftər-filan lazım gəlmir. Əslində özü elə Mütrib dəftəridir. Xoşu gəlmədiyi adam-

lara ayama qoşur, el içində biabır edir. Ədibin maralları sırasında Qasım əminin öz yeri var.

«Cəhənnəm məktubları»nın çox orijinal bədii səhnələri və təsvir üsulları var. Əsərdə cəhənnəm hər hansı mövhumi məkan yox, «Marallar»ın yaşadığı real insan cəmiyyətidir. Yazıçı özü bu barədə deyir: «Söz yox ki, cəhənnəm özü bir mövhumi məkandır. Amma bu əsərdə cəhənnəm sözü «mənfi tiplər» mənasında düşünülməlidir». «Cəhənnəm məktubları» «Marallarım» silsiləsinin sonuncu əsəridir. Müəllif cəhənnəmdəki sakinlərin də kimliyini gizli saxlamır. Onlar camaata zülm etməklə var- dövlət qazananlar, valideynlərinə əziyyət verənlər, özgə malına göz dikənlər, sərxoşlar və əyyaşlardır.Ədib bir-bir maralların bu dünyadakı bəd əməllərini açıb göstərir, onları ifşa edir. Maralların kimliyi barədə isə belə yazır: «Şükür olsun allaha, yer üzərində mənim marallarımın hesabı üç yüz milyona çatıb. Cedərsən İrana, Hindistana, Türkistana, Ərəbistana, Buxaraya, Əfqanıstana, İrəvana, Naxçıvana, Qarabağa, Lənkərana, Səlyana, Bakıya, Batuma, Dərbəndə, Dağıstana…hər yer mənim marallarımla doludur. Cözəl marallarım, qotur marallarım, başları qapazlı marallarım, üzləri tüpürcəkli marallarım».

Realist nəsrimizin ən yaxşı nümunələri sırasında «Şeyx Şaban» hekayəsi seçilir. Əsərdə kiçik adamların faciəsi qələmə alınıb. Şeyx Şaban mənasız bir həyat keçirir.Adamları aldadır, yaşamaq, varlı olmaq üçün cilddən-cildə girir, hətta cinayət etməkdən belə çəkinmir, həbsxanaya düşür, çıxanda da ibrət götürməyərək öz bəd əməllərini davam etdirir. Həyat yoldaşı Cülsüm ondan geri qalmır, çöp ötürür, noxud falı açır, avam qadınları aldadır.

«Mirzə Səfər» hekayəsində isə vəziyyət başqadır. Hekayənin qəhrəmanı Mirzə Səfər namusla yaşayan ziyalı obrazıdır. İdarədə katib vəzifəsində çalışan Mizə Səfər ərizə yazmaqla dolanır. Heç kəsdən rüşvət almır. İdarəyə gələnlərin hamısını razı yola salır. Kasıblarla daha mehriban rəftar edir. Ən maraqlısı budur ki, bəy kimsənin qarşısında əyilmir, məğrur yaşayır, kasıblığı eyib saymır. Qürurlu yaşaması ucbatından başı

bəlalar çəkir, uşaqlarını məktəbdən çıxarırlar. Lakin bu da Mirzə Səfəri sındıra bilmir, axıra kimi mübarizliyini qoruyub saxlaya bilir.

Müasirliyinə, azadfikirliliyinə görə Ə. Haqverdiyev irsi bütün zamanların bədii sərvəti kimi bu gün də oz əhəmiyyətini itirməyib.

IV FƏSİL

MARKSİST ESTETİKANIN UŞAQ ƏDƏBİYYATI METODOLOGİYASI

(XX ƏSRİN 20-30-CU İLLƏRİ)

20-30-cu illərdə müasir Azərbaycan ədəbiyyatının yaranması, təşəkkülü və metodoloji baxımdan istiqamətləndirilməsi çox mürəkkəb, ağrılı, əzablı, həm də böyük bir yol keçdiyi kimi, onun müstəqil bir qolu sayılan, daha çox gəncliyin, yeni nəslin tərbiyəsi, təhsili, cəmiyyətdə tutduğu mövqeyi ilə bağlı olan milli uşaq ədəbiyyatı da siyasi-ideoloji baxımdan yenidənqurulma prosesində ədəbi stereotiplərdən, yasaqlardan, vulqar sosioloji basqılardan keçməli olur, eyni zamanda çətinliklə də olsa öz ədəbi-tarixi ənənəsini yaradırdı. A. Şaiq, S. S. Axundov, Ə. Haqverdiyev, C. Cabbarlı kimi qocaman və nisbətən yaşlı yazıçılarla yanaşı S. Vurğun, M. Müşfiq, S. Rüstəm, M.Seyidzadə kimi cavan şairlər də ədəbi-tarixi prosesdə fəal iştirak edir, inqilabi estetikanın sərt meyarları və ədəbi prinsipləri şəraitində milli uşaq ədəbiyyatını yaratmaq, ona müstəqil bir yaradıcılıq sahəsi statusu vermək üçün şəraitin, dövrün, ədəbi yasaqların mövcud imkanları çərçivəsində əllərindən gələni əsirgəmirdilər.

Bəllidir ki, Oktyabr inqilabının ideoloqları müttəfiq respublikalarda yeni orta və ali məktəblər, elmi tədqiqat institutları açmaqla və onların tədris-təlim, elmi-təşkilatçılıq bazalarını genişləndirməklə yeni nəslin tərbiyəsini marksizm - leninizm prinsiplərinə, inqilabi estetikanın tələblərinə tərəf yönəldirdilər. Bu cür ideoloji təbliğat təkcə ali və orta məktəblərdə, klub və kitabxanalarda, fəhlə-kəndli yığıncaqlarında aparılmaqla kifayətlənilmir, ölkədə ideoloji hökmranlığı şəriksiz ələ keçirən partiyanın yeni qərar və qətnamələrində də öz əksini

tapırdı. 1922-ci ildə RK (b) P XI qurultayının qətnaməsində deyilirdi ki, fəhlə-kəndli gənclər üçün gənclik hissini korlayan, bulvar ədəbiyyatına qarşı dura bilən və gənclər kütləsinin tərbiyəsinə kömək edən ədəbiyyat yaratmaq məsələsi son dərəcədə zəruridir. Partiyanın XIII qurultayının (1924) "Mətbuat haqqında" qətnaməsində uşaq ədəbiyyatı yaratmaq məsələsi bir daha gündəmə gəlmiş və göstərilmişdir ki, uşaq ədəbiyyatında sinfi, beynəlmiləl tərbiyə, əmək tərbiyəsi cəhətlərini gücləndirmək məqsədi ilə uşaqlar üçün ədəbiyyat yaratmağa girişmək, xüsusi ilə pioner ədəbiyyatı nəşr edilməsi işini genişləndirmək lazımdır. 1928-ci ildə qəbul edilən ÜİK (b) P MK-nin "Uşaqlar və gənclər mətbuatını yaxşılaşdırmaq tədbirləri haqqında" yeni qətnaməsi də eyni məqsədlə qəbul edilmişdi. Qərarda Azərbaycan uşaq ədəbiyyatının inqilabi estetikanın tələbləri ilə ayaqlaşmadığı, yeni, müasir mövzulara az toxunulduğu, uşaqlar üçün yazılan şeir və hekayələrdə hadisə və əhvalatların yüksək bədiiliklə işlənilməməsi xüsusi vurğulanırdı.

Uşaq ədəbiyyatının yeni ideoloji prinsiplərlə silahlanmasına ittifaq miqyasında xüsusi diqqət yetirilirdi. Partiyanın yeni qərar və tələblərinə ilk reaksiya V. Mayakovskidən gəldi. Şair "Yaxşı nədir, pis nədir? ", "Hansı sənət yaxşıdır", "Ulas adlı sərsəri» və s. şeirləri ilə inqilabi uşaq ədəbiyyatının ilk örnəklərini yaratdı. N.Aseyev "Krasnaşeyka", "Bezprizornıy", "Konnitsa Budyonnovo" adlı şeir və poemalarını yazdı. Eyni zamanda Azərbaycan sovet ədəbiyyatında da uşaqların bədii zövqünü formalaşdıran, onları vətənpərvərlik ruhunda tərbiyə edən A. Şaiqin "Əmək pərisinə", "Sənət nəğməsi", "Dəmirçi nəğməsi", S.Rüstəmin "Sənətə", "Pioner qardaşlarıma", S.Vurğunun "Sənət", "Bahar sərgisi", "İki körpə", R. Rzanın "Bahar" və s. şeirləri meydana çıxdı. Sovet ədəbiyyatının ümumi inqilabı pafosu, ruh yüksəkliyi, gələcəyə olan ümid və inam hissi, romantik duyğu və həyacan bu poeziyanın əsasını təşkil edirdi. Uşaq ədəbiyyatının nümayəndələri proletar ədəbiyyatının inqilabi əhval-ruhiyyəsi, çılpaq və tendensiyalı ideoloji – siyasi mühiti ilə ayaqlaşmağa, dövrün tələbləri ilə səsləşən uşaq ədəbiyyatı yaratmağa çalışırdılar.

20-ci illərdə uşaq ədəbiyyatının ideya-siyasi, metodoloji bazasını formalaşdırmaq, marksist məfkurəni sənət və ədəbiyyat meyarı kimi tətbiq etmək üçün yeni yaranan rus uşaq ədəbiyyatı nümunələrini müttəfiq respublikalarda tərcümə edərək uşaq və yeniyetmələrin istifadəsinə verirdilər. Belə ki, respublikamızda da həmin istiqamətdə sistemli işlər aparılır, rus ədiblərinin uşaqlar üçün yazılan əsərləri ən yaxşı tərcüməçilər vasitəsi ilə kiçik yaşlı oxucularımıza çatdırılırdı ki, bu ciddi, məsuliyyətli ədəbi-tarixi missiyanı o vaxt "Azərnəşr" şərəflə yerinə yetirirdi. Həmin nəşriyyat cəmi bir ildə-1926-cı ildə M.N. Boqdanovun "Qaranquşlar" (1926), Verşininin "Dəvəquşunun xatiratı" (1926), Dudorevin "Bir dovşanın macərası", Zilinanın "Şagirdlərin tətili və dustaqxanada ölüm» (1926) əsərlərini, "Tülkü və qurd" rus nağılını və başqa neçə-neçə əsəri nəşr etməyə müvəffəq olmuşdu. Marksist estetikanın tələbləri baxımından yazılan həmin əsərlərdə yeni yaranan sovet uşaq ədəbiyyatını inqilabi ədəbiyyatın çərçivəsinə salmaq, ona ideoloji don geyindirmək meylləri görünsə də, hiss olunur ki, marksist estetikaya tam keçid hələ baş verməyib. Bildiyimiz kimi, 20-ci illərin birinci yarısında, daha konkret desək 1928-1929-cu illərə qədər marksist estetiklər cəmiyyətin sinfi mübarizə metodunu ədəbiyyata və sənətə tətbiq etməkdə çətinlik çəkirdilər. Çünki müttəfiq respublikalarda, eləcə də Rusiyanın özündə bu iş ciddi müqavimətlə qarşlanırdı. Sovet ideoloqlarının inqilabi ədəbiyyat yaratmaq və bunu bəşəriyyətin min illər boyu yaratdığı mənəvi dəyərlərə, ədəbi ənənələrə qarşı qoymaq istəyi nəinki xaricdə, eləcə də daxildə kəskin müqavimətlə qarşılanırdı.

Klassik irsi təftiş etmək, sovet ideologiyasına uyğun gələni götürüb, yad görünənləri bir kənara qoymaq, həm keçmiş mədəni irsə, həm də müasir ədəbi-tarixi prosesə vulqar sosioloji və nihilist mövqedən yanaşmaq bir çox sovet ədəbiyyat nəzəriyyəçilərinin narazılığına səbəb olurdu. Trotski, Plexanov, V.Pereverzyev, A.Voronski, U.Friçe, Piksakov, Kubikov kimi tanınmış və ədəbi ictimaiyyət arasında böyük nüfuza malik olan böyük estetika nəzəriyyəçiləri və oxucular həm də prole-

tar ədəbiyyatının böhran keçirdiyini izah edir, həmin ədəbiyyatın gələcəyini şübhə altına alırdılar. Trotski deyirdi: «Burjua mədəniyyəti və burjua sənətini proletar mədəniyyətinə qarşı qoymaq kökündən doğru deyildir. Ümumən bu sonuncular olmayacaq, çünki proletar rejimi müvəqqətidir, keçicidir» [73,s.22].

Proletar ədəbiyyatının gələcəkdə mövcud olmayacağı, özünü doğrultmayacağı ideyasını ilk dəfə Trotski söyləmişdir. Ədəbi yaradıcılığa bu cür siyasi baxışlar sistemini daha da genişləndirən Pereverzyev qeyd edirdi ki, «yazıçının bədii əsərini sinfi və firqəçilik nöqteyi-nəzərindən qiymətləndirmək düzgün deyil. Loyal və firqəsiz bir nəzərlə gözdən keçirilməlidir. Proletariat ədəbiyyatda təşkilatçılıq vəzifəsini öhdəsinə götürməyə qadir deyil. O, hakim sinif olduğu üçün vəzifəsi ictimai tərbiyəçi olmaq hesabı ilə ədəbiyyatın qiymətini nəzərə almaqdır» [40, s.22].

Rus ədəbiyyat tarixçisi A.Voronski də proletar ədəbiyyatının gələcəyinə inanmır, klassiklərin yaradıcılığını təftiş və tənqidsiz öyrənməyi və nəşr etməyi təklif edir, klassiklərlə çığırdaşları fərqləndirməyi vacib hesab edirdi. O, çığırdaşları klassiklərlə proletariatı əlaqələndirən bir vasitə kimi göstərirdi.

Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi tənqidində klassik ədəbiyyata və marksist estetiklərin «cığırdaş» hesab etdiyi Ə. Haqverdiyev, S. S Axundov, A. Şaiq, C. Cabbarlı kimi uşaq ədəbiyyatının maraqlı və məzmunlu nümunələrini yaradan ədiblərə münasibət birmənalı deyildi. Hələ 1929-cu il oktyabr ayının 22-də proletar yazıçılarının II qurultayında "Azərbaycan proletar ədəbiyyatının keçirdiyi tarixi dövrlər və onun əsas vəzifələri" mövzusundakı çıxışında Mustafa Quliyev "klassiklərin və cığırdaşların əsil qiyməti də orasındadır ki, onlar əsərlərindəki tipləri müəyyən dövrlərlə əlaqədar etmiş, canlı nümunələr vermişlər. Onların sintezləri çox mahiranə verilmişdir" [52, s.15] - deyərək milli-mədəni irsə böyük dəyər vermiş, ədəbi fikri bu irsin obyektiv-tarixi qiymətini, bədii-estetik qanunauyğunluğunu üzə çıxarmağa, mənəvi-əxlaqi və bədii ənənələrə söykənməyə çağırmışdır.

M.Hüseyn müasir ədəbi prosesin əsas nöqsanlarından, dövrün tələbələri ilə ayaqlaşa bilməməsindən bəhs edərkən bunun səbəblərini "əski texnikada" (klassik ənənədə) görür, gənc ədəbi qüvvələrə zamanın nəbzini tutmağı məsləhət bilirdi: "Marksist tənqidimiz" hələ "konkret tənqid" şüarını konkret həyata keçirmədiyi kimi, istər proletar yazıçıları, istərsə də bizim müttəfiqimiz olmağa çalışan cığırdaşların yaradıcılığı üzərində proletar ədəbiyyatının yaradıcılıq metodu məsələlərini aydınlaşdırmaq məsələlərinə lazımi qədər əhəmiyyət verməmişdir [52, s.15]. Proletar şairləri ilə müqayisədə həmişə ədəbi tənqid tərəfindən sıxışdırılan A. Şaiq, Ə. Haqverdiyev, S. S. Axundov, C. Cabbarlı, C. Məmmədquluzadə və başqaları 20-30-cu illərdə qələmi yerə qoymur, çətin, mürəkkəb şəraitdə uşaqlarımız üçün maraqlı, məzmunlu hekayə və şeirlər yazır, bədii yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlərini də davam etdirir, ibtidai və orta məktəblər üçün yeni dərsliklər hazırlayır, teatr tamaşaları qoyurdular. A.Şaiqin bir neçə müəllif ilə birlikdə hazırladığı "Ədəbiyyatdan iş kitabı" da məhz bu milli-mənəvi ehtiyacdan yaranmışdır. Ə.Haqverdiyev «Tənqid-Təbliğ» teatrında uşaq və yeniyetmələrin marağına səbəb olan "Şahın məhəbbəti", "Ədalət qapıları", "Mişka qiraət öyrənir", "Umleyla" və s. kimi səhnə əsərlərini tamaşaya qoymuşdu. C.Məmmədquluzadə böyük çətinliklər hesabına da olsa, "Molla Nəsrəddin" jurnalının nəşrini dayandırmır, uşaqlarını məktəblərə buraxmayan valideynləri, dərsə davamiyyəti zəif olan şagirdləri incə yumorla tənqid edir, eyni zamanda "Bəlkə də qaytardılar", S. S Axundov kiçik həcimli "Cəhalət qurbanı", "Ümid çırağı", "Qan bulağı", "Nə üçün? ", "Qatil uşaq", "Sona xala" pyeslərini yazır və "Tənqid-Təbliğ Teatırı»nda dəfələrlə tamaşasını təşkil edirdi. O, Bakı pionerlərinin xahişi ilə "Uşaqlıq haqqında xatirələr» memuarını kiçik yaşlı oxucuların istifadəsinə vermişdi. "Qorxulu nağıllır", "Ümid çırağı" kitablarındakı hekayələr 20-30-cu illərdə Azərbaycan uşaq ədəbiyyatının ən yaxşı nümunələri hesab olunurdu. "Molla Fərzəli", "Yuxu" hekayələri, "Dəli yığıncağı" (1927) kimi komediyası ilə nəinki böyüklərin, hətta uşaq və yeniyetmələrin də diqqətini cəlb edirdi.

Bir qədər yaşlı nəslin nümayəndələri ilə birlikdə ədəbiyyat aləminə yenicə qədəm qoyan gənc şair və yazıçılar, marksist tənqidin "proletar şairlər" adlandırdığı yazarlar da yeni uşaq ədəbiyyatının yaranmasında yaxından iştirak edirdilər. Qəribədir ki, sovet hakimiyyətinin ilk onilliklərində işıq üzü görən pyeslərin zəif meydana çıxmasının əsas səbəbi məfkurənin, çılpaq təbliğatın önə çəkilməsi olsa da, sənət nəzəriyyəçiləri, teatr məmurları diqqəti yenə başqa istiqamətə yönəldir, tamaşaya qoyulan uşaq pyeslərinin məfkurəsizliyindən danışırdılar. Azərbaycan proletar yazıçılarının II qurultayındakı çıxışında Tatulov deyirdi: "Teatro məsələləri üzərindən səthi keçmək olmaz, zira Azərbaycan səhnələrində tamaşaya qoyulan məsələlər məfkurəcə bərbaddır (70).

Şübhəsiz ki, rus ədəbi tənqidində olduğu kimi, milli tənqid və ədəbiyyatşünaslıqda da məfkurənin önə çəkilməsi, bu prosesdə məzmuna, bədii keyfiyyətə əhəmiyyət verilməməsi az narahatçılıq doğurmurdu. Cabbar Əfəndizadə, Əmin Abid, Bəkir Çobanzadə, Atababa Musaxanlı kimi ədəbi fikir nümayəndələrimiz bədii təcrübədə məzmun və forma münasibətlərinin pozulması hallarına qarşı çıxır, yeri gəldikdə öz fikirlərini açıq şəkildə söyləməkdən belə çəkinmirdilər: "Halbuki məfkurənin bədiiləşməsində düzgün ifadənin böyük rolu vardır. Tərtibli boyalarla yapılmış bir tablo, daha cazibədar olur, məfkurə nə qədər yüksək olarsa-olsun, şəkilsizlik onun qiymətini alçaldar [1].

20-30-cu illərdə yaranan ədəbi nümunələrdən görürük ki, inqilabi estetikanın ifrat tələbkarlığı, vulqar-sosioloji mövqeyi, şüarçılığa, sxematizmə və sərt kommunist təbliğatı istiqamətinə yönələn diqqəti şəraitində yaranan hekayə və kiçik həcmli pyeslərdə bir natamamlıq, sujet xəttində bəsitlik, yersiz didaktika və s. cəhətlər özünü daha çox göstərib. Marksist tənqidçilər uşaq ədəbiyyatının mövcud vəziyyətindən, ideologiyasızlığından narahat olur, bu ədəbiyyatın mədəni inqilabın, proletar ədəbiyyatının inkişaf tempindən geridə qaldığını söyləyirdilər.

Bir məsələni də qeyd edək ki, ədəbiyyatın sosialist cəmiyyətinin, mədəni inqilabın inkişaf səviyyəsi ilə ayaqlaşa bilməməsi haqqında 20-30-cu illərdə daha tez-tez danışılırdı. Bu da səbəbsiz deyildi. İ. Stalinin 30-cu illərin əvvəlində Ümumittifaq Marksist Ağsaqqallar Konfransında söylədiyi «nəzəriyyə, tənqid sosializm quruluşunun praktik müvəffəqiyyətlərindən geridə qalır» fikrindən sonra paytaxtda olduğu kimi, müttəfiq respublikalarda da ədəbi-tənqid və ədəbiyyatşünaslıq üzərinə total hücumlar başlandı. Sosialist mündəricəli yeni ədəbiyyatın yaradılmasında ədəbi tənqidin zəif iştirak etməsi təsəvvürü formalaşdırıldı. İ. Stalinin məlum çıxışından sonra AK (b) P MK-nın katibi M.C.Bağırov AK (B) P XII qurultayındakı məruzəsində qəti şəkildə bildirib ki, ədəbiyyat cəbhəsində zəif cəhətlərdən biri bu vaxtadək marksist tənqidin bədii ədəbiyyatın inkişaf tempindən geridə qalmasından ibarətdir.

Marksist ideologiyanın ədəbiyyatın, ictimai həyatın, sinfi mübarizənin inkişaf sürəti ilə ayaqlaşa bilməməsi haqqındakı qənaətləri eyni dərəcədə uşaq ədəbiyyatının mövcud vəziyyətinə və elmi-nəzəri fikirdə onun öyrənilməsinə də şamil olunurdu. ÜİK (b) P MK-nin "Uşaqlar və gənclər mətbuatını yaxşılaşdırmaq tədbirləri" haqqında 1928-ci il tarixli qərarında uşaq ədəbiyyatının həyatdan geridə qaldığı, ədəbi prosesdə müasir mövzuların zəif işıqlandırıldığı, bununla yanaşı, proletar uşaq ədəbiyyatının nəzəri problemlərinin kifayət qədər öyrənilməməsi kəskin tənqid olunmuş, kommunist tərbiyəsi ilə bağlı olan problemin tezliklə aradan qaldırılması prioritet bir vəzifə kimi qarşıya qoyulmuşdu. Əslində, burada söhbət uşaq ədəbiyyatının "həyatdan geridə qalmasından" çox, ideoloji-siyasi mübarizənin, sinfi döyüşlərin önündə gedə bilməməsindən gedirdi.

Partiyanın məlum qərarından sonra Azərbaycanda da uşaq və yeniyetmələr üçün tərcümə olunacaq əsərlər diqqətlə seçildi. Şair və yazıçılarımız marksist məfkurəyə uyğun gələn şeir və hekayələr yazdı, uşaqlar üçün nəzərdə tutulan əsərlərin çapı və dərci məsələlərinə diqqət artırıldı. 1931-ci il yanvarın 17-də müəllimlərin, kitabxana işçilərinin və oxucuların iştirakı

ilə çağrılan I Ümumazərbaycan uşaq ədəbiyyatı konfransında yenidən bu problem gündəmə gəldi. Konfransda uşaq ədəbiyyatının nəşri, təbliği və yeni ideoloji əsaslarla qurulması məsələləri müzakirə olundu, ədəbiyyatımızın aparıcı bir sahəsinə az diqqət yetirilməsi iştirakçıların diqqətinə çatdırıldı. Müəllimlərin tənqidi qeydlərindən sonra bu da nəzərə alındı ki, mövcud nöqsanlar təkcə milli ədəbiyyatımızla bağlı deyil. Eyni ideoloji-siyasi basqılar və ədəbi meyarlar ittifaqın başqa respublikalarında da kəskin hiss olunurdu. Odur ki, ÜİK (b) P MK-nin 1933-cü il tarixli qərarında "Uşaq ədəbiyyatı nəşriyyatı" yaratmaq zərurəti meydana çıxdı. Cəmi bir neçə ildən sonra-1938-ci il avqustun 1-də Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı yaradıldı.

Beləliklə, kommunist tərbiyyəsindəki əhəmiyyəti nəzərə alınaraq dövlət nəşriyyatı sistemində cocuq ədəbiyyatı təşkil edilməsi məqsədəuyğun hesab edildi. MK-nın bu qərarından sonra Moskvada cocuq ədəbiyyatı sahəsində sistemli tədbirlər həyata keçirildi. Yüksək keyfiyyətli, həm də sosialist realizimi yaradıcılıq metodunun tələblərinə, ədəbi meyarlarına uyğun uşaq ədəbiyyatı yaratmaq məqsədilə tematika planı tərtib etmək üçün komissiya təşkil olundu. Proletar ədəbiyyatının öncüllərindən olan M. Qorki uşaq ədəbiyyatı haqqında mərkəzi mətbuatda böyük bir məqalə ilə çıxış etdi. Lakin M. Qorkinin bu çıxışları uşaq ədəbiyyatını bədii cəhətdən yüksəltməkdən, yeni forma, üslub axtarışları aparmaqdan, milli respublikalarda bədii mədəniyyəti yüksəltməkdən daha çox, ədəbi prosesin müxtəlif sahələrini vahid bir ədəbi məcraya-kommunist tərbiyəsi axarına yönəltməyə hesablanmışdı. M. Qorki nəinki yazılı ədəbiyyatdakı uşaq ədəbiyyatı nümunələrinin, o cümlədən şifahi xalq ədəbiyyatının, hətta uşaq təfəkkürünə köklənən nağılların da sinfi olduğunu söyləyirdi. O qeyd edirdi ki, mən uşaqlıqda allah haqqında üç cür nağıl eşitmişəm. Babamdan, nənəmdən və qulluqçudan. Babam ilə nənəmin söylədiyi nağıllarda allah ağıllı göstərilir. Lakin qulluqçunun söylədiyi nağıllarda allah gic göstərilir [15].

Çox keçmədən 1938-ci ildə Azərbaycanda da eyni tipli nəşriyyat- "Uşaq və gənclər ədəbiyyatı" nəşriyyatı yaradıldı. Uşaq ədəbiyyatımızın bir sıra görkəmli nümayəndələri nəşriyyat işinə cəlb olundular. Qısa müddət ərzində "Uşaqgəncnəşr" onlarla dünya və Avropa klassiklərinin, Rus yazıçılarının və milli ədəbiyyatımızın dəyərli ədəbi nümunələrini nəşr edərək uşaq və yeniyetmələrimizin istifadəsinə verdi. Təsadüfi deyil ki, uşaq ədəbiyyatmızın və 20-ci illərdəki ədəbi tənqidimizin tanınmış simalarından olan Mirmehdi Seyidzadə uzun müddət "Uşaqgəncnəşr"də redaktor, şöbə müdiri vəzifələrində çalışmış, uşaq ədəbiyyatının yaranmasında və təbliğində xüsusi fəallıq göstərmişdir.

Təəssüf ki, hətta 30-cu illərin əvvəllərində, Sovet yazıçılarının I qurultayı ərəfəsində də respublikamızda uşaq ədəbiyyatının nəşri, təbliği, öyrənilməsi sahəsində ciddi addımlar atılmamışdır. Uşaq və gəncliyin gələcəyi, təhsili, bədii zövqünün və dünyagörüşünün formalaşması üçün mühüm olan bir məsələ diqqətdən kənarda qalmışdır: "Nə «Azərnəşr», nə Şura Yazıçılarının Təşkilat Komitəsi, nə də Xalq Maarif Komissarlığı bu məsələ haqqında heç bir təşəbbüsdə bulunmamışdır. Halbuki, Azərbaycanda cocuq ədəbiyyatı məsələsi olduqca fəna, olduqca bərbad bir haldadır. Bunu isbatedici bəzi faktlar vardır. Azərbaycan dövlət nəşriyyatı on il müddətində orijinal olaraq on nüsxə cocuq kitabçası çap etmiş, keyfiyyətcə bu əsərlər arasında yalnız bir və ya iki dəyərli əsər tapmaq olar. Qalanları isə istər dil, istərsə də bədii cəhətdən bərbad vəziyyətdədir" [58, s.34].

30-cu illərin "Uşaq və gənclər ədəbiyyatı" nəşriyyatının ətrafında yazıcılardan A. Şaiq, M. C. Paşayev, M. Seyidzadə, Qəzənfər Xalıqov, rəssamlardan Kazımov, Orlov kimi tanınmış şəxsiyyətlər toplaşıb. Qısa müddət ərzində M. F. Axundovun bir cildlik əsərlər külliyatı, Qolubevin "Urzumlu uşaq", Yersovun "Qozbel at", Kiplenqin "Mauqli", A.Şaiqin "Yaxşı arxa", Kuitkonun "Voroşilova məktub" əsəri nəşr olunub. N.Gəncəvinin 800 illik yubileyi münasibəti ilə beş kitab, o

cümlədən H.Araslının "Nizami haqqında bədii–bioqrafiq oçerk" ləri və məktəbəqədər uşaqlar üçün üç əsər hazırlanıb.

Müttəfiq respublikalarda uşaq ədəbiyyatı nəşriyyatları yarandıqdan sonra dövlət nəşriyyatları nəzdində xüsusi cocuq ədəbiyyatı bölmələri, ali pedaqoji məktəblərdə və texnikumlarda uşaq ədəbiyyatı tarixi kursu, elmi tədqiqat müəssisələrində uşaq ədəbiyyatı texnikası, xüsusi uşaq kitabxanaları təşkil edildi. Nəticədə qısa müddətdə uşaqlar üçün 50-dən artıq orijinal əsərlər yarandı. Bunların sırasında müasir yazıçılarımızla birlikdə klassik sənətkarlarımızın - M. F. Axundov, M.Ə.Sabir, S. S. Axundov, A. Şaiqin də əsərləri yer almışdı. Şübhəsiz ki, bütün bunlar kifayət etməsə də, ilk təşəbbüs kimi qiymətli idi.

Xalq ədəbiyyatından, milli folklordan uşaq və gənclərimizin təlim-tərbiyəsində, yeni insan kimi yetişməsində maksimum səviyyədə istifadə etməyin yolları öyrənildi. Çox keçmədən M. Müşfiqin "Şəngülüm, Şüngülüm, Məngülüm", "Kəndli və ilan" M.Seyidzadənin "Nərgiz", H. Əlizadənin "Gülbala" əsərləri meydana çıxdı ki, bu əsərlərdə folklor qaynaqları açıq-aşkar nəzərə çarpırdı. Partiyanın uşaq ədəbiyyatı ilə bağlı ciddi tənqidlərindən sonra Azərbaycanda da bu sahəni günün tələblərinə, sosialist realizmin estetik meyarlarına uyğunlaşdırmaq üçün inzibati tədbirlər görüldü; Azərbaycan Dövlət Nəşriyyatına, Şura Yazıçılarının Təşkilat Komitəsinə, Elmi Tədqiqat Pedaqoji İnstituna partiyanın tələblərindən irəli gələn vəzifələrin tezliklə icra olunması üçün ciddi tapşırıqlar verildi.

Şübhəsiz ki, 20-ci illərin əvvəllərindən 30-cu illərin I yarısına kimi marksist tənqid və ədəbiyyatşünaslığın yeni ədəbi tarixi prosesdə bədii təfəkkürü sinfi mübarizə alətinə çevirmək cəhdləri, sənəti inzibati-amirlik və təzyiq metodları ilə idarə etmək təşəbbüsləri milli uşaq ədəbiyyatı ənənələrinin yeni şəraitdə normal inkişafını ləngidir, şair və yazıçılarımızın sərbəst yaradıcılıq imkanlarını məhdudlaşdırırdı. Cəmiyyətin sinfi mübarizə metodunun uşaq ədəbiyyatına gətirilməsini heç cür qəbul edə bilməyən A. Şaiq, Ə. Haqverdiyev, C. Məmmədquluzadə, S. S. Axundov, C. Cabbarlı kimi orta nəslə mənsub

olan ədiblərimiz öz yaradıcılıq potensiallarını reallaşdıra bilmirdilər.

Digər tərəfdən, 20-ci illərdə milli tənqid və ədəbiyyatşünaslığın ədəbiyyatın mühüm bir sahəsi olaraq ədəbi prosesə təsiretmə imkanları əldə etdiyi bir dövrdə uşaq ədəbiyyatından ədəbiyyatın müstəqil yaradıcılıq sahəsi kimi bəhs olunmurdu. Təsadüfi deyil ki, milli ədəbiyyat tarixçiliyinin yarandığı, təşəkkül etdiyi 20-ci illərdə meydana çıxan Y.V. Çəmənzəminlinin "Ədəbiyyat tarixinə bir nəzər" (1922), F. Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" (1925), İ.Hikmətin iki cildlik "Azərbaycan türklərinin ədəbiyyatı" (1928), B. Çobanzadənin "Azəri ədəbiyyatının yeni dövrü" (1930), "Türk ədəbiyyatı" (1931), F. Köprülüzadənin "Azəri ədəbiyyatına aid tədqiqlər" (1926), M. Quliyevin "Oktyabr və türk ədəbiyyatı" (1930) kimi ilk ədəbiyyat tarixlərimizdə də uşaq ədəbiyyatından ayrıca bəhs olunmamış, ədəbiyyatımızın, mədəniyyətimizin ümumi inkişafı və nailiyyətləri fonunda milli uşaq ədəbiyyatının yeri və mövqeyi diqqətdən kənarda qalmışdır.

Hətta 20-ci illərin sonu 30-cu illərin əvvəllərində bilavasitə tədris materialı kimi şagirdlərin istifadəsinə verilən, H.Zeynallı, A. Şaiq, A. Musaxanlı, C. Əfəndizadə tərəfindən yazılan "Ədəbiyyatdan iş kitabı" (1928), H. Mehdi, M. Arif, H. Səmədzadə, S. Rəhimovun müəllifliyi ilə yazılan "Ədəbiyyatdan iş kitabı" (1932), H. Zeynallı, A. Şaiq, İ. Hikmət, A. Musaxanlının "Ədəbiyyat dərsləri"(1932) kitablarında da uşaq ədəbiyatının mövcud vəziyyəti, inkişaf tendensiyası, ədəbi prosesdəki rolu və mövqeyi barədə ayrıca bəhs olunmurdu.

Marksist estetika dünyanı, onun inkişaf qanunauyğunluqlarını sadəcə izah etməklə kifayətlənən filosofların çeşidli fəlsəfi təlimləri ilə kifayətlənməyərək mövcud siyasi sistemləri dəyişmək məsələsini qarşıya qoyur, K.Marks, F.Engels və V.İ.Leninin inqilabi nəzəriyyələrinə əsaslanaraq gənc nəslin təlim-tərbiyəsini proletariatın sinfi mənafeyinə tabe etmək üçün uşaq ədəbiyyatından da bir vasitə kimi istifadə edirdilər. MK-nın bu barədəki məlum, çoxsaylı qərar və təlimatları, müxtəlif göstərişləri də eyni məqsədə xidmət edirdi. Odur ki,

mövcud tələbat, sosial sifariş ədəbiyyatın keyfiyyət və sənətkarlıq tərəflərini yüksəltməyə yox, onun sinfi təbiətini, sinfi mahiyyətini daha da qabartmağa yönəlmişdi.

Bütün bunlarla razılaşmayan, ədəbi prosesdə fikir müxtəlifliyi yaradanlar isə dərhal tənqid olunur, millətçi və sinfi düşmən damğaları ilə ləkələnir, "Plexanovçu, Pereverzevçi" damğası ilə siyasi düşmən elan edilirdilər. Bəzi ədəbiyyat mütəxəssisləri, ümumiyyətlə, uşaq ədəbiyyatı anlayışını qəbul etmir, ədəbi-tarixi prosesi bütöv, bölünməz vahid bir ədəbi- texnoloji proses kimi təsəvvür edirdilər. Ukrayna alimi Soqolyenski deyirdi: "Mənim buna şübhəm burasındadır ki, xüsusi cocuq kitabı lazımdırmı? Mən özüm üçün cavab verirəm ki, cocuq ədəbiyyatı lazım deyildir"[35]. Həmin konsepsiyanın tərəfdarları "sol nəzəriyyəçilər" hesab olunurdu. "Xarkov məktəbi" adlanan bu ədəbi təmayül uşaq ədəbiyyatına qarşı çıxırdı.

Siyasi vəziyyətin və ədəbi mühitin mürəkkəb olduğu bir dövrdə başqa cür düşünənlər də az deyildi. Bəziləri cocuq ədəbiyyatının yalnız əfsanələrdən və nağıllardan ibarət olmasını tələb edir, bura siyasi və ictimai məsələlərin daxil edilməsinə qarşı çıxırdılar. Ö. F. Nemanzadə isə kökü lap qədimlərə gedib çıxan nağıl, dastan və mənzum hekayələrimizdə allahlar, o cümlədən qorxunc qüvvələr haqqındakı bədii nümunələrin uşaqlar üçün yaramadığını, dini fanatizmi yaydığını sübut etməyə çalışır, eyni zamanda həmin nümunələrin yeni dərsliklərdən çıxarılmasını məsləhət görürdü: "Bu üsul ibtidai insanların yaradıb zəncirləmə bir yol ilə zamanımıza qədər sürüklənib gələn allahlar, güclülər barəsində uydurulan hekayələrdəki mövhumat yoludur. Bu üsul ilə heyvanları, ağacları, daşları danışdırmaq əxlaqi hekayələr, zamanımız tərbiyəsi, həqiqi ictimai quruluş əsasında uyğun deyil. Cocuqlarımız bunları oxuduqca mövhumata istər-istəməz inanırlar" [89, s.58].

Şübhəsiz ki, tanınmış pedaqoq və yazıçı Ö.F.Nemanzadənin bu mövqeyi o dövrdə tənqid və ədəbiyyatşünaslığımız tərəfindən tənqid olunmuş, klassik ədəbi ənənədəki bu cür əsərlərin nəşri və təbliği məqsədəuyğun hesab olunmuşdur: "Cocuq-

ların həyatında olan müxtəlif dövrləri nəzərə alaraq həm fantastik xalq hekayələri, həm sentimental, həm romantik, həm realist əsərlər cocuq ədəbiyyatında olmaldır. Böylə olmazsa, cocuğun təbii təkamülünə zidd getmiş və zəmanəmizin qəbul etməyəcəyi yanlış və süni bir tərbiyə üsulunu yaratmış oluruq" [102, s. 71].

İlk nömrəsi 1927-ci ilin fevral ayında nəşr olunan " Pioner" jurnalı 20-30-cu illərdə milli uşaq ədəbiyyatının, eləcə də onun nəzəriyyəsinin yaranması və təşəkkülündə müsbət rol oynadı. Fəaliyyətinin ilk dövründən gənc oxuculara elm və mədəniyyət, insanları əhatə edən təbiət və cəmiyyətdə davranış qaydaları, müxtəlif biliklər haqqında müəyyən, konkret təsəvvür oyadan "Pioner" jurnalı tezliklə kütləviləşmiş, öz ətrafına yüzlərlə pioner-müxbir toplamışdır. On illər boyu xalqlar dostluğu , vətənpərvərlik, düzlük, doğruçuluq, sədaqət, yaxşı dost və etibarlı yoldaş olmağı təbliğ edən jurnal Azərbaycan uşaq ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərmişdir. Öz nömrələrində ardıcıl olaraq elmi-texniki yeniliklərə, dövrün aktual məsələlərinə geniş yer verən " Pioner" jurnalı illər keçdikcə öz tirajını yüksəltmiş, hətta 1930-1940-cı illərdə 76 səhifədən ibarət olmaqla, 10 min nüsxə nəşr edilmişdir.

Respublikalar arasında aparılan ayrı-seçkilik siyasəti burada da özünü göstərirdi. SSRİ-dəki bütün uşaq jurnalları rəngli, şəkilli, həm də ən yeni çap üsulları ilə nəşr edildiyi halda, "Pioner" jurnalı adi kitab kağızında və köhnə mətbəə üsulu ilə çap edilirdi. Bildiyimiz kimi, 20-30-cu illərdə İttifaqda kiçik yaşlı uşaqlar üçün "Murzilka", "Barvinok" (Ukrayna LKGİ MK-nin aylıq uşaq jurnalları), yeniyetmələr üçün "Yunost", "Molodoy kommunist" tipli jurnallar çap edilirdi ki, dərc etdirdiyi bədii parçalara, müxtəlif janrlı uşaq əsərlərinə görə "Pioner" jurnalı onlardan geri qalmırdı.

Təəssüf ki, 50-ci illərin əvvəllərində totolitar təfəkkürün formalaşdığı və daha da sabitləşdiyi, mənəvi dəyərləri sıradan çıxarmağa çalışdığı bir şəraitdə "Pioner" jurnalı da marksist nəzəriyyəçilərin tənqid hədəfinə çevrildi. 1951-ci ildə Azərbaycan K (b) PMK-nin "Pioner" jurnalı haqqında çıxartdığı qə-

rarda bir sıra əsassız ittihamlar irəli sürülür, uşaq və gənclər ədəbiyyatında ciddi nöqsanlar aşkar olunduğu göstərilirdi. Mövzu məhdudluğu, mücərrədlik, həyat hadisələrini inkişaf prosesində göstərməmək həm "Pioner" jurnalının, həm də 50-ci illər uşaq ədəbiyyatının başlıca nöqsanı kimi tənqid olunurdu. M. Dilbazinin "Balaca nümayəndə", Z. Cabbarzadənin "Bakı" şerləri, M. Cəlalın "Söyüd kölgəsi", İ.Əfəndiyevin "Qoruqlarda" hekayələri həmin mövqedən əsassız yerə tənqid olunmuşdu: "İlyas Əfəndiyev "Qoruqlarda" adı ilə buraxdığı hekayələr məcmuəsində bir növ Abdulla Şaiqin "Köç" hekayələrinin yeni variantını vermək istəmişdir. Bugünkü sovet yazıçısı yaylaq, köç və bunlarla bağlı olan bir sıra hadisələri qələmə alarkən birinci növbədə patriarxal köç və köçərilik, "romantikasını" həyat faktları ilə yıxıb dağıtmalı və sovet insanlarının yaratdığı həyatın bu "romantika" ilə daban-dabana zidd olduğunu göstərməlidir" [121].

Burada məqalə müəllifi klassik irsimizdəki ənənəvi romantik üslubla inqilabi romantika, sovet romantikası arasında dərin fərqlər olduğu vurğulanmış, çobanların patriarxal həyatından, məişətindən yazmağın marksist estetika ilə heç bir əlaqəsi olmadığı göstərilmişdir. Həmin illərdə xalqın adət-ənənələrindən, etnoqrafik yaddaşından, milli etnik xüsusiyyətlərindən yazmaq, köhnə həyatı idealizə etmək kimi dəyərləndirilirdi: "Tənqidin olmamasının nəticəsidir ki, uşaq ədəbiyyatı sahəsində, çoxdan bəri kök atıb qalmış nöqsanlar indiyə kimi davam edir. Yazıçı M.Rzaquluzadə və M.Seyidzadənin əsərlərindəki sxematizm qalıqları, köhnə həyatı idealizə etmək meylləri, tənqidçilərimiz tərəfindən vaxtında aşkara çıxarılmamışdır" [121].

30-cu illərin əvvəllərində marksist ideologiyanın və estetikanın müxtəlif siyasi baxışlara, ədəbi-estetik mövqelərə qarşı açıq mübarizəyə, qəti hücuma keçdiyi bir dövrdə MK-nın qərarı ilə yaranan uşaq ədəbiyyatı nəşriyyatlarında bu nəşriyyatların nəzdindəki cocuq ədəbiyyatı sektorlarında, xüsusi təşkil olunan cocuq kitabxanalarında ideya-siyasi təbliğat işləri gücləndirilirdi. Keçən əsrin 20-30-cu illərində uşaq ədəbiyyatının yaranması və təşəkkülü, elmi-nəzəri fikirdə bunun öyrənilməsi obyektiv və subyektiv çətinliklərlə bağlı idi.

Ədəbiyyatın bu yeni sahəsini yaratmaq, ideoloji mübarizələrdə ondan bir vasitə kimi istifadə etmək əsas məsələ kimi qarşıda dayansa da, marksist nəzəriyyəçilərin arzuladığı, yaratmağa çalışdığı uşaq ədəbiyyatını hansı əsaslarla yaratmaq zərurəti ciddi mübahisələrə səbəb olurdu. Qaranlıq məqamlardan biri də yeni yaranan ədəbiyyatda klassik ədəbi ənənələrin rolu və əhəmiyyətinin müəyyənləşdirilməsi idi.

Marksist estetika ədəbiyyatın başqa sahələri kimi klassik uşaq ədəbiyyatını da təftişçilik yolu ilə öyrənməyə, nəşr etməyə üstünlük verirdi. Başqa cür desək, klassik ədəbi-mədəni irsdən sovet ideologiyasına uyğun gələnlər qəbul edilir, qalanları isə atılır, inkar olunurdu. Klassik sənətkarların öyrənilməsi, çapı və təbliğatı da həmin istiqamətdə aparılırdı. Sovet Yazıçılarının I Ümumittifaq qurultayındakı çıxışında N.İ. Buxarin: "Köhnə ustadlardan", "klassiklərdən", "sələflərdən" və sairədən "ümumiyyətlə necə öyrənmək olar" sualını irəli sürərək belə cavab vermişdi: "Bu suala ümumi cavabı materialist dialektika verir, ona görə inkar etmək sadəcə məhv etmək deyil, bəlkə yeni fazadır", bunlar Hegelin dili ilə ifadə edilərsə, "köhnəlik", "qaldırılmış şəkildə" baqidir. Bu tipli hərəkətdə varislik mümkündür ki, dialektik şəkildə köhnəlik ilə əlaqəni kəsmək və onu xüsusi şəkildə davam etdirmək ilə rabitələndirilir"[15].

Beləliklə, "köhnəliklə əlaqəni kəsmək", daha sonra "onu xüsusi şəkildə davam etdirmək" marksist estetikanın müstəsna səlahiyyəti ilə bağlı idi. Yeni cəmiyyətin ideoloqları klassik uşaq ədəbiyyatına da eyni nəzərlə baxır, bu sahədə inqilabdan əvvəl yaranan əsərlərə qısqanclıqla yanaşır, əksəriyyətini ideoloji cəhətdən zərərli, yeni nəslin əxlaqına mənfi təsir edən bir amil kimi qiymətləndirirdilər: "Biz heç zaman bu ədəbi irsin tamamilə başqa bir sinif nümayəndəsi, başqa bir ictimai psixologiyaya malik yazıçılar tərəfindən yazıldığını, bütün bu ədəbi irsin başqa bir dövr, başqa bir cəmiyyət, başqa bir dünyagörüşünün məhsulu olduğunu unutmamalıyıq [10.s.64].

20-30-cu illərdə klassik uşaq ədəbiyyatının hansı nümunələrini çap etdirməyin zəruriliyi də ciddi mübahisələrə səbəb

olurdu. 1926-cı ildə Azərnəşr tərəfindən S. Ə. Şirvani irsinin çap edilməsini Mikayıl Rəfili narazılıqla qarşılayır, Seyid Əzimin külliyyatını çıxarmaq əvəzinə, ciddi və elmi surətdə Axundovun, Vəzirovun külliyyatı çıxarılsaydı, daha yaxşı olardı" - deyə yazırdı [96, .s. 65]. Sovet hakimiyyəti dövründə fəaliyyət göstərənlərə, yeni uşaq ədəbiyyatı nümunələrini yaradanlara - öz əsərləri ilə imkan daxilində yeni ideologiyanın tələbləri ilə ayaqlaşmağa çalışan A. Şaiqə, Ə. Haqverdiyevə, C. Məmmədquluzadəyə, C. Cabbarlıya qarşı 20-ci illərdə marksist estetiklərin münasibəti o qədər də yaxşı deyildi. Onlar addımbaşı izlənilir, aşağılayıcı tərzdə "çağdaş" hesab edilir, proletar ədəbiyyatı yaratmaq uğrunda çətinliklər çəkdikləri, dərin böhran keçirdikləri iddia olunurdu.

Proletar sənəti yaratmaq təşəbbüsündə olanlar unudurdular ki, "cığırdaş" adlandırdıqları istedadlı sənətkarlar klassik ədəbiyyatla yeni formalaşan ədəbi tarixi proses arasında körpü rolunu oynayır.Yaşlı nəsil yazıçıları bir küncə sıxışdırmaqla əslində ədəbi nəsillər arasında varislik əlaqələrini pozur, beləliklə, yeni yaranan uşaq ədəbiyyatının klassik ədəbi irslə bağlılığına kölgə salırdılar. Şübhəsiz ki, kommunist ideologiyası sənət nəzəriyyəçilərinin çağdaş ədəbi tarixi prosesi ideoloji istiqamətə yönəltmələri bəzi rus ədəbiyyat tarixçilərinin, həmçinin müttəfiq respublikalardakı tənqidçi və ədəbiyatşünasların ciddi narazılığı ilə qarşılanırdı. Rus-ədəbiyyat tarixçisi Voronski öz fikirlərini belə əsaslandırırdı: "Çığırdaşlar"ı əzməyə çalışan münəqqidlər, təbii olaraq, klassik ədəbiyyatı da əzir və "keçmiş sənət şəkli" mündəricəsindən də azad olmaq tezisini meydana atırdılar [73, s.23].

Bu fikirləri ilə Voronski klassikləri və çığırdaşları təftişsiz, tənqidsiz öyrənməyə çağırırdı. O, cığırdaşları klassiklərdən fərqləndirmir, onları klassiklərlə proletariatı birləşdirən bir vasitə kimi qəbul edirdi. Azərbaycan ədəbi tənqid və ədəbiyyatşünaslığında da milli uşaq ədəbiyyatının müxtəlif dövrləri arasındakı əlaqəni, varisliyi qəbul edən, proletar uşaq ədəbiyyatını yaratmaq üçün klassik uşaq ədəbiyyatından yaradıcı şəkildə faydalanmağın zəruriliyini irəli sürən B. Çobanzadə,

Ə.Abid, A. Musaxanlı, C. Əfəndizadə kimi ədiblərimiz var idi. 20-30-cu illər mühitində onların obyektiv tarixi mövqeyi öz dövründə kəskin tənqidlə qarşılanırdı: "Cabbar Əfəndizadə üçün bütün yazıçılar - istər burjuaziya romantiki Hüseyn Cavid olsun, İstər Azərbaycan pılniki Ə. Cavad olsun, istər liberal şair Abdulla Şaiq olsun və istərsə nəhayət inqilabçı şair Süleyman Rüstəm olsun -həmişə eyni istedada, gözəlliyə malik və eyni təqdirəlayiqdirlər (13, s.30).

Sitatdan göründüyü kimi, məqalə müəllifi ədəbi nəsillərə sinfi yanaşmanın vacibliyi məsələsini irəli sürür. Sonrakı dövrlərdə olduğu kimi, 20-ci illərdə də uşaq ədəbiyyatımızın ən gözəl nümunələrini yaradan Abdulla Şaiq "liberal şair", H.Cavid "burjuaziya romanti" hesab edilirdi. Ədəbiyyata bu cür sinfi yanaşma üsulları 20-ci illərdə Azərbaycan uşaq ədəbiyyatının inkişafına və elmi-nəzəri fikrin formalaşmasına mənfi təsir göstərirdi.

Ümumiyyətlə, 20-ci illərdən 30-cu illərin əvvəllərinə kimi milli uşaq ədəbiyyatı, ədəbi fikri öz çətin dövrünü yaşayır, ideoloji-siyasi basqılar, təzyiqlər şəraitində öz varlığını, ədəbi suverenliyini qoruyub saxlayırdı. Lakin ədəbi-nəzəri fikrimizdə uşaq ədəbiyyatı anlayışı hələ lazımınca dərk olunmamışdı. Bu ədəbiyyatın sistemli tədqiqatı və öyrənilməsi işi kifayət qədər həyata keçirilmirdi. Kommunist partiyasının bu barədə vaxtaşırı qərar və sərəncamlar verməsinə baxmayaraq, uşaq ədəbiyyatı və tənqidində onun öyrənilməsi müəyyən obyektiv və subyektiv çətinliklərlə bağlı idi. Marksist estetiklər uşaq ədəbiyyatı və nəzəri fikrini də "inqilabi yolla" yeniləşdirməyə, təzədən qurmağa və nəticədə əvvəlki dövrlərlə müqayisədə həm məzmun, həm də formaca yeni, misli görünməmiş bir ədəbiyyat yaratmağa cəhd edirdilər. Bu yolda tələskənlik, bədii üslub və formadan daha çox ideoloji təbliğata üstünlük verilməsi uşaqlar üçün yaranan ədəbiyyata da təsirsiz ötüşmürdü. Sırf təbliğata, kommunist ideologiyasına xidmətə yönələn əsərlərdə sxematizm, şüarçılıq, ritorika, patetika özünü daha çox göstərir, belə əsərlər uşaqlar üçün o qədər də maraqlı olmur, onların diqqətini çəkmirdi.

Kommunsitlərin ədəbiyyata rəhbərliyindən irəli gələn bu cür neqativ hallar hətta partiya qərarlarında da öz əksini tapırdı. ÜİK (b) P MK-nin 1933-cü il sentyabrın 9-da verdiyi "Uşaq ədəbiyyatı nəşriyyatı" haqqındakı qərarında deyilirdi ki, cocuqların spesifik ehtiyaclarının ehtimal olunması, cocuq kitablarının ədəbi ifadəsi, bədii təşəkkülündəki trafaretlik, sxematizim və çox zaman xaltura, cəhalət, klassik cocuq ədəbiyyatı nəşriyyatının olmaması – budur cocuq ədəbiyyatı nəşriyyatında xarakterik olan nöqsanlar.

Bəllidir ki, uşaq ədəbiyyatının və nəşriyyatının mövcud vəziyyətilə bağlı ifadə olunan bu narahatçılıq fonunda 30-cu illərin ikinci yarısına qədər olan mərhələdə milli uşaq ədəbiyyatı və nəşriyyatının da vəziyyəti o qədər ürəkaçan deyildi. Bunu müqayisəli şəkildə belə göstərmək olar; 30-cu illərin əvvəllərinə qədərki dövrdə Rusiyada uşaq ədəbiyyatını nəşr edən 100-dən artıq nəşriyyat, 500-dən artıq yazıçı fəaliyyət göstərirdisə, Azərbaycanda nəşr olunan uşaq ədəbiyyatı nümunələrini barmaqla saymaq olardı. Nəşr olunan kitabları uşaqların xüsusiyyətlərinə görə təsnif etsək görərik ki, bu sahəyə aid olan ancaq bir neçə kitab göstərmək mümkündür. Buna görə də 30-cu illərin əvvəllərində 9-10 yaşlı məktəblilər "Qorxulu Tehran", "Gözəl dost" kimi yaşlarına uyğun gəlməyən kitablar oxumağa məcbur olurdular. Düzdür, həmin dövrdə «Azərnəşr» və «Kommunist» nəşriyyatları klassik ədəbiyyatdan bir sıra tərcümələr etmişdi, lakin bunlar mövcud tələbatı ödəmirdi.

Azərbaycan uşaq ədəbiyyatının müstəqil bir yaradıcılıq sahəsi kimi öyrənilməsi tarixinin 1934-cü ildən başlaması heç də təsadüfi deyil. Qurultay ərəfəsi yazılan bir sıra elmi məqalələrdə, konfranslarda ədəbiyyatımızın müxtəlif istiqamətləri ilə yanaşı, uşaq ədəbiyyatı məsələlərinə də toxunulur, o vaxta qədər ictimayətin və ədəbi tənqidin diqqətindən kənarda qoyduğu problemlər diqqət mərkəzinə çəkilirdi. Sovet Yazıçılarının I Ümumittifaq qurultayındakı bəzi çıxışlarda uşaq ədəbiyyatı və onun nəzəriyyəsini daha da inkişaf etdirmək, onu günün tələbləri səviyyəsinə qaldırmaq, azyaşlılar və yeniyetmələr

üçün yazılan əsərləri onların bədii zövqünə və yaş səviyyəsinə uyğunlaşdırmaq aktual məsələ kimi qoyulurdu.

Bu cəhətdən qurultayda sovet yazıçısı S. Marşakın "Balacalar üçün böyük ədəbiyyat" mövzusundakı məruzəsi ətrafında ayrıca danışmağa ehtiyac var. O, öz məruzəsində sovet uşaq ədəbiyyatının on beş illik zaman kəsiyində yarandığı və təşəkkül etdiyi bir ədəbi mərhələnin səciyyəvi xüsusiyyətləri, mərhələ təsnifatı, ədəbi-tarixi prosesin fonunda uşaq ədəbiyyatının real mənzərəsi, uşaq nəşrlərinin dövrün sosial sifarişlərinə nə dərəcədə cavab verməsi, gələcəkdə yazılacaq ədəbiyyat tarixlərində uşaq ədəbiyyatı tarixinə və onun öyrənilməsinə xüsusi əhəmiyyət verilməsi ətrafında maraqlı, həm də fundamental fikirlər irəli sürdü. Düzdür, S.Marşakın bu çıxışının ümumi ruhunda, sovet uşaq ədəbiyyatını sosialist realizmin nəzəri prinsipləri çərçivəsinə salmaq açıq-aydın hiss olunurdu. Eyni zamanda, bu çıxışda sovet yazıçılarını uşaq ədəbiyyatı yaratmağa, onu müstəqil yaradıcılıq sahəsi kimi təkmilləşdirməyə və kamilləşdirməyə bir çağırış, ədəbi səfərbərlik də özünü göstərirdi. Qurultaydakı başqa çıxışlarda da uşaq ədəbiyyatının ümumi problemləri, ayrı-ayrı müttəfiq respublikalarda onun inkişaf texnologiyasını hərəkətə gətirmək ətrafında qızğın, ciddi diskussiyalar aparıldı. Sovet yazıçılarının I Ümumittifaq qurultayında avqustun 28-dəki məruzəsində M. İ. Buxarin qeyd edirdi ki, sosialist realizmi incəsənətin xüsusi metodu olub, dialektik materializmə uyğun gəlir, onun incəsənət sahəsinə keçirilməsi vacibdir [15].

Beləliklə, qurultayda marksist ideoloqlar cəmiyyətin sinfi mübarizə metodunun ədəbi yaradıcılığa, o cümlədən də uşaq ədəbiyyatına gətirilməsini rəsmiləşdirdilər. Sovet yazıçılarının I Ümumittifaq qurultayından dərhal sonra müttəfiq respublikaların hamısında olduğu kimi, Azərbaycanda da uşaq ədəbiyyatını dövrün yeni ideologiyasının tələbləri ilə səsləşən vəziyyətə gətirmək üçün inzibati-təşkilati tədbirlər həyata keçirildi. Kütləvi informasiya vasitələrində "cocuq ədəbiyyatı ilə kimsə məşğul olmur" [15] kimi problemlər qaldırıldı. Yenə həmin ildə çağrılan Azərbaycan Sovet Yazıçılarının I qurulta-

yında C. Cabbarlının sədrliyi ilə keçirilən 6-cı iclasda çıxış edən müəllimə Şirin Qiyasbəyli bildirib ki, mən bir ədəbiyyat müəllimi olmaqla cocuq ədəbiyyatındakı kəsirimizi və bu ədəbiyyata olan böyük ehtiyacımızı qurultayın və şura yazıçılarının qarşısına qoyuram [69].

1934-cü ildən etibarən Azərbaycan Elmi Tədqiqat Pedaqoji İnstitutu uşaq ədəbiyyatının metodoloji məsələlərini öyrənməyə, təkmilləşdirməyə cəlb olundu. Uşaq əsərlərinin dili, janrı, bədii tərcümə üsulları, klassik ədəbi irsi öyrənmək və bu irsdən yararlı əsərlər seçmək, uşaq əsərlərində folklordan istifadə yolları ətrafında ciddi elmi – ədəbi yaradıcılıq axtarışları aparıldı. Uşaq əsərlərinin biblioqrafiyası üzərində yeni iş başlandı. Tanınmış sənətkarlarımızı uşaq əbədiyyatına cəlb etmək üçün konkret tədbirlər həyata keçirildi, uşaq və yeniyetmələr üçün yazılan əsərlərin janrı, forması, dil, üslub və poetik xüsusiyyətləri ətrafında maraqlı elmi diskussiyalar keçirildi, eyni zamanda bu ədəbiyyatın müəyyən spesifik, orijinal, həm də, müəyyən yaradıcılıq dəsti xətti ilə seçilən keyfiyyətləri də müzakirə obyektinə çevrildi: "Cocuq yazıçılara, onların yazdıqları kitablara bütün varlığı ilə inanır. Ona görə də cocuq üçün yazmağa qadir olan yazıçı tapmaq asan deyildir, ancaq azyaşlı cocuqlar üçün poema, nəğmə, yaxud hekayə yaza biləcək şair və nasir tapmaq daha artıq çətindir. Bu təəccüblü bir şey deyildir. Çünki burada tamamlıq, son dərəcə sadəlik, həqiqi bədii sintez lazımdır" [17].

Keçən əsrin 20-30-cu illərini uşaq ədəbiyyatının təbliğində, tədqiqində və nəşrində ayrıca bir mərhələ kimi qeyd etməliyik. Sərt sovet rejiminin, sosialist realizmin, inqilabi estetikanın siyasi-ideoloji çərçivəsi şəraitində ədəbiyyat mütəxəssislərimiz mövcud qadağalara, çətinliklərə baxmayaraq, uşaq və yeniyetmələrin qayğısına qalır, onların ideya-estetik tərbiyəsində böyük bir tarixi missiya həyata keçirirdilər.

UŞAQ ƏDƏBİYYATINDA TOTALİTAR TƏFƏKKÜR (XX ƏSRİN 40-50-Cİ İLLƏRİ)

Böyük Vətən Müharibəsi ölkənin siyasi-ideoloji həyatında olduğu kimi, ədəbi mühitdə də çox ciddi sınaqların əsasını qoydu. İttifaqın hərbi, iqtisadi potensialı ilə birlikdə çox güclü və nəhəng təbliğat maşını da işə düşmüşdü ki, bu prosesdə ədəbiyyat və incəsənətin oynadığı rol mühüm əhəmiyyət kəsb edirdi. Beləliklə, ədəbiyyatımızda müharibə mövzusu, qəhrəmanlıq, vətənpərvərlik motivləri, mərdlik, qorxmazlıq, hünər göstərmək kimi hisslər ön plana keçdi. İttifaqın bütün respublikalarında hərbi texnika və onun növləri haqqında bədii-elmi kitablar nəşr edilirdi. Soveleyevin «Artelleriya haqqında hekayələri» və yaxud sualtı qayıq və tank haqqında «Gənclər və uşaqlar ədəbiyyatı» nəşriyyatının buraxdığı kitablar bu qəbildəndir. Beləliklə, müharibə, hərbi texnika və onların xüsusiyyətləri barədə hərbi kitabxanalar yaranmağa başladı. Əbülhəsənin «Müharibə», Mehdi Hüseynin «Abşeron», S. Rəhmanovun «Saçlı» (I hissə), M. Cəlalın «Açıq kitab», M. Hüseyn «Alov», Ə. Məmmədxanlının «Şərqin səhəri» əsərlərində, S.Vurğunun, R. Rzanın, S. Rüstəmin, M. Rahimin şeirlərində müharibənin bütün ölkəni ədavətə sürüklədiyi, döyüşlərdə insanların həlak olduğu uşaqların yetim qalması və s. fəlakətlər bədii düşüncənin gündəlik qayğısına çevrildi.

Təkcə ittifaqda deyil, bütün dünyada əks-səda doğuran müharibə uşaq ədəbiyyatı və ədəbi-nəzəri fikrinə də təsirsiz ötüşmədi. Eyni narahat ovqat, əhvali-ruhiyyə, döyüşkənlik uşaq ədəbiyyatının da prioritet məsələləri kimi özünü göstərirdi. A.Şaiq, M. Rzaquluzadə, M. Dilbazi və başqaları yeni tarixi şəraitdə dövrün, müharibə şəraitinin tələbləri ilə səsləşən, uşaqlarda vətənpərvərlik qəhrəmanlıq duyğuları oyadan, onların bədii zövqünü cilalayan, ətraf aləm haqqında təsəvvürlərini genişləndirən əsərlər yaratdılar.

Hələ Böyük Vətən müharibəsindən əvvəl - II Dünya müharibəsinin ilk illərində elmi-nəzəri fikrimizdə uşaq ədəbiyyatında qəhrəmanlıq, vətənpərvərlik mövzularını genişləndirmək,

marksist-leninçi ideologiyanı uşaq və gənclərin təfəkkürünə, düşüncəsinə yerləşdirmək üçün çox ciddi və kompleks tədbirləri həyata keçirilməyə başlamışdı. Azərbaycan SSR Elmlər Akademiyasının Azərbaycan filialının Azərbaycan Yazıçılar İttifaqı, Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatının potensial imkanlarından bu işdə geniş istifadə olunur, uşaq ədəbiyyatının qarşısına yeni vəzifə və tələblər qoyulurdu: «Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı» Azərbaycan xalqının qəhrəmanları, revolyusionerləri haqqında Babək, Xanlar, Məşədi Əzizbəyov və başqaları haqqında original kitablar yaratmalıdır. Sərhədlərimizin müdafiəsinə aktiv kömək edən, uşaqlar haqqında, sərhədçilər, sosialist əməyi qəhrəmanları, kolxozlar sovet müəllimi, sovet məktəbi, dostluq və sairə haqqında bədii əsərlər yaratmaq lazımdır». (14)

Müharibə ərəfəsində sosialist realist estetika uşaq və gənclərin ideya-mənəvi tərbiyəsinə, döyüş əhval-ruhiyyəsinə köklənməsinə böyük əhəmiyyət verir, əvvəlki illərlə müqaisədə sovet uşaq ədəbiyyatının təşəkkülünə, formalaşmasına daha çox diqqət yetirdi. ÜİK G1 MK-nın yanında çağrılan müşavirədə Andreyev demişdi: "Məgər böyük romanlarla bir sırada uşaqlar üçün çoxlu diqqətəlayiq hekayələr və şeirlər yazan Puşkin, L.Tolstoy və başqaları bizim üçün yeni timsal deyillərmi? Bizim bütün yaxşı yazıçılarımızı və dramaturqlarımızı uşaq kitabları yazmaq işinə hər vasitə ilə cəlb etmək lazımdır [50]. Söz yox ki, həmin illərdə uşaq və gənclər ədəbiyyatını dirçəltmək, yeniyetmələrin siyasi-ideoloji tərbiyyəsində bundan lazımınca istifadə etmək üçün təkcə təbliğati vasitələrdən istifadə edilmirdi. Eyni məqsədlə müxtəlif müsabiqələr keçirilir, yaxşı yazan uşaq yazıçıları mükafatlandırılır və digər təsirli təbliğedici tədbirlər görülürdü. Hətta uşaq yazıçılarının yaradıcılığında dönüş yaratmaq üçün Azərbaycan SSR XKS 1945-ci ildə ən yaxşı əsərlər üçün xüsusi müsabiqə elan etmişdi.

Ədəbiyyat və incəsənətin bütün sahələri vahid bir ideoloji xəttə, cəbhəyə xidmət edirdi. Uşaq bədii düşüncəsində müharibə, vətəni müdafiə haqqında bitkin təsəvvür oyatmaq üçün yeni uşaq pyesləri meydana çıxmasına və onların tamaşaya

qoyulmasına, gözəl, şən, nikbin ruhlu uşaq şerləri və mahnıların yazılmasına da diqqət yetirilirdi. Teatrın, sənətin insanların bədii zövqünə və ideya-siyasi yetkinliyinə təsirinə önəm verən sovet ideoloqları yeni uşaq pyeslərinin yaranmasını vacib məsələ kimi qarşıya qoymuşdu. Odur ki, müharibənin ilk illərində A.Şaiqin «Eloğlu», «Vətən», pyesləri, S.Vurğun, S.Rüstəm, M.Rahim, M.Seyidzadə, Ə.Cəmil, N.Rəfibəylinin və başqalarının uşaq pyesləri, poema və şeirləri, yeni nəğmələri yarandı.

Şübhəsiz ki, dövri mətbuatda ədəbi tənqid bu əsərlər haqqında müəyyən, konkret rəy formalaşdırır, zəif əsərlər tənqid olunurdu: "Müharibə dövrü Azərbaycan ədəbiyyatının müxtəlif məsələlərinə dair məqalələr, nəzəri cəlb edən ayrı-ayrı, əsərlərə və teatr tamaşalarına dair reaksiyalar ümumi ədəbi prosesin tərkib hissəsi kimi ədəbiyyatın özü ilə müvazi meydana gəlmişdir" [128].

Uşaq pyesləri müharibə dövrünün tələbləri nöqteyi-nəzərindən yazılır və tamaşaya qoyulurdu. Bu cəhətdən böyük ədibimiz A.Şaiqin ədəbi fəaliyyəti daha çox diqqəti cəlb edirdi. Onun "Vətən" pyesi müharibənin ilk günlərindən dəfələrlə tamaşaya qoyulmuşdu. Torpaq sevgisi, vətən məhəbbəti təbliğ edən "Ana" əsəri də yeniyetmələrimiz tərəfindən maraqla qarşılanmışdı. 1944-cü ildə elan edilən uşaqlar üçün ən yaxşı əsərlər müsabiqəsində A.Şaiqin «Zəhmət və ziynət» mənzum dastanı birinci mükafata layiq görülmüşdü. Həmin əsərdə zəhmətin insanın mənəvi təkamülündə oynadığı rol bədii sənətkarlıqla, təsirli ifadə vasitələri ilə göstərilmişdir.

A.Şaiqin müharibə dövründə uşaq ədəbiyyatı sahəsindəki çoxtərəfli fəaliyyəti o dövrün ədəbi tənqid və ədəbiyyatşünaslığı tərəfindən yüksək qiymətləndirilmişdir: "Abdulla Şaiqin mövzu dairəsinin genişliyi, ədəbi növlərin ən müxtəlif şəkillərindən mövzu və məzmuna uyğun olaraq məharətlə istifadə etməsi, uşaq xəyalı qədər zəngin yaradıcı xəyala, həssas və saf bir qəlbə malik olması, ən vacibi milli və bəşəri məhəbbət eşqiylə yaşaması sayəsində Azərbaycanın bir çox keçmiş, indiki və gələcək nəsillərinin ən yaxşı uşaq yazıçısı olmuş və elə də olacaqdır" [105].

M.Seyidzadə N.Gəncəvinin «İsgəndərnamə» əsərinin mövzusunda yazdığı «İsgəndər və çoban» pyesində klassik ədəbi irsdən istifadə etmənin ən yaxşı nümunəsini göstərmişdir. Onun Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulan "Ana", "Qızıl quş" əsərləri də müharibə illərində gənc tamaşaçılar tərəfindən maraqla qarşılanırdı. Bundan əlavə, M.Seyidzadə, M.Füzulinin "Söhbətül-əsmar" əsərinin motivləri əsasında "Meyvələrin bəhsi" adlı maraqlı bir alleqorik əsər də yazmış və müsabiqədə birinci mükafata layiq görülmüşdür.

Müharibə dövründə milli uşaq ədəbiyyatının qarşısına qoyulan tələb və meyarlardan danışarkən S.Vurğunun "Balalarımız üçün gözəl əsərlər yaradaq" [128-129-130] məqaləsi haqqında ayrıca danışmağa xüsusi ehtiyac var. «Ədəbiyyat» qəzetinin müxtəlif nömrələrində dərc olunan bu məqalə üç hissədən ibarətdir. Məqalədə təkcə uşaq ədəbiyyatının qarşısında dayanan vəzifələrdən yox, həm də pedaqoji nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edən təlim-tərbiyə problemlərindən də ətraflı bəhs olunub.

Birinci hissədə yazıçılarımıza tövsiyə olunur ki, uşaq və yeniyetmələrin daxili aləminə, mənəvi gözəlliyinə, fərdi təbiətinə, düşünmək, duymaq, sevmək, ağlamaq, gülmək, sevinmək, qəzəblənmək, xəyala dalmaq kimi insani hisslərinə daha çox işıq salsınlar. "Biz uşaq ilə danışdığımız zaman –insan ilə danışdığımızı, uşaq üçün yazdığımız zaman insan üçün yazdığımızı unutmamalıyıq"[128] -deyən müəllif uşaqların fikri-zehni inkişafında, bədii zövqünün formalaşmasında ailənin, pedaqoji kollektivin və cəmiyyətin ətraf mühitin fəal təsirini önə çəkib.

S.Vurğun uşaqların romantik dünyasına nüfuz etməyi, təbiətin özü qədər təmiz olan təbiətinə yaxın olmağı çox vacib amil hesab edir. Buna nail olmaq üçün əfsanə və nağıllarımızdan yaradıcılıqla istifadə etməyin, qəhrəmanlıq, hünər motivlərini geniş əks etdirən folklardan faydalanmağın yollarını göstərirdi. O, hər şeydən əvvəl, uşaq ədəbiyyatında romantik duyğulara üstünlük verir və " təəssüf ki, ədəbiyyatımız uşaq təbiyyətində olan yüksək romantik hisslərinin inkişafına kömək etməyi çox vaxt unudur" [128] - deyə yazırdı.

İkinci məqalədə müəllif diqqəti daha çox gənclərdə vətənpərvərlik hissinin, vətəndaşlıq duyğusunun uşaq və yeniyetmə ədəbiyyatındakı yeri və rolundan danışır. Bu mövzuda da yazıçı və şairlərimizi mücərrəd mövzulardan, ümumi təsvirlərdən uzaq olmağa çağırır və belə qənaətə gəlir ki, 11-12 yaşlı uşaqlarda vətən məvhumu doğma kənd, həyətlər, tanış ağaclar, evləri, eyvanları, nənələrinin söylədiyi nağıllar, ata-ana nəvazişi, qardaş-bacı, qohum-əqraba, yamaclar, meşələr- bir sözlə onların yaşadığı mühitdir: "Uşaq təsəvvürü mürəkkəb və dolaşıq səhnələri, təsvirləri həzm etmədiyindən, sadəlik və təbiilik, yalnız ürəkdən qopan həyəcanlar ilə yazılan həqiqi uşaq ədəbiyyatı adlana bilər" [129].

Göründüyü kimi, burada S.Vurğun uşaq ədəbiyyatının spesifikasını, mahiyyət və funksiyasını düzgün müəyyənləşdirmiş, bütün dövrlərdə olduğu kimi, müharibə illərində də bədii yaradıcılığın, o cümlədən uşaq və yeniyetmələr üçün yaranan ədəbiyyatın uşaq psixologiyasına, düşüncəsinə təsirinə, yaş səviyyəsinə uyğunlaşdırılmasını zəruri hesab etmişdir. Şair həqiqi vətənpərvərliyi şüarçılıqdan, şablonçuluqdan və quru ritorikadan fərqləndirirdi. Halbuki 20-30-cu illərdə olduğu kimi, müharibə dövründə də sosialisit realizmi estetikası ədəbi prosesə ictimai-siyasi proseslərin bir hissəsi kimi baxır, ədəbiyyata, sənətə bədii estetik kamillik və gözəllik mövqeyindən deyil, sırf ideoloji mübarizələr prizmasından nəzər yetirirdi. Müharibə dövrü uşaq ədəbiyyatına verilən tələblər də istisna deyildi. S.Vurğun isə yaradıcı bir şəxsiyyət kimi, uşaq zehnini və fikrini həddən artıq ideoloji məsələlərlə yükləməyi qəbul etmirdi və qeyd edirdi ki, uşaqlar gənclik yaşına çatandan sonra özlərini bir vətəndaş kimi dərk edir, onlarda vətən, xalq məvhumu tədricən genişlənir.

Məqalənin üçüncü hissəsi uşaq ədəbiyyatında məslək, əqidə, məhəbbət məsələlərinə həsr olunub. S.Vurğun belə qənaətə gəlir ki, müasir ədəbiyyatın ən böyük nöqsanı məhəbbət kimi müqəddəs, bütün insanları düşündürən və yaşadan bir amil haqqında əsərlərin yaranmamasıdır. Ədib ədəbiyyatın əbədi mövzusu olan məhəbbət mövzusunu vətənpərvərlik və

qəhrəmanlıqla eyniləşdirir və deyir ki, «Eşq Fərhada dağ çapdırır» - deyən xalqımız eşqin qəhrəmanlıq fəlsəfəsini ifadə etmişdir [130].

Öz əsərlərində həmişə bədii kamilliyə, estetik gözəlliyə, dərin məzmuna və mündəricəyə diqqət yetirən S.Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" məqaləsində də milli ədəbi-tarixi prosesin təməl prinsiplərinə – vətənpərvərlik, humanizm, milli şüur məsələlərinə xüsusi fikir vermiş, uşaq ədəbiyyatının ekstremal şəraitdə — müharibə illərindəki metodoloji prinsiplərini müəyyənləşdirmişdir. Bütün hallarda S.Vurğun uşaq ədəbiyyatının bədii keyfiyyətinə, estetik tutumuna daha çox əhəmiyyət verirdi. Çünki bədii cəhətdən zəif olan, məzmun və formasına görə diqqəti cəlb etməyən əsərlər uşaq və yeniyetmələri maraqlandırmır, onların əvvəlki zövqünə təsir etmir. Odur ki, 40-cı illərdə ittifaq miqyasında bir çox tənqidçi və ədəbiyyatşünaslar bədii keyfiyyəti uşaq ədəbiyyatının əsas spesifasi kimi qəbul edir, digər ədəbi komponentlərini, ideya–poetik özünəməxsusluğunu, estetik konsepsiyanı inkar edirdilər. Mixail Soşşenko Leninqrad komsomolçularının 1940-cı ildəki çıxışında deyib: "Mən uşaq ədəbiyyatının spesifikası adlanan şeyi inkar edirəm. O yoxdur, və yaxud yox dərəcəsindədir. Daha doğrusu, bircə spesifikası var – yüksək keyfiyyət. Ədəbi əsərdə yüksək keyfiyyət isə - dilin, temanın kompozisiyanın yüksək keyfiyyətli olması deməkdir" [50].

Xalqımızın ağır sınaq qarşısında qalmasına, minlərlə vətəndaşımızın müharibədə iştirak etməsinə, maddi və mənəvi məhrumiyyətlərə məruz qalmasına baxmayaraq, həmin ağır dövrdə də ədəbi proses öz axarı ilə davam edir, vətənpərvərlik, igidlik ruhunda şeirlər qoşulur, nəsr əsərləri yazılır, dram əsərləri tamaşaya qoyulur, ədəbi mübahisə və müzakirələr aparılır, eyni zamanda ədəbi prosesi nizamlayan, ona yol göstərən ədəbi tənqidi məqalələr, resensiyalar, hətta yeni ədəbiyyat tarixləri meydana çıxırdı: "Müharibə dövrü Azərbaycan ədəbiyyatının müxtəlif məsələlərinə dair məqalələr, nəzəri cəlb edən ayrı-ayrı əsərlərə və teatr tamaşalarına dair resenziyalar ümumi ədəbi prosesin tərkib hissəsi kimi həmin ədəbiyyatın

özü ilə müvazi meydana gəlmişdir. M.Arif, H.Mehdi, M.Cəfər, M.Cəlal, Ə.Agayev, M.Rzaquluzadə, Ə.Şərif, C.Cəfərov, H.Orucəli, Ə.Mirəhmədovun və başqa tənqidçilərin 1941-1945–ci illərin dövrü mətbuatında dərc edilmiş bir sıra maraqlı, məzmunlu yazıları müharibə dövründəki ədəbi proses də müəyyən rol oynamaqla yanaşı, bu gün də tədqiqat üçün öz əhəmiyyətini saxlamaqdadır" [90, s.5].

İkinci Dünya Müharibəsi sona çatdıqdan sonra beynəlxalq miqyasda yeni ictimai – siyasi vəziyyət yarandı. Qalıb dövlət kimi Sovet İttifaqının siyasi nüfuzu ölçüyəgəlməz dərəcədə yüksəldi. Sosializm cəmiyyəti bir ölkə çərçivəsindən çıxaraq bir çox ölkədə vahid bir sistem təşkil etdi. Yeni ictimai – siyasi və tarixi şərait sovet hakimiyyətinə öz imperialist siyasətinə xidmət edən kommunist təbliğatını genişləndirməyə və dərinləşdirməyə imkan verdi. Şübhəsiz ki, bu yolda ədəbiyyat və incəsənətin əvəzsiz rolundan Marksist ideoloqlar faydalanmaq imkanından maksimum istifadə edirdi. Müharibədən dərhal sonra ittifaq hakimiyyəti əsas diqqəti təkcə tikinti-abadlıq, sosial-mədəni istiqamətə yönəltməklə kifayətlənmədi. Eyni səviyyədə, bəlkə bir qədər də artıq ideoloji mübarizəni gücləndirdi. İdeoloji sahələr üzərində partiya nəzarəti nəzərəçarpacaq dərəcədə sərtləşdirildi. Bir qədər dəqiq desək, 30-cu illər kütləvi qırğınlarından sonra müharibənin başlanması ilə səngiyən sinfi düşmən axtarışı, siyasi və ədəbi repressiyalar yenidən bərpa olundu. ÜİK(b)MK-nın «Zvezda» və «Leninqrad» məcmuələri haqqında 1946-cı il 14 avqust tarixli, «Dram teatrlarının repertuarı haqqında», «Böyük həyat kinofilmi haqqında» qərarları göstərdi ki, yaxın perespektivdə sovet yazıçılarını yaxşı heç nə gözləmir, ÜİK(b)MK-nın «Zvezda» və «Leninqrad» məcmuələri haqqında 1946-cı il 14 avqust tarixli qərarında göstərilirdi ki, məcmüələrin rəhbər işçiləri unutmuşlar ki, bizim məcmuələrimiz istər elmi olsun, istərsə də bədii olsun, siyasi həyatdan geridə qala bilməzlər. Onlar unutmuşlar ki, bizim nəsihətlərimiz sovet adamlarını və xüsusən gəncləri tərbiyə etmək işində sovet dövlətinin əlində qüdrətli bir vasitədir.

Partiya qərarından göründüyü kimi "Zvezda" və "Leninqrad" jurnalları bir də ona görə ciddi hücumlara məruz qalmışdı ki, «xüsusən gəncləri tərbiyə etmək işində» ki mövqeyi kommunist partiysının mövqeyi ilə üst-üstə düşmürdü. Sovet adamları sırasında gəncliyin tərbiyəsinin xüsusi vurğulanması yaxın gələcəkdə uşaq və gənclər arasında ideoloji-siyasi təbliğatın daha da gücləndiriləcəyindən xəbər verirdi.

"Dram teatrlarının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında" ÜİK (b) P Mərkəzi Komitənin qərarında teatrların repertuarları mövcud tələbata uyğun olmadığı üçün kəskin tənqid olunurdu. Partiyanın Mərkəzi Komitəsi sovet yazıçılarının müasir mövzuda yazdığı pyeslərini ölkənin ən böyük dram teatrlarından sıxışdırılb çıxarılmasını başlıca nöqsan kimi dəyərləndirmişdi. Qərarda bildirilirdi ki, bir çox dramaturqlar müasir həyat məsələlərindən kənarda qalırlar, xalqın həyatını və tələblərini bilmirlər, sovet adamının ən yaxşı sifətlərini və keyfiyyətlərini təsvir etməyi bacarmırlar. Bu dramaturqlar unudurlar ki, bizim teatr sovet quruluşunun, sovet dövlətinin siyasətini fəal surətdə təşviq edərsə, yalnız o zaman zəhmətkeşləri tərbiyə etmək işində öz mühüm rolunu yerinə yetirə bilər.

Yazıçılardan tələb olunurdu ki, dram əsərlərinin səhnəsinə partiya işçiləri, kolxozçular, fəhlələr, sənaye və kənd təssərrüfatına rəhbərlik edənlər çıxarılsın. Rus dramaturqu İ.Finkinin "Tələbələr" pyesi ona görə partiiyanın qəzəbinə gəlmişdi ki, əsərdə fakultə partiya təşkilatının katibi Zorinin surəti tamaşaçılarda nifrət hissi oyatmışdı. Tənqiddə qeyd olunurdu ki, yazıçı uşaq və gənclərin tərbiyə edilməsinin həqiqi vəzifələrini təhrif etmiş, tələbələri, komsomolçuları qeyri səmimi, xoşagəlməz adamlara çevirmişdir. Buradan belə nəticə çıxır ki, yazıçı öz əsərində hansısa bir partiya işçisinin mənfi obrazını yarada bilməz. Həyatı olduğu kimi, realistik üslubda təsvir etmək də totalitar nəzəri təfəkkürün estetik meyarlarına uyğun gəlmirdi.

Ümumittifaq səviyyəsində ədəbiyyatda, incəsənətdə ideoloji mübarizənin gücləndirilməsi, uşaq və gənclərin tərbiyəsində yeni prioritetlərin konkretləşdirilməsi ayrı-ayrı müttəfiq

respublikaların uşaq ədəbiyyatının yaradıcılıq perspektivlərinin müəyyənləşdirilməsinə, ədəbi prosesdə siyasi amillərin rolunun yüksəldilməsinə təkan verdi. 40-cı illərin sonu 50-ci illərin əvvəllərində Z.Kassilininin və Polyanovskinin "Kiçik oğul adına küçə", Kosmedemyanskayanın "Zoya və Şura haqqında" povestləri, U.Velyayevin "Dənizdə şəhər", S.Marşakın "Sülhün keşiyində" əsərləri yeni dövrün tələbləri səviyyəsində yazılan əsərlər idi. Sovet ədəbiyyatşünaslığı və ədəbi tənqidində həmin əsərlər sosialist gerçəkliklərini, sovet adamlarının əməyini, qəhrəmanlığını, komsomol və pioner təşkilatlarının işini dolğun, əhatəli əks etdirən uşaq ədəbiyyatı nümunələri kimi göstərilirdi.

Şübhəsiz ki, Azərbaycan ədəbiyyatında da bu tipli əsərlər yazılır, dövrün ədəbi tənqidi tərəfindən müsbət və yaxud mənfi tərəfləri işıqlandırılırdı. M. Dilbazinin "Mənim hədiyyəm", kitabı, S.Rəhmanın "Yoldaşlıq" hekayəsi, Q.Musayevin "Qara", "Mayisənin hədiyyəsi", "Poçtalyon" hekayəsi, M.Seyidzadənin "Firəngiz», "Qaranquşlar», «Kolxoz bağında» şeirləri, Əyyub Abbasovun "Sevinc" pyesi sovet yeniyetmələri və gənclərində yüksək ideyalılıq, bədii zövq yaratmaq məqsədinə istiqamətləndirilmişdir. Respublikamızda da milli uşaq ədəbiyyatını sovet ideologiyasının siyasi prinsipləri tələblərinə uyğunlaşdırmaq üçün müvafiq tədbirlər görüldü. Azərbaycan K(b)MK-nın "Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarında yazılmışdı: "Azərbaycan sovet ziyalıları ittifaqının rəyasət heyətinə bir vəzifə olaraq tapşırılsın ki, ittifaqın bütün bölmələrində: şer, dramaturgiya, tənqid və uşaq ədəbiyyatı bölmələrində işləri canlandırsın, onların fəaliyyətindəki kustarçılığı aradan qaldırsın, yeni əsərləri, yaradıcılıq məsəllərini yazıçıların tərbiyəsi və onların sənətkarlığının inkişaf etdirilməsi məsələlərini bölməmizin iclaslarında müzakirəyə qoysun, nöqsan və səhvləri prinsipial bolşevik tənqidi atəşnə tutsun» [5] «Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» Azərbaycan K (b)P MK-nın 1948-ci il qərarından sonra Azərbaycan Yazıçılar İttifaqında uşaq ədəbiyyatı bölməsi

yaradıldı. İttifaqın tənqid bölməsi uşaq ədəbiyyatına diqqəti artırdı. 1949-cu il iyunun 16-da Füzuli adına Ziyalılar Evində uşaq bədii ədəbiyyatı məsələsinə dair geniş müşavirə keçirilirdi.

Azərbaycan LKGİ MK-si Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı tərəfindən çağırılan yazıçıların, rəssamların müəllimlərin, bəstəkarların, mətbuat, poliqrafiya, sənayeçi və kitabxana işçilərinin, elmi işçilərin, ali məktəb tələbələrinin və məktəbli pionerlərin iştirakı ilə çağrılan bu müşavirədə partiya qərarından sonra ədəbiyyatda bir sıra yeni əsərlərin yaranması qeyd olunmuş, ədəbiyyatımızda sovet adamlarının qəhrəmanlığının, sosializm quruculuğunun pafosunun yaxşı göstərildiyi təqdirəlayiq hesab edilmişdir.

Bütün bunlarla yanaşı, müşavirədə bədii ədəbiyyatın müasirlərimizin, bugünki gəncliyin həyatını, dolğun obrazını yarada bilməməsi kəskin tənqid olunmuşdur: «Uşaq ədəbiyyatı sahəsində son illərdə yaradılmış əsərlər partiyamızın tələblərindən çox geridə qalır. Sovet məktəbinin qaynar həyatı, kommunist tərbiyəsi məsələləri uşaqlarımız üçün yaradılan əsərlərdə hələ yer tutmur. Uşaq və gənclər ədəbiyyatı sahəsindəki bu geriliyin əsas səbəbi odur ki, yazıçılarımız bu günkü həyatımızdan kənarda qalmışlar, onlar sovet gənclərinin böyük nailiyyətlərini və yüksək mənəvi tələblərini dərindən öyrənmirlər». (5)

Müşavirədə «Uşaq və gənclik ədəbiyyatı» nəşriyyatında olan çətinliklər də önə çəkilmiş, bu sahədəki müsbət irəliləyişlərlə yanaşı, konkret nöqsanlar da göstərilmiş, uşaq ədəbiyyatındakı, rəssam və poliqrafiya işlərindəki çatışmazlıqlar qeyd olunmuşdur. Müharibədən sonrakı uşaq əsərlərinin yaranması birbaşa MK-nın qərar və göstərişlərindəki siyasi-ideologi konsepsiya ilə bağlı idi. Bütün bunlar uşaq yazıçılarının sərbəst yaradıcılıq imkanlarını məhdudlaşdırır, istisnasız onların hamısı sosialist realizmin məhdud ədəbi qəlibində fəaliyyət göstərməyə məcbur edilirdilər. Məsələn, «Azərbaycan Sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» Azərbaycan K(b) P MK-nın qərarında qeyd olunurdu ki,

«Azərbaycan sovet ədəbiyyatının son illərdə geridə qalmasının səbəbi birinci növbədə odur ki, respublika yazıçılarının əksəriyyəti sovet adamlarının həyatından və mənəvi tələbatından uzaq düşmüşdü. Yazıçılar demək olar ki, mədən və zavodlara, kolxozlara və yeni tikintilərə getmirlər, canlı adamlarla görüşmürlər, onların məişətini, xasiyyətini, düşüncə və duyğularını öyrənmirlər. Bir çox yazıçıların fəhlə, kolxozçu və ziyalılar haqqında, bunların siyasi və mədəni inkişafı haqqında təsəvvürləri köhnəlmişdir [5].

İttifaqın hər yerində olduğu kimi, Azərbaycanda da uşaq və yeniyetmələrin ideoloji-siyasi cəhətdən formalaşmasına, kommunist tərbiyəsi ruhunda böyüməsinə diqqət artdı. Müharibə dövründə nəşrini müvəqqəti dayandıran «Pioner» jurnalı və «Azərbaycan pioneri» qəzeti yenidən öz fəaliyyətini davam etdirdi. Bir sıra şəhərlərdə xalq teatrları öz işinə başladı. Dinc quruculuq şəraitini lazımınca dəyərləndirən ədiblərimiz N.Gəncəvinin 800 illiyi ərəfəsində şairin «Xəmsə» sini Azərbaycan dilinə tərcümə etdilər. Həmin əsərin mövzusunda uşaq və yeniyetmələr üçün yeni əsərlər yarandı. 1951-ci ildə Azərbaycan Yazıçılar İttifaqında uşaq ədəbiyyatına dair keçirilən konfransda Azərbaycan uşaq ədəbiyyatının və nəzəri fikrinin növbəti onilliklərdə qarşısında duran vəzifələr, marksist ideologiyaya uyğun gəlməyən siyasi baxış və ədəbi mövqeyə qarşı mübarizə məsələləri geniş müzakirə olundu.

Totalitar təfəkkür sistemi bununla bədii yaradıcılığı bəsitləşdirir, bəşəri qayğıların, insani duyğu və qayğıların, qlobal miqyaslı mövzuların bədii düşüncəyə gətirilməsinə imkan vermirdi. Eyni ağrılı, həm də əzablı ədəbi proses uşaq və yeniyetmələr üçün ədəbiyyatda da özünü qabarıq göstərirdi. Böyüklər üçün yaranan ədəbiyyatla yanaşı, uşaq ədəbiyyatına da eyni tələblər qoyulur, sovet varlığından, əmək adamlarının gündəlik qayğılarından yazmaq tələb olunurdu: «Bədii ədəbiyyatımız bu günkü gənclərimizin həqiqi və dolğun obrazını hələ yarada bilməmişdir. Yazıçılarımız uşaqlar üçün əmək qəhrəmanları haqqında, staxanovçular, kolxozçular haqqında hələ az yazmışlar. Uşaq ədəbiyyatımızda sovet müəllimi sürəti, uşaq-

ların böyük yoldaşı, təşkilatçısı və mürəbbisi olan pioner rəhbəri surəti hələ də zəif göstərilmişdir" [125].

1949-cu ildə Azərbaycan LKGİ – Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı tərəfindən keçirilən müşavirədə də bu barədə ətraflı danışılmış, uşaq yazıçılarına, Uşaq Ədəbiyyatı Nəşriyyatına, uşaq mətbuatı orqanlarına və Azərbaycan Sovet Yazıçıları İttifaqı yanındakı Uşaq Ədəbiyyatı Bölməsinə uşaq ədəbiyyatını kommunist dünyagörüşünün, marksist-leninçi estetikanın tələblərinə uyğunlaşdırmaq, yeni sosialist gerçəkliklərini əks etdirmək bir vəzifə olaraq tapşırılmışdı.

Böyük Vətən Müharibəsindəki qalibiyyətdən sonra dünya miqyasında inzibati –coğrafi dəyişikliklər baş verdi. Kommunizm ideologiyası bir ölkə çərçivəsindən çıxaraq bir çox Avropa ölkələrində rəsmi dövlət ideologiyasına çevrildi. Qələbədən ruhlanan Mərkəzi Komitənin ideoloqları, marksist estetiklər sənət və ədəbiyyatın daha dar çərçivəyə salınması, azadfikirliliyin boğulması, demokratik dəyərlərin və texnologiyaların sıradan çıxarılması üçün kompleks tədbirlər planı həyata keçirməyə başladılar ki, bu cəhətdən ÜİK (b) P MK-nın " Sovet teatrlarının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında" kı 26 avqust 1946-cı il tarixli qərarı haqqında ayrıca danışmağa ehtiyac var. Şübhəsiz ki, qərar sovet ədəbiyyatını dar bir çərçivəyə salmaq üçün fövqəladə bir tədbir idi. Bu partiya qərarı 40-cı illərin sonu 50-ci illərdə ədəbiyyat və incəsənətin bir çox sahələri kimi, uşaq ədəbiyyatı və onun nəzəri dərkinin də qarşısına ciddi maneələr qoymuşdu. Qərarda deyilirdi ki, bir çox dramaturqlar həyatın əsas məsələlərindən kənarda qalırlar, xalqın həyatını və tələblərini bilmir, sovet adamının ən yaxşı sifətlərini və keyfiyyətlərini təsvir etməyi bacarmırlar. Bu dramaturqlar unudurlar ki, sovet teatrı sovet quruluşunun həyati mənası olan sovet dövlətinin siyasətini fəal surətdə təşviq edərsə yalnız o zaman zəhmətkeşləri tərbiyə etmək işində öz mühüm rolunu yerinə yetirə bilər.

Göründüyü kimi, partiyanın mərkəzi komitəsi öz qərarı ilə ədəbiyyat və incəsənəti rəsmi şəkildə siyasi mübarizəyə, ideoloji cəbhəyə istiqamətləndirirdi. Həmin tələblər böyüklər üçün

yazılan əsərlərlə yanaşı, uşaq dramları üçün də prioritet hesab olunurdu. Bu qaydaların, rəsmi bədii reseptlərin izləri və təsirlərini rus yazıçısı S.Mixalkovun "Qırmızı qalstuk" və "Mən evə getmək istəyirəm", V.Lyubimovun Amerikada məktəb şagirdləri arasında irqi bərabərsizlik məsələsinə həsr olunan "Aybəniz", S.Sqokun "Mayın əvvəllərində" və "Qastello", A.Bartonun "Bizdə imtahandır", türkmən dramaturqu H.Muxtarovun "Allanın ailəsi", qazax dramaturqu A.Abışevin "Vahid ailə" dramlarında daha aydın şəkildə görürük.

Azərbaycan uşaq teatrları da partiyanın müvafiq qərarından sonra fəallığını artırmış, bu kontekstdə yeni uşaq teatr tamaşalarımız öz səhnə təcəssümünü tapmışdı. H. Mehdinin "Qardaşlar", Ə.Məmmədxanlının "Azərin səsi", Z.Xəlilin "Səadət çeşməsi", İ.Əfəndiyevin " Qızıl Şəfəq" dram əsərlərini o vaxt teatr tənqidimiz belə qiymətləndirirdi: "Qəhrəman sovet adamlarının əməyə şüurlu münasibətini, vətənə, xalqa, bolşeviklər partiyasına və qələbələrimizin təşkilatçısı Stalin yoldaşa məhəbbətini, öz xoşbəxt gələcəyi uğrunda dönmədən mübarizə aparan azadlıq sevən insanların qəhrəmanlığını tərənnüm edən bu əsərlərin yüksək keyfiyyətli olması üçün müəlliflər teatr ilə sıx yaradıcılıq əlaqələri saxlayırlar" [116].

50-ci illərdə İttifaq miqyasında uşaq ədəbiyyatının metodoloji, ideya-məzmun, bədii forma cəhətdən mövcud estetik qəliblərə salınması üçün kompleks təşkilati –inzibati tədbirlər həyata keçirildi. Həmin ildə keçirilən Sovet Yazıçıları İdarə Heyətinin XIII plenumu müttəfiq respublikalarda uşaq ədəbiyyatının vəziyyətini tənqidi cəhətdən yenidən nəzərdən keçirdi, yaxın illərdə inkişaf perespektivlərini, ədəbi-tarixi missiyasını müəyyənləşdirdi. Plenumda uşaq ədəbiyyatının inkişaf etdirilməsi yolunda maraqlı, faydalı mübahisələr, diskussiyalar aparıldı. Təcrübəli yazıçıları uşaq ədəbiyyatına cəlb etmək, gənc ədəbi qüvvələrin yetişməsi üçün lazımi qayğı göstərmək, yeni yaranan əsərlərə vaxtında və obyektiv qiymət vermək kimi mühüm məsələlər Sovet Yazıçılar İttifaqının başlıca vəzifələri kimi dəyərləndirildi.Qeyd edildi ki, sovet uşaq ədəbiyyatında uşaqların bədii zövqü, arzuları, tələbləri öz əksini tap-

malı, elmi-kütləvi, elmi-publisistik və macəra ədəbiyyatı janrında yeni əsərlər meydana çıxmalıdır.

Sovet Yazıçılar İttifaqının məlum plenimu göstərdi ki, növbəti onillikdə də sovet estetikası uşaq və gənclər ədəbiyyatında totalitar təfəkkürün möhkəmlənməsinə, siyasi –ideoloji amillərə daha çox diqqət yetirəcək: "Lenin-Stalinin böyük ideyalarını əks etdirən, ideya və bədii cəhətdən dolğun kitablar, aydın fikirli və saf ürəkli ideyalı, mətin, nəcib sovet adamlarının –kommunizm cəmiyyəti qurucularının tərbiyə edilməsinə kömək edən kitablar verək" [116]. Eyni siyasi ambisiya, ideoloji qat K.Simonovun plenumdakı çıxışında da öz əksini tapmışdı. O deyirdi ki, bizim bütün ədəbiyyatımıza yeganə bir meyar ilə yanaşmaq lazımdır. Bu da ədəbiyyatımızın kommunizm qurmağa, kommunizm quranların tərbiyə olunmasına necə kömək etməkdən ibarətdir. Şübhəsiz ki, sovet adamlarının, kommunizm cəmiyyəti qurucularının tərbiyə edilməsi məsələsi 50-ci illərin Azərbaycan uşaq ədəbiyyatı və onun nəzəriyyəsinin də başlıca qayğısına çevrilmişdi.

Ədəbi-tarixi prosesin bütövlükdə kommunizm quruculuğu işinə yönəldilməsi yolunda milli ədəbi tənqidin qarşısına çox ağır, məsuliyyətli, sırf siyasi amillərə söykənən vəzifələr qoyulmuşdu. M.C.Bağırov "Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında"kı məruzəsində Azərbaycan ədəbi tənqidinin vəziyyətini belə qiymətləndirmişdi: "Ədəbiyyat və incəsənətimizin geriliyinə başlıca olaraq ədəbi tənqid müqəssirdir, bizdə isə, demək olar ki, tənqid yoxdur [2]. Azərbaycan kommunistləri rəhbərinin bu çıxışından sonra ədəbi tənqidimiz uşaq ədəbiyyatında forma, üslub və janr problemlərindən daha çox kommunist ideologiyası təbliğatına önəm verməyə başladı; ədəbi fikirdə siyasi meyarlar ədəbi meyarları üstələdi. Uşaq ədəbiyyatı tənqidçiləri yeri gəldi-gəlmədi haqsız hücumlarla qarşılandılar: "Görkəmli tənqidçilərimiz və yazıçılarımız uşaq ədəbiyyatı ilə məşğul olmamış, bu mühüm sahəni demək olar ki, tamamilə unutmuşlar" [35].

Bəllidir ki, dövrü mətbuatda mövcud uşaq ədəbiyyatı və nəzəriyyəsi haqqındakı kəskin tənqidlər obyektiv reallığa söy-

kənmirdi. Ədalət naminə deməliyik ki, 50-ci illərdə Gənclər Teatrında uşaq əsərləri tamaşaya qoyulur, bu haqda qəzetlərdə maraqlı resenziyalar dərc olunur, dərin məzmunlu uşaq şerləri, hekayələri yazılırdı; Q.Musayev, M.Rzaquluzadə, S.Rəhman, İ.Əfəndiyev, Ə.Babayevanın bir-birindən maraqlı uşaq şeirləri və hekayələri işıq üzü görürdü. Lakin sosialist realizmin siyasiləşən ədəbi qəlibləri və standartları, sxematizmə, şüarçılığa, formalizmə aparıb çıxaran ədəbi-nəzəri ştampları uşaq ədəbiyyatının ədəbi prosesdə fəal mövqeyinə kölgə salırdı. Sovet ideoloqları iddia edirdilər ki, uşaq sənətkarları daim uşaq bağçalarında, internatlarda, təhsil müəssisələrində , kolxozlarda, əmək kollektivlərində olmalı, uşaq və gənclərimizin kommunizm düşərgəsində necə xoşbəxt olduğunu görməli, şən, nikbin, yüksək əhvali-ruhiyyəli uşaq və yeniyetmələrimizin gündəlik həyatını, qayğılarını qələmə almalıdırlar. "Pravda" qəzetində çap olunan "Aydın sahil" adlı məqalədə rus yazıçısı U.Panona ona görə tənqid olunurdu ki, o gərək bir yox, bir neçə fermada olaydı.

Təbii ki, bu cür absurd tələblər Azərbaycan uşaq ədəbiyyatının da qarşısına qoyulurdu. 50-ci illərdə M.Dilbazi "Balaca nümayəndə" adlı poema yazmışdı. Poemada dərin hiss və həyəcan, vətənpərvərlik, emosional ovqat dərhal özünü göstərirdi. Poema ədəbi tənqid tərəfindən ona görə etirazla qarşılanmışdı ki, güya yazıçı uşaqların həyatı ilə yaxşı tanış olmamış, hər saatlıq və hər günkü iş öyrənilməmiş, dərin ümumiləşdirmələr aparılmamışdır [35].

Hətta böyük yaradıcılıq yolu keçən, sənət baxışları və ədəbi zövqü çoxdan formalaşan A.Şaiq kimi qocaman sənətkarlar da bu cür əsassız tənqidlərdən, sosioloji ədəbi yarliqlardan kənarda qalmırdı. Ədibin "Şerlər və nağıllar" kitabındakı "Ana yurdum", "Vətən", "Dənizçi nəğməsi" kimi şeirləri tənqid tərəfindən birmənalı qarşılanmırdı. Əslində A.Şaiqin bu şeirləri uşaqların bilik və yaş səviyyəsinə uyğun olmaqla yanaşı, milli şüur, milli ruh baxımından da diqqəti cəlb edir, onların estetik duyğularını cilalayırdı.

Əvvəlki onilliklərdə, əsasən də 40-cı illərdə Azərbaycan uşaq ədəbiyyatında kiçik lirik şerlər, vətənpərvərlik və qəhrəmanlıq tərənnüm edən poemalar daha çox yaranırdısa, 50-ci illərdə dövrün siyasi və ədəbi sifarişi nəsr əsərlərinin yaranmasına yönəlmişdi. Ədəbiyyatın bütün sahələrində totalitar təfəkkürə meyl açıq-aşkar hiss olunurdu. Sovet yazıçılarından proletariatın liderləri Lenin və Stalinin parlaq obrazını yaratmaq, daha çox örnək kimi gənclərə, yeniyetmələrə bunu aşılamaq tələb olunurdu. Beləliklə, ölkədə tüğyan edən şəxsiyyətə pərəstiş uşaq ədəbiyyatında da özünü göstərməyə başlamışdı. M.Qorki R.Rollana yazdığı məktubunda Bethovenin tərcümeyi-halını yazmasını xahiş edərək demişdi ki, mən istərdim ən yaxşı müasir yazıçıların köməyi ilə uşaqlar üçün bütün dünyanın böyük adamlarının tərcümeyi-halından ibarət bir sıra kitablar yaradaq, onların yadına salaq ki, bütün xalqların böyük adamları nəcib ürəkli adamlar olmuşdur və indi də var.

Bəllidir ki, poetik təfəkkürlə yanaşı nəsr təfəkkürünə də diqqətin yönəldilməsi təkcə kommunizm ideoloqlarının bədii obrazının uşaq ədəbiyyatına gətirilməsi ilə məhdudlaşmırdı. Azərbaycanın görkəmli ədəbi şəxsiyyətlərinin bədii obrazı da yaradılır, onların nümunəvi həyatı, xalqın milli şüurunun oyanmasındakı xidmətləri də önə çəkilirdi. H.Mehdinin M.Ə.Sabirin həyatına həsr etdiyi "Hop-hop" hekayəsi, Qılman Musayevin N.Vəzirovun uşaqlıq həyatından bəhs edən "Həyat yollarında" povesti bu cür əsərlərdən idi. Kommunizm qurucularının işinin, əməlinin əhəmiyyətini, miqyasını gənc oxuculara çatdırmaq, kommunist şüuru, sosialist vətənpərvərliyi hissi oyatmaq və vahid sosialist düşərgəsindəki birgəyaşayış qaydalarını onların yaddaşına və beyninə yeritmək üçün böyük həcmli romanlara, povestlərə ehtiyac hiss olunurdu ki, 50-ci illərin partiya qərarlarında, müşavirələrində bu məsələ dəfələrlə vurğulanırdı: "Məktəb və məktəblilərin həyatından bəhs edən böyük həcmli əsərlər də çox azdır. Yalnız böyük hekayələr, şeirlər orta məktəb şagirdlərini təmin edə bilməz. Onları ən çox mürəkkəb, ziddiyətli hadisələr, maraqlı əhvalat-

lar cəlb edir. Buna görə də orta yaşlı uşaqlar üçün romanlar, povestlər, poemalar tələb olunur"[74].

Həmin dövrdə yazılan S.Rəhimovun "Ata və oğul" povestində, Yusif Şirvanın "Qaranquş", "Quzu", Mikayıl Rzaquluzadənin "Qurdqıran" hekayələrində və başqa nəsr əsərlərində uşaq ədəbiyyatında nəsr təfəkkürünün formalaşması və aparıcı mövqe qazanması özünü göstərirdi. Yazıçılarımız uşaqların bədii zövqünün yaranması amilini əsas götürərək, yeni yazdıqları hekayə və povestlərində geniş, diqqəti cəlb edən təbiət təsvirləri verir və vətənin hər qarış torpağının, daşının, gülünün, çiçəyinin bədii peysajını yaradır, gənclərdə vətən sevgisi, torpaq məhəbbəti duyğularını gücləndirirdilər.

İlyas Əfəndiyev, Mircəlal Paşayev, Xalidə Hasilova, Ələviyyə Babayeva, Hüseyn Abbaszadənin ədəbi fəaliyyəti göstərirdi ki, yaxın onilliklərdə milli uşaq nəsrimiz öz nailiyyətləri ilə balaca yaşlı uşaqlarımızı sevindirəcək, onların bədii yaddaşının yaranması və formalaşmasını təmin edəcəkdir. Təsadüfi deyil ki, Sovet Yazıçılar İttifaqının 1949-cu il XIII plenumunda uşaq ədəbiyyatı üzrə mübahisələrdə məktəb povesti və romanının azlığı məsələsi müzakirə olunmuş, bu cür əsərlərin məktəblilərin şüur və psixologiyasına, vətənpərvərlik tərbiyəsinə, əməyə kommunist münasibəti hissinin formalaşmasına müsbət təsir edəcəyi əsaslandırılmışdı.

Şübhəsiz ki, bütün bunlar o dövrün tənqid və ədəbiyyatşünaslığının nəzərindən qaçmır, mövcud ədəbi prosesdəki tendensiya və təmayüllər izlənilir, layiqincə qiymətləndirilir,uşaq ədəbiyyatının nisbətən cavan sahəsi lazımınca diqqət mərkəzinə çəkilirdi. MK-nın, eləcə də Yazıçılar İttifaqının müxtəlif orqanlarında balacalar üçün yeni əsərlər çap edən Azərbaycan Uşaq və Ğənclər Ədəbiyyatı Nəşriyyatına müəyyən sifarişlər verilir, kiçik, xüsusən məktəb yaşına çatmayan uşaqlar üçün nəsr əsərlərinin yaradılması zərurəti dəfələrlə qeyd olunur, uşaq yazıçılarının nəşriyyata cəlb edilməsi vacib bilinirdi: "Sovet məktəblərinin həyatından, pioner təşkilatının işindən bəhs edən hekayə və povestlərin yaradılması üçün əldə olan imkanlardan lazımınca istifadə edilmir. Uşaq ədəbiyyatı sahəsində

çalışan yazıçılarımız nəşriyyat ətrafına yaxşı cəlb olunmamışlar" [118].

Əvvəlki onilliklərdə yaranan bir sıra uşaq əsərlərində ritorika, təsvirçilik, sxematizm, ifrat ideoloji təbliğat uşaq və yeniyetmələrin o qədər də diqqətini cəlb etmir,onların bədii əsərlərə olan maraq və rəğbətini azaldırdı. Odur ki, 50-ci illərdə bu məsələ yenidən gündəmə gəldi. Uşaq ədəbiyyatı haqqındakı tənqidi məqalələrdə, yeni yazılan resenziyalarda siyasi-ideoloji təbliğatla yanaşı, uşaqların bədii hissinin gücləndirilməsi, estetik zövqünün formalaşdırılması məsələsi də prioritet məsələ kimi qarşıya qoyuldu.

Azərbaycan K (b)P MK-nin "Uşaqların bədii tərbiyəsinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında"kı qərarı da məhz bu məqsədlə verilmişdi. Qərarda deyilirdi ki, Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsinə, Respublika Yazıçılar İttifaqına və Bəstəkarlar İttifaqına bir vəzifə olaraq tapşırılsın; uşaqlara aid bütün repertuarları yaxın zamanlarda nəzərdən keçirsinlər, sovet gənclərində və sovet uşaqlarında yüksək ideya, bədii zövq tərbiyələndirmək vəzifələrinə uyğun gələn mahnılar, şerlər və hekayələr məcmuələri, habelə musiqi əsərləri və ədəbi əsərlər yaratsınlar. Göründüyü kimi, 50-ci illərin partiya qərarlarında ideoloji təbliğatla uşaqların bədii zövqünün formalaşdırılması prosesi müvafiq şəkildə aprılır, ədəbi prosesdə bədii keyfiyyətin müxtəlif komponentlərinə diqqət yetirmək dövrün, zamanın diqtəsi kimi dərk olunurdu.

50-ci illərdə elmi-nəzəri fikrimizdə uşaq ədəbiyyatının öyrənilməsi istiqamətində bir sıra kanseptual məsələləri, nəzəritarixi və ədəbi təcrübənin konkret zaman kəsiyindəki vəziyyətini üzə çıxarmaq, sistemləşdirmək üçün Azərbaycan Sovet Yazıçılarının 1954-cü il aprel-may aylarında çağrılan II qurultayının mövzu ilə bağlı qaldırdığı problemləri, tarixi qərarlarını və ədəbi təcrübədə bütün bunların necə həyata keçirilməsini izləməyə ehtiyac var.

Bunu da qeyd edək ki, hələ 1954-cü ilin noyabrında keçirilən Sovet Yazıçılarının II Ümumittifaq qurultayının gündəli-

yindəki məsələlərdən biri də "Uşaq və gənclər üçün sovet ədəbiyyatı" məsələsi idi. Stalinin vəfatından sonra keçirilən bu qurultayda hiss olunurdu ki, növbəti illərdə siyasi rejimdə müəyyən demokratik islahatlar, azad fikirliliyə meyl özünü göstərəcək və bu prosesdə sovet ideoloqları ədəbiyyat və incəsənətin mövcud imkanlarından müəyyən dərəcədə istifadə edəcəkdir. Sözsüz ki, Sovet yazıçılarının II qurultayında da uşaq ədəbiyyatı problemi kommunist ideologiyasının, həmin cəmiyyətdə yaşayacaq insanların yetişdirilməsinin tərkib hissəsi kimi dərk olunurdu: "Uşaq ədəbiyyatında yaranan əsərlərdən çoxu fikirdən məhrum olan idilliya ilə dolu olur, bu əsərlərdə yeni insan tərbiyə etmək vəzifələri çox böyük pedaqoji təlimatla və öyüd-nəsihətlə mexaniki surətdə əvəz edilir" [74].

Azərbaycan Sovet Yazıçılarının II qurultayında " Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onun qarşısında duran vəzifələr" mövzusunda çıxış edən ASYİ-nın sədri Süleyman Rəhimov ədəbiyyatımızın bir sıra problemləri ilə yanaşı, uşaq ədəbiyyatı mövzusuna da toxunub və qeyd edib ki, bizim uşaq ədəbiyyatı, şeir, nəsr və dramaturqiyaya nisbətən çox cavandır. Uşaq və gənclər üçün ədəbiyyat çap edən nəşriyyatımız var. Nəşriyyatın ətrafına uşaq yazıçıları toplaşıb. S.Rəhimov bu sırada A.Şaiqin "Xasay", "Qoçpolad", "Kərim baba", "Tülkü həccə gedir", M.Dilbazinin "Nağıllar", "Mənim hədiyyəm", "Balaca nümayəndə", M.Seyidzadənin "Nərgiz", "Maral" əsərlərini, Ə.Abbasovun "Məlikməmməd", "Bahar nəğməsi" pyeslərini xüsusilə fərqləndirib, Xalidə Hasilovanın, Ələviyyə Babayevanın, Zeynal Cabbarzadənin, Hüseyn Abbaszadənin yeni əsərlərini Azərbaycan uşaq ədəbiyyatının ən yaxşı nümunələri kimi təqdim edib.

Qurultayda "Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti" haqqında yazıçı Qılman Musayevin də məruzəsi dinlənilib. O çıxışında deyib ki, I qurultaydan keçən müddət ərzində uşaq ədəbiyyatı sırasına yeni-yeni yazıçılar gəlmiş, onlar ədəbiyyatımıza yeni məzmun, yeni forma və yeni mövzular gətirmişlər. Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı qısa müddətdə uşaqlarımız üçün yüz min nüsxələrlə bədii və elmi-po-

pulyar kitablar, Azərbaycan yazıçılarının əsərləri ilə yanaşı, klassik rus yazıçılarının və sovet yazıçılarnın əsərlərini də nəşr edərək oxuculara çatdırmışdır.

Qılman Musayev uşaq ədəbiyyatındakı nöqsanlardan bəhs edərək göstərmişdir ki, Azərbaycan uşaq və gənclər ədəbiyyatı müasir həyatımızın tələblərindən hələ çox geridə qalır. Uşaq və gənclər ədəbiyyatı sahəsində ən böyük nöqsan yumor və satiranın yoxluğudur. Komsomolun XII qurultayında bu məsələ haqlı olaraq qaldırılmışdır. Uşaqlar müsbət qəhrəmanlardan başqa sinifdə və məktəbdən xaricdə gördükləri nadinc, tənbəl və qorxaq uşaqların surətini görmək istəyirlər. Yazıçıların II qurultayında Azərbaycan uşaq ədəbiyyatının mühüm bir sahəsi olan dramaturqiya məsələlərinə də toxunulmuş, Zeynal Xəlilin "Gənc ustalar" əsəri istisna olmaqla, M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində müasir mövzuda səhnəyə çıxarılası ikinci bir əsərin olmaması kəskin tənqid olunmuşdur [6].

Azərbaycan Sovet Yazıçılar İttifaqının II qurultayının qərarlarında da milli uşaq ədəbiyyatı və onun nəzəriyyəsi ilə bağlı məsələlərə xüsusi yer verilmişdir. Qərarlarda yazılıb ki, qurultay ədəbiyyatın bütün sahələrində – nəsrdə, poeziyada, dramaturgiyada, uşaq ədəbiyatında qabaqcıl ideyalar mövqeyindən keçmişin qalıqlarını ifşa etməyə istiqamətləndirilən xudpəsəndlər, mənsəbpərəstlər, bürokratlar, mənəvi cəhətcə pozulan, əsl- nəcabətini itirən adamlar əleyhinə çevrilən satira və yumoru hərtərəfli inkişaf etdirməyi vacib vəzifə hesab edir. Qurultayın qərarlarında uşaq ədəbiyyatındakı bir sıra nəzərəçarpan nöqsanlardan – didaktikanın hələ də aparıcı mövqeyindən təəssüf hissi bildirilmiş, canlı müşahidələrin bəzən quru sxemalarla əvəz olunması başlıca nöqsan hesab edilmişdir.

Onu da qeyd edək ki, Yazıçılarının II qurultayında Azərbaycan Sovet Yazıçılar İttifaqının təşkilati işini yaxşılaşdırmağın yolları da göstərilmişdir. Qeyd olunmuşdur ki, Yazıçılar İttifaqı bütün ədəbi qüvvələri özündə birləşdirən yaradıcılıq mərkəzinə çevrilməlidir. İttifaqın orqanı olan «Azərbaycan», «Literaturnıy Azerbaydjan» jurnalları, "Ədəbiyyat və incəsə-

nət" qəzeti uşaq və gənclərin tərbiyə edilməsində, onların bədii zövqünün yaxşılaşdırılmasında mühüm rol oynamalıdır. Respublikada bədii ədəbiyyat çap edən xüsusi nəşriyyatın yaradılması vacib hesab olunmuşdur. Respublika uşaq və gənclər nəşriyyatının işini yaxşılaşdırmaq haqqında da xüsusi tədbirlər planı nəzərdə tutulmuşdur.

Böyük Vətən Müharibəsindən sonra dünyanın iki qütbə - sosializm və kapitalizmə bölünməsi nəticəsində siyasi sistemlər və təsisatlar arasında ideoloji mübarizə getdikcə kəskinləşməyə başladı. Bəllidir ki, sovet ədəbiyyatının müstəqil bir qolu hesab edilən uşaq ədəbiyyatı da bu mübarizələrdən kənarda deyildi. Sovet uşaq yazıçısı Arkadi Qaydar sovet uşaqlarını nəinki kapitalizmin qara qüvvələri ilə mübarizə aparmaq üçün hazırlaşan, habelə bu mübarizədə fəal iştirak edən tamhüquqlu vətəndaşlar hesab edirdi. Onun əsərlərinin sovet ideoloqları, habelə sovet elmi-nəzəri fikri tərəfindən müsbət qarşılanması bununla əlaqədar idi. Partiyanının «Zvezda» və «Leninqrad» jurnalları haqqında", "Dram teatrının repertuarı haqqında", «Böyük dostluq» kinofilmi haqqında", "Novıy mir jurnalı haqqında" qərarlarında da sovet ideologiyasına düşmən olan burjua ideologiyası kəskin bolşevik tənqidinə məruz qalmışdı.

Rus yazıçısı Aleksandr Çaykovski "Bizdə artıq səhərdir" kitabını, məşhur ukrayna uşaq yazıçısı N.Zabilla "İki kiçik qız" poemasını sovet dövlət quruluşunun kapitalist dövlət quruluşundan üstün olması kimi o dövr üçün mühüm olan bir mövzuya həsr etmişdi. Təbii ki, sovet ittifaqının tərkibində olan bir respublika kimi Azərbaycanda da ədəbiyyat və incəsənət ideoloji mübarizələr cəbhəsinə yönəldilir, ədəbi prosesi istiqamətləndirən milli ədəbi tənqid mövcud ideya-siyasi mübarizələrin koordinatoru rolunda çıxış edirdi: "Azərbaycan sovet ədəbiyyatı həmişə böyük partiyamızın, dahi Lenin və Stalinin çağırışlarına səs verərək, mübarizənin qabaq cərgəsində durmuşdur. O kommunizm ideyalarından ilham alaraq xalqımızın gündəlik mübarizəsinə kömək etmiş, ideya düşmənlərimiz və birinci növbədə burjua millətçiləri ilə mübarizədə öz möhkəm prisiplərini - sosialist realizmi prinsiplərini yaratmışdır" [55].

Eyni zamanda 40-50-ci illərdə Azərbaycan uşaq ədəbiyyatı və ədəbi tənqidi ideoloji prinsiplər çərçivəsinə salınır, ideya - estetik tələbata cavab verməyən əsərlər və onların müəllifləri ciddi tənqidlərə məruz qalırdı: "Əlaqədar təşkilatlar və birinci növbədə Azərbaycan Sovet Yazıçıları İttifaqı uşaq ədəbiyyatının ideoloji və bədii səviyyəsinin yüksəlməsinə xüsusi diqqət yetirməlidir. Mətbuat və tənqidimiz də bu cəhətdən üzərinə düşən şərəfli vəzifəni ödəməyə çalışmalıdır" [50].

Sovet ədəbiyyatı və elmi-nəzəri fikrində sosialist realizminin problematik məsələləri ətrafında mübarizədən sonrakı onilliklərdə çox ciddi elmi diskusiyalar, mübahisələr aparılır, buraxılan səhvlər, nöqsanlar araşdırılır, marksist sənət metodologiyasından doğan nəzəri-estetik qüsurlar təhlil olunurdu. Partiyanın ədəbiyyat haqqında məlum qərarlarından sonra ədəbiyyat və incəsənətin müxtəlif sahələrində demokratik dəyərlərə, azad fikirliliyə söykənən bədii estetik təfəkkürə total hücumlar başlandı, 30-cu illərdə olduğu kimi yeni sinfi düşmən axtarışına başlandı ki, bu prosesdə bədii düşüncə sahibləri ilə yanaşı, ədəbi tənqid və ədəbiyyatşünaslığımız da əsassız böhtan, qərəzli siyasi münasibətlərlə qarşılaşdı. M.C.Bağırov "Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında" kı məruzəsində tənqidimizin ümumi vəziyyətini belə qiymətləndirdi: "Ədəbi tənqidimiz ona görə müqəssirdir ki, o Mərkəzi Komitənin ədəbiyyat haqqındakı göstərişlərindən lazımi nəticə çıxarmamış və ədəbiyyat işi ilə məşğul olmamış, partiyamızın göstərdiyi nöqsanları aradan qaldırmaq uğrunda fəal mübarizə aparmamışdır" [2].

İttifaq miqyasında ideya-siyasi düşmən axtarışı bizim respublikadan da yan keçmədi. Süleyman Rəhimov, Mir Cəlal, Mehdi Hüseyn, Sabit Rəhman kimi görkəmli sənətkarlarımız sovet həyatını və həqiqətini təhrif etməkdə, həyatımızın qalib gələn tendensiyalarnı, yəni onun müsbət cəhətlərini nəzərə almadan mənfiliklərə məftun olmaqla ittiham olundular. Ədəbiyyat tənqidçilərindən M.Rəfili, M.Hüseyn, M.Arif, C.Cəfərov Azərbaycan sovet ədəbiyyatının əsas xüsusiyyətlərini, onun sovet varlığı ilə əlaqəsini, partiyalılığını, xəlqiliyini zəif-

lətməyə çalışmaqda, kosmopolitizm təbliğ etməkdə suçlandılar.

Beləliklə, ədəbiyyat və incəsənətdə məfkurə məsələləri ətrafındakı diskussiyalardan sonra ədəbiyyatda Lenin partiyalılığı gücləndirildi. Umumsovet ədəbiyyatına daxil olan Azərbaycan ədəbiyyatına da bütün bunlar təsirsiz qalmadı. Uşaq yazıçılarımız mənfilikləri bir kənara qoyaraq, həyatı rəngləməyə, onu mübarizə və inkişaf prosesindən qoparmağa başladılar. Nəticədə milli ədəbi prosesin başqa sahələri ilə yanaşı uşaq ədəbiyyatında da konfliktsizlik nəzəriyyəsi özünü biruzə verməyə başladı. Yeni uşaq dramları, povestləri və romanlarında əsas mübarizə yaxşı ilə ən yaxşı arasında aparıldı, kəskin sujetli bədii kolliziyalı əsərlərin sayı getdikcə azaldı. Marksist estetikadakı qeyri-müəyyənlik, estetik qüsurlar, tarixi metodoloji səhvlər bədii düşüncədə ciddi nöqsanlarla müşayiət olunurdu.

V FƏSİL

UŞAQ ƏDƏBİYYATINDA YENİ İNSAN AMİLİ

Hansı cəmiyyətdə, harada yaranmasından asılı olmayaraq bədii təfəkkürün əsas problemi insan, onun mənəvi aləmi, daxili təkamülüdür. Qədim türk mifik təfəkküründə, antik Yunan və Roma ədəbiyyatında müxtəlif nəzəriyyələr, fəlsəfi və bədii sistemlər insanı öyrənməyə və onun əxlaqını yaxşılaşdırmağa yönəldilmişdi. Bütün bunlara görə M.Qorki yazıçını insan qəlbinin mühəndisi, ədəbiyyatı isə insanşünaslıq adlandırırdı. Ortaq türk abidələri olan "Bilqamış", "Gültəkin", "Kitabi Dədə Qorqud" dastanlarından üzübəri ən yeni dövr ədəbiyyatımıza qədər insan amili həmişə bədii fikrimizin diqqət mərkəzində dayanmışdır. İnsan və onun daxili təkamülü, mənəvi aləmi, düşüncələri həmişə bədii təfəkkürün inkişaf qaynağı olmuşdur. Bədii yaradıcılıqda insan konsepsiyası mürəkkəb, fəlsəfi anlayışdır. Tarixi şəraitə uyğun olaraq şəxsiyyətin daxili aləmi, fərdi düşüncəsi dəyişdiyi kimi, ideologiyaların bir-birini əvəz etdiyi şəraitdə də ədəbiyyatda insan konsepsiyasına münasibət dəyişir, yeni ideoloji-siyasi, məfkurəvi aspektlər kəsb edir.

Ədəbiyyat və incəsənətin əsas vəzifəsi insanın mahiyyətini, mənəvi-psixoloji məqamlarını, ictimai varlıq kimi funksiyasını, cəmiyyətdəki mövqeyini öyrənməkdir. Elmin müxtəlif sahələri - fəlsəfə, sosiologiya, tarixşünaslıq və məntiqin vəzifəsi insanın daxili düşüncələrini, hiss və həyəcanlarını - bir sözlə insanlığın mahiyyətini ortaya qoymaqdır. İnsanın cəmiyyətdə oynadığı rol Misir, Çin, Hindistan fəlsəfəsində kanseptual şəkildə öz əksini tapmışdır. Min illərin arxasından boylanan miflərdə, inanclarda, dini sistemlərdə insanın daxili aləminə nüfuz çox güclüdür. Ədəbiyyatda insan konsepsiyası ictimai

şüurun fərdi şüura təsiri, sənətkar və zaman problemi, ətrafda baş verən hadisələrə fərdlərin münasibəti müstəvisində çox maraqlı və cəlbedicidir. Bütün dövrlərdə sənətkarlar insan haqqında konsepsiyanı bədii təfəkkürün süzgəcindən keçirmiş, müxtəlif obrazlar vasitəsi ilə öz fikirlərini ifadə etmişlər.

İnsanın formalaşması, cəmiyyətdəki mövqeyi siyasi təsisatları ciddi məşğul etdiyi kimi, elmin, ədəbi prosesin də həmişə diqqət mərkəzində olmuşdur. İnsan həm bioloji, həm də ictimai varlıq olduğuna görə elmin, ədəbiyyatın müxtəlif sahələri onu öyrənməyə, dərk etməyə çalışır. İnsan təkcə keçmişin, bu günün yox, həm də gələcəyin problemidir. Bu cəhətdən ədəbiyyat həmişə insana maraq göstərir, onun mənəvi təkamülünü, psixoloji durumunu izləyir. Ədəbiyyatda yeni insan konsepsiyası B.Nəbiyev, S.Əsədullayev, Y.Qarayev, İ.Vəliyev kimi ədəbiyyatşünas alimlərimizin tədqiqat obyektinə çevrilmiş, problemin müxtəlif tərəfləri elmi-nəzəri aspektdən işıqlandırılmışdır [93-45-71-127].

Hələ yazılı ədəbiyyatımızın mövcud olmadığı bir dövrdə ağız ədəbiyyatımızda, mifologiyamızda, əsatir və əfsanələrimizdə, nağıllarımızda, dastanlarımızda mərdlik, mübarizlik, iradəlilik, vətənpərvərlik, qəhrəmanlıq kimi yüksək insani keyfiyyətlər təbliğ olunub. Müxtəlif tarixi dövrlərdə fəlsəfi fikrimizin əsasında dayanan məzdəkiliyin, əxiliyin, sufiliyin, hürufiliyin də başlıca məqsədi yeni insan konsepsiyası ilə bağlı idi. Uşaq və gənclərin dünyagörüşünün, bədii zövqünün formalaşmasında bədii ədəbiyyatın rolunu heç nə ilə müqayisə etmək mümkün deyil. Odur ki, ayrı-ayrı əsrlərdə, müxtəlif ideologiyaların hökmranlığı və basqısı şəraitində bir-birindən fərqlənən, bəzən bir-birini inkar edən yeni insan konsepsiyaları ilə qarşılaşırıq: "Ədəbiyyatda insan konsepsiyası barədə deyilənlərə əsasən bir daha qeyd etmək lazımdır ki, ədəbiyyat insanı yenidən dünyaya təqdim edən sənətdir. Bədii yaradıcılığın əsas qayəsi insanın həyatını, fəaliyyətini, sevinc və əzablarını, hiss və duyğularını canlandırmaq, keçmiş, indi və gələcək arasında körpü yaratmaqla inkişafa xidmət etməkdir" [127, s.325].

Kamil fərd ideyası ilə cəmiyyət və dünya yaratmaq axtarışları xüsusən islam şərqində sənətkar və filosofların bütöv bir kəhkəşanını (Əl Fərabi, İbn Sina, Fəxrəddin Əffar, Mahmud Şəbüstəri, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Sədi, Hafiz, Nəsimi, Əvhədi, Cami, Nəimi, Füzuli, Saib Təbrizi, Nəbati, Şəhriyar….) fəlsəfəsinin, xüsusən qədim və orta əsrlərin bütün tarixi boyu fasiləsiz məşğul etmişdir. İnsan – təbiət –kainat miqyaslı bəşəri qayğılarla, "cahan keyfiyyəti" (Füzuli) ilə ən çox irfan məşğul olmuşdur" [71, s. 46]. Kamil insan və onun cəmiyyətdəki mövqeyi hürufi-fəlsəfi fikrimizdə olduğu kimi, bədii düşüncəmizdə də aparıcı mövqeyi ilə fərqlənirdi: "Azərbaycanda tarixi-fəlsəfi fikrin təşəkkülündə intibah ədəbiyyatının-Nizaminin axtardığı kamil insan konsepsiyasını irəli sürən hürufiliyin böyük rolu olmuşdur" [113, s. 42].

Azərbaycan milli maarifçi ədəbiyyatında həmin məsələ yenidən aktuallıq kəsb etmiş, cəmiyyətdə, dövlət idarəçiliyində sükanı ağıllı, savadlı, maarifpərvər insanlara verməyi üstün tutan Avropa maarifçiləri kimi, Azərbaycan maarifçiləri də yeni dövrün tələblərinə uyğun olaraq maarifçi cəmiyyət qurmaq üçün uşaq və yeniyetmələrin təlim-tərbiyəsindən, təhsilindən, onların kamil insan kimi yetişdirilməsindən başlamağı məqsədəuyğun hesab edirdilər. Uşaq ədəbiyyatına verilən tələblər sırasında tərbiyəedicilik həmişə öndə dayanmışdır. Elə buna görə də M.Ə.Sabir tərbiyəni "ümmətin rəhnüməsi", "millətin pişvası", "hər işin ibtidası" kimi yüksək qiymətləndirirdi [106, s. 34]. Maarifçi ədəbi fikrin əsas diqqəti və qayğısı uşaq xarakterinin, onun mənəvi- psixoloji aləminin dinamikasına istiqamətləndirilmişdi.

Azərbaycan maarifçiləri milləti şəxsi ədavətdən çəkindirmək, zülmə və zalıma qarşı mübarizə aparmaq, elmin, maarifin əhəmiyyətini xalqa çatdırmaq, öz insani hüquqlarını tələb etmək yolunu tutmuşdular. Onlar Avropa sivilizasiyasına qovuşmaq üçün sistemli fəaliyyət proqramı həyata keçirir, eyni zamanda daşıyıcıları olduqları ictimai-tarixi missiyanı həyata keçirmək yolunda uşaq ədəbiyyatı yaratmağın zəruriliyini dərk edirdilər.

Azərbaycanda maarifçi realist ədəbiyyatın yarandığı ədəbi mərhələ rus istilası dövrünə təsadüf edirdi. Çarizm imperiyasının ərazisində ruslaşdırma, milli mədəniyyətlərin boğulması siyasəti aparıldığı bir dövrdə milli qürur, azadlıq hissi ilə bağlı olan mübarizə o qədər də asan başa gəlmir, milli mücadilə on illər boyu davam edirdi. Azərbaycan maarifçilərinin - A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, S.S.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir və başqalarının həmin tarixi-ədəbi missiyanı uşaq ədəbiyyatının yaranmasından, uşaq ədəbiyyatında yeni insan konsepsiyasından başlamaları mövcud şəraitdə yeganə düzgün yol idi.

C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestindəki Əhməd, S.S. Axundovun " Qorxulu nağıllar"ındakı Abbas və Zeynəb, Qaraca qız, M.C.Paşayevin "Bir gəncin manifesti"ndəki Bahar obrazları bütün dövrlərdə uşaqlarımız tərəfindən sevilmiş, onların acı taleyi, ictimai haqsızlığa qarşı mübarizədə müdafiəsiz qalmaları gənc oxucularımızı həmişə düşündürmüş, onlarda zülmə, zalıma qarşı nifrət hissi yaratmaqla yanaşı, həm də buna qarşı mübarizə əzmi oyatmışdır. Uşaqların gələcəyinə, taleyinə həssas münasibət ədiblərimizi onların parlaq obrazını yaratmağa sövq etmişdir. Bu əsərlərdə süjet xətti boyu uşaqların dəyişdiyini, daha mübariz olduğunu, ədalətsizliyə qarşı üsyankar mövqelərini görürük.

Dinamika uşaq obrazlarının təkcə hərəkətində, davranışında yox, təfəkküründə, şüurunda da açıq-aydın görünür. Bəzən böyüklərin taleyin "qəzavü-qədəri" kimi qəbul etdikləri uşaqlara çatmır, haqsızlığa daha çevik reaksiya verirlər. C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" əsərində Xudayar bəyə yeganə müqavimət göstərən balaca Əhməddir. C.C.Axundovun "Qaraca qız" hekayəsindəki Qaraca qız da ehtiyacın hər üzünü görən bir uşaqdır. O uşaq olsa da həyatı dərk edir, ona pislik edənlərə həmişə yaxşılıq etmək haqqında düşünür.

Rus çarizminin başlıca vəzifəsi imperiyanın mərkəzi şəhərləri ilə birlikdə əyalətlərdə də rus dilini, mədəniyyətini, dövlətin siyasi, iqtisadi kursunu həyata keçirməkdən ibarət

olduğuna görə 1829-cu il avqustun 2-də Zaqafqaziya məktəblərinin nizamnaməsi hazırlandı. Çox keçmədən Şuşada (1830), Şəkidə (1831), Bakıda (1832), Gəncədə (1833), Şamaxıda (1837) və s. şəhərlərdə rus dilində qəza məktəbləri fəaliyyətə başladı: "Azərbaycan uşaq ədəbiyyatını həm də yeni tipli məktəbin ehtiyacı doğurmuş və onun yaranmasını zəruri etmiş, pedaqoji həyatın tərrəqisi ilə uşaq ədəbiyyatının yüksəlişi mütənasib ahənglə paralel şəkildə inkişaf etmişdir" [82, s.19].

Yeni yaradılan qəza məktəblərində yalnız Azərbaycan dili tədris olunurdu ki, bunu ancaq ilk addım kimi qiymətləndirmək olar. Daha da irəli getmək, uşaq və yeniyetmələrin tərbiyəsini, bədii zövqünü inkişaf etdirmək, formalaşdırmaq üçün yeni bir addım atmaq zərurəti meydana çıxırdı.S.Ə.Şirvaninin "Rəbiül ətval "(1878), A.O.Çernyayevski və Səfərəlibəyovun "Vətən dili "(1883-1889), İsmayıl bəy Qasprinskinin "Xaseyi-Səbyan" (1889), Rəşid bəy Əfəndıyevin "Uşaq bağçası " və "Bəsirətül ətval" (1889-1902) dərslikləri həmin boşluğu doldurdu, ana dili dərsliyinə olan milli ehtiyacı nisbətən ödədi. M.Ş.Vazehin Tiflis gimnaziyasının müəllimi İ. Qriqoryevlə birlikdə şagirdlər üçün tərtib etdiyi "Kitabi-türki" müntəxabatında yer alan uşaq ədəbiyyatı nümunələri uşaqları düzlüyə, doğruluğa, namuslu yaşamağa, vətəni sevməyə çağıran, onların xarakterini formalaşdıran əsərlərdən ibarət idi.

Bu dərsliklərdə rus və dünya ədəbiyyatından maraqlı, uşaqlar və yenıyetmələrin yaşına və zövqünə uyğun tərcümələr verilməklə yanaşı, Azərbaycan ədiblərindən R.Əfəndiyev, O.Zakir ,S.Ə.Şirvani, A.Səhhət, M.Ə.Sabir, A.Şaiq və başqalarının uşaqlar üçün yazdığı əsərlər də özünə yer tapmışdı.

Sovet hakimiyyətinin mövcud olduğu 70 il müddətində marksist estetika müttəfiq respublikaların ədəbiyyat və incəsənətində yeni dövrün, sosializm cəmiyyəti insanların əxlaqi-mənəvi keyfiyyətlərini formalaşdırmağa - yeni insan konsepsiyası işləyib hazırlamağa başladı. Marksizm-Leninizm klassikləri "ədəbiyyat və incəsənəti ümumproletar işinin bir hissəsi, vint-

ciyi və təkərciyi" rolunda görür, ədəbi-tarixi prosesin müstəqil bir sahəsi olan uşaq ədəbiyyatına da eyni prizmadan yanaşırdı. ÜİK(G)P MK-nın "Uşaqlar və gənclər mətbuatını yaxşılaşdırmaq tədbirləri" tarixi qərarında uşaq ədəbiyyatında müasir mövzuların zəif işıqlandırıldığı", yeni proletar cəmiyyətini yaradan insanların mətbuatda az göründüyü xüsusi olaraq vurğulanırdı.

Marksist estetika müasir mövzular deyəndə proletar ideologiyasını, ədəbiyyat və incəsənətdə sinfi mübarizə məsələlərini, kapitalizm və sosializm qarşıdurmasını nəzərdə tuturdu. Bu mövzulardan kənar olan əsərlər arzuolunmaz hesab olunur, müəllifləri kəskin tənqid edilirdi. 1922-ci ildə RK (b) P XI qurultayının qətnaməsində göstərilirdi ki, fəhlə-kəndli gənclər üçün gənclik hisslərini korlayan bulvar ədəbiyyatına qarşı dura bilən və gənclər kütləsinin tərbiyəsinə kömək edən ədəbiyyat yaratmaq məsələsi son dərəcədə zəruridir. Qətnamədə uşaq və yeniyetmələrin proletar ideologiyasını, yeni cəmiyyətin məqsəd və məramnaməsini mənimsəmələri yolunda qəti və təxirəsalınmaz tədbirlər həyata keçirməyin zəruriliyi də xüsusi vurğulanıb. Uşaq ədəbiyyatını, yeniyetmələrin tərbiyəsini sovet ideologiyasının siyasi sisteminə, əxlaqi –mənəvi prinsiplərinə uyğunlaşdırmağın yolları axtarılıb.

Partiyanın XIII qurultayının (1924) "Mətbuat haqqında" qətnaməsində uşaq ədəbiyyatında sinfi, beynəlmiləl tərbiyə, əmək tərbiyəsini gücləndirmək məqsədi ilə uşaqlar üçün ədəbiyyat yaratmaq, xüsusən ardıcıl olaraq pioner ədəbiyyatı nəsr etmək məsələlərinə toxunulub. Göründüyü kimi, kommunistlər partiya və dövlət hakimiyyəti səviyyəsində proletar cəmiyyəti qurucularını yetişdirmək işində uşaq ədəbiyyatından bir vasitə, güclü silah kimi istifadə edirdi.

Artıq ədəbiyyatın istiqaməti milli ruha, milli təfəkkürə bağlı olan gənclər yetişdirməyə yox, kommunizm qurucuları olan pioner və komsomol tərbiyə etməyə yönəldilmişdi ki, marksist estetikanın yeni insan konsepsiyasının əsasında da məhz bunlar dayanırdı. 1924-1928-ci illərdə "Mətbuat haqqında" və "Uşaqlar və gənclər mətbuatını yaxşılaşdırmaq

tədbirləri haqqında"kı qətnamə və qərarlar göstərirdi ki, marksist estetika sovet ədəbiyyatı və yeni insan konsepsiyası məsələsində uşaq mətbuatı və ədəbiyyatına xüsusi diqqət yetirir. Elə həmin illərdə V.V.Mayakovski "Yaxşı nədir, pis nədir?", "Hansı sənət yaxşıdır", "Ulas adlı sərsəri" şeirlərində bədii ədəbiyyatda yeni növ və xüsusi tip uşaq və yeniyetmə surətləri yaradır, onlara xas olan yeni insani keyfiyyətlərin əvvəlki dövrlərdə mümkün olmadığını sübut etməyə çalışırdı. Eyni ədəbi meyl və təmayüllər Azərbaycan sovet ədəbiyyatında da özünü göstərirdi. S.Rüstəm "Sənətə" şeirində yazırdı:

Çox azdır təcrübəm, cavandır yaşım,
Çəkicdir, dəzgahdır dostum, qardaşım.
Sinifdə, məktəbdə ucalır başım,
Artır məhəbbətim hər an sənətə.

20-30-cu illərin proletar diktaturası dövründə xalqımızın çoxəsrlik zəngin mədəniyyəti, mənəviyyatı, igidlik, qəhrəmanlıq tarixi qəsdən unudulur, ədəbiyyat və sənətdə bolşevik, inqilabçı obrazlarına önəm verilirdi. N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, N.Nərimanov və başqa ədiblərimizin bəşəri və milli səciyyə daşıyan ədəbi qəhrəmanlarını quru, sxolastik və bir qədər mücərrəd obrazlar əvəz edirdi. Şübhəsiz ki, bütün bunlar cəmiyyətin mənəvi tələbatı, milli ehtiyacı kimi yox, marksist estetikanın tələbi ilə meydana çıxırdı.

Şura Yazıçılarının I Ümumittifaq qurultayında avqustun 28-dəki çıxışında N.Z.Buxarin deyib: "Sosialist realizmin sadə realizmdən fərqi ondadır ki, sosıalist realizmi diqqət mərkəzinə labüd olaraq sosializm quruluşunun, proletariatın mübarizəsinin, yeni insanın, zəmanəmizin böyük tarixi prosesinin bütün çox mürəkkəb "rabitə və vasitələri"nin təsvirini qoyur"[15]. Böyük ədibimiz C.Cabbarlı Şura yazıçılarının I qurultayında sovet ədəbiyyatında müasir mövzu, yeni insan konsepsiyasından ətraflı bəhs edərək deyib: " Biz indiki quruluşumuzu bütün dərinliyi ilə duyaraq mənimsəyirik. İndiki quruluşumuzun qəhrəmanını hiss etməli, yeni insanı bütün dərin-

liyi ilə mənimsəməli və əsərlərimizdə əks etdirməliyik… Sovet yazıçısı öz yaradıcılığının hərəkət təmayülünü indiki həyatdan almalıdır" [58, s.56].

Sosialist realizmi ədəbiyyatının 1933-cü ildə hazırlanan, Şura Yazıçılarının I Ümumittifaq qurultayında qəbul edilən nizamnaməsində deyilirdi ki, sosialist realizmi incəsənətin xüsusi metodu olub, dialektik materializmə uyğun gəlir, onun incəsənət sahəsinə keçirilməsi deməkdir. Həmin nəzəri sistemə müvafiq olaraq 30-cu illərdən sonra milli uşaq ədəbiyyatında marksizmin dialektik materializm təlimi əsas kimi götürülür, proletariatın siyasi və sinfi mübarizəsi bu ədəbiyyatın leymotivinə çevrilirdi.

Sosialist realizmi sənət nəzəriyyəsinin nöqsanlı cəhətlərindən biri bu idi ki, böyüklər üçün ədəbiyyatda olduğu kimi, uşaq ədəbiyyatı nümunələrində də siyasi yetkinlk, kommunist dünyagörüşünə sədaqət, sosializm quruculuğu romantikası tələb olunurdu. Ümumiyyətlə, "Kommunist partiyasının manifesti"ndən tutmuş Kommunist Partiyası Mərkəzi Komitəsinin təlim-tərbiyə məsələlərinə dair bütün qərarlarında uşaq və yeniyetmələr yeri gəldi-gəlmədi siyasi təbliğata və mübarizələrə cəlb olunurdular. Marksizm-leninizm baniləri yeni nəsil uğrunda mübarizəyə xüsusi diqqət yetirirdilər. Onlar ənənəvi fəlsəfi sistemlərdəki dünyanı yalnız bu və ya digər dərəcədə izah etməklə kifayətlənmir, bütün mövcud fəlsəfi təlimləri altüst edir, dünyanı inqilabi yolla dəyişdirmək ideyasını irəli sürürdülər.

Bu məqsədə nail olmaq, dünyanı dəyişdirə biləcək qüvvələri yetişdirmək uğrunda mübarizədə marksizm klassikləri uşaq və yeniyetmələrin roluna qiymət verdiklərindən ideoloji mübarizədə uşaq ədəbiyyatından bir vasitə kimi istifadə edirdilər. Sovet hakimiyyətinin ilk onilliklərində A.Makarenkonun "Pedaqoji poema", "Ölülər üzərində bayraqlar", N.Ostrovskinin "Polad necə bərkidi" kitabları, A.Qaydarın və V.Mayakovskinin əsərləri marksist uşaq ədəbiyyatının ən layiqli nümunələri kimi qəbul edilir, müttəfiq respublikaların ədəbi prosesinə də həmin meyarlar tətbiq olunurdu.

Onu da qeyd edək ki, 20-30-cu illərdə marksist estetikanın siyasi-ideoloji prnsiplərə əsaslanan yeni insan konsepsiyası ölkədə birmənalı qarşılanmır, siyasi və ədəbi müxalifətin kəskin etirazı ilə üzləşirdi. Sənət və ədəbiyyat nəzəriyyəçilərinin bir qismi uşaq ədəbiyyatını, ədəbiyyatın müstəqil bir sahəsi kimi görmür, xüsusi çocuq kitabına heç bir ehtiyac olmadığını söyləyirdilər.Marksist estetiklər onları "sağ qəhrəmanlar " adlandırırdı. Digər qismə daxil olan sənət mütəxəssisləri isə uşaq ədəbiyyatından siyasi mündəricəni uzaqlaşdırmağı, ancaq xalis bədii meyarlara söykənməyi məsləhət görürdülər ki, onlar da "sol qəhrəmanlar" hesab olunurdu. Siyasi və ədəbi mübarizələrdə zorakılıqdan, cəza tədbiri və üsullarından istifadə edən marksistlər 30-cü illər represiyalarında həm solları, həm də sağları susdurmağa nail oldu.

Sovet hakimiyyətinin ilk onilliklərində, bir qədər dəqiq desək, 20-30-cu illərdə uşaq ədəbiyyatı məktəb və pedaqogikadan uşaqlaşdırılmış, ilk ədəbiyyat tariximizdə, o cümlədən də dərslik və müntəxabatlarımızda uşaq ədəbiyyatından ədəbiyyatın müstəqil bir qolu kimi bəhs edilməmişdir. Odur ki, 1941-ci ildə UİK(G)P MK-sı vaxtıilə uşaq ədəbiyyatının məktəbdən və pedaqogikadan uşaqlaşdırılmasını düzgün hesab etməyərək, bu ədəbiyyatın nəşri məsələsinin elmi-pedaqoji əsaslar üzərində qurulması, məktəbin təlim-tərbiyə vəzifəsinə tabe etdirilməsinə nail olmağı bir vəzifə kimi qarşıya qoymuşdur. Həmin tarixi qərarlardan sonra milli uşaq ədəbiyyatımızda A.Şaiqin "Qardaş" pyesi, Mir Cəlalın "İki vəsiqə", M.Dilbazinin "Mənim hədiyyəm", M.Seyidzadənin "Şeirlər", M.Rzaquluzadənin "İstək", Əyyub Abbasovun "Vətən yuvası", Q.Musayevin "Hekayələr" kitabları işıq üzü görmüşdür. Bu əsərlərdə yeni bədii sistem, yeni qəhrəman, müsbət tendensiyalı ədəbiyyatla qarşılaşırıq. Marksist tənqid ideoloji mübarizələrdə uşaq ədəbiyyatından bir vasitə kimi istifadə etdiyini açıq şəkildə etiraf edir, eyni zamanda bunun zəruriliyini də qəti şəkildə bildirirdi: “İstər inqilabdan əvvəlki Rusiyada, istər bugünkü kapitalist ölkələrində də hakim siniflər gənc nəslin öz sinfi mənafelə-

rinə uyğun yetişdirilməsi uğrunda bir vasitə olaraq çocuq ədəbiyyatından istifadə etmiş və etməkdədirlər [99, s. 41].

Marksist estetikanın uşaq ədəbiyyatında yeni insan konsepsiyası həyati əsasdan, real zəmindən və milli ədəbi-tarixi ənənələrdən uzaq olduğu üçün bədii təcrübədə heç cür özünü doğrultmurdu. Siyasi-ideoloji öyüd-nəsihətlə, didaktik mülahizələrlə nəyəsə nail olmağın mümkün olmadığını aydın dərk edən sovet nəzəriyyəçiləri etiraf etməli olurdular ki, "uşaq ədəbiyyatında yaranan əsərlərdən çoxu fikirdən məhrum olan idilliya ilə dolu olur, bu əsərlərdə yeni insan tərbiyə etmək çox böyük pedaqoji təlimatla və öyüd- nəsihətlə mexaniki surətdə əvəz edilir" [74].

İ.V.Stalinin vəfatından bir neçə il sonra, 60-cı illərin əvvəllərində sovet rejimində müəyyən yumşalma, demokratik dəyərlərə meyl özünü göstərdi, yeni islahatlar həyata keçirilməyə başladı. N.Xruşşov sərt diktatura sistemi ilə böyük bir dövləti idarə etməyin mümkünsüzlüyünü hiss edərək siyasi havasızlıqdan və mənəvi bürküdən təngiyən sovet xalqlarına siyasi sistemin yol verdiyi imkanlar daxilində müəyyən sərbəstlik verdi.Şübhəsiz ki, bu insan azadlığı və demokratik istiqamət, yeni qaydalar çərçivəyə salınmış səviyyədə idi. Bütün bunlara baxmayaraq, N.Xruşşovun apardığı siyasi, iqtisadi və sosial-mədəni islahatlar sovet rejimində ədəbiyyat və incəsənət sahəsində bəşəri dəyərlərə, milli-əxlaqi ənənələrə əsaslanan əsərlərin meydana çıxmasına səbəb oldu. İttifaqın başqa respublikalarında olduğu kimi, Azərbaycan uşaq ədəbiyyatında da 60-70-ci illərdə yeni qəhrəman tipi-cəmiyyətdəki siyasi-ideoloji, sosial sifarişlərə cavab verən yeni insan konsepsiyası formalaşmağa başladı.

60-80-ci illərdə uşaq əsərlərindəki obrazlar əvvəlki onilliklərdən xeyli fərqlənirdi.Onların təsvirində yalnız tünd qara və yaxud ağ rənglərdən istifadə edilmirdi. Ədəbi obrazlarda dolğunluq, yetkinlik, milli kökə və ənənələrə bağlılıq daha çox nəzərə çarpırdı. Hiss olunurdu ki, sosialist realizmi nəzəriyyəçiləri kommunist dünyagörüşündəki əsas ideoloji-siyasi platformanı saxlamaqla yanaşı, sovet ədəbiyyatının yaşaması və özünü təsdiqi üçün ciddi zəmin hazırlayır.

Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin 1972-ci il 18 fevralda keçirilən plenumunda bir daha göstərilirdi ki, gənc nəslin kommunist tərbiyəsi bütün sovet ədəbiyyatının, o cümlədən də onun qüdrətli qollarından olan Azərbaycan ədəbiyyatının mühüm vəzifəsidir. Uşaqlar üçün yazılmış əsərlər sabahı yaradanların möhkəm kommunist əqidəli, kommunist inamlı böyüməsində, həyat hadisələrini düzgün başa düşüb qiymətləndirməsində, dünyagörüşünün, bədii zövqünün inkişafında ciddi əhəmiyyətə malikdir.

"Azərbaycan pioneri" qəzetinin redaktoru Ə.Əmrahov plenumdakı çıxışında uşaq ədəbiyyatında yeni insan konsepsiyasına toxunub, inqilabin ilk illərində böyüklərlə çiyin-çiyinə mübarizə aparan, gizli vərəqlərin yayılmasında, müxtəlif sənədlərin ayrı-ayrı ünvanlara çatdırılmasında iştirak edən 12-13 yaşlı uşaqların bədii obrazını ədəbiyyata gətirməyin vacibliyini bildirib. O bir qədər də fikrini dərinləşdirərək göstərib ki, 30-cu illərin qəhrəman uşaqları Adil İslamov, Lətifə Süleymanova Sovet hakimiyyətinin düşmənləri tərəfindən öldürülsələr də, bu gün pioner və məktəblilər tərəfindən yad edilirlər: "Şair və yazıçılarımız həmin uşaqların mərd, mübariz, mətin surətlərini, sovet hakimiyyətinə olan sonsuz məhəbbətlərini ifadə edən gözəl əsərlər yaratmalıdırlar" [37].

M.Seyidzadə öz çıxışında sənətkarlıq məsələlərindən bəhs edərək, M.Ə.Sabirin, R.Əfəndiyevin, A.Şaiqin uşaqlar üçün yazdığı əsərlərin bir neçə nəslin tərbiyəsində əhəmiyyətli rol oynadığını diqqət mərkəzinə çəkmişdir. Məruzəçi uşaq ədəbiyyatında yeni insan konsepsiyası məsələsi ətrafında da xeyli dayanaraq, uşaq ədəbiyyatında qəhrəman uşaqların bədii obrazını yaratmağı məqsədəmüvafiq hesab etmişdir. Ayaz Fəfalinin məruzəsində də maraqlı məqamlara toxunulmuşdur. O, yeni dövrün ədəbi qəhrəmanlarında kommunist işinə sədaqət, sosialist vətəninə məhəbbət, cəmiyyətin xeyrinə vicdanla işləmək, düzlük və doğruçuluq, mənəvi saflıq, ictimai və şəxsi həyatda sadəlik, təvazökarlıq kimi əxlaqi sifətlərin vacibliyini qeyd etmişdir.

Sovet ədəbiyyatının bütün mərhələlərində uşaq ədəbiyyatının qarşısına hədsiz ifrat siyasi-ideoloji tələblər qoyulurdu. Uşaqlara böyüklər kimi düşünmək, onların hər bir hərəkətini izləmək, inqilabçıların döyüş yolunu davam etdirmək kimi hisslər aşılanırdı. ÜLKGİ MK-nın VIII plenumunda qeyd olunurdu ki, "kommunizm quruculuğunda fəal iştirak etmək üçün hər gəncdən Lenin ideyası, yüksək bilik, inqilabi qüvvə və işgüzarlıq, məqsədə çatmaq yolunda mərdlik və inadkarlıq tələb olunur" [63].

Marksist estetikanın bu ifrat tələbkarlığının nəticəsi kimi Azərbaycan ədəbi tənqidində də ədəbiyyatda yeni tip insan konsepsiyası ətrafında ciddi diskussiyalar aparılırdı. Uşaq yazıçılarından tələb olunurdu ki, onların yaş və bilik səviyyəsinə uyğun olmayan mövzulardan yazsınlar,ədəbi qəhrəmanlar canlı insandan çox inqilab, kommunizm robotuna oxşasınlar: "Qoy, bizim yazıçılarımız uşağın əlindən tutub əsil həyata çıxarsınlar, fabrikə, mədənə aparsınlar, şəhərləri gəzdirsinlər, onları əmək adamları ilə tanış etsinlər" [63].

Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin 1966-cı il uşaq ədəbiyyatına dair plenumu uşaq ədəbiyyatında yeni insan xarakterləri yaratmaq məsələsinə həsr olunmuşdur. Plenumdakı məruzəsində yazıçı İ.Əfəndiyev adı dillərə düşən balaca qəhrəman surətinin yaranmamasını yeni uşaq ədəbiyyatının ciddi nöqsanlarından biri kimi səciyyələndirirdi. Müasir dövrün yeni insan obrazlarını uşaq ədəbiyyatımıza gətirən M.Rzaquluzadə, M.Seyidzadə, M.Dilbazi, E.Mahmudov, N.Abdullayevin yaradıcılığı haqqında yığcam məlumat verən məruzəçi atom enerjisinin meydana çıxmasının, kosmosun fəthinin, düşünən maşınların yaranmasının milli uşaq ədəbiyyatına yeni ədəbi material, yeni qəhrəman verəcəyinə əminliyini ifadə edərək demişdir ki, biz cəmiyyətin inkişafı ilə əlaqədar olaraq meydana çıxan yeni məzmunu, yeni ideyaları daha parlaq surətdə ifadə eləyə bilən təzə üsullar, təzə formalar axtarıb tapmağa məcburuq. Bu zamanın tələbidir.

Azərbaycan Sovet Yazıçılar İttifaqının Natəvan klubunda uşaq ədəbiyyatına həsr edilən müşavirədə ittifaqın katibi

İmran Qasımov bir daha təsdiq etmişdir ki, qarşımızda bu gün xüsusilə böyük məna kəsb edən şərəfli bir vəzifə durur: Kommunizm dövründə yaşayan yeni gözəl insan uğrunda mübarizə. Marksist ideoloqların yeni kommunizm cəmiyyəti haqqındakı mülahizələri ancaq fantaziyadan ibarət olduğuna, real zəminə söykənmədiyinə görə ədəbi prosesdə də uydurma, quru, cansız, hər cür hissiyyatdan və duyğudan uzaq, "robot" surətlər və süjetlər meydana çıxırdı. Böyüklər üçün nəzərdə tutulan ədəbiyyatla birlikdə, bu cür nöqsanlar uşaq ədəbiyyatı və nəzəriyyəsində də açıq şəkildə özünü göstərirdi. Odur ki, müntəzəm olaraq sovet ədəbi tənqidi və ədəbiyyatşünaslığı uşaq ədəbiyyatının həyatdan geri qaldığını, dövrün tələbləri ilə ayaqlaşmadığını, yeni dövrün ədəbi qəhrəmanlarını yarada bilmədiyini iddia edirdi.

Milli uşaq ədəbiyyatında yeni insan konsepsiyasından və ədəbi təcrübədə bunun dərkindən bəhs edərkən akademik Bəkir Nəbiyevin Azərbaycan Yazıçılarının 1971-ci ildəki V qurultayında "Uşaq ədəbiyyatını böyük tələblər səviyyəsində" mövzusundakı çıxışını xüsusi qeyd etmək lazımdır. Əminliklə deyə bilərik ki, müəllifin bu irihəcmli çıxışı növbəti onilliklərdə də milli uşaq ədəbiyyatımızın inkişaf istiqamətlərini stimullaşdırmışdır. B.Nəbiyev, hər şeydən əvvəl, yeni dövrün ədəbi qəhrəmanlarını yaradarkən klassik ədəbi-mədəni irsdən faydalanmağı, eyni zamanda yeni qəhrəmanların zəngin mənəviyyatını müşahidə edərək bitkin obrazlar yaratmağı məsləhət görürdü: "Müasirlərimizin Vətəni daha da gözəlləşdirmək və onun qüdrətini artırmaq uğrunda göstərdiyi əmək coşğunluğu, yeni qəhrəmanların zəngin mənəviyyatı uşaq yazıçılarımızın da baş mövzularından və təsvir obyektlərindən biri olaraq qalır" (91, s.150)

Uşaq təbiəti, yetkinləşməsi, cəmiyyətdə layiqli insan kimi formalaşması təbii proses olduğu kimi, həm də çətin, uzun müddət tərbiyə tələb edən bir işdir. Bu mənada uşaq ədəbiyyatı mütəxəssisləri, uşaq yazıçıları həmişə uşaq ədəbiyyatında yeni insan konsepsiyasına, onun mahiyyət və funksiyasına ciddi fikir vermişlər və yəqin ki, gələcəkdə də bu yaradıcılıq axtarışları davam etdiriləcəkdir.

UŞAQ ƏDƏBİYYATINDA SƏNƏTKARLIQ MƏSƏLƏLƏRİ

Orta əsr romantik poeziyamızdan üzübəri milli uşaq ədəbiyyatımız təkcə ideya-məzmun xüsusiyyətdəri ilə deyil, həm də janr, üslub texnalogiyaları və sənətkarlıq baxımından da fərqlənib. N.Gəncəvi, Ş.İ.Xətai, M.Füzuli, Ş.Ə.Şirvani, A.Səhhət, A.Şaiq kimi klassik sənətkarlarımızın, M.Dilbazi, M.Seyidzadə, Ə.Cəmil, M.Rzaquluzadə, Teymur Elçin, X.Rza, T.Mütəllibov, İ.Tapdıq kimi müasir şairlərimizin yaradıcılığındakı bədii sənətkarlıq bir sistem təşkil edir, bütün bunlar həmin əsərlərin uzunömürlülüyünü təmin edir, uşaq və gənclərin yaddaşını möhkəmləndirir, onların bədii marağını artırır.

Uşaq şairlərimiz şeirlərində klassik şərq poeziyasının ən oynaq vəznlərindən bəhrələnərək, öz əsərlərinin tez əzbərlənməsini və uşaqların yadında qalmasını təmin ediblər. Məsələn: A.Şaiqin "Keçi", M.Ə.Sabirin "Uşaq və buz", "Gəl-gəl a yaz günləri", A.Səhhətin "Vətən", T.Mütəllibovun "Cücələrim" əsərlərinin uşaqlar tərəfindən sevilə-sevilə oxunmasının səbəbləri bu cür əsərlərin janr, üslub və sənətkarlığına görə mükəmməlliyi ilə əlaqədardır.

Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığı bütün dövrlərdə uşaq ədəbiyyatmızdakı poetik qaynaqlara, sənətkarlıq məsələlərinə xüsusi diqqət yetirmiş, ədəbi prosesi bu istiqamətə yönəltməyə çalışmışdır. Rus tənqidçisi V.Q.Belinski bir əsr yarım bundan əvvəl uşaq ədəbiyyatındakı poetik sistemə daha çox üstünlük verərək yazırdı: "Uşaq yazıçısının yaranması üçün çox, olduqca çox şərtlər vardır: Nəcib, sevən, diqqətli, sakit, sadədil bir qəlb, yüksək məlumatlı bir ağıl, əşyalara aydın baxış, yalnız canlı təsəvvür deyil, həm də canlı, şairanə bir xəyal, hər şeyi canlı, zəngin surətlər halında təsəvvür etməyə qabil bir xəyal lazımdır. Aydındır ki, uşaqlara qarşı məhəbbət, uşaq yaşının tələb, xüsusiyyət və təfərrüatını dərindən bilmək də ən mühüm şərtlərdəndir." (19, s. 97)

İlk uşaq dərsliklərimiz olan F.Köçərlinin "Balalara hədiyyə" (1908), A.Şaiqin "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü " (1909), "Gülzar" (1912). H.Cavidlə birlikdə yazdığı "Ədəbiyyat dərsləri" (1919) və s. dərs vəsaitlərinin tərtibində, şairlərin və onların əsərlərinin dərsliklərə salınmasında sənətkarlıq məsələləri daha çox önəm daşıyırdı. Təsadüfi deyil ki, "Ədəbiyyat dərsləri" kitabında əsasən poetika problemlərinin öyrənilməsinə və bu sahədəki biliklərin şagirdlərə çatdırılmasına xüsusi fikir verilmişdir.

Sovet uşaq ədəbiyyatının formalaşdığı və ilk təşəkkül dövrlərində ədəbi hadisələrə sinfi, sırf təbliğat nöqteyi-nəzərindən, kommunist ideologiyasının mənafeyi baxımından yanaşıldığına görə, bədii təfəkkürün janr, üslub və sənətkarlıq texnologiyalarına o qədər də əhəmiyyət verilmirdi. Odur ki, həmin illərdə yaranan uşaq əsərlərinin böyük bir qismi quru, sxematik, formaca yeksənək təsiri bağışlayırdı. Belə əsərlər uşaqların diqqətini o qədər də cəlb etmirdi. Odur ki, ÜK (B) PMK-nın "Uşaqlar və gənclər mətbuatını yaxşılaşdırmaq tədbirləri" haqqındakı (1928-ci il) qərarında yeni yaranan sovet uşaq ədəbiyyatındakı bu tendensiya kəskin tənqid olundu, bəzi əsərlərdə mövzuların zəif işlənməsi, həyat həqiqitlərinin bədii həqiqətə çevrilməsində proletar ədəbiyyitının çətinlikləri qeyd edildi.

Bildiyimiz kimi, Yaxın və Orta Şərq ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında poeziya ənənələri daha davamlı, sabit və sistemli xarakter daşımışdır. Milli uşaq ədəbiyyatı da bu cəhətdən istisna deyil. N.Gəncəvinin, Ş.İ.Xətainin, M.Füzulinin, S.Ə.Şirvanin, M.Ə.Sabirin və başqalarının uşaq əsərləri kamil poetik formada meydana çıxmışdır. XX əsrin ilk onilliklərindən etibarən S.S.Axundov, A.Şaiq, C.Cabbarlının bir sıra maraqlı, məzmunlu, formaca təkmil hekayələri işıq üzü görmüşdür.

30-cu illərin əvvəllərində ədəbiyyatımızda nəsr təfəkkürü güclənməyə başladı. Yazıçılarımız kiçik həcmli hekayələrlə yanaşı, böyük həcmli povest və romanlar yazmağa başladılar. M.S.Ordubadi, M.Hüseyn, S.Rəhimov, Ə.Əbülhəsən, M.İbra-

himovun roman və povestləri milli ədəbiyyatda nəsr poetikasının təşəkkülünə və inkişafına stimul verdi. M.S.Ordubadinin "Dumanlı Təbriz", S.Rəhimovun "Şamo", "Mehman", M.İbrahimovun "Gələcək gün", "Səhər", "Abşeron", "Tərlan", M.C.Paşayevin "Dirilən adam", "Bir gəncin manifesti", Ə.Ələkbərzadənin "Dünya qopur", "Yoxuşlar", "Müharibə", Ə.Vəliyevin "Gülşən", "Çiçəkli" kimi əsərləri meydana çıxdı. Şübhəsiz ki, bu əsərləri böyüklərlə birlikdə uşaq və gənclər də maraqla qarşılayır, yeni roman və povestlərimizdəki geniş epik təsvir onların maraq və diqqətinə səbəb olurdu.

50-ci illərdən etibarən ədəbi tənqid və ədəbiyyatşünaslığımızda uşaq bədii nəsrində roman və povest yaratmaq və inkişaf etdirməyin zəruriliyi dəfələrlə qeyd edilirdi. Azərbaycan Uşaq və Gənclər Ədəbtyyatı Nəşriyyatı illik planına az miqdarda roman və povest saldığına görə kəskin tənqid olunurdu [7].

S.Rəhimovun "Ata və oğul" povesti bir sıra nöqsanlara görə ciddi tənqid olunmaqla yanaşı, ailə ilə məktəb arasındakı əlaqəni, öz sənətinə möhkəm bağlı olan sovet müəlliminin kommunizm tərbiyəsindəki rolunu realist səpgidə əks etdirdiyinə görə təqdir edildi [29]. Azərbaycan Yazıçılar İttifaqının uşaq ədəbiyyatına həsr olunan 1966-cı il plenumu ərəfəsində xalq yazıçısı Mirzə İbrahimov haqlı olaraq uşaqlarda möhkəm xarakter tərbiyə etmək üçün irihəcimli roman və povest yazmağın vacibliyini dönə-dönə qeyd edib. Onu da əlavə edək ki, Sovet Yazıçılar İttifaqının XIII plenimunda uşaq ədəbiyyatı üzrə mübahisələrdə məktəb romanı və povestinin azlığı barədə fikirlər səsləndirilmiş, gələcəkdə bu cür nöqsanların aradan qaldırılması yolları haqqında danışılmışdır.

Bildiyimiz kimi, uşaq ədəbiyyatında janr problemi həmişə elmi-nəzəri fikrimizin diqqət mərkəzində olmuşdur. Bu cəhətdən 50-ci illərdə elmi-bədii janra diqqətin daha çox yönəldilməsi təqdirəlayiqdir. O dövrdə İttifaqın mərkəzi mətbuatında elmi-fantastik əsərlərin zəruriliyi barədə ayrı-ayrı məqalələr yazılır, yeniyetmələrin kommunist tərbiyəsində yeni janrın imkan və perespektivlərindən istifadə etmək yolları öyrənilirdi:

"Elmi-kütləvi, elmi fantastik, sərgüzəştli ədəbiyyat-uşaq mütaliəsi üçün çox maraqlı janrdır. Bu janrın inkişafına mane olan odur ki, müəlliflər elmi məsələləri həmişə dərindən əks etdirməmişlər, qəhrəmanların surətinin dolğun olmasına az fikir vermişlər. [95]. Həmin dövrdə bir sıra yazıçılarımız elmi-fantastik janrda əsərlər yazmağa başlamışdır. Elmin, texnikanın son nailiyyətləri ilə uşaq və gəncləri tanış etmək, bütün bunlar haqqında onlarda dolğun təsəvvür oyatmaq elmi-fantastik janrda yazılan əsərlərin mayasını təşkil edirdi. Bəllidir ki, o dövrə qədər ədəbiyyatımızda orijinal elmi-bədii əsərlər yox dərəcəsində idi. Uşaq ədəbiyyatımızda həmin janrda ilk əsəri E.Mahmudov yaradıb. Müəllifin "Günəş şəhəri", "Muğanda qütb parıltısı" hekayələrini bu sahədəki ilk addım hesab etmək olar. Onu da qeyd edək ki, həmin dövrə qədər elmi-fantastik hekayə janrı Azərbaycan ədəbiyyatında çox az inkişaf etmişdi.

Ədəbi-bədii fikrimizdə elmi-fantastik əsərlərin həm ideyaca, həm də sənətkarlıq baxımından inkişaf etdirilməsi növbəti onilliklərdə - 60-70-ci illərdə də davam etdirildi. Azərbaycan Yazıçılar İttifaqının uşaq ədəbiyyatına dair 1966-cı il noyabr plenumundakı çıxışında yazıçı E.Mahmudov elmi-fantastik əsərlərin əhəmiyyətindən danışmış və qeyd etmişdir ki, elmi-fantastik əsərləri oxuyan gənclər bir neçə elm barədə məlumat əldə edirlər. O, rus ədəbiyyatında bu janrın geniş yayıldığını qeyd etməklə yanaşı, Azərbaycan ədəbiyyatında zəif yer tutduğunu təəssüflə xatırlamış, milli uşaq ədəbiyyatında "Timur və onun komandası", "Vitya Maleyev məktəbdə və evdə" kimi uşaq elmi-fantastik əsərlərə böyük ehtiyac yarandığını söyləmişdir.

Azərbaycan Yazıçılarının 5-ci qurultayındakı "Uşaq ədəbiyyatını böyük tələblər səviyyəsinə" (91,s.149-157). adlı irihəcmli çıxışında Bəkir Nəbiyev demişdir ki, zamanın özünün elmi-fantastik janra geniş material və pərvəriş verdiyi son illərdə Azərbaycan uşaq ədəbiyyatında bu janr geriləməyə üz qoymuşdur. Vaxtilə bu sahədə qələm çalan yazıçılar demək olar ki, susmuşlar. Tədqiqatçı elmi-fantastik janrı daha da genişləndirməyin vacibliyini vurğulamışdır. Müəllif, eyni zamanda,

fantastik janrda yazılan əsərlərin konkret elmi-texniki yeniliklərə əsaslanmasını, reallığa nə dərəcədə yaxın olmasını vacib hesab etmişdir. B.Nəbiyevin fikrincə, belə mövzuda yazılan əsərlər buludların üzərində büllur saraylar qurmaq kimi boş xəyallardan ibarət olmamalı, elmi əsaslara istinad etməli, fantastik əsərlərdə təsvir edilən nailliyyətlərin əldə edilə biləcəyi real görünməlidir.Yeni müəlliflər də çox çətin gəlirlər. Emin Mahmudov "Kainat gəmisi", Namiq Abdullayev isə "Kiberin macəraları" povestlərindən sonra bəzi hekayələr çap etdirsələr də, bu sahədəki tələbi ödəməkdən uzaqdırlar. [91,s. 156]. Bəkir Nəbiyev əlavə etmişdir ki, 1957-ci ildə Emin Mahmudov öz qəhrəmanlarını "Kainat gəmisi" ilə Aya, Marsa çıxaranda, hələ kosmosa bir nəfər də olsa canlı qalxmamışdır.

M.Rzaquluzadənin "Azərbaycan sovet uşaq ədəbiyyatında mövzu və keyfiyyət" [101, s115-137].məqaləsini 50-ci illər uşaq və gənclər ədəbiyyatında janr, üslub və sənətkarlıq məsələlərini əhatə edən ən yaxşı elmi məqalə hesab etmək olar. Bu əsər göstərdi ki, artıq milli tənqid və ədəbiyyatşünaslıq bədii əsərlərdə ideya-məzmun xüsusiyyyətləri ilə yanaşı, həm də poetika məsələlərinə diqqət yetirir, ədəbi prosesi düzgün istiqamətləndirir, janr üslub və sənətkarlıq məsələlərini önə çəkməklə ədəbi mühitdə nəzərəçarpacaq canlanma yaratmağa çalışır.

Məqalədə M.Rzaquluzadə uşaq və gənclər ədəbiyyatında janr, üslub və sənətkarlıq problemlərini müasir ədəbi standartlara və meyarlara uyğunlaşdırmaq üçün bir sıra vacib şərtlər irəli sürür; birinci-ədəbiyyatmızın mövzu və janr zənginliyi uğrunda çalışmaq, müasir mövzularda nağıl, nəğmə, hekayə, poema və s. meydana çıxarmaq, satira və dramaturgiya janrlarını qüvvətləndirmək, fantastik və macəra-sərgüzəşt janrlarında orijinal əsərlər yazmaq; ikinci-uşaq və gənclər ədəbiyyatının indiki vəziyyətində sənətkarlıq məsələsi ən zəif cəhətlərdəndir. Ümumi ədəbiyyatda olduğu kimi, uşaq ədəbiyyatında da sənətkarlığın ən birinci şərti əsərlərin həyati və inandırıcı olmasıdır; üçüncüsü-sənətkarlığın ən ümdə əsaslarından biri ədəbi dildir. Azyaşlılar üçün yazılan əsərlərdə dilin təmizliyinə,

canlılığına, axıcılığına xüsusi diqqət yetirmək lazımdır; dördüncüsü-ədəbiyyatımızın həm ideya, həm məzmun, həm də sənətkarlıq məsələləri istiqamətində inkişafı üçün dünya və rus ədəbiyyatından ən yaxşı ədəbi nümunələri dilimizə tərcümə etmək.

M.Rzaquluzadə uşaq ədəbiyyatını yeni keyfiyyətdə inkişaf etdirmək üçün birinci növbədə satira və dramaturgiya janrlarını qüvvətləndirməyin vacibliyini önə çəkir ki, bu da müəyyən ədəbi-tarixi amillərlə bağlıdır. Satirik üslub bütün dövrlərdə müxtəlif ədəbi cərəyanlarda özünü göstərmiş, ayrı-ayrı janrlarda bu sahədə maraqlı, məzmunlu əsərlər yaranmışdır. Dünya ədəbiyyatında satirik üslubun Aristofan, Bokkaççо, Krılov, Qoqol, Şedren kimi tanınmış ədəbi simaları var. Gülüşün qüdrəti, tərbiyəvi və islahedici əhəmiyyəti həmişə yüksək qiymətləndirilmiş və ədəbi təcrübədə bundan kifayət qədər istifadə olunmuşdur. N.Q.Çernışevski vaxtilə yazırdı ki, yumorda iki şey - gülüş və kədər birləşir. Lakin incə yumorun öz yeri, kəskin, ifşaedici satiranın öz yeri vardır. Satira ilə məşğul olan sənətkar bunların hər ikisindən yerində istifadə etməyi bacarmalıdır.

Rus satirik yazıçısı Saltikov Şedrinin fikirincə, satirik təsvir üsulunda hətta hadisə və predmentlərin ən xarakter tərəfini seçməklə də iş qurtarmır. Çünki yazıçının seçmiş olduğu xarakter hadisə və predmetlərin özü də çox ola bilər. Ən yaxşı və tutarlı satirik əsər o zaman yaranır ki, yazıçı seçmiş olduğu xarakter cəhətlərin, hadisə və predmentlərin özünü də saf-çürük edir və onlardan ən zəruri olanını götürür, onun üzərində dayanır.

Ümumiyyətlə, satirik üslub və ənənə Azərbaycan klassik ədəbiyyatında, o cümlədən də müasir ədəbi-tarixi təcrübədə mühüm ədəbi faktor olduğu kimi, uşaq və gənclər ədəbiyyatımızda da aparıcı mövqe qazanmışdır. Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə, S.Rəhman, R.Əhmədzadə və başqalarının satirik yaradıcılığı bu gün də Azərbaycan uşaq satirik ədəbiyyatının ən yaxşı və sanballı nümunələri sırasındadır. M.Qorki vaxtı ilə yazırdı ki, balaca

oxucuya uşaqda yumor hissini inkişaf etdirən şən əhval-ruhiyyəli kitab vacibdir.

Ə.Abid, M.Hüseyn, Ə.Nazim, H.Zeynallı, M.Arif, Ə.Mirəhmədov, K.Məmmədov kimi ədəbi tənqidçi və ədəbiyyatşünaslarımız müxtəlif illərdə yazdıqları tədqiqatlarında milli satirik cərəyanın ideya və sənətkarlıq məsələlərinə toxunmuş, ədəbi ənənəvi satirik kansepsiya və təmayülləri ardıcıl izləmişlər. Bu da aydındır ki, 70 il içərisində yaşadığımız sovet cəmiyyətinin ədəbiyyat və incəsənətində satiraya münasibət birmənalı olmadığı kimi, milli uşaq ədəbiyyatında da bu məsələ ətrafında müxtəlif onilliklərdə elmi diskussiyalar aparılıb. Bütün bünları xatırlatmaqla yanaşı, onu qeyd etmək lazımdır ki, uşaq ədəbiyyatında satira və yumorun geridə qalması ilə bağlı ciddi narahatçılıq keçən əsrin 50-ci illərində yaranıb.

Partiyanın XIX qurultayına hesabat məruzəsində G.M.Malenkov qeyd edib ki, sovet həyatının satira üçün material vermədiyini düşünmək doğru deyildir. İrəliyə doğru inkişafımıza mane olan bütün mənfilikləri, çürük və geri qalmış cəhətləri kəskin surətdə satira atəşinə tutub ifşa etmək üçün indi bizə sovet Qoqolları və Şedrinləri lazımdır [38].

Komsomolun 1954-cü il iyun ayındakı XII qurultayında uşaq ədəbiyyatında satira və yumorun az inkişaf etdiyi əsas nöqsanlardan biri kimi qeyd olunaraq göstərilib ki, uşaqlar müsbət qəhrəmanlarla yanaşı, sinifdə və ya kənarda gördükləri nadinc, tənbəl və qorxaq yoldaşlarının obrazlarını da görmək istəyirlər. A.M.Qorki haqqındakı xatirələrinin birində S.Marşak yazırdı ki, Liza adlı məktəblidən aldığı məktub Qorkinin çox xoşuna gəlmişdi. Liza yazırdı: "Əziz Maksim Qorki, mənim səkkiz yaşım var. Gülməli kitabları çox sevirəm". M.Qorki balaca Lizanın məktubuna ciddi əhəmiyyət vermiş və belə nəticəyə gəlmişdir ki, uşaq və yeniyetmələr üçün ədəbiyyatda satira və yumora ciddi fikir vermək lazımdır. Ən ciddi məsələlər barədə duzlu, şirin dillə yazmağı bacarmaq, uşaqları güldürə-güldürə, əyləndirə-əyləndirə tərbiyə etmək lazımdır.

Hələ Azərbaycan yazaçılarının II qurultayı ərəfəsində ədəbiyyat haqqında diskusiyalarda ədəbi prosesdə satira və yumorun yeri və mövqeyi ciddi müzakirə olunmağa başlamışdır. "Ədəbiyyat və incəsənət" qəzetinin "Azərbaycan yazıçılarının ikinci qurultayı qarşısında" adlı baş məqaləsində yazılırdı: "Qurultayımızda yumor, satira, komediya məsələləri ətraflı müzakirə olunmalı, yaranmış komediyaların yaxşı tərəfləri və kəsir cəhətləri göstərilməlidir" [7].

Azərbaycan sovet yazıçılarının II qurultayında "Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti" haqqındakı məruzəsində Q,Musayev milli uşaq ədəbiyyatında satira və yumoru daha da inkişaf etdirməyin, bu janrı dövrün tələbləri səviyyəsinə çatdırmağın zərurililiyini vurğulamışdır. Sovet yazıçılarının II Ümumittifaq qurultayında "Uşaq və gənclər üçün sovet ədəbiyyatı" mövzusunda əlavə məruzə ilə çıxış edən rus yazıçısı S.Marşak sovet ədəbiyyatında satira və yumorun ön mövqedə dayanmasını müsbət hal kimi dəyərləndirmiş, bu sahədə yazan yazıçılara xüsusi diqqət yetirilməsini vacib hesab etmişdir. Azərbaycan sovet yazıçılarının II qurultayında "Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onun qarşısında duran vəzifələr haqqında"kı çıxışında Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri Süleyman Rəhimiov bildirib ki, müxtəlif janrlarda yazılan satirik əsərlərdə boş hırıltı yox, mənalı, məzmunlu gülüş olmalıdır.

Uşaq və gənclər ədəbiyyatında satira və yumorun inkişafı və gələcək taleyi 60-70-ci illərdə və sonrakı onilliklərdə də tənqid və ədəbiyyatşünaslığımızın diqqət mərkəzində olmuşdur. Uşaq ədəbiyyatının mövcud vəziyyətilə bağlı 1972-ci il pleniumunda Hikmət Ziya bildirmişdi ki, uşaq ədəbiyyatını gülüşsüz təsəvvür etmək mümkün deyil. Dünyaya ilk göz açan körpənin böyüklərdən aldığı ilk mənəvi tərbiyə təbəssüm olur. Körpə boy atıb uşaqlıq dövrünün pillələrinə qədəm qoyduqca, bu təbəssümün kəsb etdiyi mənalar da artıq dərinləşir. Artıq o adi əyləncədən beyni düşündürən, yaxşı ilə pisi bir-birindən ayıran eyham, rişxənd istehza kimi çalarları olan bir meyara çevrilir [36].Göründüyü kimi, H.Ziya öz çıxışında müxtəlif yaş dövrlə-

rində uşaq və gənclərin satira və yumoru necə qavradığını, uşaq psixologiyasına bütün bunların necə təsir etdiyini açıb göstərmişdir.

Milli uşaq və gənclər ədəbiyyatında janr əlvanlığı və genişliyi, zənginliyi təmin etmək Azərbaycan Yazıçılar İttfaqının Natəvan adına klubda uşaq ədəbiyyatına həsir edilən müşavirəsindəki məruzələrdə dəfələrlə qeyd olunmuşdur. Mikayıl Rzaquluzadə plenumda demişdir ki, bugünkü uşaq nəsrimizin nöqsanlarından biri də janr məhdudluğudur. Belə ki, yazıçılarımız elmi-fantastik mövzulara, satirik, yumoristik planda yazılmış əsərlərə girişmirlər.

Azərbaycan uşaq ədəbiyyatının müxtəlif dövrlərdəki görkəmli ədəbi şəxsləri xalq yaradıcılığından, ağız ədəbiyyatından bacarıqla istifadə etmiş, folklor janrları əsasında özlərinin ən maraqlı, körpələr tərəfindən sevilə-sevilə oxunan əsərlərini yaratmışlar. Folklor təfəkkürü və ənənələləri uşaq ədəbiyatının yaranması və təşəkkülündə başlıca faktor kimi həmişə böyük əhəmiyyət kəsb etmişdir. Nağıl və əfsanələrimiz, əsatirlərimiz uşaq ədəbiyyatı üçün tükənməz mənbə olmuş, ənənəvi təsir gücünü zaman-zaman qoruyub saxlaya bilmişdir. Milli folklor qaynaqlarında uşaq və gənclərin diqqət və marağına səbəb olan, onları düşündürən, həyəcanlandıran hadisə və sujetlər çoxdur. Odur ki, müxtəlif dövrlərdə uşaq ədəbiyyatımızda şifahi xalq ədəbiyyatına müraciət, qayıdış, ondan yaradıcılıqla bəhrələnmək halları özünü göstərmişdir. Müxtəlif dövrlərdə Azərbaycan yazıçıları folklor motivləri əsasında azyaşlı oxucuların marağına səbəb olan əsərlər yaratmışlar. 1954-cü ilədə "Pioner" jurnalı səhifələrində "Uşaqgəncnəşr" tərəfindən buraxılan əsərlər işıq üzü görmüşdür. Əli Vəliyevin "Səlimin nağılları", "Ağ qoç, qara qoç", M.Rzaquluzadənin "Dəniz nağılı", Ə.Əlibəylinin "Qurd nağılı", Zeynal Cabbarzadənin "Tülkü və qaban", M.H.Təhmasibin "Çiçəkli dağ" əsərlərində nağıllarımıza xas olan mərdlik, mübarizlik, iradəlilik, saf və təmiz məhəbbət uğrunda qələbəyə qədər mübarizə aparmaq ideyaları təbliğ olunduğuna görə uşaqlar və gənclər tərəfindən sevilə-sevilə oxunub.

Bildiyimiz kimi, nağıl, əfsanə, əsatir motivlərinə müraciət etməklə sənətkarlarımız balaca oxucuları sadəcə olaraq əyləndirmək istəməmişlər, eyni zamanda uşaq təfəkkürünü və zehnini inkişaf etdirmək, təbiət və cəmiyyət haqqında onlarda konkret təsəvvür formalaşdırmaq məqsədi güdmüşlər: "Ümumiyyətlə, nağıl işləyən yazıçıların əsərlərində cazibədar görünən hadisələr balacaları yalnız əyləndirmək məqsədi güdməyib, oxuduqlarının, gördüklərinin və eşitdiklərinin mahiyyətini dərindən anlamağa kömək edən vasitələr kimi düşünülmüşdür" [74]. Müharibə illərində yazdığı məqalələrin birində S.Vurğun yazırdı ki, əfsanə sözündən qorxmaq lazım deyil. Hər hansı bir əfsanədə bir reallıq, həqiqət izləri var. Əfsanə və nağıllarda işıqla qaranlığın, xeyirlə şərin, doğma ilə yadın, düzlüklə əyriliyin mübarzəsi müşahidə olunur. Əgər bir nağılda, yaxud əfsanədə divlər də iştirak edirsə bu əhvalatı heç bir dilə, məvkurəvi təhlilə çevirmədən, eyni ilə bakir halında uşaqlarımıza tərənnüm edə bilərik" [128].

Bəllidir ki, marksist estetika şifahi xalq ədəbiyyatı janrları və motivlərindən istifadə edərkən, əsrlərdən bəri xalq təfəkküründə və zehnində yaşayan nağıllardan, əfsanə və rəvayətlərdən, dastanlardan ideoloji-siyasi mübarizədə bir vasitə kimi istifadə edir, bəzən daha da irəli gedərək folklorun sinfi xarakterdə olduğunu təbliğ etməyə çalışırdılar. Sovet ideologiya mexanizminin hələ çox güclü olduğu bir dövrdə, S.Vurğun uşaq ədəbiyyatında milli folklor qaynaqlarından faydalanarkən, məfkurə məsələlərinə önəm verməyi zərərli hesab edirdı.

50-60-cı illərdə də eyni tendensiya-uşaq ədəbiyyatında folklor qaynaqlarından lazımınca istifadə etməyə ədəbi tənqid və ədəbiyyatşünaslığımız xüsusi diqqət yetirirdi. Mikayıl Rzaquluzadə "Azərbaycan sovet uşaq ədəbiyyatında mövzu və keyfiyyət məsələsi" məqaləsində azyaşlılırın qədimdən indiyə kimi folklor qaynaqlarına həvəs göstərməsini, bu əsərlərdə yeniyetməlrin tərbiyə işi üçün çox gərəkli olan cəhətlərin olmasını diqqət mərkəzinə çəkmişdir. Müəllif Əli Vəliyevin "Madarın dastanı", Əyyub Abbasovun "Məlikməmməd", M.Təhmasibin "Çiçəkli dağ" əsərlərini bu sahədəki müvəffəqiyyətimiz

kimi qeyd etmişdir. M.Rzaquluzadənin fikrincə, uşaqlar üçün maraqlı, cəlbedici bir janr olan nağılların, təmsillərin mövzu dairəsini yalnız keçmiş zaman, məkan, xəyal və heyvanlar aləmi ilə məhdudlaşdırmaq doğru deyil. Bu sahədə müasir mövzuda əsərlər də yaratmaq mümkündür.

M.Rzaquluzadə folklor janrlarına müraciət edən bəzi sənətkarları keçmişlə müasir dövr, ədəbi ənənə ilə müasir ədəbi-tarixi proses arasında əlaqə yarada bilməməkdə, nağıl dilini "ədəbi" kitab dilinə çevirməkdə, nağıl motivində yazılan əsərlərə fəhlə, kolxozçu, ziyalı obrazı gətirməkdə qınayır və bu cür hallara yol verənlərin əsərlərinə uşaqların həvəs göstərməməsini təbii hal kimi qəbul edirdi: "Folklordan istifadə edərkən, bəzi yoldaşlar dədə-babadan qalma nağıllarımızı "müasirləşdirirlər". Məsələn "Şəngülüm, şüngülüm, məngülüm" nağılında keçini az qala kolxoz dəmirçixanasına gətirir, nağıl dilini "ədəbi" kitab dilinə çevirirlər [101,s.118]. M.Rzaquluzadə belə qənaətə gəlir ki, uşaqlar müasir elmin kəşfləri ilə yaxından maraqlandıqlarına baxmayaraq, nağıllar dünyasının cazibəsindən də ayrıla bilmir, bu texniki tərəqqi zamanında da Zümrüd quşunun və Məlikməmmədin sehrli dünyasını sevirlər.

Məqalə müəllifi uşaq ədəbiyyatında yeni, orijinal, müasir dövrlə səsləşən əsərlərin yaranmasını müsbət qarşılamaqla yanaşı, bu sahədəki nöqsanlara da göz yummamış və göstərmişdir ki, folklor əsasında uşaq ədəbiyyatı yaratmaq məsələsi hələ lazımi səviyyəyə qaldırılmamışdır. Bu əsərlər bədii sənətkarlığına görə də diqqəti o qədər cəlb etmir.

Akademik Bəkir Nəbiyev Azərbaycan yazıçılarının 1971-ci ildəki V qurultayındakı çıxışında milli uşaq ədəbiyyatının bir sıra yaradıcılıq problemləri kimi, folklorla daxili bağlılığı məsələlərinə də toxunmuş və bildirmişdir ki, nağıl işləyən yazıçıların əsərlərində cazibədar görünən hadisələr balacaları yalnız əyləndirmək məqsədi güdmür, oxuduqlarının, gördüklərinin və eşitdiklərinin mahiyyətini dərindən anlamağa kömək edən vasitələr kimi düşünülmüşdür. Azyaşlıların bilik səviyyəsinə və bədii zövqünə müvafiq ifadə vasitələri, obrazlar tapıb təsvir etmək yolu ilə həmin yazıçılar öz əsərlərində vacib tərbi-

yəvi nəticə, gərəkli ictimai məzmun verməyə nail olurlar: "Belə olduğu üçün də müəlliflə oxucu arasında səmimi ünsiyyət yaranır, əsərin məqsədi haqqında uzun nəsihətlərə, qeyri-bədii didaktik söhbətlərə ehtiyac qalmır"[91, s.155].

Əvvəlki onilliklərlə müqayisədə 60-70-ci illərdə ədəbi fikrimiz uşaq ədəbiyyatında folklor qaynaqlarına daha çox diqqət yetirməyə başladı. Uşaq ədəbiyyatı ilə bağlı 1972-ci il fevral plenumundakı müxtəlif çıxışlarda və plenumun qərarlarında şifahi xalq ədəbiyyatı ənənələrindən necə faydalanmağın yolları ilə bağlı konkret fikirlər söyləndi, maraqlı mülahizələr irəli sürüldü, həmin mövzuda yazan yazıçıların əməyini Əmrah Əmrahov belə qiymətləndirib: "Ədəbiyyətımızın ağsaqqalları olan Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev və b. uşaqlarımız üçün ardıcıl olaraq hekayə və povestlər yazır, xalqımızın qədim irsi olan nağıllarımız, əfsanələrimiz, rəvayətlərimiz haqqında uşaqlarla bədii, gözəl dillə danışır, müasir uşaqlarımz və onların nəcib işləri haqqında da yazmağı unutmurlar" [36].

Sosialist realizmi estetikasında ideya-məzmun, mövzu aparıcı mövqeyə malik olduğuna görə, poetika məsələləri ikinci plana keçmişdir. Rus uşaq ədəbiyyatının ən yaxşı nümunələrini yaradan S.Marşak 1927-ci ildə M.Qorkiyə göndərdiyi məktubunda həmin məsələyə toxunaraq yazırdı ki, bizim işimizə pedaqoqların münasibəti çox mane olur. Onlar isə təəssüf ki, uşaq ədəbiyyatının, demək olar ki, yeganə tənqidçiləri və resenziyaçılarıdır. Onlar əsəri, demək olar ki, həmişə yalnız mövzusuna görə qiymətləndirirlər. Bununla da açıq-aydın istedaddan məhrum əsərlərə rəy verirlər.

Sovet hakimiyyətinin 70 il mövcud olduğu zaman kəsiyində milli uşaq ədəbiyyatlarının hamısında müşahidə olunan bu cür nöqsanlar uşaq ədəbiyyatının problemlərinə həsr olunan 1972-ci il fevral plenumunda müzakirə olunmuş, vəziyyətdən necə çıxmağın yolları göstərilmişdir. Plenumdakı çıxışında Ayaz Vəfalı qeyd edib ki, hadisələri bir stenoqraf kimi qeydə almaq, uşaq psixologiyasına dalmağı bir növ uşaqlıq etməkdə görmək, balacaların xarakterik hərəkətlərinin poetik mənasını

kəşf etməkdənsə, zahiri təsvirinə aludə olmaq bu günkü uşaq ədəbiyyatının əsas sənətkarlıq qüsuru sayıla bilər [36].

Azərbaycan Yazıçılar İttifaqının Uşaq ədəbiyyətının vəziyyəti ilə bağlı 1972-ci il plenumunda qeyd olunmuşdur ki, uşaq ədəbiyyatı yalnız kiçiklər üçün yazılmış hekayə, şeir, povest və bədii yazılardan ibarət deyildir. Plenumdakı çıxışında Nəriman Süleymanov deyib ki, elmi kütləvi yazılar da uşaq ədəbiyyatını zəngindəşdirir. Müasir elmlərin qarşısında duran mühüm problemlərlə uşaq və yeniyetmələri, nəinki tanış etmək lazımdır, hətta ən vacib işlərdən biridir. Fizika, kimya, kosmanaftika və s. elmlərin gələcəyi bu gün məktəbli formasında oturan uşaqları gözləyir [36].

Yenə həmin plenumda Ayaz Vəfalı deyib ki, elmi-texniki nailiyyətləri uşaqlara təbliğ edən, başa salan, onların özlərini kəşflər etməyə həvəsləndirən fantastik əsərlər, pioner həyatını, müxtəlif millətlərdən olan uşaqların dostluğunu və başqa bu kimi mühüm mövzuları yüksək bədii səviyyədə əks etdirə bilən əsərlər yaratmaq qayğısı yazıçılırmızı rahat buraxmamalıdır [36].

Azərbaycan Yazıçılar İttifaqının Uşaq ədəbiyyatına həsr olunan 1972-ci il plenumunda Sovet İK PMK-nın və SSRİ Nazirlər Sovetinin «Sovet uşaq ədəbiyyatını daha da inkişaf etdirmək haqqında» 1969-cu il 26 mart tarixli, MK-nın «Ədəbi bədii tənqid haqqında» 1972-ci il tarixli qərarlarında ədəbiyyatımız, o cümlədən də uşaq ədəbiyyatı qarşısına mühüm və ciddi vəzifələr qoyulmuşdur. Qeyd olunmuşdur ki, uşaq ədəbiyyatı dövrün tələbləri səviyyəsində deyil, sənətkarlıq məsələlərinə o qədər də fikir verilmir, məzmun və forma cəhətdən sanballı əsərlərin yaranmasına böyük ehtiyac var.

Azərbaycan uşaq ədəbiyyatını müasir tələblər səviyyəsinə yüksəltmək, onun yaradıcılıq imkanlarını genişləndirmək məqsədi ilə Azərbaycan Yazıçılar İttifaqının plenumu qərara alıb: Uşaqlarımızı gözəl insani keyfiyyətlər, vətənpərvərlik, çalışqanlıq ruhunda tərbiyə edən əsərlər yaratmaq; Həmin əsərlərin yalnız ideyaca deyil, bədii keyfiyyətinə görə də fərqlənməsini təmin etmək; Uşaq və yeniyetmələr üçün buraxılan ki-

tabların nəşriyyatlarda tirajını çoxaltmaq; Uşaq kitablarının bədii tərtibatına və poliqrafiyasına xüsusi fikir vermək və s.

Bu cəhətdən tənqidçi-ədəbiyyatşünas Şirindil Alışanovun «Sözün estetik yaddaşı» kitabındakı « Əyanilik və konkretlik» məqaləsi haqqında ayrıca danışmağa ehtiyac var. Məqalədə müəllif müasir uşaq poeziyasının konkret zaman kəsiyində - daha dəqiq desək, 60-70-ci illərdəki poetik mənzərəsi haqqında dolğun təsəvvür yaradılıb. Müasir şeirin bədii quruluşundakı yeniləşmə prosesi, yeni duyum və düşüncə tərzi, poeziyasının ideya-poetik təkamülü, uşaq poeziyasına tənqidin laqeyd münasibəti ilə bağlı konkret faktlara müraciət edən müəllif, əsas diqqəti cağdaş poeziyanın ümumi və fərdi cəhətlərinə, qarşılıqlı təsir və bəhrələnmə məsələlərinə, ayrı-ayrı yazıçıların fərdi poetik yaradıcılığına yönəldib. Müxtəlif dövrlərdə uşaq şeirində kəmiyyətin keyfiyyəti üstələməsini, bədii material bolluğunun məzmun-forma, janr, üslub axtarışlarına mane olduğunu xüsusi vurğulayıb.

Şirindil Alışanovun məqaləsində çağdaş şeirin örnəyi kimi R.Rza, M.Dilbazi, M.Rzaquluzadə, T.Elçin, İ.Tapdıq, M.Aslan, T.Mütəllimov yaradıcılığına müraciət olunub, fikrin inandırıcı əyani, konkret detal və obrazlarla ifadəsi çağdaş şeirin əsas nailiyyəti kimi dəyərləndirilib.Təbiətə, folklora yeni qayıdışın ən uğurlu yolu göstərilib: « Təbliğ olunan fikirlər çox vaxt təbiət obrazları vasitəsi ilə əyaniləşir.Lakin təbiət elə tükənməz, elə füsunkardır ki, onun bədii lövhələrindəki rəngarənglik mövzu oxşarlığını nəzərə çarpdırmır, əksinə oxşarlıqda müxtəlifliyin cizgilərini duymaq şair istedadının təsdiqinə çevrilir. Belə məqamlarda dərin müşahidəçilik qabiliyyəti şairə ilk baxışda heç bir bədii dəyər kəsb etməyən hadisəyə poetik məna verməkdə, müəyyən tərbiyəvi fikrin ifadəsində geniş imkan yaradır» (140,s.185)

Ədəbiyyatımızda sənətkarlıq problemi tənqid və ədəbiyyatşünaslığımızın həmişə diqqət mərkəzində olmuş, uşaq bədii irsində janr, üslub, poetika məsələləri filoloji fikrin əsas qayğılırından birinə çevrilmişdir.

UŞAQ ƏDƏBİYYATININ TƏDQİQİ TARİXİ

Uşaq ədəbiyyatının tədqiqi və öyrənilməsi bütün dövrlərdə milli tənqid və ədəbiyyatşünaslığın diqqət mərkəzində olmuşdur. Onun öyrənilməsi tarixinin başlanğıcı XIX əsrin ikinci yarısında ilk anadilli məktəblərin açılması, bu məktəblərdə tədris olunmaq üçün Azərbaycan dilində dərsliklərin meydana çıxması dövrünə təsadüf edir. Həmin dövrdə yeni dərsliklər haqqında dövrü mətbuatda müxtəlif məqalə və resenziyalar dərc olunurdu ki, Azərbaycan uşaq ədəbiyyatının öyrənilməsi tarixini həmin yazılarla başlamaq olar.

XX əsrin əvvəllərində milli ədəbiyyatın müxtəlif dövrləri və sahələri ilə birlikdə, uşaq ədəbiyyatına və onun öyrənilməsinə xüsusi diqqət yetirən və bu sahə ilə sistemli şəkildə məşğul olan ədiblərimizdən biri də F.Köçərli idi. O, A.Şaiqə yazdığı məktublarında uşaqlar üçün yazdığı şeirlərə öz münasibətini bildirir, ibtidai məktəblərdə tədris olunan dərsliklərə yüksək qiymət verirdi. Ədib eyni zamanda xalqı maarifləndirmək, ona yaxşı ilə pisi tanıtmaq, uşaq və gənclərin dünyagörüşünü zənginləşdirmək məqsədi ilə dram əsərləri yazmağı məqsədəuyğun hesab edir və A.Şaiqin "Gözəl bahar" pyesi haqqında fikirlərini belə bölüşdürürdü: "Qızlara bir pərdədə "Bahar xanım" ünvanında yazdığınız mənzumə bəd deyil, ondan yaxşı operetta meydana gələr…Bu barədə Üzeyir Hacıbəyovla məsləhət ediniz…"Bahar xanım" qızlar və uşaqlar üçün ən xoşagələn və münasib operetta ola bilər". (115, s.279)

Məktublarından məlum olur ki, A.Şaiqin ibtidai siniflərdə tədrisi nəzərdə tutulan dərsliklərinə M.Ə.Sabirin uşaq şeirlərini salmağı F.Köçərli məsləhət görmüşdür. O, A.Şaiqin 1912-ci ildə çapdan çıxan "Gülzar" dərsliyi barəsində də maraqlı fikirlər söyləmişdir: "Gülzar"da təlim və tədrisə layiq məlumat çoxdur. Belə ki, ali siniflərdə oxuyan şagirdlərə ən yararlı və ən münasib kitabdır. Xüsusən onun üçüncü hissəsi mənə xoş gəldi". (115,s.278) Bu da maraqlıdır ki, ədib "Gülzar"dakı

nöqsanlara da göz yummamış, dərslikdəki dil xətalarının gələcəkdə düzəldilməsini məsləhət görmüşdür.

Uşaq və yeniyetmələrin təlim-tərbiyəsinə, milli ruhda böyüməsinə, vətənpərvərliyinə çox diqqət yetirən ilk ədəbiyyat tarixçimiz XX əsrin əvvəllərindəki maarif sistemindən milli dilləri sıxışdırıb sıradan çıxarmaq siyasətinə öz etirazını bildirir, eyni zamanda əqidə dostu A.Şaiqin hazırladığı dərs proqramlarını alqışlayırdı: "Proqramların cümləsindən ziyadə siz tərtib etdiyiniz mənə xoş gəldi. Əgər yazdığınız maddələrin cümləsinə əməl olunarsa, onda sizin şagirdlər kursu tamam etdikdə türkcə də gərəkdir yaxşı savadlı olsunlar; buna da mənim şəkkim yoxdur. Hər bir peşənin və elmin təlim və tədrisində müəllimin vücudu böyük şərtdir." (115, s.279)

F.Köçərli öz müasirlərinə yazdığı məktublarında olduğu kimi, iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi materialları"nda da klassik irs və uşaq ədəbiyyatı məsələlərinə xüsusi yer vermişdir. İlk ədəbiyyat tarixində şifahi xalq ədəbiyyatına, onun ayrı-ayrı növlərinə geniş yer ayırması da bununla bağlıdır. Təsadüfi deyildir ki, şifahi xalq nümunələrindən ibarət olan "Balalara hədiyyə" toplusu da ibtidai məktəb şagirdləri üçün nəzərdə tutulmuşdur: "F.Köçərli gənc nəsli düzgün tərbiyə etmək, onda vətənə, xalqa, onun dilinə məhəbbət duyğuları oyatmaq üçün uşaqları hələ kiçik yaşlarından şifahi ədəbiyyat nümunələri ilə tanış etməyi ilkin tərbiyə üsullarından sayır və bunu valideynlərə məsləhət görürdü". (66, s.47)

Uşaq ədəbiyyatında dil məsələsinə daha çox diqqət yetirən ədibimiz Q.Zakirin bir neçə mənzum hekayəsini "Balalara hədiyyə" kitabına salmışdı. "Azərbaycan ədəbiyyatı tarixi materialları" nın birinci cildindəki" Qasım bəy Zakir "Təxəllüs" məqaləsində "Necə ki, bir millətin danışdığı dil itib-batmayıbdır, o millət özü dəxi itib-batmayacaqdır və həyat üzrə bağlı qalacaqdır"- deyə bədii yaradıcılıqda dilin sadəliyinə, oynaqlığına üstünlük verir, böyük rus pedaqoqu K.D.Uşinskinin bu sahədəki fikirlərini örnək kimi sitat gətirirdi. Göründüyü kimi, F.Köçərli rus pedaqogika elminin nailiyyətlərinə bələd olmuş, onun təlim-tərbiyə, tədris üsullarını mənimsəmiş, uşaq və yeni-

yetmələrin bədii əsərlərin məzmununu, ideya istiqamətini dərk etmələri üçün birinci növbədə sənətkarlıq məsələlərinə, o cümlədən dilin sadəliyinə fikir verməyi vacib hesab etmişdir.

Görkəmli bir pedaqoq kimi F.Köçərli klassik irsimizin orta əsrlər dövrünü tədqiq edəndə də həmin ədəbi nümunələrdə uşaqlar üçün gərəkli olan epizodlar axtarır, dərin təhlilini verirdi. "Molla Məhəmməd Bağdadi, Füzuli "təxəllüs" məqaləsində "Leyli və Məcnun"un ideya-estetik xüsusiyyətləri barədə ətraflı məlumat verdikdən sonra, orta əsrlər Şərq humanizminin şah əsərinin uşaq və yeniyetmələrin də sevə-sevə oxuduğunu, poemanın tədris ocaqlarında öyrənildiyini diqqət mərkəzinə çəkib: "Hətta bu axır vaxtlara kimi onun divani qəzaliyyəti və "Leyli və Məcnun" hekayəsi məktəblərdə təlim kitabı olub, uşaqlara ondan dərs verilirdi. İndi də köhnə məktəblərdə təlim almış adamlardan hər birisini dindirsən, "Leyli və Məcnun" hekayəsinin ibtidasını-"Dehqani-hədiqeyi-hekayət, Sərrafi-cəvahiri-rəvayət…." başlayıb əzbərdən oxuyacaqdır". (66, s.90)

İlk ədəbiyyat tariximizin S.Ə.Şirvani yaradıcılığı ilə bağlı hissəsində də böyük ədibimiz şairin məktəbdarlıq fəaliyyətinə ciddi diqqət yetirmiş, o dövrdə ana dilində dərs vəsaitləri olmadığına görə təkcə "xoş məzmun və ibrətamiz nəqlü hekayələr" (67,s.93) toplayıb uşaqlara oxutdurmasını qeyd etmişdir: "Mərhumun tərtib etdiyi kitabdan bir nüsxəsi ki, öz dəst-xətti ilə yazılmışdır, sabiqdə müsəlman şöbəsinin inspektoru olan mütəvaffa Çernyayevskiyə göndərmişdir. Həmin hekayələrdən bir neçəsini Çernyayevski "Vətən dili" nam kitablarına salmışdır". (67, s.33)

F.Köçərli S.Ə.Şirvaninin Çernyayevskiyə göndərdiyi 3 hissədən ibarət olan kitabçanın məzmununu da açıb göstərmişdir. Birinci hissə Şeyx Sədinin "Gülüstan" və "Bustan" kitablarından və bəzi şairlərin türk dilinə tərcümə olunan nəsihətamiz hekayələrindən ibarətdir. İkinci dəftərçədə yenə belə məzmunlu hekayələrlə yanaşı 51 öyüd və nəsihət, üçüncü hissədə isə uşaqların əxlaq və mənəviyyatına təsir edən hekayə və təmsillər yerləşdirilmişdir. Bundan əlavə, ilk ədəbiyyat tariximizdəki

"Mirzə Əliəsgər Növrəst" və "Mirzə Kazım Qazı Əsgərzadə Axund Əhmədov "Müttəli" oçerk-məqalələrində həmin şairlərin uşaq ədəbiyyatı ilə bağlı əsərlərindən bəhs olunmuşdur.

Milli uşaq ədəbiyyatının ilk tədqiqatçıları sırasında A.Şaiqin fəaliyyətini xüsusi qeyd etmək vacibdir. Əvvəlcədən qeyd edək ki, Azərbaycan uşaq ədəbiyyatının yaranması onun adı ilə bağlıdır. Böyük romantik sənətkar, pedaqoq, maarifpərvər ziyalı olan A.Şaiq, həm də görkəmli uşaq ədəbiyyatı mütəxəssisi və nəzəriyyəçisidir. "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü" (1909), "Gülzar" (1912) dərslikləri ilə başlayan bu ədəbi-tarixi missiya on illər boyu davam etdirilmiş, neçə-neçə yeni nəslin təlim-tərbiyəsində, təhsilində, maariflənməsində müstəsna xidmətlər göstərmişdir. O, M.Ə.Sabirin və A.Səhhətin elmi bioqrafiyasını yazmış, müxtəlif illərdəki mühazirə və məruzələrində milli uşaq ədəbiyyatını və onun nəzəri əsaslarını təbliğ etmişdir. Azərbaycan müəllimlərinin I, II qurultaylarının hazırlanmasında komissiya üzvü kimi fəaliyyət göstərən A.Şaiq Azərbaycan Xalq Cumhuriyyəti dövründə də uşaq ədəbiyyatı sahəsindəki çoxşaxəli fəaliyyətini davam etdirmişdir. Tədqiqatçılarımızdan birinin çox doğru olaraq qeyd etdiyi kimi "İstiqlal şairlərindən A.Şaiq və Ə.Cavadın səsi daha gur eşidilirdi". (108, s.9)

"Açıq söz", "Azərbaycan" qəzetlərində o, müstəqil dövlətin maarif siyasəti, milli məktəblərin yaranması və təşkili prinsipləri haqqında məqalələr çap etdirir, "İndiyədək milli məktəblərimiz olmadığından xalqımız naminə heç bir şeyimiz yox idi"-deyərək yeni hökumətin elm və maarif sahəsindəki qərar və göstərişlərini alqışlayırdı: "Müəllif kitab və dərsliklərin çatışmazlığını, yeni tələblərə cavab verən müəllimlərin azlığını da məktəb və maarif işinə əngəl törədən səbəblərdən sayırdı". (114)

A.Şaiq əsrin əvvəllərində olduğu kimi, milli hökumətin hakimiyəti dövründə də dərslik və proqram hazırlamaqda davam etmiş, bu iş üçün təşkil edilən hökumət komissiyasının üzvü seçilmiş, yaranmış şəraitdən istifadə edərək 1919-cu ildə "Gülzar" müntəxəbatını və "Uşaq gözlüyü" dərsliklərini təkrar çap

etdirmiş, "Türk çələngi" (1919), "Türk ədəbiyyatı" (1920) adlı yeni dərsliklərini hazırlamışdır. Həmin dərsliklərə klassik Azərbaycan uşaq ədəbiyyatı nümunələri ilə yanaşı, dünya ədəbiyyatı seçmələrindən də bədii parçalar salınmışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra milli uşaq ədəbiyyatı və nəzəriyyəsinin öyrənilməsində yeni mərhələ açılır. Proletar ideoloqlarının marksizmin sinfi mübarizə metodunu ədəbiyyata və incəsənətə gətirməsi uşaq ədəbiyyatı nəzəriyyəsinin işini çətinləşdirmiş, ədəbi tənqid və ədəbiyyatşünaslıq bədii sənətkarlıq məsələlərindən daha çox siyasi-məfkurəvi texnologiyalara sürüklənmişdi.

Proletar ədəbiyyatı və sənətinin klassik ədəbi-mədəni irsə münasibəti də ciddi maraq və narahatçılıqla qarşılanırdı. Tarixdə yeni insan yetişdirmək, yeni sənət növü yaratmaq niyyətinə düşən sovet qurucuları klassik irsdən istifadəni siyasi-ideoloji təbliğatın tərkib hissəsi kimi qəbul edirdilər. Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin I qurultayında (1928) klassik irsdən istifadə haqqında qeyd edilirdi ki, şair və yazıçılarımız "əski bədii ədəbiyyatın klassik şəkillərini öyrənməklə öz siyasi biliklərini artırmaq yolunda çalışmalıdırlar". (6,s.9) Böyüklər üçün olan ədəbiyyatla yanaşı, klassik uşaq ədəbiyyatı da bu görüş bucağından dərk olunur, N.Gəncəvinin, M.Füzulinin, S.Ə.Şirvaninin, Q.Zakirin, A.Səhhətin, M.Ə.Sabirin, A.Şaiqin yaradıcılığından ancaq "klassik şəkillər" ehtiva olunur, ideya-məzmun məsələlərində isə sinfi mübarizə metodologiyasına önəm verilirdi.

Lakin bu da maraqlıdır ki, marksist estetikanın bu konsepsiyası ittifaq miqyasında birmənalı şəkildə qəbul olunmurdu. Voronski, Pereverzev, Piksakov, Kubikov kimi ədəbiyyatşünas nəzəriyyəçilər proletar ədəbiyyatı anlayışını qəbul etmir, proletar sənətinin müvəqqəti, keçici olduğunu qorxmadan bəyan edirdilər. Klassik irsin öyrənilməsi ilə bağlı onların öz konsepsiyası və mövqeyi vardı. Voronski deyirdi: "Proletar diktaturasının keçid dövründə proletar sənəti yoxdur, nə də ola bilməz. Bu dövrün mədəniyyət sahəsindəki vəzifəsi: proletariatın birinci növbədə keçmiş əsrlərin texnikasından, fənnin-

dən istifadə etməsidir". (73,s.22) Deməli, proletar sənətinin əleyhdarları da klassik ədəbiyyatın sənətkarlıq xüsusiyyətini öyrənməyi, ondan faydalanmağı məsləhət görürdülər. Lakin onlar ədəbiyyatın siyasi baxışlara və texnalogiyalara tabe etdirilməsini qəbul etmirdilər.

Marksist estetikanın klassik irsi "təftiş etmək", siyasi baxımından yararsız olanları atmaq, sosialist idealogiyasına uyğun gələnləri qəbul edib, kütləvi nəşr etmək, yaymaq prinsipini Pereverzev, Kubikov, Nişanov, Voronski kimi ədəbiyyat nəzəriyyəçiləri qəbul etmirdilər. Eyni siyasi konyuktura-klassik irsi təftişçilik yolu ilə öyrənmək ideyası uşaq ədəbiyyatı və onun öyrənilməsinə də tətbiq edilirdi: "İnqilabdan əvvəl və sonra yaranmış olan cocuq ədəbiyyatı məhsulları içərisində bu gün üçün yararlı və yenidən nəşr edilməsi faydalı olan əsərlər yox deyildir. Bu yararlı və faydalı əsərləri meydana çıxarmaq üçün cocuq ədəbiyyatının tarixi diqqətlə araşdırılıb elmi əsaslar üzrə öyrənilməlidir. Bu sürətlə də ədəbi irsdən tənqidi yol ilə istifadə etmək əsasında mövcud cocuq ədəbiyyatımızı zənginləşdirə bilərik". (102, s.37)

Uşaq ədəbiyyatını elmi əsaslar üzərində öyrənməyin zəruriliyini irəli sürən müəllif ancaq bu gün üçün yararlı uşaq əsərlərinə önəm verməklə, obyektik-tarixi mövqedən uzaqlaşır, klassik irsi təftiş etməyin tərəfdarı kimi çıxış edirdi. Marksist ideoloqlar yeni proletar cəmiyyətinin qurulmasında uşaq və gənclərin roluna xüsusi diqqət yetirir, həmin sahəni xüsusi nəzarətdə saxlayaraq, inqilabi uşaq ədəbiyyatının yaranması və təşəkkülü məsələsinə külli miqdarda vəsait ayırır, inzibati-amirlik metodlarından istifadə edirdi. ÜİK (b)PMK-nin 1928-ci il "Uşaqlar və gənclər mətbuatını yaxşılaşdırmaq tədbirləri", 1933-cü il 9 sentyabr "Uşaq ədəbiyyatı nəşriyyatı yaratmaq" haqqındakı tarixi qərarları da bu məqsədə xidmət edirdi.

Uşaq ədəbiyyatının ədəbi irsin müstəqil bir sahəsi kimi tədqiqi və öyrənilməsi keçən əsrin 30-cu illərinə təsadüf edir. Partiyanın uşaq mətbuatı və uşaq nəşriyyatı haqqındakı qərarlarından, müxtəlif mətbuat orqanlarında uşaq ədəbiyyatı və nəzəriyyəsi ilə bağlı çoxsaylı məqalələrdən"cocuq ədəbiy-

yatı ilə heç kim məşğul olmur"-kimi ittihamlardan, tənqidi məqalələrdən sonra 30-cu illərin ikinci yarısından etibarən bu sahədə müəyyən canlanma əmələ gəldi. Bu proses təkcə Azərbaycanda yox, ittifaq miqyasında sürətlə gedirdi. Əgər 1933-cü ildə 10 milyon nüsxə uşaq ədəbiyyatı nümunələri çap olunmuşdusa, 1935-ci ildə bu rəqəm 20 milyon nüsxəyə çatdırılmışdı.

30-40-cı illərdə uşaq ədəbiyyatının inkişafı, onun tədqiqi ilə bağlı əsas çətinlik sosialist realizmin uşaq ədəbiyyatına tətbiqi ilə bağlı idi. Ümumiyyətlə, sosialist realizmi nəinki uşaq ədəbiyyatına, eləcə də ədəbi-tarixi prosesin bütün sahələrinə tətbiq etmək o qədər də asan başa gəlmirdi. Hətta bunu 1933-cü ildə ÜİK (b) PMK-nin yanındakı cocuq ədəbiyyatı ilə bağlı çağırılan müşavirədə marksist ideoloq A.Y.Qosarçvin də öz çıxışında etiraf edərək demişdir ki, sosialist realizmi metodunu konkret surətdə necə tətbiq etmək, onu cocuqların fantaziyası, xəyalları, gələcəyə qabaqca baxmaq, istəmək arzuları ilə necə uzlaşdırmaq probemi, cocuq ədəbiyyatında, yaşlılar ədəbiyyatında olduğundan müqayisəedilməz dərəcədə çətindir. Onun fikrincə, kitabçanı sosialist realizmi metodu ilə yazmaq lazımdır, demək olar, lakin həmin metodu cocuq ədəbiyyatına necə tətbiq etmək lazım gəldiyi hamıya bəlli deyil.

Marksist estetikanın uşaq ədəbiyyatşünaslığı və ədəbi tənqidi ilə bağlı tələbləri ifrat dərəcədə yüksək idi və belə demək mümkünsə, ədəbi proses sünii yolla, sürətlə siyasiləşir, ideyaməfkurə məsələləri poetika prinsiplərini üstələyirdi. Şura Yazıçılar İttifaqının I qurultayındakı çıxışında A.Barto deyirdi ki, bizim cocuqlar ikiqat böyüyürlər. Onlar bizim cocuqlara aid olduğu kimi böyüyür və bundan başqa bizim sürətlə boy atan ölkəmiz ilə birlikdə boy atırlar. (110) Beləliklə, bədii düşüncə ölkədə sürət və böyük templə inkişaf edən ictimai-siyasi proseslərə cəlb olunur, heç bir əsas, arqument olmadan ədəbi tənqid də bu prosesdən kənarda qalmırdı. Ona görə də 30-40-cı illərdə milli tənqid və ədəbiyyatşünaslıq uşaq ədəbiyyatı məsələlərinə o qədər həvəs göstərmir, bu vulqar-sosioloji prosesin nə ilə nəticələnəcəyini gözləyirdi. Bütün bunlara baxmayaraq,

M.Rzaquluzadə, M.Seyidzadə, S. Vurğun kimi söz ustalarımız bədii yaradıcılıqla yanaşı, uşaq ədəbiyyatının elmi-nəzəri problemləri ilə də maraqlanır, ayrı-ayrı məqalələrində sosialist realizm ədəbiyyatı və onun nəzəri prinsiplərinin yeri və mövqeyini dəqiqləşdirməyə çalışırdılar.

Milli uşaq ədəbiyyatının dərslik, dərs vəsaiti və ədəbiyyat müntəxabatları səviyyəsində sistemli şəkildə öyrənilməsinə XX əsrin 40-cı illərindən təşəbbüs göstərilib. SSRİ EA Azərbaycan filialının Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən hazırlanan "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (1943-1944-cü illər) ilk elmi ədəbiyyat tariximizi əhatə edən bir nəşr olduğu kimi, milli uşaq ədəbiyyatı tariximiz haqqında da konkret təsəvvür yarada bilmişdir. "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, XX əsrin ictimai-siyasi xülasəsi və başqa hissələrində yeri gəldikdə uşaq ədəbiyyatı ilə bağlı əsərlərə müraciət olunmuşdur. Kitabın A.Bakıxanovdan bəhs edən hissəsində "Qanuni qüdsi"də əyanilik prinsipinə önəm verilməsi əsərin dərslik kimi nəzərdə tutması ilə əlaqələndirilmiş, uşaqların təlim-tərbiyəsində, onların əxlaqi inkişafında "Təhzibi-əxlaq" əsərinin roluna yüksək qiymət verilmişdir. XX əsrin əvvəllərində dövrün ictimai-siyasi mənzərəsinin xülasəsində "Mola Nəsrəddin", "Tuti", "Babayi-Əmir", "Məzəli" jurnallarının uşaq ədəbiyyatının inkişafında xidmətləri qeyd olunmuş, tərbiyə, təhsil, dil, əlifba, elm, incəsənət məsələləri "Molla Nəsrəddin" jurnalının ən mühüm mövzularından idi" - qənaətinə gəlinmişdir.

M.Rzaquluzadə və Ə.H.Qəhrəmanovun pedaqoji məktəblərin uşaq ədəbiyyatı proqramına uyğun olaraq tərtib etdikləri "Uşaq ədəbiyyatı" (pedaqoji məktəblər üçün müntəxabat) (103) dərs vəsaitini də 40-cı illərdə uşaq ədəbiyyatının təbliği və tədqiqi ilə bağlı olan ciddi nəşrlər sırasına daxil edə bilərik. Müntəxabatda təkcə milli folklor, klassik və müasir ədəbi irsimizdəki uşaq ədəbiyyatı nümunələri yer almayıb; rus uşaq ədəbiyyatının A.S.Puşkin, L.N.Tolstoy, Avropa uşaq ədəbiyyatının H.X.Anderson kimi böyük ədəbi şəxsiyyətlərin yaradıcılığından da bədii parçalar verilmişdir. "Uşaq ədəbiyyatı"

müntəxabatı pedaqoji məktəblərin uşaq ədəbiyyatı proqramına uyğun olaraq məktəblərdə tədris olunan nəzəri və tarixi kursa görə təhlili və tədqiq məqsədi ilə tərtib edilmişdir.

Uşaq ədəbiyyatının öyrənilməsi və tədqiqində 60-80-ci illəri xüsusi bir mərhələ kimi qəbul etmək olar. Bu dövr İttifaq miqyasında milli ədəbiyyatlarda azad fikirliliyin, demokratik ideyaların meydana çıxdığı ədəbi mərhələ olduğu kimi, Azərbaycan ədəbiyyatında "qızıl dövr" kimi səciyyələnir. İ.Hüseynov, Ə.Əylisli, Ə.Kərim, M.Araz, B.Vahabzadə, Anar, Elçin kimi ədəbiyyatımıza gələn yeni ədəbi qüvvələr nəsr, poeziya və dramaturgiya sahələrində ideya-məzmun, sənətkarlıq baxımından orijinal bədii əsərlər yaradıblar.

Birmənalı şəkildə deyə bilərik ki, milli uşaq ədəbiyyatı və onun tədqiqi də bu böyük ədəbi nəhrin tərkib hissəsi kimi varlığını təsdiq edir, ədəbi tarixi prosesin müstəqil bir sahəsi kimi klassik ədəbiyyatın ən yaxşı ənənələrinin varisi, davamı olduğunu, yeni estetik keyfiyyətdə üzə çıxdığını sübut edirdi. Bu yenilik, bədii sözün kəsərindən lazımınca istifadə etmək yalnız ayrı-ayrı sənətkarların şəxsi təşəbbüsü və bədii təfəkkürü, yaxud cəsarəti sayəsində özünü göstərmirdi. Uşaq ədəbiyyatının dövrün ədəbi prosesindən kənarda qalmaması üçün partiya və hökumətin qərarları da əsaslı rol oynayırdı.

Bu cəhətdən "Sovet uşaq ədəbiyyatını daha da inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK ilə SSRİ Nazirlər Sovetinin 1969-cu ildə qəbul etdikləri qərarın da əhəmiyyətini xüsusi qeyd etməyə ehtiyac var. Qərarda qeyd edilirdi ki, ölkədə uşaqlar üçün çoxmillətli, bədii cəhətdən yüksək səviyyəli ədəbiyyat yaradılmışdır. Bundan sonra da gənc nəslin kommunist tərbiyəsində sovet uşaq ədəbiyyatının rolunu daha da gücləndirmək, ideya-məzmunu yaxşılaşdırmaq, uşaq kitablarının mövzusunu genişləndirmək, tirajını artırmaq, poliqrafiya bazasını gücləndirmək lazımdır.

60-70-ci illərdə ayrı-ayrı sovet xalqlarının dilində uşaq qəzetləri, jurnalları və kitabları nəşr olunmağa başlamış, həmin illərə qədər gənc oxucular üçün 3 milyard nüsxədən artıq kitab nəşr edilmişdir. Təkcə 1968-ci ildə sovet nəşriyyatları uşaqla-

rın bədii zövqünə uyğun olan 240 milyon nüsxədən artıq kitab buraxmışdır. Bu dövrdə Azərbaycanda uşaqlar üçün iki jurnal və bir qəzet nəşr olunurdu. 60-cı illərə qədər dərslikləri nəzərə almasaq, Azərbaycanda 2 min addan artıq uşaq kitabı buraxılmışdır və bunların ümumi tirajı təxminən 30 milyon nüsxə olmuşdur.

1967-ci ilin əvvəllərində "Gənclik" nəşriyyatı yaradıldıqdan sonra uşaqlar və gənclər üçün nəşr olunan əsərlərin sayı daha da artdı. Eyni zamanda uşaq kitablarının keyfiyyətinə də xüsusi diqqət yetirildi. "Gənclik" nəşriyyatı fəaliyyətinin birinci ilində 598 çap vərəqi həcmində 108 adda kitab və kitabça buraxmışdır. Bütün bunların ümumi tirajı 1 milyon 325 min nüsxəyə yaxın olmuşdur. Bədii tərtibatına və poliqrafik icrasına görə ən yaxşı kitab və jurnallar üçün 1968-ci ildə keçirilən Birinci Zaqafqaziya Respublikalararası müsabiqəsində "Gənclik" nəşriyyatının 4 kitabı-"Məstanın balaları", "Bahar gəlir", "Səkkiz təmsil" kitabları ikinci və üçüncü dərəcəli diplomlara layiq görülmüşdür. Uşaq ədəbiyyatının ideya-məzmununu, bədii keyfiyyətini yaxşılışdırmaq məqsədi ilə 1970-ci ildən etibarən uşaqlar üçün yazılan ədəbi əsərlərə Azərbaycan SSR-in ali dövlət mükafatı təsis edilmişdir.

60-cı illərdə Azərbaycan ədəbiyyatşünaslığında uşaq ədəbiyyatı sahəsində M.Arif, M.C.Cəfərov, Ə.Mirəhmədov, K.Məmmədov, K.Talıbzadə kimi tanınmış alimlər fəaliyyət göstərir, klassik irsimizin görkəmli əbədi simaları olan Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq və başqaları haqqında ayrıca monoqrafiyalar nəşr olunurdu. Həmin tədqiqat əsərlərində milli uşaq ədəbiyyatının, uşaq mətbuatının yaranması və təşəkkül mərhələsi öz əksini tapırdı. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində çapdan çıxan III cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin bu sahədəki fəaliyyətini xüsusi qeyd etmək lazımdır. III cildlikdə uşaq ədəbiyyatı ilə bağlı ayrıca oçerk-məqalələr yer almasa da, ədəbiyyat tariximizin ayrı-ayrı dövrləri ilə bağlı icmal yazılarda, klassik və müasir ədəbiyyatımızda uşaq ədəbiyyatının vacib problemləri, aktual məsələləri öz əksini tapmışdır. Xüsusən II cilddəki F.Köçərli,

A.Bakıxanov, S.Ə.Şirvani, dövrü mətbuat məsələləri ilə bağlı məqalə-oçerklərdə uşaq poeziyası, nəsri və dramaturgiyası ilə bağlı bu gün də elmi əhəmiyyətini saxlayan məsələlər az deyil. II cilddə Ə.Mirəhmədov XX əsrin əvvəllərində yaranan "Dəbistan" (1906), "Məktəb", "Bəhlul" (1907), "Arı" (1910), "Babayi Əmir" (1915-1916), "Kəlniyyət" (1912) jurnalları haqqında ayrıca bəhs etmiş, bu nəşrlərin milli uşaq ədəbiyyatı tarixindəki mövqeyinə aydınlıq gətirmişdir. III cildə də bir sıra ədiblərin yaradıcılığından, ayrı-ayrı ədəbi mərhələlərin spesifik cəhətlərindən bəhs olunarkən, uşaq ədəbiyyatının janr, üslub və yaradıcılıq xüsusiyyətləri barədə qiymətli fikirlər söylənmişdir.

İ. Bəktaşinin "XX əsr uşaq mətbuatında ədəbiyyat" (25) kitabında "Dəbistan" və "Məktəb" jurnallarında çıxış edən A.Divanbəyoğlu, S.M. Qənizadənin nəsr əsərlərindən bəhs olunmuş, rus və farscadan tərcümə olunan əsərlərin uşaq məcmuələrimizdəki dərcindən məlumat verilmiş, eyni zamanda jurnallarda elmin başqa sahələri ilə bağlı verdiyi yazılara da toxunulmuşdur: "Dəbistan" məcmuəsində bədii əsərlərlə yanaşı, məşhur ədəbiyyat, şer, elm və sənət adamlarının həyat və fəaliyyətləri haqqında uşaqlara məlumat verilirdi. Bu münasibətlə məcmuədə Əbu Əli Sina, Nəvai, Hafiz, S.Əzim, H.Zərdabi, Cami, Edisson, Kolumb və başqaları haqqında xeyli material dərc olunmuşdur". (25, səh.56)

Əbdül Əzizovun "Azərbaycan sovet uşaq ədəbiyyatının inkişaf yolu" (46) əsəri milli uşaq ədəbiyyatının 1920-1945-ci illərini əhatə edir. Burada tədqiqatçı sovet uşaq ədəbiyyatı və nəşriyyatının yaranması, uşaq ədəbiyyatında vətənpərvərlik və humanizm, məktəb, ailə tərbiyəsi və əmək məsələləri ilə bağlı sırf elmi-pedaqoji problemlər ətrafında maraqlı fikirlər irəli sürmüşdür.

70-80-ci illərdə İttifaq miqyasında ədəbi tənqid və ədəbiyyatşünaslığın gücləndirilməsi istiqamətində ciddi addımlar atıldı. Sov.İKP MK-nın "Ədəbi-bədii tənqid haqqında" xüsusi qərarı ayrı-ayrı respublikalarda milli ədəbi tənqidin nəzəri səviyyəsinin, metodoloji bazasının yüksəldilməsinə stimul verdi.

Ədəbi tənqidin cəmiyyətin ictimai-sosial tərəqqisindəki rolunu artırmaq məqsədi güdən həmin qərarın təsiri tezliklə Azərbaycanda da özünü göstərdi. Milli ədəbiyyatımızda realizm və romantizmin tipologiyası, təsnifatı, tənqid tariximizin tarixi təcrübəsi, onun nəzəriyyəsi, tənqid və çağdaş ədəbi-tarixi proses və s. problemlər ətrafında geniş diskusiyalar keçirildi. 1972-ci ildə Bakıda çağrılan "Sovet Şərqi xalqlarının ədəbiyyatında realizm" problemi ilə bağlı keçirilən Ümumittifaq müşavirəsi təkcə Sovet Şərqi xalqlarının ədəbiyyatında realizmin tarixi təşəkkülü və inkişaf mərhələlərini müəyyənləşdirməklə kifayətlənmədi. Milli ədəbiyyatlardakı romantizm və onun estetik konsepsiyası da əhatəli şəkildə mübahisə predmetinə çevrildi.

Bütün bunlar 70-80-ci illərdə tənqid və ədəbiyyatşünaslığımızda, milli filoloji, pedaqoji fikrimizdə uşaq ədəbiyyatı, onun nəzəriyyəsi, uşaq ədəbiyyatı və pedaqoji problemlərlə bağlı sanballı monoqrafiyalar, elmi-tədqiqat əsərləri yazıldı. Həmin dövrdə uşaq ədəbiyyatı təkcə filologiyamızın yox, həm də pedaqoji fikrimizin başlıca, mühüm qayğısı kimi meydana çıxmışdı. Bu cəhətdən Zahid Xəlilin "Azərbaycan uşaq ədəbiyyatı" (M., 1987), Əbdül Əzizovun "Uşaqların sevimliləri" (Bakı, "Gənclik" 1978), Əflatun Məmmədovun "Azərbaycan uşaq ədəbiyyatı" (Bakı, "Elm", 1977), Camal Əhmədovun "Uşaq və zaman" (Bakı, "Yazıçı", 1985), Qara Namazovun "Azərbaycan uşaq ədəbiyyatı" (Bakı, "Yazıçı", 1984), Fərhad Fərhadov və Aydın Hacıyevin "Azərbaycan uşaq ədəbiyyatı tarixi" (Bakı, "Yazıçı", 1986) əsərlərinin uşaq ədəbiyyatı tariximizin öyrənilməsi sahəsindəki mövqeyi diqqətəlayiqdir.

Respublikamızda uşaq ədəbiyyatının ən yaxşı nümünələrini yazan, uşaq və gənclər ədəbiyyatının nəzəri məsələləri ilə sistemli məşğul olan Zahid Xəlil 70-80-ci illərdə daha səmərəli fəaliyyət göstərirdi. Uzun müddət respublikanın ali məktəblrində uşaq ədəbiyyatından mühazirələr oxuyan Zahid Xəlil həmin ədəbiyyatın spesifik xüsusiyyələrini, xüsusi yaradıcılıq sahəsi olmasını davamlı şəkildə yeni nəslə öyrətmiş, bununla yanaşı nəzəri biliyini bədii yaradıcılığa da tətbiq etmiş, XX əsr milli uşaq ədəbiyyatının mükəmməl nümunələrini meydana çı-

xarmışdır. Deməliyik ki, Zahid Xəlilin"Azərbaycan uşaq ədəbiyyatı" (M., 1987) tədqiqat əsəri təkcə bir neçə onilliyin yox, ümumən XX əsr tənqid və ədəbiyyatşünaslığımızın uşaq ədəbiyyatı və onun öyrənilməsi sahəsində ən yaxşı, nəzəri cəhətdən mükəmməl elmi əsərlərindəndir. Həmin tədqiqat əsəri müasir uşaq nəzəri fikrinin müasir nailiyyətləri kontekstində yazılmaqla bərabər, ədəbi fakt və sənəd zənginliyi, elmi-metodoloji təzəliyi ilə də diqqəti cəlb edir. Ədəbi fakt və hadisələri dərin elmi nəzəri ümumiləşdirmələrlə müvazi şəkildə tədqiq etməsi Zahid Xəlilin uşaq ədəbiyyatı sahəsindəki elmi axtarışlarının məzmunu və sanbalını daha da artırıb. Alimin ən böyük xidmətlərindən biri də budur ki, o milli uşaq ədəbiyyatının tarixi və nəzəriyyəsini o dövrdə ittifaq miqyasına çıxara bilib. Keçmiş sovet hakimiyyəti məkanında Azərbaycan uşaq ədəbiyyatının mövcud nailiyyətlərini təbliğ etməyə nail olub ki, bu da Zahid Xəlilin tənqid və ədəbiyyatşünaslığımızdakı ən böyük xidmətlərindən biridir. .

Əbdül Əzizovun "Uşaqların sevimliləri", Əflatun Məmmədovun "Azərbaycan uşaq ədəbiyyatı" əsərləri XX əsrin əvvəllərində uşaq mətbuatı və həmin orqanlarda fəliyyət göstərən ədiblərimizin uşaq əsərləri barədə yeni arxiv materialları, yeni sənəd və ədəbi faktlarla zəngindir. Əflatun Məmmədovun tədqiqatı uşaq jurnallarında nəsr, poeziya, bədii tərcümə və elmi-kütləvi ədəbiyyat məsələlərini əhatə edir. Müəllif XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin yeni tipli mətbuat uğrunda apardığı mübarizəni, "Dəbistan", "Məktəb" və "Rəhbər" jurnallarının uşaq mətbuatımızın, eləcə də milli-mənəvi oyanışın və mədəni tərəqqinin flaqmanı olduğunu elmi əsaslarla oxuculara çatdıra bilmişdir. Burada milli uşaq ədəbiyyatının ilk örnəkləri və onların dərc olunduğu mətbuat orqanları barədə kifayət qədər elmi-ədəbi məlumat əldə etmək mümkündür.

Fərhad Fərhadov və Aydın Hacıyevin "Azərbaycan uşaq ədəbiyyatı tarixi" (47) dərs vəsaitində uşaq ədəbiyyatı və onun əsas xüsusiyyətləri, sovet hakimiyyətinə qədərki dövrdə yaranan uşaq dərslikləri, uşaq mətbuatı tarixi obyektiv-tarix möv-

qedən tədqiqata cəlb olunub. Burada Azərbaycan şifahi xalq ədəbiyyatı və onun uşaq ədəbiyytı ilə bağlı olan janrları əhəmiyyətli dərəcədə öyrənilmişdir. Uşaq ədəbiyyatının spesifikası, mahiyyəti, uşaqların yaş və bilik səviyyəsi ilə bağlılığı haqqında konkret fikir formalaşdıran müəlliflər uşaq ədəbiyyatını yaş dövrünə görə dörd qrupa bölüb: 1.Bağça yaşlı uşaqlar üçün ədəbiyyat (3-7 yaşlılar üçün); 2.Kiçik yaşlı uşaqlar üçün ədəbiyyat (7-11 yaş arası); 3.Orta yaşlı uşaqlar üçün ədəbiyyat (11-15 yaş arası); 4.Böyük yaşlı məktəblilər üçün ədəbiyyat (15-17 yaş arası).

70-80-ci illərdə uşaq ədəbiyyatının öyrənilməsi, onun mükəmməl və sistemli tarixinin yaradılmasında Qara Namazovun "Azərbaycan uşaq ədəbiyyatı" (87) dərs vəsaitinin əhəmiyyətindən ayrıca bəhs etməliyik. Dərs vəsaiti milli uşaq ədəbiyyatının bütün dövrlərini əhatə edir. Azərbaycan folklor qaynaqları, orta əsr romantik poeziyamızdan üzübəri maarifçi realist ədəbiyyatımız da daxil olmaqla sovet dövrü uşaq ədəbiyyatının ayrı-ayrı mərhələlərini tədqiqat predmenti kimi götürən Qara Namazov hər dövrün ideya-məzmun və sənətkarlıq axtarışlarına ciddi diqqət yetirmiş, nəinki klassik uşaq yazıçılarının, həm də müasirlərimiz olan Məmməd Aslan, Zahid Xəlil, Xalidə Hasilova, Ələviyyə Babayeva, Əzizə Əhmədova və başqalarının da yaradıcıllığına diqqət yetirmişdir.

Müsdəqillik dövründə milli-ədəbi tarixi prosesin bütün sahələrində yeniləşmə, kökə, ənənəyə qayıdış, insanların həyatına, məişətinə yeni baxış, bədi düşüncənin təzələnməsi özünü göstərdiyi kimi, ədəbi estetik fikrimizdə də metodoloji baxımdan yenidənqurulma prosesi baş verdi. Şübhəsiz ki, uşaq ədəbiyyatı, onun nəzəri dərki bədii estetik fikirdəki durulma və təzələnmədən kənarda qala bilməzdi. Yeni yaranan uşaq əsərləri ideoloji-siyasi çərçivədən, sosialist realizminin nəzəri modelindən azad oldu. Çağdaş tənqid və ədəbiyyatşünaslıq uşaq ədəbiyyatının poetik qaynaqlarına, sənətkarlıq məsələlərinə daha çox diqqət yetirməyə başladı. Milli şüurda baş verən əsaslı yeniliklər bədii düşüncənin predmetinə çevrildi: əvvəlki illərdəki mücərrəd vətənpərvərliyi, saxta sosialist beynəlmiləl-

çiliyini əsl vətənpərvərlik, müstəqilliyin qədrini bilmək və onu qorumaq təsəvvürü və istəyi əvəz etdi. Ancaq bu zaman sovet hakimiyyəti dövründə toplanan təcrübədən, müsbət ədəbi ənənələrdən, yüksək bədii və elmi meyarlardan imtina edilmədi. Əsrlər boyu uşaq ədəbiyyatında əldə olunan nailiyyətlər daha da möhkəmləndirildi.

Azərbaycan uşaq ədəbiyyatının problemləri Azərbaycan Yazıçılarının X qrultayında (1998) geniş müzakirə olunmuş, bu sahədə olan nöqsan və çatışmazlıqlar ətrafında ciddi diskusiyalar aparılmışdır. Qurultaydan sonra yazıçıların uşaq ədəbiyyatına həsr olunan müşavirəsində şer, nəsr, dramaturgiyada uşaq əsərlərinin mövcud vəziyyəti ətraflı müzakirə olunmuşdur. Müşavirədə uşaq ədəbiyyatı mütəxəssisi Qara Namazov geniş məruzə söyləmiş, müxtəlif məsələlər ətrafında Mustafa Çəmənli, Əzizə Əhmədova, Zahid Xəlil, Əli Səmədli, Arif Əmrahoğlu maraqlı fikirlər səsləndirmişlər. Qara Namazov müstəqillik illərində çap olunan uşaq əsərlərini-tərcümə olunan milli klassik ədəbiyyatı, eləcə də dünya uşaq ədəbiyyatını diqqətlə təhlildən keçirib. Mahirə Əliyevanın, Rüzgar Əfəndiyevanın, Nizami Saraclının uşaq əsərlərinin ideya-estetik keyfiyyətlərinin ildən-ilə yüksəldiyini nəzərə çatdırmışdır.

Xeyrulla Məmmədov və Ağahüseyn Həsənovun "Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı"nda (80) XIX XX əsrlər Azərbaycan uşaq ədəbiyyatının ən yaxşı nümunələri yer alıb. Qara Namazovun çoxillik gərgin əməyinin nəticəsində 3 cildlik "Azərbaycan uşaq ədəbiyyatı antalogiyası" hazırlanıb. Kitabın iki cildi 2004-cü ildə, 1-3 cildləri isə 2005-ci ildə çap olunub. I cilddə XX əsrə qədərki uşaq ədəbiyyatımız, II cilddə XX əsr uşaq poeziyası, III cilddə XX əsr uşaq nəsrimizdən maraqlı nümunələr verilmişdir.

Eyni zamanda uşaq ədəbiyyatına həsr olunan yeni monoqrafiyalar, dərslik və dərs vəsaitləri də hazırlanıb. Ə.Mirzəyevin "Azərbaycan uşaq ədəbiyyatı" (Bakı, "Mütərcim", 1999), "Azərbaycan uşaq ədəbiyyatına dair" (Gəncə, "İlkin", 2004) kitabları həm elmi ictimaiyyət, həm uşaq ədəbiyyatı mütəxəssisləri tərəfindən maraqla qarşılanıb. "Azərbaycan uşaq ədə-

biyyatı" kitabında uşaq poeziyasında təlim-tərbiyə, əxlaqi-mənəvi amillərə, bədii proses və estetik zövq məsələlərinə daha çox fikir vermişsə, "Azərbaycan uşaq ədəbiyyatına dair" əsərində uşaq ədəbiyyatımız daha geniş konteksdə tədqiqata cəlb olunmuş, uşaq əsərlərinə verilən tələblər, onun tərbiyəvi əhəmiyyəti, dili, forma və məzmun vəhdəti və s. yeni elmi-nəzəri və metodoloji istiqamətdə oxuculara çatdırılmışdır. Burada A.Səhhət, A.Şaiq, M.Müşfiq, Z.Cabbarzadə kimi ədəbi ictimaiyyətin yaxından tanıdığı yazıçılarla yanaşı, nisbətən az tanınan Mirzə Həsən Qaradağı Yüzbaşov, Əyyub Abbasov kimi sənətkarların da əsərlərindən bəhs olunmuşdur.

Cəmilə Məhərrəmovanın «Azərbaycan uşaq ədəbiyyatında ənənə və novatorluq» (83) əsəri konkret bir mövzuya– 70-80-cı illər uşaq ədəbiyyatımızda ənənə və navatorluq məsələlərinə həsr olunmuşdur. Məlumdur ki, ədəbi tənqid və ədəbiyyatşünaslığımızda həmin mövzu ilə bağlı M.Arif, M.C.Cəfərov, Ə.Ağayev kimi tanınmış alimlər maraqlı və fundamental məqalələr, Ş.Salmanov "Azərbaycan sovet şerində ənənə və novatorluq" monoqrafiyasını yazmışdır. Lakin bu əsərdə eyni problem uşaq ədəbiyyatı kontekstində diqqət mərkəzinə çəkilmişdir.

Milli müstəqillik dövründə uşaq ədəbiyyatının nailiyyətləri, spesifik xüsusiyyətləri, məqsəd və vəzifələri ilə bağlı yazılan maraqlı əsərlərdən biri də Rafiq Yusifoğlunun "Uşaq ədəbiyyatı" əsəridir. Topluya istər Azərbaycan, istərsə də dünya uşaq ədəbiyyatının görkəmli nümayəndələri haqqında sanballı məqalələr, onların əsərlərindən bədii nümunələr salınmışdır. Rafiq Yusifoğlu kitabda uşaq yazıçılarımızın həyat və yaradıcılığı, elmi-pedaqoji fəaliyyəti barədə konkret, müfəssəl məlumat vermişdir.

Dərslik kimi nəzərdə tutulan bu əsərdə uşaq ədəbiyyatının mahiyyəti, məqsəd və vəzifələri ədəbiyyatşünaslıq elminin müasir tələbləri mövqeyindən izah olunmuş, uşaq ədəbiyyatı ilə böyüklər üçün yazılan əsərlərin oxşar və fərqli cəhətləri təhlil edilmişdir. Müəllif ancaq aktual mövzu axtarışında olan, bədii kamilliyə fikir verməyən yazıçıların əsərlərini uşaqların

sevməməsini, ona maraq göstərməməsini təbii hal kimi qiymətləndirmiş, klassik və müasir uşaq ədəbiyyatının bütün dövrlərini əhatə etmişdir. Rafiq Yusifoğlu Azərbaycan folklorunun uşaq ədəbiyyatı ilə bağlı janrları haqqında əhəmiyyətli fikir söyləmiş, N.Gəncəvi, M.Füzuli, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə, A.Səhhət, S.S.Axundov, A.Şaiq və başqa klassik Azərbaycan uşaq yazıçılarının yaradıcılığını uşaq ədəbiyyatının tələb və meyarları baxımından diqqət mərkəzinə çəkmişdir. «Uşaq ədəbiyyatı» dərsliyində R.Yusifoğlu müasir uşaq ədəbiyyatımızla bağlı kifayət qədər maraqlı, ətraflı fikirlər səsləndirmiş, uşaq ədəbiyyatı və yeni nəslin tərbiyəsi, bədii zövqü ətrafında oxucunun diqqətini çəkən və bəzən polemika doğuran, mübahisə predmetinə çevrilən fikir və mülahizələrdən çəkinməmişdir. Kitabda dünya uşaq ədəbiyyatı nümunələri də yer almış, L.N.Tolstoy, S.Z.Marşak, D.Defo, H.X.Anderson kimi böyük sənətkarların uşaq əsərlərindən bəhs olunmuşdur.

Bir məsələni də qeyd edək ki, müstəqillik dövrü uşaq ədəbiyyatının ayrı-ayrı janrlarının öyrənilməsi istiqamətində əhəmiyyətli və sistemli tədqiqat işləri aparılır. Sona Məmmədova "Azərbaycan uşaq dramaturgiyası" (81) əsərinin "Folklor motivləri əsasında yazılmış pyeslərdə uşaq həyatının dramaturji təcəssümü" fəslində keçən əsrin 70-80-ci illərində folklor süjetləri və motivlərinə əsaslanaraq konkret zaman kəsiyində dram əsərlərini təhlil etmişdir. "Klassik irsdən bəhrələnərək yazılan dramaturgiya nümunələrində uşaq və gənclərin ideya-estetik tərbiyəsi problemləri" adlı ikinci fəsildə Azərbaycan və dünya ədəbiyyatının mövcud yazılı örnəklərinə əsasən yaradılan, ənənəvi tarixi-ədəbi obrazların yeni həyatı kimi səciyyələnən uşaq dram əsərləri ideya-məzmun, problem və bədii sənətkarlıq baxımından tədqiq olunub.

Bilal Həsənlinin "Azərbaycan uşaq ədəbiyyatı" (51) əsərində uşaq ədəbiyyatının xüsusiyyətləri, janr, üslub özünəməxsusluğu, şifahi xalq ədəbiyyatının uşaq mütaliəsindəki rolu diqqətlə araşdırılıb. Tədqiqatçı XIX və XX əsr uşaq ədəbiyyatı tarixini, eləcə də uşaq ədəbiyyatının sover dövrünü tədqiqata

cəlb etməklə yanaşı, Cənubi Azərbaycan şairlərindən M.Şəhriyara, Səhəngə, Səməd Behrəngiyə də diqqət yetirmişdir.

Bizə belə gəlir ki, milli uşaq ədəbiyyatının araşdırılması, onun müəyyən dövrlərinin ideya-estetik axtarışları bundan sonra da daim ədəbi fikrimizin diqqətində qalacaq, müstəqillik dövrü ədəbiyyatımızda bu spesifik sahənin qazandığı nailiyyətlər daha dərindən öyrəniləcəkdir.

UŞAQ ƏDƏBİYYATI MÜSTƏQİL YARADICILIQ SAHƏSİ KİMİ

Uşaq ədəbiyyatı yeni nəslin təhsili, təlim-tərbiyəsi, bir insan kimi cəmiyyətdəki mövqeyi, kamil insan kimi formalaşması ilə birbaşa bağlı olduğuna görə, bütün dövrlərdə istər bədii düşüncənin, istərsə də elmi-nəzəri fikrin diqqət mərkəzində olmuşdur. Çox ciddi diqqət, qayğı, elmi-pedoqoji və ədəbi bacarıq və çoxillik təcrübə, bilik tələb edən bu sahədə fəaliyyət göstərən hər kəsdən professionallıq, həssas münasibət, sistemli iş tələb olunur. Müxtəlif yaş dövrlərinin xüsusiyyətlərini, uşaqların fərdi marağını, istəyini, meylini bilmədən, bədii zövqünü oxşamadan onlara hansısa bir əsəri sevdirmək mümkün deyil. Bütün bunlara görə uşaq ədəbiyyatına verilən tələblər, ədəbi meyarlar çox ciddidir. Uşaq əsərləri, hər şeydən əvvəl, sənətkarlıq baxımından yüksək səviyyədə olmalıdır. Məzmun və formaca zəif, sujet xətti bəsit və maraqsız olan əsərlər onları tez bezdirir, diqqətini yayındırır. Bu cəhətdən təkcə forma və məzmunla nəsə müsbət bir nəticə əldə etmək müəyyən çətinliklərlə bağlıdır. Uşaqlar üçün nəzərdə tutulan əsərlər və kitablar yüksək poliqrafik qaydalara, təlimatlara əsaslanmalı, maraqlı şəkil və illüstrasiyalarla tamamlanmalıdır.

Azərbaycan uşaq ədəbiyyatı milli ədəbi tarixi prosesin müstəqil yaradıcılıq sahəsidir. Ona görə də böyüklər üçün nəzərdə tutulan ədəbiyyatla uşaq əsərləri arasında o qədər də böyük fərq yoxdur. Məlumdur ki, uşaqlar çox sürətlə böyüyür. Yaş dövrünə uyğun olaraq onların təfəkkürü, düşüncəsi, maraq dairəsi, ətraf aləmi qavrama bacarığı da dəyişir. Yazıçı əgər öz əsərində bunu nəzərə almasa, hər yaş dövrünə görə uşaq psixologiyasına bələd olmasa, müvəffəqiyyət qazana bilməz, yazdığı əsərlər uşaqlar tərəfindən sevilməz.

Əsərlərin dili, süjet xətti sadə, həyat hadisələri dinamik inkişafda verilməli, bu cür əsərlər azyaşlıların şifahi nitqini, sərbəst danışığını formalaşdırmağa, hafizəsini gücləndirməyə, marağını artırmağa xidmət etməlidir. Uşaq ədəbiyyatı azyaşlılara təbiət və cəmiyyətdə baş verən hadisələr, yeniliklər barədə

məlumat verir, onlarda yüksək əxlaqi-mənəvi keyfiyyətlər formalaşdırır.

Yeni nəslin bilavasitə tərbiyəsi ilə əlaqədar olduğuna görə hər bir dövlət uşaq ədəbiyyatına xüsusi diqqət və qayğı ilə yanaşır. Böyük rus tənqidçisi V.Q. Belinski yazırdı: "Uşaq kitabları tərbiyə məqsədi ilə yazılır. Tərbiyə isə çox böyük işdir, o insanın taleyini həll edir"[18,s.126]. Odur ki, uşaq ədəbiyyatı məsələsi ilə təkcə filoloq mütəxəssislər yox, pedaqoji fikir nümayəndələri də məşğul olur, bu sahənin pedaqoji aspektlərini həmişə diqqət mərkəzində saxlayırlar. Həmin məsələ bizim elmi fikrimizin də əsas qayğısıdır. Uşaq ədəbiyyatı və onun nəzəri məsələləri ilə ən yaxşı ədəbiyyat mütəxəssislərimizlə yanaşı, tanınmış pedaqoq alimlərimiz də məşğul olub.

Uşaq ədəbiyyatı kiçiklərin və yeniyetmələrin şəxsiyyətinin formalaşması, bədii zövqünün cilalanması ilə bağlı olduğuna görə orta və ali məktəb ocaqlarında tədris edilir, vaxtaşırı təkrar nəşr olunur, daim qayğı ilə əhatələnir. Orta əsr klassik sənətkarlarımız olan N.Gəncəvi, M.Füzuli, XIX əsr maarifçi realist yazıçılırımız A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, XX əsr ədiblərimiz M.Ə.Sabir, C.Məmmədquluzadə, A.Şaiq, M.Müşviq, M.Dilbazi, M.Rzaquluzadə, Ə.Məmmədxanlı, Ə.Cəmil, ən yeni dövr yazarlarımız Z.Xəlil, X.Hasilova, E.Mahmudov, T.Mütəllibov və başqaları uşaq bədii irsimizin ən yaxşı örnəklərini yazmış, ədəbiyyat tariximizdə müəyyən ədəbi ənənənin yaşamasına, möhkəmlənməsinə şərait yaratmışlar.

Bəllidir ki, uşaq ədəbiyyatı öz predmetinə və ədəbi-tarixi missiyasına görə çox əhəmiyyətli, həm də əhatəlidir. Bu ədəbiyyat təkcə zövqlə, estetik tərbiyə ilə bağlı deyil. Balacaların oxuduqları şer və hekayələr, fantastik əsərlər, pyeslər onlarda elmi dünyagörüşün formalaşmasına zəmin hazırlayır, müxtəlif bilikləri mənimsəməkdə vasitəçiyə çevrilir. Onlar insan, kainat, təbiət, cəmiyyət haqqında ilk təsəvvürlərini bədii əsərlər vasitəsi ilə gerçəkləşdirirlər.

Hər bir xalqın ədəbiyyat tarixinin yaranması, təşəkkülü və inkişaf mərhələləri onun dövrləşdirilməsini zəruri edir. Sovet

hakimiyyəti dövründə milli ədəbiyyat tarixinin dövrləşdirilməsi siyasi amillərlə, ideoloji təsisatlarla bağlı olduğu kimi, uşaq ədəbiyyatı, onun tədqiqi tarixinin dövrləşdirlməsi də eyni üsul və meyarlarla aparılmışdır. Həmişə dövrləşdirilmədə tarixi müddət vahidi məhz bədii qanunauyğunluğa, ədəbi prosesin spesifikasına və estetik meyara əsaslanmışdır. Bu prinsipdən yanaşaraq Azərbaycan uşaq ədəbiyyatının öyrənilməsi tarixini təxmini olaraq üç mərhələyə ayıra bilərik:

1. XIX əsrin sonundan Sovet hakimiyyətinin yaranmasına qədərki dövr; 2.Marksist estetikanın uşaq ədəbiyyatına tətbiqi dövrü (1920-1990); 3. Milli müstəqillik illərində elmi-nəzəri fikirdə uşaq ədəbiyyatı məsələləri. Çağdaş ədəbi tənqid və ədəbiyyatşünaslıq uşaq ədəbiyyatı və onun nəzəri dərkinə münasibətdə sovet ideologiyasına qədərki uşaq ədəbiyyatı ənənələrini bərpa etmək, milli təfəkkürə, milli şüura və yaddaşa söykənən ədəbi varisliyi qoruyub saxlamaq və yeni nəsillərə ötürmək yolunu tutub ki, həmin ədəbi-tarixi missiyanı həyata keçirmək vahidi ideoloji – siyasi müstəvidən - azərbaycançılıqdan keçir: "Bu gün azərbaycançılıq dövlət siyasətində, ədəbi-bədii yaradıcılıqda, mədəniyyət və incəsənətdə, dilçilikdə, tənqid və ədəbiyyatşünaslıqda, ağsaqqala hörmətdə, əskərin qəlbində, ailə kulturunda fəal bir şəkildə davam və inkişaf edir" [113, s. 4].

Məktəblə, elm və maariflə əlaqədar olduğuna görə milli uşaq ədəbiyyatı və onun təşəkkül mərhələsi XIX əsr Azərbaycan maarifçi-realist ədəbiyyatı dövrünə düşür. A.Bakıxanovun "Nəsihətnamə"sində toplanan 102 nəsihətdə elmə, maarifə çağırış, cəhalətə və nadanlığa, savadsızlığa qarşı mübarizə aparmaq, dinə, şəriətə əməl etmək uşaq və gənclərin vəzifəsi kimi göstərilirdi. Təəssüf ki, sovet ədəbiyyatşünaslığında maarifçi sənətkarın yeniyetmələrin əxlaqi-mənəvi, dini tərbiyəsinə yönəldilən bu cür qiymətli fikirləri tənqid tərəfindən birmənalı qarşılanmırdı: "Lakin bununla yanaşı A.Bakıxanov uşaqları dinə, şəriətə itaət edib müti olmağa çağırır ki, bu da onun dünyagörüşünün məhdudluğu ilə izah edilə bilər [62].

XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Azərbaycanda ilk dərsliklərin yaranması, yeni tipli məktəblərin fəaliy-

yətə başlaması mövcud standartlara və ədəbi meyarlara uyğun uşaq ədəbi irsinin yaranmasını şərtləndirirdi. Həmin boşluğu hiss edən, vaxtında görən maarifçi ədiblərimiz F.Köçərli, A.Şaiq, A.Səhhət, M.Şahtaxtınski və başqaları yeni dərsliklər üzərində işləyir, müasirləri ilə əlaqə saxlayaraq uşaq ədəbiyatı nümunələri toplayır, onları sistemləşdirərək nəşr edir, yeni açılan məktəblərdə dərs deyirdilər. Onlar, eyni zamanda, həm yazıçılıqla, həm məktəbdarlıqla məşğul olur, yeni nəslin yetişməsində misilsiz xidmətlər göstərirdilər. Rus imperiyasının daxilində yaşayan xalqların dilinin, mədəniyyətinin sıxışdırıldığı, milli azadlıq ideyalarının boğulduğu bir dövrdə Azərbaycan maarifçilərinin çoxşaxəli, çoxtərəfli fəaliyyəti ciddi maneələrlə, qadağalarla qarşılanırdı. Lakin bütün çətinliklərə rəğmən, onlar öz ədəbi-tarixi vəzifələrini ləyaqətlə davam etdirir, milli uşaq ədəbiyyatı ənənələrini yaradırdılar. M.Ə.Sabir, A.Səhhət, A.Şaiq inqilaba qədərki uşaq ədəbiyyatımızın ən yaxşı nümunələrini meydana çıxartdılar. Ən yüngül, oynaq vəznlərdən istifadə edən A.Səhhət ədəbiyyatımızda ilk dəfə nəsrlə uşaq pyesi yazıb. Ədibin "Cəhalət səmərəsi", "Bir yetimin xoşbəxtliyi" adlı pyesləri uşaqların məktəb həyatını çox yaxşı təsvir etmişdir. A.Şaiqin 1910-1915-ci illər arasında yazdığı "Son bahar", "Qız", "Dağlar soltanı", "Tülkü həccə gedir", "Tıq-tıq xanım", "Səfər", "Bəşir" əsərləri uşaqların ruhuna, yaş səviyyəsinə daha çox uyğun gəlirdi. A.Şaiq uşaq ədəbiyyatımıza hekayə janrı gətirməklə yanaşı, həm də ilk uşaq pyesimizin əsasını qoyub.

Qeyd edək ki, milli uşaq ədəbiyyatının yaradılması və təşəkkülü onun elmi-nəzəri əsaslarının müəyyənləşməsini, yaradıcılıq axtarışlarının ümumiləşdirilməsini, ideya-estetik prinsiplərinin dəqiqləşdirilməsini zəruri edirdi. Odur ki, ədəbi prosesdə yeni uşaq ədəbiyyatı nümunələrinin yaranması ilə onun ədəbiyyatşünaslıqdakı nəzəri dərki paralel aparılır, hər iki istiqamət ədəbi-tarixi prosesin tamlığına, bütövlüyünə xidmət edirdi. Maraqlıdır ki, Azərbaycan ədəbiyyatşünaslığının formalaşması ilə uşaq ədəbiyyatının nəzəriyyəsinin yaranması eyni vaxta düşür; Belə demək mümkünsə, ilk ədəbiyyat tarixçili-

yimizin zəif və qüvvətli cəhətləri uşaq ədəbiyyatının öyrənilməsində də özünü göstərib. Ancaq bu gün həmin əsərlərə obyektiv-tarixi mövqedən bir daha nəzər saldıqda, Azərbaycan maarifçilərinin nə qədər əhatəli, böyük ədəbi tarixi missiyanı yerinə yetirdiyinin şahidi oluruq.

XX əsrin əvvəllərində uşaq ədəbiyyatının öyrənilməsindəki çətinlik bunda idi ki, o vaxta qədər milli ədəbiyyyat tariximiz yazılmamışdı. Halbuki, XVIII-XIX əsrlərdə Avropada, eləcə də Rusiyada yeni nümunəvi ədəbiyyat tarixləri hazırlanmışdı. F.Köçərli əsrin əvvəllərindən toplamağa başladığı ədəbiyyat tarixi materiallarını ömrünün axırına -1920-ci ilə qədər nəşr etdirə bilməmişdi. Milli dövlətçiliyin, ədəbiyyat tarixi təcrübəsinin olmaması uşaq ədəbiyyatı tarixinin nəzəri əsaslarının tədqiqində də müəyyən çətinliklər yaradırdı.

Ədəbiyyatımızı, maarif və mədəniyyətimizi, mətbuatımızı inkişaf etdirmək üçün Azərbaycan Xalq Cümhuriyyəti dövründə əlverişli şərait yarandı. M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Topçubaşov, Ü.Hacıbəyli kimi dövlət xadimlərimiz və ədiblərimiz yaranmış əlverişli tarixi şəraitdən istifadə edərək yeni məktəblərin açılması, uşaq mətbuatı və ədəbiyyatının inkişafı, yeni məktəb kitabxanalarının fəaliyyəti üçün əllərindən gələni əsirgəmirdilər. Böyük ədiblərimizin "Türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyaları uşaq və yeniyetmələrin təhsilində, tərbiyəsində, eləcə də onlara məxsus olan ədəbiyyatın yaradılmasında əsas götürülürdü. Məktəblərin milliləşdirilməsi, Bakı Dövlət Universitetinin yaradılması, Azərbaycan Dövlət Teatrının fəaliyyəti yeni mətbuat orqanlarının açılması uşaq ədəbiyyatının formalaşması və tədqiqi sahəsində də irəliyə doğru bir addım idi. S.S.Axundov, A.Şaiq, N.Nərimanov yeni milli hökumətin maarif, məktəb siyasətinin həyata keçirilməsində, uşaq ədəbiyyatının nümunələrinin çapı və təbliğində ciddi işlər görürdülər.

Təəssüf ki, milli hökümətin süqutu, sovet diktaturasının yaranması ilə bu böyük siyasi, ədəbi-tarixi prosesə son qoyuldu. Yeni tarixi şəraitdə uşaq ədəbiyyatının inkişafı və onun öyrənilməsi də müəyyən çətinliklərdən, yasaq və qadağalardan

keçməli oldu. İfrat ideoloji-siyasi konsepsiyanın ədəbiyyata və sənətə tətbiqi sovet uşaq ədəbiyyatından da yan keçmədi. Düz 70 il müddətində sosialist realizminin nəzəri prinsipləri uşaq ədəbiyyatının və nəzəri fikrinin öyrənilməsində buxova çevrildi. 30-cu illər repressiyası isə bu prosesin daha da dərinləşməsinə şərait yaratdı. Ş.Alışanovun sözləri ilə desək "20-ci illərdə fəaliyyət göstərən tənqidçi və ədəbiyyatşünasların siyasi represiyası onların ədəbi-nəzəri fikirdə qazandığı təcrübəni elmi fikrin dövriyyəsindən kənarda qoydu. Yalnız 60-70-ci illərdən başlayaraq poetika məsələləri müxtəlif yönümdən gündəmə gəldi" [2].

Elmi- nəzəri fikrimiz uşaq ədəbiyyatını həmişə diqqət mərkəzində saxlamış, onun yaradıcılıq axtarışlarının müəyyənləşdirilməsində fəal mövqe tutmuşdur. Balacalar və yeniyetmələr üçün nəzərdə tutulan ədəbiyyat nümunələrinə ədəbiyyatşünaslıqda verilən tələblər də aydın, birmənalıdır. Bu cür əsərlərin mövzusu və məzmunu konkret olduğu kimi, formaca da uşaqların yaş və bilik səviyyəsinə uyğun olmalıdır; oynaq, yüngül vəzndə yazılmalıdı.

Uşaq ədəbiyyatında iki faktora – tərbiyə və sənətkarlıq məsələlərinə daha çox diqqət yetirilib. Marksizm ideologiyası çərçivəsində 70 il uşaq ədəbiyyatında tərbiyə problemi kommunist tərbiyyəsinin tərkib hissəsi kimi aparılıb. K.Simonov Sovet Yazıçılarının 1946-cı il XIII plenumundakı çıxışında demişdir ki, bizim bütün ədəbiyyatımıza yeganə bir meyar ilə yaxınlaşmaq lazımdır, bu da ədəbiyyatımızın kommunizm qurmağa, kommunizm quranların tərbiyə olunmasına kömək etməsindən ibarətdir.

Azərbaycan Yazıçılar İttifaqının uşaq ədəbiyyatına dair 1966-cı il plenumunda da uşaq ədəbiyyatında məfkurə, sənətkarlıq məsələlərinə xüsusi fikir verilmiş və qərara alınmışdır ki, uşaq və gənclər ədəbiyyatı sahəsində bir sıra ciddi nöqsanlar vardır. Onlardan ən çox gözə dəyəni bu ədəbiyyatın sənətkarlıq qüsurlarıdır. Sənət nümunələri yaratmaq üçün uşaq ədəbiyyatının ideya səviyyəsi ilə yanaşı, bədii keyfiyyəti də daim yeniləşməlidir [120]. Sovet dövrü uşaq ədəbiyyatının sə-

nətkarlıq baxımından da müvəfəqiyyətli, nöqsanlı cəhətləri diqqəti cəlb edirdi. Bir tərəfdən uşaq dramaturgiyası, nəsr və poeziyasında yeni janrlar, üslublar, poetik sistemlər özünü göstərirdisə, digər tərəfdən məfkurə, ideologiya təzyiqi, məzmunun dominant rolu bədii formanı, sənətkarlıq məsələlərini kölgədə qoyurdu.

Diqqətəlayiqdir ki, elmi-nəzəri fikrimizdə uşaq ədəbiyyatının folklor qaynaqları həmişə diqqət mərkəzində saxlanılmış, onun janr və üslub xüsusiyyətlərindən, sənətkarlıq məsələlərindən öyrənməyin zəruriliyi yazıçılarımızın qarşısına bir vəzifə olaraq qoyulmuşdur. Müxtəlif dərslik və monoqrafiiyalarımızda folklor nümunələrimiz uşaq ədəbiyyatının ilk nümunələri sırasında verilmişdir. Belə ki, "Azərbaycanda hələ bu günə qədər geridə qalmış sahələrdən olan uşaq ədəbiyyatı tarixi ağız ədəbiyyatının yaranması ilə əlaqədardır" [62]. Sovet dövründə yazıçılarımız folklor motivləri əsasında bir sıra maraqlı əsərlər yaratmışlar. S.Rəhimovun "Pəri çınqılı", Ə.Vəliyevin "Səlimin nağılları" kitablarında folklor qaynaqrından bacarıqla istifadə olunmuşdur. Ə.Vəliyevin "Madarın dastanı" əsərində xalq nağıllarımıza xas olan mərdlik, mübarizlik, iradəlilik, saf və təmiz məhəbbət uğrunda mübarizə, xalqın gücünə inam realist və romantik boyalarla təsvir olunduğuna görə bu gün də kiçik yaşlı oxucular tərəfindən sevilə-sevilə oxunur.

Yeni uşaq ədəbiyyatının yaranması və onun öyrənilməsi milli müstəqillik dövrü ədəbiyyatşünaslığımızın başlıca qayğısı kimi özünü göstərir. İndi ədəbiyyatımızın bu spesifik sahəsinin daha da inkişaf etdirilməsi, uşaq ədəbiyyatı və nəzəriyyəsinin müstəqillik ideyalarına, milli-mənəvi və mental dəyərlərə uyğunlaşdırılması üçün əlverişli ədəbi-tarixi zəmin var. Məstan Əliyev, İlyas Tapdıq, Oqtay Rza, Xalidə Hasilova, Xanımana Əlibəyli, Məmməd Aslan, Fikrət Sadıq, Rafiq Yusifoğlu kimi yazıçılarımız həm yeni uşaq əsərləri yazır, həm də bu ədəbi irsin nəzəri əsasları üzərində ciddi tədqiqat işləri aparırlar. Digər tərəfdən, professional ədəbiyyat mütəxəssislərimizdən olan Bəkir Nəbiyev, Qara Namazov, Zahid Xəlil, Vüqar Əhməd, Təyyar Cavadov, Yaqub Babayev və başqaları müstəqillik

dövrü ədəbiyyatşünaslığımızda uşaq ədəbiyyatının mövqeyi ilə bağlı tədqiqat işlərini davam etdirirlər.

Vaxtilə rus tənqidçisi V.Q.Belinski deyirdi: "İncəsənətin müxtəlif növlərini düzgün başa düşə bilən uşaq onun hansı hadisəni əks etdirdiyini bilməklə ətraf mühitdə mövcud olan məlumatların mahiyyətini dərk etməkdə çətinlik çəkmir. O bu yolla hətta xalqın tarixini də müəyyən dərəcədə öyrənə bilər. Ona görə də incəsənət təkcə bədii zövq almaq mənbəyi və vasitəsi deyil, həmçinin xarici aləmin mahiyyətini öyrənmək vasitəsi olur və uşaqların mənəvi aləmini zənginləşdirir" [20, s. 142]. V.Q.Belinski bu qiymətli fikirləri təxminən iki əsr bundan əvvəl söyləyib. O dövrdən indiyə qədər uşaqların düşüncəsində, ətraf aləmə münasibətində, təfəkkür tərzində çox şey dəyişmişdir.İnformasiya texnologiyalarının, internetin məktəblərə, evlərə ayaq açması, respublikamızda informasiyalı cəmiyyətə inteqrasiya uşaq və yeniyetmələrin marağında, düşüncəsində ölçüyəgəlməz inkişafa səbəb olmuşdur. Hər gün dünyanın onlarca aparıcı telekanallarına tamaşa edən uşaq və yeniyetmələrin əqli, mühakiməsi yaşını xeyli qabaqlayır. Onlar internet vasitəsi ilə dünyanın müxtəlif qitələrindəki həmyaşıdları ilə təmas qurur, informasiya mübadiləsi aparır, məktublaşırlar. İnformasiyalı cəmiyyətin yetirmələrinin diqqətini ədəbi-bədii parçalara cəlb etmək, bu yolla onları əyləndirmək, düşündürmək xeyli çətindir. İndi uşaq yazıçısı öz informasiya yaddaşını daim itiləməklə yanaşı, uşaqları cəlb edən ədəbi üsul və s. vasitələrin axtarışına çıxmalı, öz oxucularının marağını, zövqünü təmin etməlidir.

Müstəqillik dövrü tənqid və ədəbiyyatşünaslığının müasir uşaq ədəbiyyatının qarşısına qoyduğu əsas tələb, prinsip, estetik meyar və çərçivələr də bundan ibarətdir. Rus tənqidçisi P.Q.Çernişevski "A.S.Puşkinin həyatı və əsərləri" tədqiqatında qeyd edirdi ki, cocuqlara çox şeyi asan anlatmaq olar; yalnız onlardan şəxsin cocuqlarla danışmağa girişdiyi predmeti anlaması və insan dilində danışmağı bacarması lazımdır.

Uşaq ədəbiyyatının öyrənilməsində, təhlilində, bədii nümunələrin qiymətləndirilməsində XIX əsrin son onilliklərini

və XX əsrin əvvəllərini ilk mərhələ kimi dəyərləndirmək mümkündür. İlk uşaq dərsliklərimiz olan "Rəbiül ətval" (S.Ə.Şirvani, 1876), "Vətən dili" (A.O.Çernyayevski, 1882), "Uşaq bağçası", "Bəsirətül ətval" (R.Əfəndiyev, 1898-1901), "Türk əlifbası və qiraət" (M.Mahmudbəyov, 1907) ibtidai məktəb dərsliklərinə yazılan resensiyalar, müxtəlif qəzet məqalələri uşaq ədəbiyyatı haqqında müəyyən məlumatlar verir, onun əhəmiyyətini izah edirdi.

Uşaq ədəbiyyatının professional səviyyədə öyrənilməsinə XX əsrin 20-30-cu illərində daha çox fikir verilmişdir. Marksist estetiklər sosialist realizmin estetik prinsiplərini ədəbiyyata tətbiq etməyə çalışmış, yeni ideologiyanın təbliğatında uşaq ədəbiyyatından da bir vasitə kimi istifadə etmişlər. Uşaq ədəbiyyatı ilə bağlı müxtəlif müşavirələrin çağrılması, partiya qərarları yeni nəslin kommunist tərbiyəsinə yönəldilmişdi. Bu dövrdə tənqid və ədəbiyyatşünaslıq uşaq ədəbiyyatının qarşısına hədsiz dərəcədə ideoloji-siyasi tələblər qoyur, cəmiyyətin sinfi mübarizə metodunu uşaq ədəbiyyatına gətirməyə inzibati-amirlik metodlarla nail olmağa çalışırdı.

İkinci Dünya Müharibəsindən sonra Sovet İttifaqının beynəlxalq miqyasda nüfuzu daha da genişləndi. Sosializm cəmiyyəti ilə kapitalizm arasındakı kəskin siyasi mübarizələr, sosializm düşərgəsinin genişləndirilməsi müttəfiq respublikalarda bədii düşüncənin, ədəbi tənqid və ədəbiyyatşünaslığın da totalitar istiqamətə sürüklənməsinə şərait yaratdı. 40-cı illərin sonu 50-ci illərin əvvəllərində kommunist partiyasının ədəbiyyat və incəsənətlə bağlı çoxsaylı qərarları sənətdə yeni repressiyaların başlanmasından xəbər verirdi. Bu dövrdə uşaq ədəbiyyatı və nəzəriyyəsi mütəxəssisləri də siyasi təzyiqlər altında fəaliyyət göstərməyə məcbur olmuşdu.

60-70-ci illərdə cəmiyyətdə siyasi yumşalma uşaq ədəbiyyatına da öz müsbət təsirini göstərdi. Ancaq siyasi təzyiqlərlə uşaq ədəbiyyatını inkişaf etdirmək mümkün deyildi. Buna görə də uşaq ədəbiyyatının inkişafına dövlət səviyyəsində qayğı və yardım göstərildi. Uşaq əsərlərinin nəşrinə, uşaq jurnal və qəzetlərinə diqqət gücləndirildi. Uşaq ədəbiyyatının həm fi-

loloji, həm də pedaqoji aspektdən öyrənilməsinə başlandı.Uşaq ədəbiyyatına həsr olunan monoqrafiq tədqiqatların genişləndirilməsi, yazıçılar qurultaylarında, ədəbiyyatla əlaqədar müşavirələrdə yeniyetmələrin bədii təfəkkürünün gücləndirilməsinin təmin edilməsinə diqqətin artırılması uşaq ədəbiyyatı və onun nəzəri dərkinin yeni mərhələyə qədəm qoymasından xəbər verirdi.

Uşaq ədəbiyyatının öyrənilməsində yeni dövr milli müstəqillik illəridir. 90-cı illərdən etibarən ümumilli liderimiz H.Əliyevin müəyyənləşdirdiyi və dövlət ideologiyasına çevirdiyi azərbaycançılıq ideyası, milli müstəqillik strategiyası uşaq ədəbiyyatına və onun öyrənilməsinə tətbiq olundu. Ədəbiyyatın bu müstəqil sahəsinə dövlət qayğısı daha da artırıldı. Bütün bu sistemli fəaliyyət yaxın onilliklərdə Azərbaycan uşaq ədəbiyyatı və nəzəriyyəsini daha da inkişaf etdirilməsi üçün şərait yaradacaq.

MİKAYIL RZAQULUZADƏ
(1905-1984)

Mikayıl Manaf oğlu Rzaquluzadə 1905-ci ildə Bakıda anadan olmuşdur. İlk təhsilini «Mədrəseyi-nur» məktəbində almış, 1923-cü ildə Azərbaycan Ali Pedaqoji İnstitunun tarix-ədəbiyyat fakultəsinə daxil edilmişdir. Ali təhsil aldıqdan sonra Moskva Dövlət Universitetinin aspiranturasında oxumuşdur. 1934-1935-ci illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji İnstitutunda uşaq ədəbiyyatı üzrə elmi işçi vəzifəsində, eyni zamanda Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi, «İnqilab və mədəniyyət» jurnalında məsul katib, Azərbaycan Dövlət Kinostudiyasının baş redaktoru vəzifələrində çalışmışdır.

Bədii yaradıcılığa şeirlə başlamışdır. Onun «Ölkəmin çiçəkləri», «Ürəkdə izlər», «Nəsillərdən-nəsillərə» kitablarında toplanan şeirlərində sadəlik, səmimilik, dilin zənginliyi balaca oxucuların daha çox xoşuna gəlir. Şair «Ağ göyərçin» şeirində sülh arzularını, xalqımızın haqq işinin həmişə qalib gələcəyinə əminliyini ifadə etmişdir. «İki quş» süjetli şeirində göstərilir ki, yağışdan sonra bağçada göyərçin kol dibində büzüşüb qalan torağay balasına rast gəlir. Onu öz qəfəsinə aparır. Torağay qəfəsdə rahatlıq tapmır, azadlığa çıxmağa can atır. Şair öz azadlıq hissini, duyğusunu torağayın dili ilə bu cür ifadə edir:

Yox, ac qalıb ölsəm də,
Çöllərdə susuz-dənsiz.
Bircə gün də qalmaram,
Bağsız, gülsüz, gülşənsiz.

M.Rzaquluzadə kiçik lirik şeirlərlə yanaşı, bir neçə poema, mənzum hekayələr də yazmışdır. «Qaranquş yuvası», «Leyla», «Naxışlar», «Hünər-zəfər bayrağı» əsərləri bu cəhət-

dən diqqətəlayiqdir. «Leyla» poeması partizanların faşistlərə qarşı mübarizəsindən bəhs edir. Faşistlər kəndi yandırır, vətəndaşları öldürürlər. Partizanlar yanan kəndin heyfini çıxmağa and içirlər. Gənc qız Leyla da partizanlara qoşulur, onlara mühüm məlumatlar çatdırır. Faşistlər qızı ələ almaq üçün müxtəlif vasitələrdən istifadə etsələr də, öz niyyətlərinə çatmırlar.

«Dan sökülәndə», «Qu gölü», «Nəsillərdən nəsillərə», «Yaz günəşi» və başqa kitablarında M.Rzaquluzadənin bir-birindən maraqlı hekayələri toplanıb. O istər şeirlərində, istər poema və mənzum hekayələrində həmişə folklora müraciət etmişdir. «Kitabi-Dədə Qorqud» dastanlarının motivləri əsasında «Ana ürəyi-dağ çiçəyi», «El gücü», «Dəli ozan» əsərlərini yazmış, vətənpərvərlik, ana-övlad məhəbbəti, sədaqət, dostluq, mərdlik kimi insani münasibətləri önə çəkmişdir.

M.Rzaquluzadənin şeirlərində humanistlik, əxlaqilik, xeyirxahlıq daha qabarıq nəzərə çarpır, süjetli əsərləri ciddi tərbiyəvi nəticələrlə tamamlanır. «Firəngiz», «Qaranquşlar», «Sözün düzü» şeirləri, tarixi mövzuda yazdığı «Şairin gəncliyi», «Səbayel gözəli» əsərlərində bu cəhətlər özünü göstərməkdədir. Xalidə Hasilovanın dəyərləndirməsi ilə desək, «M.Rzaquluzadənin əsərləri səlist və yığcamdır. Onlarda artıq və yersiz təfərrüata rast gəlməzsən. Fikir əzəldən aydın olduğu üçün müxtəlif uşaqları dolaşıq yola salmadan öz arxasınca çəkib aparır. Uşaq ədəbiyyatı sahəsində işləyən gənc yazıçılarımız bu cəhətdən M.Rzaquluzadədən öyrənməlidirlər» (136, səh.68).

M.Rzaquluzadə Azərbaycan uşaq ədəbiyyatı və nəzəriyyəsinin yaranması yolunda müstəsna xidmətlər göstərmişdir.

M.Rzaquluzadə maraqlı, məzmunlu uşaq hekayələri müəllifidir. Yazıçının 1950-ci ildə rus dilinə tərcümə edilən hekayələri ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmiş, Ümumittifaq miqyasında rus dilində dərc olunan, uşaq ədəbiyyatı ilə bağlı məqalələrin birində "mahir söz ustası" hesab edilmişdir. Məqalədə M.Rzaquluzadə "Ovçu" hekayəsi rus yazıçılarından Aksakonun, Turgenevin, Prişvinin əsərləri ilə müqayisə

olunub. 40-cı illərin sonu 50-ci illərin əvvəllərində onun dörd hekayələr kitabı- "İstne" (1949), "Meçta" (1950), "Dan yeri sökülənd" (1952), " Qu gölü" (1955) işıq üzü görüb. Həmin hekayələrin bir qismi "Ovçu hekayələri" kimi təqdim olunmuşdur.Yazıçı özü bu barədə "Dan sökülənd" kitabının müqəddiməsində yazıb "Bu kitabdakı hekayələr Azərbaycan sovet ədəbiyyatında "Ov hekayələri " sahəsində ilk təcrübədir. Doğurdan da yazıçı sonralar bu silsiləyə daxil olan "Ehtiyat", "Qurdvuran", " Qu gölü", "Yaralı göyərçin", "Lakin" kimi hekayələr yazıb.

MİRCƏLAL PAŞAYEV

(1908-1978)

Tanınmış ədəbiyyat tarixçisi, yazıçı, onlarca filoloq alim yetişdirən professor Mircəlal Paşayev 1908-ci il aprel ayının 26-da Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. Sonralar Gəncəyə köçdüklərinə görə uşaqlıq illəri də Gəncədə keçmişdir. 1928-ci ildə Gəncə Pedaqoji Texnikumunu bitirərək Gəncədə və Gədəbəydə müəllimlik etmişdir. O, 1930-cu ildə Kazan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1931-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. Ömrünün sonuna qədər Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında çalışmışdır. Ədib 1940-cı ildə «Füzuli şeirinin poetik xüsusiyyətləri» mövzusunda namizədlik, 1947-ci ildə «Ədəbi məktəblər» (XX əsr Azərbaycan ədəbiyyatında) mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, ali məktəblər üçün XX əsr Azərbaycan ədəbiyyatı (F.Hüseynovla birlikdə), «Ədəbiyyat nəzəriyyəsi» (P. Xəlilovla birlikdə) dərsliklərini hazırlamışdır.

Nəsr yaradıcılıgı sahəsində Ə.Haqverdiyevdən və C.Məmmədquluzadədən öyrəndiyini xatırladan yazıçı həmişə tələbələrinə «Biz hamımız Mirzə Cəlilin «Poçt qutusu» ndan çıxmışıq»-deyirdi. Onun hekayələrində, povest və romanlarında duzlu-məzəli yumor, satira özünü göstərirdi. Sadəlik və yıgcamlılıq, maraqlı süjet xətti, obrazlılıq onun bədii təfəkküründən genişliyindən xəbər verirdi. Yazıçının «Bostan oğrusu», «Həkim Cinayətov», «Elçilər qayıtdı», «İclas qurusu», «Anket Anketov» hekayələri uşaqlar tərəfindən maraqla qarşılanır. Bununla yanaşı, yazıçı müntəzəm olaraq Nizami Gəncəvi yaradıcılığındakı mövzulara da toxunmuş, «Xeyir və Şər», «Fitnə», «Kərpickəsən», «İlyas» və s. əsərlərində xeyirxahlıq, insanpərvərlik, humanizm kimi insani keyfiyyətlər təbliğ etmişdir.

İlk hekayələri 1930-cu ildə çap olunan yazıçı 1932- ci ildə «Sağlam yollarda» adlı ilk oçerklər kitabını nəşr etdirmişdir.

O,hər şeydən əvvəl, maraqlı hekayələr ustasıdır. «Mirzə», «Mərkəz», «Təzə toyun nəzakət aləmi», «Bostan oğrusu», «Badamın ləzzəti» hekayələrində yazıçı həmin dövr üçün çox aktual olan mövzulara toxunmuş, müasirlərimizin həyatını, gündəlik qayğılarını qələmə almışdır. Bu hekayə və novellalarda gözlənilməz hadisələr, obrazların orijinal hərəkətləri, komik məqamlar diqqəti daha çox cəlb edir.

Yazıçının «Söyüd kölgəsi» hekayəsində bostan becərən Salman kişidən söhbət gedir. O yol kənarında söyüd ağacı əkir. Əsərdəki hadisələr də həmin ağacın altında cərəyan edir. Ağacın altına toplaşanlar Salman kişiyə rəhmət oxuyur. Ancaq dalınca mənfi fikirlər söyləyənlər də var. Salman kişinin əqidəsi belədir ki, babalarımız əkib yemişik, indi biz də qurmalı, yaratmalı və əkməliyik. Bizim kimi nəvələrimiz də yeməli və yaxşı yaşamalıdırlar, O əkdiyi söyüd agacının keşiyini çəkir, bura yığışanların nə danışdıqlarına qulaq asır, adamların onun haqqında nə danışdığını eşitmək istəyir.

Mir Cəlal ancaq hekayələr yazmaqla kifayətlənmirdi. Müxtəlif illərdə o, «Dirilən adam» (1934-1935), «Bir gəncin manifesti» (1930), «Açıq kitab» (1941), «Yaşıdlarım» (1946-1952), «Təzəşəhər» (1948-1950), «Yolumuz həyanadır» (1952-1957) adlı irihəcmli povest və romanlar da yazmışdır. «Açıq kitab» romanı satirik üslubda yazılıb. Əsərdə fərdiyyətçilik, dargözlük, mənəm-mənəmlik kəskin tənqid olunur. Romanın qəhrəmanı Kərim Gəldiyev öz şəxsi karyerası üçün hər cür alçaqlığı özünə rəva görür, yalan danışır, hətta yaxınlarının da nifrətinə səbəb olur. Onun həyat fəlsəfəsi belədir: «Əzməsən əziləcəksən, ayaqlamasan, ayaqlanacaqsan… Güzaran, mənsəb cəhənnəmin təkində də olsa, enməyi bacar» Yacıçı 30-cu illərin ictimai-siyasi həyatında Cəldyevlərin yaranmış şəraitdən bacarıqla istifadə etmələrini maraqlı bir dillə təsvir etmişdir.

«Bir gəncin manifesti» əsərini M.C.Paşayev 1938-ci ildə tamamlamışdır. Əsər Getedən götürülən belə bir epiqrafla başlayır: «Həyat və azadlıq ancaq onlar üçün hər gün döyüşə gedən adamlara layiqdir». Göründüyü kimi, hələ epiqrafda

müəllif əsərdəki hadisələrin azadlıqla bağlı olacağına işarə edir. Əsərin əsas qəhrəmanlarından olan Baharın adı da rəmzi məzmun daşıyır. Gələcək xoşbəxt günlərə, azadlığa, istiqlal ideyalarına bağlıdır. Baharın böyük qardaşı Mərdanın adı da təsadüfən seçilməmişdir. Azadlıq uğrunda mübaizə aparan insanlarla bir yerdə olan Mərdanın əməlləri də adına layiqdir. Qorxmaz, sözübütöv, mərd Mərdan yazıçının istiqlal ideyalarının bədii ifadəsinə xidmət edir.

MİKAYIL MÜŞFİQ

(1908-1937)

Mikayıl Müşfiq (Mirzə Əbdülqədir oğlu İsmayılzadə) 1908 – ci il iyun ayında Bakıda anadan olub. Atası Mirzə Əbdülqadir Bakıdakı «Səadət» məktəbində müəllim işləyib. Müşfiq hələ çox kiçik yaşlarından anasını itirib. 1914 – cü ildə atasını da itirəndən sonra yaxın qohumlarının himayəsində yaşayıb. Ailənin bütün cətinlikləri nənəsi Qızqayıtın üzərinə düşüb. Qızqayıt nənə çoxlu sayda folklor nümunələri bilirdi və balaca Mikayıl erkən yaşlarından nənəsindən maraqlı atalar sözləri, zərbi məsəllər, nağıl və dastanlar eşidib.

Mikayıl Müşfiq sovet dövründə Bakı Darülmüəllimində, daha sonra 12 nömrəli ikidərəcəli məktəbdə təhsil almış, 1931–ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitunun dil – ədəbiyyat şöbəsinə daxil olmuş, ali təhsil aldıqdan sonra Bakının müxtəlif məktəblərində 7 il müəllim işləmişdir. Şairin «Bir gün» adlı ilk şeiri 1926–cı ildə «Gənc işçi» qəzetində dərc olunmuşdur. «Küləklər» adlı ilk kitabı isə 1930 – cu ildə işıq üzü görmüşdür.

Dövrün hadisələrinə çevik reaksiya verən şair «Vuruşmalar» poemasında müharibənin dəhşətlərini, əhalinin kasıb təbəqəsinin döyüşlərdən çəkdiyi əziyyətləri, məhrumiyyətləri roetik bir dillə tərənnüm etmişdir. Şair müharibənin törətdikləri dəhşətləri önə çəkmiş, sadə insanların qürurunu, mərdliyini, çətin anlarda sinəsini qabağa verməsini diqqət mərkəzinə çəkmişdir.

M.Müşfiq bədii yaradıcılığa XX əsrin 20–ci illərində başlamış, 30-cu illərdə isə daha məhsuldar işləyərək çox qısa ömür yolunda 10 kitab nəşr etdirmişdir. Onun «Vuruşmalar», «Qaya» poemaları, «Şəngül, Şüngül, Məngül», «Kəndli və ilan» mənzum nağılları, «Bir may», «Pambıq», «Məktəbli şərqisi», «Pioner», «Coğrafiya», «Bayram axşamı», «Zəhra üçün», «Vuruşmalar», «Qaya» əsərləri uşaq ədəbiyyatımızın ən yaxşı nümunələridir. «Bayram axşamı» şeirində M.Müşfiq uşaq yaşlarında valideynləri, bacı-qardaşı və nənəsi ilə keçirdiyi bayram axşamını xatırlayır. Süfrə arxasında əyləşən ailə

üzvlərinin şükranlığını qeyd edən müəllif etnoqrafik yaddaşa müraciət edir, bayram gənləri uşaqların od üstündən necə atdanmağını, «gün çıx, gün çıx, kəhər atı min çıx»- deyə ətrafa səs saldıqlarını, Novruz bayramını sevinclə gözləmələrini maraqlı bir şəkildə qələmə almışdır. Şübhəsiz ki, bu hiss bütün uşaqların keçirdiyi bir ovqatdır.

Şairin «Zəhra üçün» şeirinin də yazılma tarixi maraqlıdır. Bir gün dərsdə olarkən beşinci sinif şagirdi Zəhra Salayeva xatirə dəftərinə aftoqraf yazmasını xahiş edir.Uşağın müraciətindən mütəəssir olan M.Müşfiq elə dərsdə ikən « Zəhra üçün» şeirini yazıb:

İrəli Qoş, irəli,
Ey mənim gözəl qızım!
Qalma həyatdan geri,
Oxu mükəmməl, qızım!

Uca daglardan atlan,
Hər çətinliyə qatlan,
Bir quş kimi qanadlan,
Göylərə yüksəl, qızım!

Mehriban ol insana,
Bir yuxarı baxsana,
Cöydən günəş, ay sana,
Eyləyir « gəl, gəl, qızım!»

«Cografiya» şeiri də uşaqlar üçün gərəkli mövzuya həsr olunmuşdur. Şagirdlər coğrafiya müəlliminin suallarına cavab verməkdə çətinlik çəkirlər. Ancaq onlar xəritədə tapa bilmədikləri, haqqında heç bir məlumatları olmadığı Kür çayını, Xəzər dənizini, Göyçə gölünü, Naxçıvanı görəndən sonra həmin suallara asan cavab tapırlar.Müəllif uşaqlara vətəni, onun gözəlliklərini sevməyi məsləhət görür, təhsildə əyanilik prinsipini müdafiə edir.

«Şəngül, Şüngül, Məngül» əsəri məktəb yaşına çatmayan uşaqlar üçün yazılıb. M.Müşfiq şifahi xalq ədəbiyyatımızdan

götürdüyü bu mövzunu yüksək bədii sənətkarlıqla uşaq ədəbiyyatımıza gətirmişdir. Əsər sənətin əzəli və əbədi problemi olan xeyirlə şərin mübarizəsinndən ibarətdir. Şəngül, Şüngül, Məngül və onların anası keçi, dəmirçi xeyir qüvvələri, Durd, qazı isə şəri təmsil edir. Şair öz qəhrəmanlarının zahiri görünüşü, mənəviyyatı, yaşı, məşğuliyyəti, davranışı haqqında balaca oxucularda konkret təsəvvür formalaşdırır. Şəngülün bir yaşındadır, şəvə kimi qara tükləri, iri buynuzları var. Şüngülün gözləri nərgizə bənzəyir, məşğuliyyəti gecə-gündüz atılıb-düşməkdir. Tükü bəyaz və yumşaqdır:

Şüngülün gözləri nərgiz,
Sanki dünyadan xəbərsiz
Gecə-gündüz oynaqlardı,
Anasını qucaqlardı.

Məngül tənbəldir, tükü ala-buladır, çox nadincdir. Anaları qeyri adi dərəcədə zəhmətkeşdir, balalarını çox sevir, onların xoşbəxtliyi üçün canından keçməyə hazırdır. Keçi acgöz qurdu balalarının intiqamını almaq üçün öldürür.

Bədii yaradıcılıqla yanaşı, tərcüməçilik fəaliyyəti də göstərən şair 1930-1937 – ci illərdə beş tərcümə kitabı nəşr etdirmişdir. M.Müşfiq A.S. Puşkinin «Qaraçılar» (Ş.Abbasovla birlikdə), T.Şevçenkonun «Kobzar» (Əhməd Cavadla birlikdə) , S.Y.Marşakın «Huşsuza bax, huşsuza», M.F.Axundovun «A.S.Puşkinin ölümünə Şərq poeması», M.Y.Lermantovun «Demon» (R.Rza ilə birlikdə), «Qafqaz» (M.Rəfili ilə birlikdə) əsərlərini və s. dilimizə tərcümə etmişdir.

Mikayıl Müşfiqin uşaq əsərlərinin dili sadə, məzmunu yaddaqalandır. Buna görə də həm azyaşlılar, həm də yuxarı sinif şagirdləri onun əsərlərini oxumaqdan zövq alırlar.

RƏSUL RZA

(1910-1983)

Rəsul Rza 1910-cu ildə Göyçay rayonunda anadan olub. İlk ibtidai və orta təhsilini Göyçayda alıb. Atası vaxtsız vəfat etdiyindən dayısı Məmmədhüseyn Rzayevin himayəsində böyümüş, onun soyadını qəbul etmişdir. 1924-cü ildə Gəncə Sənaye və Əkinçilik Texnikumunu bitirmiş, bir müddət Göyçayda kitabxanada işləmiş, 1927-1929-cu illərdə Tiflisdə Zaqafqaziya Kommunist Universitetində oxumuşdur. 1930-cu ildən Bakıya köçmüş, «Gənc işçi» qəzetində işləmişdir. O,1936 cı ildə Moskva Kinomotoqrafiya İnstitutuna qəbul olunmuş, Böyük Vətən Müharibəsi illərində ordu qəzetlərində çalışmışdır.

Bədii yaradıcılıga Tiflisdə nəşr olunan «Qığılcım» almanaxındakı «Bir gün» şeiri ilə başlayıb. Müxtəlif illərdə «Çapey» (1932), «Qanadlar» (1935), «Çinar», «Ölməz qəhrəmanlar» (1942), «İntqam, intitqam», «Leytenant Bayramın gündəliyindən» (1943), «Günəşin sorağında» (1952), «Şəkil və çəkil» (1955), «Pəncərəmə düşən işıq» (1962), 5 cildlik «Seçilmiş əsərləri» (1980-1983) və s. kitabları nəşr olunmuşdur.

Bədii yaradıcılığa keçən əsrin 20-ci illərinnin sonunda gələn şair ədəbiyyatımıza sərbəst şeir cərəyanının yaradıcılarından biri kim daxil olmuşdur. Bildiyimiz kimi, 20-ci illərdə böyük türk şairi Nazim Hikmət kommunist ideologiyasını qəbul edərək yaşamaq üçün Sovet hökumətinə gəlmişdi. O, tez-tez Bakıya gəlir, Azərbaycan şair və yazıçları ilə görüşür, onların yaradıcılıgına qüvvətli təsir göstərirdi. Bu təsir nəticəsində milli ədəbi prosesdə sərbəst şeir təmayülü meydana çıxmış, Mikayıl Rəfili, Mikayıl Müşfiq, Rəsul Rza və başqaları sərbəst vəzndə şeirlər yazmışlar. Şübhəsiz ki. sərbəst vəznin ədəbiyyatımızda formalaşmasında, yeni bir ədəbi istiqamət yaratmasında Rəsul Rzanın müstəsna xidmətləri var.

«Səkil və Çəkil» əsəri şairin uşaqlar üçün yazdığı ən yaxşı, onların maraqla oxuduğu əsərlərindəndir. Ədəbi tənqid bu əsəri uşaq ədəbiyyatının inkişafında yeni bir addım kimi qiymətləndirmişdir. Əsərdə müəllif balaca oxucuları təbiətlə, hey-

vanlar aləmi ilə tanış edir, onlarda ətraf aləm haqqında maraq oyadır. Məlumdur ki, uşaqlar qarşısına çıxan hər şeylə maraqlannır, gördükləri, dərk etmək istədikləri haqqında böyüklərə suallar verirlər. Bu da təbiidir. Onlar tezliklə dünya və ətraf aləm haqqında mümkün qədər çox informasiya toplamaq istəyir. Ona görə də şair uşaqlara heyvanların yuxusu haqqında məlumat verməzdən əvvəl, onları bu nağılı qavramağa hazırlayır, uşaqların diqqətini bir məsələyə yönəldir:

Uşaqlar, ay uşaqlar,
Bilirsinizmi nə var?
Bilmirsiniz, eləmi?
Kimin kağız, qələmi
Var əlinə götürsün,
Mənə yaxın otursun,
Xoşuna gələnləri
Bir-bir kağıza yazsın.

Heyvanların yuxusunu şair uşaqlara danışmazdan əvvəl maraqlı bədii vasitələrdən istifadə etmiş, onların maraq dairəsində olan məsələləri bədii sənətə gətirmişdir.

Ayı, qurd, tülkü, dovşan,
Arı, it, pişik, ceyran,
Toyuq, balıq, kəpənək
Yatıb dincəlsin gərək.
Birisi gecə yatır
Birisi gündüz yatır.
Biri bükülüb yatır,
O biri dümdüz yatır,
Bəzisi tək-tək yatır,
Qurdlar göz-gözə yatır…

Gətirdiyimiz bədii nümunədən göründüyü kimi, Rəsul Rza müxtəlif heyvanların hərəkəti, davranışı ilə bağlı uşaqlara konkret bilgi vermişdir. «Ayının yuxusu», «Dovşanın yuxusu», «Kəpənəyin yuxusu», «Heyvanların yuxusu» əsərlərində də eyni məqsəd güdmüşdür

Rəsul Rzanın uşaq şeirləri vəznin oynaqlıgına, dilinin sadəliyinə, hadisələrin ibrətamizliyinə görə diqqəti cəlb edir. «Ayının yuxusu» əsərində şair ayının armuda münasibətini beli ifadə edir:

Ayı o yana baxdı,
Döndü bu yana baxdı,
Meyxoş armud iyindən
Ağzının suyu axdı.

70-ci illərin ikinci yarısında Rəsul Rza uşaqlar üçün «Balaların şəkilli təbiət ensiklopediyası» silsiləsindən on kitab nəşr etdirib. Bu kitablarda uşaqlara təbiətin sirləri öyrədilir.

MİRMEHDİ SEYİDZADƏ

(1907-1976)

Mirmehdi Seyidzadə yarıməsirlik ədəbi fəaliyyətini uşaq ədəbiyyatı ilə bağlamışdır. O, 1907-ci ildə Aşqabadda anadan olmuşdur. Hələ çox balaca ikən atasını itirmiş, anasının himayəsində böyümüşdür. İlk təhsilini Aşqabadda alandan sonra 1920-ci ildə anası ilə birlikdə Bakıya gəlmiş, Bakı Pedaqoji Texnikumunda təhsil almış və bir müddət Şamxor (indiki Şəmkir) rayon Komsomol Komitəsində, 1926-1931-ci illərdə Bakıda kitabxana müdiri vəzifəsində çalışmışdır. Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra 1932-1946-cı illərdə Azərnəşrdə üşaq ədəbiyyatı şöbəsinin müdiri, baş redaktor vəzifələrinə irəli çəkilmişdir. Mirmehdi Seyidzadə 1976-cı ildə vəfat etmişdir.

Ədəbi fəaliyyətə 20-ci illərin ikinci yarısından başlayan Mirmehdi Seyidzadə 45 il «Uşaqgəncnəşr»də işlədiyi müddətdə daim uşaq ədəbiyyatının nəşri və təbliği ilə məşğul olmuş, maraqlı, məzmunlu, sadə və səmimi şeirləri ilə balaca oxucuların sevimlisinə çevrilmişdir. Onun «Kəndçi qızı» adlı ilk şeiri 1925-ci ildə «Şərq qadını» jurnalında dərc edilmişdir. Bu şeirdə Azərbaycan qadınlarının faciəli taleyindən, inqilablar dövründə çəkdikləri məşəqqətlərdən bəhs olunur. O təkcə şeir yazmaqla kifayətlənmir, nəsr əsərləri də yazırdı. 1929-cu ildə çap olunan «Qəhrəmanın romanı» hekayələr kitabı göstərdi ki, Mirmehdi Seyidzadədə nəsr təfəkkürü kifayət qədər güclüdür. «Şanlı gün» əsəri 1930-cu ildə «ən yaxşı uşaq əsərləri üçün» müsabiqəsində mükafat almışdır.

1930-1940-cı illərdə Mirmehdi Seyidzadə dalbadal bir neçə kitab nəşr etdirmişdir. Onun «Şanlı gün» (1932), «Kiçik təyyarəçilər» (1932), «Pinti Həsən» (1934), «Nərgiz» (1935), «Cocuq şeirləri» (1935), «Nilufər», «Ayaz» (1937), «Qızıl quş» (1938), «Ceyran» (1939), « Pioner andı» ((1941), «Balaca döyüşçülər» (1941), «Bizim ellər» (1944) və s. kitabları o dövrdə uşaq və yeniyetmələr tərəfindən maraqla qarşılanmışdır.

Mirmehdi Seyidzadə təkcə kiçik həcmli şeirlər yazmaqla kifayətlənmir, poema yaradıcılığında da qələmini sınayırdı. Yazıçı «Unudulmaz görüş», «Bakı mənzərələri», «Sehrli güzgü», «İsgəndər və çoban» əsərləri ilə uşaq poeması janrını xeyli zənginləşdirmişdir.

Mirmehdi Seyidzadə 20-ci illərin ikinci yarısından başlayaraq bütün fəaliyyətini gənc nəslin təlim-tərbiyəsinə, onların bədii zövqünün inkişaf etməsinə yönəltmişdir. Şifahi xalq ədəbiyyatının, klassik irsin zəngin ədəbi ənənələrindən bəhrələnən şair milli uşaq ədəbiyyatının məzmunca kamil, rəngarəng nümunələrini yazmaqla, uşaq ədəbiyyatımızın yeni mərhələsinin ən istedadlı nümayəndələrindən biri olduğunu təsdiq etmişdir. Belə ki, onun yazdığı nağıl-pyeslər, poemalar, bir-birindən maraqlı uşaq şeirləri bu gün də uşaq və yeniyetmələr tərəfindən sevilə-sevilə oxunur.

Böyük Vətən Müharibəsi illərində Mirmehdi Seyidzadə vətənpərvərlik mövzularına yenidən müraciət etmişdir. Həmin dövr yaradıcıdığında müharibədən qalib çıxmaq, torpaqlarımızı düşmən tapdağında qoymamaq əqidəsi daha çox təqdirəlayiq hesab olunur. «Balaca döyüşçülər», «And», «Vətən qızı» və s. şeirlərində Mirmehdi Seyidzadə müharibədə səfərbərlik, bütün qüvvələri birləşdirmək, vahid yumruğa dönmək arzularını ifadə etmişdir.

Müharibədən sonrakı illərdə də Mirmehdi Seyidzadə məhsuldar işləmiş, «Gülməlidir», «Yaxşı yoldaş», «Özündən razı», «Belə uşaqlar da var», «Fərhadın etirafı» kimi şeirlər yazaraq, Azərbaycan övladlarını namusla yaşamağa, vətəni sevməyə, yaxşı təhsil almağa, elə-obaya layiqli övlad olmağa çağırmışdır. «Böyük əməllər», «Solmayan bahar» şeirləri, «Abşeron bağlarında» poeması Mirmehdi Seyidzadənin uşaq psixologiyasını, mənəvi aləmini, düşüncə tərzini incəliklərinə kimi bildiyindən xəbər verirdi.

Mirmehdi Seyidzadənin 1973-cü ildə «Gənclik» nəşriyyatı tərəfindən çapdan çıxan «Yadigar» kitabı «Şeirlər», «Mənzum nağıllar», «Pyeslər» başlığı altında üç hissədən ibarətdir. Kitabdakı «Bahar nəğməsi», «Yay», «Payız lövhələri», «Qış

mənzərəsi» şeirlərində kiçik yaşlı məktəblilərə hər fəslin özünəməxsus xüsusiyyətləri, gözəllikləri haqqında konkret məlumat verməklə yanaşı, eyni zamanda uşaqlarda təbiətə, onun zənginliyinə, füsunkarlığına rəğbət və məhəbbət hissi də oyadılır. «Bahar nəğməsi» şeirində təbiətin oyanması ilə quşların cəhcəh vurması, çayların daşması, otların göyərməsi, təbiətə yeni naxışların salınması paralel şəkildə verilir, balaca oxucularda təbiətə qarşı məhəbbət hissi yaradılır. «Balaca qız» hekayəsi tərbiyəvi cəhətdən diqqəti daha çox cəlb edir. Evdə nə verirlərsə balaca qız yemir, şıltaqlıq edir, lakin o baxçaya gələndən sonra öz həmyaşıdlarına qoşulur, onlarla deyib-gülür, hətta kifayət qədər yemək də yeyir. Ailədə naz-qəmzəyə üsiünlük verən balaca qız baxçada tamam başqa cür hərəkət edir. Beləliklə, müəllif təlim-tərbiyənin formalaşmasında kollektivin roluna daha çox əhəmiyyət verir.

1940-cı ildə Gənclər Ədəbiyyatı Nəşriyyatı tərəfindən M.Seyidzadənin «Kiçik pyeslər» əsəri nəşr olunmuşdur. Kitabda uşaqlar üçün nəzərdə tutulan dörd pyes var. Bunlardan birincisi «Qızıl balıq» pyesidir. Əsərin mövzusu A.S.Puşkinin «Qızıl balıq» nağılından götürülmüşdür. M.Seyidzadə əsərində dəniz sahillərindəki qoca balıqçı ilə qızıl balıq apasında maraqlı bir dialoq vermişdir. Kitabdakı « Xəstəlikdən qorun», «Mikroblar», «Eldar və zaman» pyesləri də uşaqların yaş və bilik səviyyəsinə uyğun yazılmışdır.

M.Seyidzadə müasir həyatdan nağıllar yazmağa daha çox meyl göstərir, folklor motivlərindən istifadə edərək orijinal əsərlər yaradırdı. «Ovçu Elişlə qoçaq Aytəkinin nağılları» (Bakı, Uşaqgəncnəşr, 1954) yazılı ədəbiyyatda şifahi ədəbiyyatdan istifadə etməyin ən yaxşı nümunəsidir. Müəllif heyvanların insanlar tərəfindən əhliləşdirilməsi, onların bir-birinə münasibəti, yaşamaq uğrundakı mübarizəsi kimi məsələlərə diqqəti cəlb etmişdir. Əsər dörd nağıldan ibarətdir. Birinci hissədə - «Yaz nağılı»nda arıların zəhmətsevərliyi, ayının vəhşiliyi təsvir olunur. Ayı öldürüldükdən sonra müəllif öz fikirni belə ifadə edir: «Soyğunçunun, talançının axırı belə olur». Nağılların hamısında ovçu Eliş soyğunçu ayıya, acgöz canavara,

hiyləgər tülküyə qarşı qoyulur. İkinci hissə – «Yay nağılı»nda tayqulaq dovşanla acgöz canavarın sərgüzəştlərindən bəhs olunur. Əsər «Şəngülüm, Şüngülüm, Məngülüm» nağılına çox yaxındır. Kitabdakı «Payız nağılı», «Boz bülbülün nəğməsi» nağıllarında ədalətsizlik, özbaşınalıq üzərində qurulan dünyadan danışılır. Sonuncu «Qız nağılı»dır. Bu əsərləri mənzum povest də adlandırmaq olar.

M.Seyidzadə bədii yaradıcılığa keçən əsrin 20-ci illərində başlamışdır. İlk əsərlərində xalq nağıllarının təsiri daha çox özünü göstərmiş, ədəbiyyata orijinal bir uşaq şairinin gəldiyi açıq-aydın hiss olunmuşdur. «Ceyran», «Nərgiz» əsərləri bu uğurun bəhrəsidir.Yazıçının N.Gəncəvinin «İskəndərnamə» əsərinin mövzusunda yazdığı «İskəndər və çoban» əsəri klassik ədəbiyyatdan yaradıcı şəkildə istifadə etmənin ən yaxşı nümunəsidir. Şair N.Gəncəvidən fərqli olaraq hadisələri və süjet xəttini xeyli sadələşdirmiş, əsərinin dilini məktəb yaşına çatmayan uşaqların yaş səviyyəsinə uyğunlaşdırmışdır.

Uşaq yazıçılarımız balacalar üçün əsərləri bir qayda olaraq yeddilikdə yazıblar. M.Seyidzadə isə bu sahədə orijinallıq göstərərək «İskəndər və Çoban» əsərini beşlikdə qələmə almışdır. «Ana», «Qızıl quş» əsərləri Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. Füzulinin «Söhbətül-əsmar» əsəri əsasında yazdığı «Meyvələrin bəhsi» alleqoriyası müsabiqədə birinci yerə layiq görülmüşdür.

M.Seyidzadə həmişə balaca oxucularla «dil tapmağa» çalışıb. Buna təkcə məzmun və formanın sadəliyi ilə nail olmayıb. Həm də uşaq psixologiyasına yaxın olan cəhətləri müəyyənləşdirməyi bacarıb və bundan məharətlə istifadə edib. «Quzu» şeirində ev heyvanlarına mərhəmət, məhəbbət oyatmaq üçün uşaq dilinə məxsus şirin, sadə ifadələr işlədib:

Quzum gəl, ay quzum gəl,
Ay mənim yalqızım gəl.
Sənin zərif boynuna
Zınqırovlar düzüm gəl.

Şairin «Gün çıx», «Qış baba», «Kəpəz» şeirləri də dilininin sadəliyi, şirinliyi, ifadələrin zənginliyi ilə diqqəti cəlb edir, mücərrədlikdən çox uzaqdır. Predmet haqqında dəqiq məlumat verir. Bu cəhətdən «Qış baba» şeiri daha səciyyəvidir:

Çöldə çıxır qar dizə,
Yolka qonaqdır bizə.
Nəğmə deyir üz-üzə,
Söylədik: Alqış baba,
Şaxta baba, qış baba.
Burda verib əl-ələ,
Oynayırıq, bax,belə,
Səs yayılır hər elə:
Ay sənə alqış baba!
Şaxta baba, qış baba.

M.Seyidzadə Azərbaycan uşaq ədəbiyyatının yaradanların ön cərgəsindədir. Onun əsərlərində tərbiyəvi məsələlər daha çox diqqəti cəlb edir. Xalq yaradıcılığından - tapmaca və nagıllardan, hikmətli sözlərdən yerində istifadə etməklə əsərlərinin tərbiyəvi əhəmiyyətini həmişə yüksəltməyə çalışmış, uşaq və yeniyetmələri mənəvi cəhətdən təmiz olmağa çağırmışdır. Şairin bütün şeirləri tərbiyəvi sonluqla bitir. «Sözün düzü», «Səbayel gözəli» əsərləri bü cəhətdən maraqlıdır. Klassik poeziyada və aşıq yaradıcılığında duman kədər, qəm, qüssə simvolu kimi göstərilmişdir. Eyni mövzunu şair uşaq və yeniyetmələr üçün nikbin bir əhvali-ruhiyyədə işləmişdir:

Dumana bax, dumana,
Heç kəlməzdi gümana,
İpək tülə bənzəsin
O dağları bəzəsin.

Şairin uşaq ədəbiyyatından tərcümələri haqqında da danışmağa ehtiyac var. Puşkinin nağıllarını, Lermontovun neçəneçə şeirlərini, Jerşovun «Qozbel at», Marşak, Çukovski, Mixalkovun «Seçilmiş əsərlər»ini dilimizə tərcümə etmişdir. Şai-

rin əsərləri bir neçə xarici dilə tərcümə olunmuşdur. «Vətən haqqında mahnı», «Balıqçılar», «Ulduzlar səpələnir», «Məhəbbət», «Dəniz buruqları», «Bahar gəldi», «Nərgiz» kitabları rusca, «Kiçik təyyarəçilər» əsəri avarca, «Meyvələrin bəhsi» kabarda-balkar dilinə tərcümə olunmuş, yuqaslav, ingilis, italyan mətbuatında dərc edilmişdir.

Etnoqrafik yaddaşın itiliyi, poetik təfəkkürün genişliyi, milli kökə, tarixi yaddaşa bağlılıq, bədii düşüncənin tələblərinə çevik reaksiya vermək bacarığı M.Seyidzadə yaradıcılığında diqqəti cəlb edən cəhətlərdəndir. Bu da maraqlıdır ki, coğrafi ərazisi zaman-zaman parçalanan, düşmən tapdağında inildəyən qədim Azərbaycan torpağı onun yaradıcılığında mənəvi məkan mənasında bütövdür, bölünməzdir. Hələ ömründə bir dəfə də görmədiyi uluslar-obalar haqqında da şair çox təsirli, səmimi, ürəkdən gələn sözlər yazır. Oxucuya elə gəlir ki, onun həyatı elə bu yerlərdə keçib. Buna görə də M.Seyidzadənin bədii irsi bu gün də öz əhəmiyyətini itirməyib.

MİRVARİD DİLBAZİ

(1912-2001)

Mirvarid Paşa qızı Dilbazi 1912-ci ildə Qazax rayonunun Musaköy kəndində anadan olmuşdur. Bakıda Qız Seminariyasını bitirdikdən sonra Biləcəri Dəmiryolu Məktəbində müəllimlik etmişdir. 1929-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat-ictimaiyyat fakultəsinə qəbul edilmişdir. Təhsilini tamamladıqdan sonra Quba Partiya Məktəbində müəllim, Respublika Əlyazmalar Fondunda elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir.

Mirvarid Dilbazi milli poeziyamızda özünəməxsus yeri və mövqeyi olan sənətkardır. 70 ildən çox bədii yaradıcılıqla məşğul olan şairin ilk yaradıcılığı 1920-ci illərin ikinci yarısına təsadüf edir. Uşaqlar üçün nəzərdə tutulan ilk «Kiçik hekayələr» toplusu 1950-ci ildə nəşr olunmuşdur. 1966-cı ildən 1972-ci ilə qədər «Göyərçin» jurnalının baş redaktoru vəzifəsində çalışmışdır. 1972-ci ildən ömrünün sonuna qədər ədəbi-ictimai fəaliyyətini «Azərbaycan qadını» jurnalı ilə baglamışdır. Yazıçının bir-birinin ardınca işıq üzü görən «Jalənin kitabı» (1965), «İlk məktub» (1961), «Atlaz yarpaqlar» (1965), «Unutmaram» (1969), «Yaşıl ayna»(1971), «Kaman» (1972) kitabları yazıçının bədii təfəkkürünün genişliyini,onun uşaq dünyasına, uşaq psixologiyasına nə qədər yaxından bələd olduğunu bir daha təsdiq edir.

M.Dilbazinin şeirlərində təbiətə vurğunluq, nəciblik, insanlara humanist münasibət daha çox nəzərə çarpır. Bu şeirlərdə təkcə təbiət tərənnüm olunmur, mövzuya bir aspekdən yanaşılmır, o təbiəti bütün çalarları və zənginliyi ilə göstərir, onun bütün məqamlarını diqqət mərkəzində saxlayır. Təbiətin xoş anlarını da, sərt üzünü də balaca oxuculara tanıtdırır. «Günəş», «Külək», «Su və ilanın nağılı», «Babaların su həsrəti» şeirləri bu qəbildəndir.

Böyük Vətən Müharibəsindən sonrakı yaradıcılığında uşaq əsərlərinə daha çox diqqət yetirən M.Dilbazi «Mənim hədiyyəm» (1948), «Qardaşlar» (1952), «Seçilmiş əsərləri»

(1957), «Şeirlər, nağıllar, kiçik pyeslər» (1959), «Əlcəzairli qız» (1964), iki cild «Seçilmiş əsərləri»ni uşaq və yeniyetmələrin fikri-mənəvi inkişafına yönəltmişdir.

70-80-ci illər M.Dilbazinin bədii yaradıcılığının daha kamil mərhələsidir. O, «Bənövşələr üşüyəndə» (1970), «Ana qanadı» (1972), «Dağ çiçəyi» (1977), üç cildlik «Seçilmiş əsərləri» (1982-84) ilə sübut etdi ki, yaradıcı insan, ədəbi şəxsiyyət üçün vətən və xalq məfhumu nədir.

M.Dilbazinin uşaq şeirlərində vətən məhəbbəti, torpaq sevgisi xüsusi yer tutur. «Bakının işıqları», «Xəzər üstə şəhərim var», «Ölkəm», «Bizim yurd» kimi şeirləri bu cəhətdən səciyyəvidir. Bu əsərlərdə Bakının gözəllikləri, vətənimizin füsunkar təbiəti, dağı, daşı poetik şəkildə tərənnüm olunur. Şeirlərdə daha oynaq vəznlərin seçilməsi, qafiyələrin ahəngdarlığı, dilin sadəliyi və səlistliyi, fikrin yığcamlığı balaga oxucuların daha çox xoşuna gəlir.

Yaradıcılığının müxtəlif mərhələlərində uşaq ədəbiyyatına xüsusi diqqət yetirən Dilbazi xanım «Günəş», «Yaz yağışı», «Yaz buludu», «Göy guruldayır» və s. şeirlərində uşaqlarda təbiətə, onun gözəlliklərinə məhəbbət oyatmağa çalışmış, onların sevimli yazıçısı kimi tanınmışdır. «Yaz yağışı» şeirində M.Dilbazi təbiətin müəyyən bir anınını, məqamını belə qələmə alıb:

Şimşək çaxdı uzaqlarda,
Quşlar susdu budaqlarda.
Yağış gəldi dağı aşdı,
Çiçək çiçəyə qarışdı.

Sevimli şairimiz təkcə lirik şeirlər yazmaqla kifayətlənməmiş, uşaqlar üçün bir sıra maraqlı poema və mənzum hekayələr də yaratmışdır. «Reyhan», «Balaca nümayəndə», «Xeyir və Şər», «Sevincin dünyası», «Babaların su həsrəti» əsərlərində xalqımızın tarixi keçmişindən, çağdaş durumundan, müharibə illərində vətəndaşlarımızın ağır sınaqdan necə çıxmalarından bəhs olunur. «Reyhan» poemasında elmə, maarifə çağırış ruhu daha güclüdür.

İ.P.Sotonun «Zənci balası Atalo», Ə.Nesinin «İndiki uşaqlar möcüzədir» əsərlərini dilimizə tərcümə etmişdir.

ƏLİ KƏRİM

(1931-1969)

Əli Kərim cəmi 38 il yaşayıb. Vəfat edəndə hələ 40 yaşı yox idi. Lakin buna baxmayaraq o, qısa şair ömründə poeziyamızda şimşək kimi parladı, yeni cığır açdı, uşaq və yeniyetmələrin, böyüklərin dilindən düşmədi. Məclislərdə, rəsmi tədbirlərdə. Tələbə yığıncaqlarında Əli Kərimin ana, vətən, torpaq, ilk məhəbbət haqqındakı şeirləri söyləndi, poetik istedadı əfsanələşdi-bir sözlə ısa muddətdə ədəbiyyatımızın müasir klassiki kimi tanındı. «Vəsiyyət» şeiri ilə o təkcə öz övladlarına müraciət etmirdi. Vəsiyyətin ünvanı və istiqaməti bütün Azərbaycan gənclərinə yönəldilmişdi. Yaxın vaxtlarda cismən bu dünyadan köçəcəyini hiss edən şair övladlarını tabutuna yaxın buraxmamağı vəsiyyət edir. Ata itgisindən övladlarının birdən-birə qocalacağından ehtiyat edir. Tam qətiyyətlə deyə bilərik ki, bu şeirdə Bayron kədəri, Füzuli niskili var. Bu şeirdə kədər poetik obraz səviyyəsinə yüksəlir, şairin cismani, mənəvi iztirablarının təzahürü kimi meydana çıxır:

Nə bu dərd gərəkdir uşaqlar üçün
Nə də aramızda bu narazılıq…
Ayrılıq onlara bir məzuniyyət,
Gedirəm, yenə də dönərəm ğeri.
Amma məzuniyyət qurtarmayınca
Çəkilməz yollardan həsrət gözləri.
Çəkər məzuniyyət , qırılar ya da
Haqlayar sizləri soyuq bir xəbər
Ya da ki, onların toyuna bir gün
Toya çagrılmamış bir qoca gələr.

Vətənpərvərlik mövzusu şairin əksər əsərləri üçün səciyyəvidir. «Heykəl və heykəlin qardaşı» əsəri Polşanın azad olunması uğrunda döyüşlərdə həlak olan Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun qəhrəmanlığına həsr olunub. Abidəni ziyarətə gələnlər heykəlin dayandığı zirvədə dayanmağa çalışır.

Heykəlin baxışında bir kədər var. Çünki heykəl üç addımlıqdakı evinə gedə bilmir, evdə isə ananın kədəri ölçüyəgəlməzdir. Ana tez-tez oğlunun məzarını ziyarətə gəlir, oğlunun heykəli ilə «danışır» və oğlunun igidliyi ilə fəxr edir.

Nadir isdedad idi Əli Kərim. Onun sərbəst vəzndə yazdığı şeirlərində emosionallıq, hiss və həyacan, duyğu qarşısıalınmaz selə bənzəirdi. Xarakterindəki çılğınlığı, duyğusallığı poetik yaradıcılığına hopmuşdu.Ancaq ürəyinə yatan, duyğularına mərhəm olan mövzulara müraciət edirdi, təkrarolunmaz bir şair ömrü yaşayırdı: « Əlinin bütün varlüğını, xasiyyətini, daxili «məni»ni bu iki sözlə ifadə etmək olardı: kövrəklik və məğrurluq. O məğrur şəxsiyyət idi, çünki öz qiymətini bilirdi, öz böyük istedadından xəbərdar idi. Düzdür, hər bir həqiqi istedad kimi , onun da öz talantından şübhələndiyi anlar, məqamlar olub. Amma hər halda, mənə elə gəlir ki, Əli öz bədii imkanlarının genişliyindən agah idi.Eyni zamanda o, ucuz şöhrət azarından çox-çox uzaq idi, ədəbiyyatda tutduğu yeri bilmək üçün ona dolayı təsdiqlər, əlavə formal sübütlar gərək deyildi…Gözü-könlü tox adam idi, daxilən arxayın idi, çünki sənətkarın bu dünyada qazana biləcəyi ən yüksək mükafatı almışdı-istedadla təltif olunmuşdu (139)

Əli Kərim həm də uşaq şairidir. Müxtəlif illərdə o uşaqlar üçün maraqlı və cəlbedici əsərlər yazıb. Bu mənada « Uşaqlar və ulduzlar» («Gənclik» nəşriyyatı,1971) kitabından danışmaq yerinə düşər. Kitab «Nəğmələrin yuvası» şeiri ilə açılır. Uşaqlara elə gəlir ki, nəğmələr də insanlar kimidir. Onlar da yatır, dincəlir. Paşa, Azər atasından soruşur ki, nəcmələr harada gecələyir, harada yatır, necə dincəlirlər. Şair qeyd edir ki, nəgmələrin gecələdiyi yeri başqa yerdə yox, ürəklərdə axtarmaq daha düzgün olar. Uşaqların yuxuya getməsi atalarının qəlbini fərəh hissi ilə doldurur. «Laylay» şeirində isə işıq dəcəl uşağın narahatçılığına axır. Hamı yatır, dəcəl uşaq yatmasa, ay küsəcək, ulduzlar yuxuya getməyəcək.

Şairin «Güclü qoca», «Suallar və cavablar», «Qardaşın cavabı» şeirləri də uşaq və yeniyetmələrin zövqünə hesablanıb, onların bədii təfəkkürünün genişlənməsinə xidmət edir. «Güc-

lü qoca» şeirində uşaq ilk dəfə karuselə minib fırlanır. Ona elə gəlir ki, hər şey fırlanır-dəniz, buruq, şairlər, atlar-bir sözlə hər şey fırlanır. Karuseldə fırlanan qoca uşağın daha çox marağına səbəb olur:

Düşündü ki, bu kişinin
Nə qədər gücü varmış
Bu boyda bir dünyanı
Bir qoca fırladırmış.

Kitabda «Paşa, ulduzlar və uşaqlar» poeması da yer alıb. Dəcəl uşaq olan Paşa sünii peykə minib göyə qalxır. Yolu ulduzların yaxınlığından keçir. Fikirləşir ki geri dönəndə öz yoldaşlarına nə danışacaq, onlara nə verəcək:

Paşa fikrə gedir ki,
Bəs nə versin dostlara
Adlarını qoyacam
Göydəki ulduzlara.

Yerə dönəndən sonra Paşa göydə gördüklərini onlara danışır. Dostları da göyə uçur, ulduzları seyr edirlər. «Tənbəl ayı balası»nda tənbəllik tənqid olunursa, «Dənizdə səhər» poemasında təkcə neft daşları haqqında məlumat verilmir. Dənizçilər tufana sinə gərir, xilasedicilər təhlükəni uzaqlaşdırırlar. «Qiymətlərin mübahisəsi» şeirində qiymətlər özləri danışır. Onlar bir-bir özünü tərifləyir. Qiymətlər bir evə qonaq gedir. Ata oğlunun çantasından «1», « iki» qiymətləri çıxanda hirslənir, onları danlayır, bayıra atır. «4», «5» qiymətlər isə yerində qalır, atanı razı salır.

Əli Kərim poeziyası təkcə bugünün sifarişi deyil. İllər, qərinələr keçəcək, yeni nəsillər bu poeziyanın təbiiliyindən, poetik gözəlliyindən zövq alacaq, Əli Kərim yaradıcılığı klassik ədəbi irsimizin zəngin xəzinəsinə qovuşacaqdır.

XANIMANA ƏLİBƏYLİ

(1920-2007)

Xanımana Əlibəyli 1920-ci il aprel ayının 20-də Keşlə qəsəbəsində anadan olmuşdur. Babası general Agasəlim bəy Əlibəyov olan Xanımananın anası Məsimə xanım Qarayeva H.Z.Tağıyevin məşhur Qızlar Gimnaziyasını və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. O, Bakıdakı 13 nömrəli məktəbdə təhsil almış, 1935-ci ildə Bakıda keçirilən olimpiadaların birində M.C.Bağırov tərəfindən pul mükafatı almışdır. 1938-ci ildən dövrü mətbuatda dərc olunmağa başlamış, «Balaca həkim» adlı ilk kitabı 1955-ci ildə «Uşaqgəncnəşr» tərəfindən nəşr olunmuşdur. 1942-ci ildə təyinatla Masallının Qızlavar kəndindəki tibb məntəqəsinə göndərilmişdir. 1946-cı ildə ADU-nun filologiya fakültəsinə qəbul olunmuş və həmin ali məktəbi müvəffəqiyyətlə bitirmişdir. 1953-cü ildə uşaq yazıçıları Mirvarid Dilbazi və Mikayıl Rzaquluzadənin zəmanəti ilə SSRİ Yazıılar İttifaqına üzv seçilən Xanımana Əlibəylinin 30-a yaxın kitabı nəşr olunmuşdur.O, 2007-ci ildə dünyasını dəyişmişdir.

Bədii yaradıcılığa uşaq şeirləri ilə başlayan Xanımana Əlibəyli illər keçdikcə poetik təfəkkürünü genişləndirmiş, irihəcmli poemalar da yazmışdır. Onun «Aman ovçu», «Ağ çəmən», «Ulduzların qucağında», «Bir yay səhəri», «Çoxbilmiş çəpişlər», «Məni günəşə at», «»Meşə həkimi» kimi poemalalarında müasirlərimizin həyatı, uşaqlarımızı maraqlandıran hadisələr diqqəti daha çox cəlb edir.

Xanımana Əlibəylinin uşaqlar üçün yazdığı ən maraqlı əsərlərindən biri də «Balaca həkim»dir. Əsərdə yazıçı öz balaca oxucularını müxtəlif heyvanlarla, onların kuklalaşdırılmış obrazları ilə tanış edir. Təsadüfən onların hamısı xəstələnir. Balaca qız öz qayğılı hərəkətləri ilə kuklaları «sağaldır», onlara «qayğı göstərir». Qızın anası həkim olduğuna görə o, evdə xəstələrin necə müalicə edilməsini görüb. İndi isə eyni üsulla öz xəstə kuklalarını «müalicə edir». Nəhayət, qızın qayğıları öz nəticəsini verir və kuklalar «sağalır»:

Təkcə darıxdım yaman,
Saydım düz ona qədər.
Verdiyim dava-dərman
Cördüm getməyib hədər.
Hamı gözünü açdı,
Birbaş yanıma qaçdı.
Tərtəmiz sağaldılar,
Sevinib əl çaldılar!

«Çoxbilmiş çəpişlər» əsərində təsvir olunur ki, keçi evdə olmayanda, qurd balalarını dilə tutub onları yemək istəyir. Çəpişlər qurddan qorunmaq üçün bəhanə tapırlar; guya onlar açarı itiriblər, Çəpiş balaları qurda məsləhət görür ki, dama çıxıb evə düşsün, Ağılsız qurd tez dama çıxır və bacadan sobaya düşərək yanır. Buna görə yazıçı onları «ağıllı çəpiş» adlandırıb.

Xanımana Əlibəylinin «Dovşanın ad günü» əsərinin maraqlı süjet xətti var. Əsər oynaq, maraqlı bir dillə yazılmışdır. Şeirdə fikir yığcam, konkret və aydındır. Burada heyvanlar haqqında maraqlı məlumat verilir. Dovşanın ad gününə yığışan heyvanların söhbəti balaca oxucular üçün çox maraqlıdır. Kirpi haqqında müəllif belə məlumat verir:

Heç kirpi sevməyir tək
Dayansın boş-boşuna.
Yoldaşa kömək etmək
Gəlir onun xoşuna
O çöldə veyil-veyil,
Dolaşanlardan deyil.

Xanımana Əlibəylinin «Gözəllər gözəli», «Nişanlı qız», «Aycan», «Dovşanın ad günü», «Meyvələrin şahı» dram əsərləri də tamaşaya qoyulmuş, uşaqlar tərəfindən maraqla qarşılanmışdır.

SƏMƏD BEHRƏNGİ

(1939-1968)

Cənubi Azərbaycanda yaşayan Səməd Behrəngi müasir Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir. 60-cı illərdə Təbriz Universitetinin filologiya fakultəsinin ingilis dili bölümündə təhsil alıb. Onu müxtəlif mətbuat orqanlarına işə dəvət etsələr də, hamısından imtina edib. Bədii yaradıcılıqla yanaşı, uşaqların təlim-tərbiyəsi, İranda təhsil sistemi barəsində onlarca elmi məqalə müəllifi olan Səməd Behrəngi «Niyə yaxşı millətim qəhətə çıxıb», «Tarix dərsi haqqında bir neçə söz», «Uşaq ədəbiyyatı», «İran maarifi haqqında bir neçə söz», «Azərbaycan nağıllarındakı qəhrəmanların xüsusiyyətləri», «Dərsliklərin naqisliyi», «İbtidai məktəblər üçün əsasnamənin astar üzü» əsərlərində müasir təhsil sistemi məsələlərinə toxunmuş, ibtidai və orta məktəblərin mövcud vəziyyəti haqqında qiymətli fikirlər söyləmişdir.

S.Behrəngi uzun illər müəllimlik etmiş, Azərbaycan folklor nümunələrinin toplanması və nəşri yolunda yorulmaq bilmədən çalışmışdır. Şair bəzi mətləbləri açıq deyə bilməyəndə ezop üslubuna, sətraltı mənalara, müxtəlif yayındırıcı bədii üsul və vasitələrə əl atmışdır. Uşaqlar üçün nəzərdə tutulan «Balaca qara balıq» hekayəsində Balaca qara balığın timsalında o, azadlıq hisslərini və arzularını ifadə etmiş, uzun müddət arxda yaşayan balığın ümmana, dənizə can atmasına rəmzi məna verərək şəxsiyyətin, insanların mənəvi azadlığa olan meylini bədii boyalarla təsvir etmişdir. 1969-cu ildə İtaliyanın Boloniya şəhərində keçirilən uşaq kitabları müsabiqəsində birinci yerə çıxaraq qızıl medal alan şairin «Balaca qara balıq» əsəri ingilis, alman, italyan, türk, fransız və rus dillərinə tərcümə olunmuşdur.

Səməd Behrəngi yaradıcılığının bütün dövrlərində folklor janrına, ənənələrinə üstünlük vermiş, onlardan yaradıcı şəkildə faydalanmağı bacarmışdır. Onun «Gül Sənavərə neylədi», «Sənavər gülə neylədi», «Ax-vax!», «Həsən Qaranın nağılı» əsərləri məhz folklor ənənəsinin məhsuludur. Arazın o taylı-

bu taylı müasir şairlərinin yaradıcılığını diqqətlə izləyən şair Azərbaycan folklorunun təbliği məsələlərinə də diqqət yetirirdi. Bu da təsadüfi deyil ki, o bir çox əsərlərinin mövzusu və süjetini «Dədə Qorqud» dastanlarından götürmüş, nağıllarımızı fars dilinə tərcümə etmişdir. Müxtəlif illərdə yazdığı «Quşbaş keçəl», «Məhəbbət nağılı», «Qarı və çil sarı fərəsi», «Keçəl Məmi Qara», «Ağsaqqal keçi» əsərlərində mübarizlik, səmimiyyət, sədaqət, mərhəmət kimi hisslər tərbiyə olunur.

«Çuğundur satan oğlan» hekayəsində S.Buhrəngi namusla, zəhmətlə yaşamaq məsələsinə toxunub. Tanrıverdi kasıb ailədə dünyaya göz açıb. Çətinliklə yaşasa da heç kəsə əyilmir, kimsədən çörək istəmir. Bir gün eşidir ki, xalça sexində işləyən bacısına sahibkar Hacıqulu pul verib. Bundan şübhələnərək Hacıqulunun səxavətinin səbəblərini öyrənir. Məlum olur ki, xozeyin bacısını siğə etmək istəyir. Dərhal Hacıqulunu tapıb başını yarır. Gecəni gündüzə qataraq çuğundur bişirib satır və bacısına toy edir. Beləliklə, balaca Tanrıverdi xalqın, millətin namusunu qoruyur, eyni zamanda başqalarına da ibrət dərsi verir.

Həyatı, yaradıcılığı, şəxsiyyəti ilə qaranlığa, ədalətsizliyə, mənəvi əsarətə işıq saçan Səməd Behrənginin ölümü də qəflətən olmuş, 1968-ci il avqustun 30-da Xumarlı yaşayış məntəqəsinin yaxınlığında Araz çayının sularına qərq olmuşdur.

HÜSEYN KÜRDOĞLU

Hüseyn Kürdoğlu (Alışanov) 1934-cü il iyunun 15-də Laçın rayonunun Molla Əhmədli kəndində anadan olub. 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. 1953-cü ildən universitetin ədəbiyyat dərnəyinin üzvü olub. Dərnəyin rəhbəri Bəxtiyar Vahabzadə tələbəsinin poetik istedadını qiymətləndirərək yazırdı: «...Hüseyn Kürdoğlu da ümid verən gənclərdəndir. Onun şeirləri təbii, səmimi və axıcıdır. Gənc şair qələmə aldığı mövzunu dərindən duymadan, yaşamadan yazmır. Bu cəhətdən onun «Yol üstündə tək qovaq», «Görüş xatirəsi», «Torağayın» şeirləri çox maraqlıdır. («Yeni tərbiyə uğrunda», 1955-ci il, 22 oktyabr)

Əmək fəaliyyətinə Azərbaycan Televiziyası və Radio Verilişləri Komitəsində ədəbi dram şöbəsinin redaktoru kimi başlayıb. Bir müddət AMEA-nın Şərqşünaslıq İnstitutunda elmi işçi, yenə həmin institutun İran ədəbiyyatı şöbəsində böyük elmi işçi, Nizami adına Ədəbiyyat İnstitunun «Qədim dövr Azərbaycan ədəbiyyatı» şöbəsində böyük elmi işçi vəzifələrində işləyib. «Müasir kürd şairi Abdulla Qoranın poeziyası» mövzusunda namzədlik dissertasiası müdafiə edib.

Şairin «Səhər nəğmələri» adlı ilk şeirlər kitabı 1963-cü ildə nəşr olunub və dərhal ədəbi ictimaiyyətin diqqətini cəlb edib. Sonrakı onillərdə onun «Yurdumu gəzə-gəzə», «Qaya çiçəkləri», «Doğma diyarım», «Çiçək təbəssümü», «Ata yurdum», «Dördtelli durnam», «Toy karvanı», «Durna səsi», «Quzular dağa çıxdı», «Bu dünya bir karvan yolu», «İmana, dinə gəldim», «Yaralı torpağım, yaralı sevgim» şeirlər kitabı işıq üzü görüb. Tələbə yoldaşı, tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayev onun poetik yaradıcılığını belə qiymətləndirirdi: «Hüseynin dördlüklərində xalis xəyyamvari ruh yoxdur. Taleyin yox, təbiətin müdrikliyinə heyranlıq və pərəstiş var. Burada müdrik nəsihəti, hikməti və ibrətli qənaətləri təbiətdən lövhələr-bədii peysaj əvəz edir. Poetik

təzad və fəlsəfi paradoks fikir və hökmlərdən çox rənglər, duyğular arasındadır. («Bir şeir budağıydın», «Sabah», 2005, səh.123)

Hüseyn Kürdoğlunun poetik təfəkkürü dərin və əhatəlidir. İstənilən əsərində hissin, duyğunun zənginliyinin, bulaq kimi çağladığının şahidi oluruq. Eyni zamanda şairin əsərlərində dərin lirizmlə yanaşı, vətənini, xalqını çılğın bir məhəbbətlə sevən bir insanın, humanist şairin ürək çırpıntıları nəzəri cəlb edir. 1990-cı ilin 20 Yanvarında rus imperiyasının ordusu Bakını qana bələyəndə bu cür haqsızlığa, özbaşınalığa dözməyən şair yazırdı:

Sükan əyyaş əlində,
Tərəzi çaş əlində,
Dünya təpəl iblisin
Qalıb çaşbaş əlində.

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən olan Hüseyn Kürdoğlu uşaqlar üçün silsilə əsərlər yazmışdır. Yaradıcılığında rübai şeir texnikasına üstünlük verən şair uşaq və yeniyetmələrin təlim-tərbiyəsinə, yeni insan kimi formalaşmasına xidmət edən bədii numunələrini də eyni formada yazmışdır ki, bunu milli uşaq ədəbiyyatında yeni bir cığır, uğurlu bir addım kimi qəbul etmək lazımdır. Ənənəvi şeir formasında şair çox maraqlı, diqqəti cəlb edən uşaq əsərləri yaradıb. Bu bədii parçalarda təbiətin gözəlliklərini, zənginliyini, əsrarəngliliyini maraqlı poetik vasitələrlə qələmə alıb:

Kəklik uçub daşa gəlir,
Tappıltısı xoşa gəlir,
İki qoç baş-başa gəlir
Çək, a quzum, yaylağı çək.

Hüseyn Kürdoğlu uşaqların istəyini, marağını yaxşı bilən sənətkardır. O öz şeirlərində balaca və yeniyetmələrin yaş xüsusiyyətlərini, bilik dairəsini, ətraf aləmə və insanlara, yaxınla-

rına münasibətini yaddaqalan bədii boyalarla ifadə etməyi bacarmışdır. Bu cəhətdən «Kimi çox istəyirsən» şeiri səciyyəvidir:

Kimin bağına girdin,
Sapsarı çiçək dərdin?
Niyə durub ağladın
Kimi yuxuda cördün?
-Babanı!

Bir dənəsən, bir dənə,
Boyuna qurban nənə.
Təzə don aldım sənə,
Kimi çox istəyirsən?
-Babanı!

Uşaq ədəbiyyatına verilən tələblərdən biri də şeir texnikasının mükəmməlliyidir. Hüseyn Kürdoğlunun uşaq əsərləri bu mənada da yeni və orijinaldır .Daxili və qulaq qafiyələrindən, sözlərin alliterasiyasından məharətlə faydalanan şair uşaqların diqqət və marağını bir nöqtəyə cəlb edir, onların qəlbinə və beyninə təsir göstərir:

Çıxdım tut ağacına
Budaqdan tuta-tuta,
Duman da göyə çıxır,
Bu dağdan tuta-tuta.
Anam dedi:-ay bala,
Budaqdan tut, ha, tutha!
Çoxlu-çoxlu tut çırpım,
Qonaq gəlsin çobanlar,
Bu dagdan tuta-tuta!

«Otuz iki qardaş» rübailər silsiləsi haqqında da ayrıca danışmağa ehtiyac var. Şair otuz iki qardaş deyəndə əlifbamızda olan hərflərin sayını nəzərdə tutur və hər bəndi əlifba sırasındakı bir hərflə başlayır. «A» hərfi Azərbaycan, «B» hərfi Babək, «V» hərfi Vaqif, «q» hərfi qəhrəman sözləri ilə başlayır.

Göründüyü kimi şair hər hərfə uyğun ən ibrətamiz, milli qürur hissi oyadan sözlər seçib və hər bəndin məzmununda bu ideya, mətləb reallaşıb. Məsələn, «Q» hərfinə uygun olaraq o deyir:

Qəhrəman Qarabağlıyam,
Mən bu diyara bağlıyam,
Bir əlimlə atəş açam.
Biriynən yara bağlıyam.

Hüseyn Kürdoğlu dərin məzmunlu, son dərəcə lirik və emosional əsərləri ilə müasir şeirimizin ön sıralarında dayanır, tərbiyəvi, vətən sevgisi ilə dolu uşaq əsərləri milli uşaq ədəbiyyatımızın yeni dövrdəki kamil nümunəsi kimi meydana çıxır.

TEYMUR ELÇİN

Müasir Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından olan Teymur Elçin bədii yaradıcılığa keçən əsrin 30-cu illərindən başlamışdır. İlk şeiri 1938-ci ildə çap olunub. Həmin vaxt o, 132 nömrəli orta məktəbin 7-ci sinfində oxuyurdu. Əlizadə Teymur adı ilə çap olunan «İspaniya qəhrəmanları» adlı həmin şeirdə belə misralar var idi:

Nərlər yurdudur bura, qaliblər nəsliyik biz.
Çökmərik heç zaman vətən satanlara diz.

Cəmi bir il sonra 8-ci sinifdə oxuyanda « Azərbaycan» şeiri dərc olunub. Şairin istər böyüklər, istərsə də uşaqlar üçün yazdığı əsərlərində vətənə məhəbbət, humanist ideyalar daha çox nəzərə çarpır. Bir müddət komsomol komitəsində məsul vəzifə tutan Teymur Elçin uşaq və gənclərin psixologiyasına dərindən bələd olmuş və ömrünün böyük bir dövrünü uşaq ədəbiyyatına həsr etmiş, müxtəlif illərdə yazdığı əsərlərində yeniyetmələrimizdə insani duyğular oyatmağa çalışmış, mərdlik, çalışqanlıq, düzlük, doğruçuluq kimi insani cəhətləri təbliğ etməklə yanaşı, tənbəlliyi, laqeydliyi, savadsızlığı özünüməxsus incə yumorla, ata qayğısı ilə tənqid etmişdir. «Tənbəl» şeiri bu cəhətdən daha səciyyəvidir. Şeirdə məktəbli dostlarından geri qalan tənbəl şagird haqqında heç bir sərt ifadə işlədilmir, sadəcə olaraq yüngülvari məzəmmət olunur:

«Milçəkləri qovun yatım,
Yuxum gəlir,
Qoyun yatım».
Dərsi, işi
Atdı tənbəl
Yatdı tənbəl-tənbəl.
Quşlar gəlib dimdiklədi,
Uşaqlar bərk
Çimdiklədi.

Şair tənbəlin hərtərəfli obrazını yaratmaqla yaşıdlarına da ibrət verir, onları tənbəllikdən çəkindirir. Şairin uşaqlar üçün yazdığı şeirlərində informasiya bolluğu nəzərə çarpır. Müəllif uşaqlarda təbiətə, ətraf aləmə, canlı həyata qarşı məhəbbət oyatmağa nail olur. «Telefon zəngləri» başlığı altında verilən silsilə şeirlərdə ayrı-ayrı heyvanlara xas olan cəhətlərə diqqət yetirilir. Məsələn, dovşan belə zəng edir:

- Kimdir danışan?
Kələm?
İstəyirəm sizə gələm.

Bunu oxuyan uşaqın dərhal sifətinə təbəssüm gəlir, dovşanın kələmə olan həssas münasibətinə gülür. Şeirlərdə ayı, dovşan, qoyun, dəvə, tülkü, pişik, xoruz və başqa heyvan və quşların da zəngini eşidir, maraqları ilə tanış oluruq. Qoyun balasına zəng edəndə deyir:

Bilirsən, ay qız, nə var?!
Bizə gəldi canavar.
Yaman yalvardı yazıq,
Məni qonaq çagırdı
Heç bilmirəm nə edim,
Gedim, getməyim, gedim?...

Şeiri oxuyan uşaq qoyunun avamlığına, qurdun niyyətini başa düşməməsinə heyrət edir, ona cülür. Xoruz tanıdığı hər kəsə car çəkir ki, daha yorulub, banlamaq vərdişindən əl çəkmək niyyətindədir, daha banlamadığına görə səhərlər da açılmayacaq, hər kəs gedib başına çarə qılsın. Xoruza elə gəlir ki, banlamasa, cəhər açılmaz. Şair «Xoruz banlamayanda, cəhər açılmır»? atalar sözündən faydalanaraq gözəl bir şeir yazmışdır.

«Qarğanın məktəbi» şeirində də tərbiyəvi cəhətlər az deyil. Qarğa quşları və heyvanları bir yerə yığaraq onlara dil öyrətmək həvəsinə düşür:

Gəlmişdi dərs almağa
Bildirçinlər, sərçələr,
Xanımçalar, ərçələr

Ən əvvəl qarganın yanına dil öyrənməyə sərçə gəlir. Dimdiyini sərçənin ağzına dirəyib, «qar-qar elə»-deyir. Sərçə nə qədər çalışsa da. yenə adətinə uyğun olaraq cikcildəyir. Heç nə alınmadığını görən qarğa «qovun bu yetimçəni»-deyə əmr edir. Sonda həmişə xəyanətə meylli olan tutuquşu gəlir. Qarğa nə deyirsə, dərhal onu yamsılayır, dediklərini oldüğü kimi təkrarlayır. Şeir belə bir sonluqla bitir:

Məktəbdə
Qarğa qaldı
Bir də tutuquşları
Onların bir-birindən
Gəlirdi çox xoşları.

Şeirdə ana dilinə məhəbbət şairin başlıca qayğısıdır. Digər tərəfdən müəllif demək istəyir ki, hər kəsdən ancaq bacardığını tələb etmək olar.

Teymur Elçinin maraqlı əsərlərindən biri də «Bahar, adlar, uşaqlar» poemasıdır. Uşaqları çox sevən Bahar xala onlara qonaq gəlir. Hər kəsi öz adı ilə çağırır. Almaz, Qumru, Gülbahar, Qızçiçək və başqaları öz adının çağrıldığını eşidəndə fərəhlənirlər. Lakin elə adlar da var ki, çağıranda ad sahibi utanır, xəcalət çəkir. Bunu hiss edən Bahar xala bəzi adlarını onlara bağışlayır, onlara yeni adlar qoyur: Gülzar, Gültəkin, Gülqız və s.

Şairin müxtəlif illərdə «Torpağın nəğmələri», «Şəkərim, duzum», «Sözlər, nəğmələr, nağıllar, laylalar» və s. kitabları çapdan çıxmışdır. Bu kitablarda onun ayrı-ayrı illərdə yazdığı şeir və poemaları cəmlənib. Onların demək olar ki, əksəriyyətində tapmaca, yanıltmaca, nağıl və laylalardan, xalq yaradıcılığı ənənələrindən kifayət qədər istifadə olunub. Bu mənada «Laylalar» şeiri maraqlıdır. Əsəri müəllif belə başlayır:

Hər anaya
Öz balası,
Hər balaya
Öz laylası.

Layla deyənlər Turac, Qurbağa, Delfin, Kirpi, Canavar bə başqalarıdır. Onların hər biri laylasında öz xislətini üzə çıxarır. Qurbağanın laylasına diqqət yetirək:

Səsin tutsun qolumu,
Yaxın qoyma ölümü,
Baş vur lilə, gir zığa,
Tut ye çoxlu mığmığa.

Kirpi isə laylasını belə davam etdirir:

Yat körpəciyim
İynələrin çox,
Hərəsi bir ox
Kim sənə dəysə
Gözünə batsın.

Canavarın laylası da xislətindən uzaq deyil:

Böyü, canavar bala,
Parçala, parçala, parçala.

Şairin « Qarabağ dəftəri», «gecənin bətnindən doğulan səhər», «Osvensim» poemaları, «Düşüncələr» silsiləsindən olan şeirləri də uşaq və yeniyetmələrin maraqla oxuduğu əsərlərdəndir.

Teymur Elçinin tərcüməçilik fəaliyyəti də təqdirəlayiqdir. Akademik teatrda Zorkadan tərcümə etdiyi «Qadın faciəsi» əsəri tamaşaya qoyulub. Bundan başqa Yan Raynisdən, Lev Kvitkodan, Qaysın Quliyevdən, Qriqorii Buryevdən və başqalarından da tərcümələr etmişdir.

HİKMƏT ZİYA

Hikmət Ziya 1952-ci ildə ADU- nun jurnalistika fakultəsini bitirmişdir. Həmin fakultənin tələbəsi olaraq bədii yaradıcılığa başlayan Hikmət Ziya ömrünü uşaq ədəbiyyatına bağlamış, balaca oxucular üçün kiçik, lakin mənalı təmsillər, müxtəlif sərgili şeirlər, poema və mənzum nağıllar, mahnı mətnləri ……. və kiçik pyeslər yazmışdır. Bu əsərlərdə vətənpərvərlik, böyüyə, ağsaqqala hörmət, tənbəlliyə, acgözlüyə, mənəm-mənəmliyə nifrət daha çox nəzərə çarpır.

Şairin ayrı-ayrı illərdə «Atamın hədiyyəsi», «Bahar gözəldir ya qış», «Milçək ürəyi», «Şeirlər təmsillər», «Ulduzların söhbəti», «Günəş və ……», «Leylək yuvası», «Mənim misralarım», «Qardaşlar ovda», «Ömrün payı», «Təmsillər» və.s kitabları çapdan çıxmışdır. O təkcə respublikamızda deyil, onun sərhədlərindən kənarda da balaca oxucular tərəfindən sevilə – sevilə oxunur. Sovet dövrundə əsərləri dəfələrlə Moskvada, mütəffiq respublikaların paytaxtlarında dərc edilmişdir. Buna görə üzün müddət SSRİ Yazıçılar İttifaqının Uşaq və Gənclər Ədəbiyyatı şurasının üzvü olmuşdur.

H.Ziya hər şeydən əvvəl tanınmış təmsil ustasıdır. Müxtəlif illərdə yazıçının mindən çox təmsili dərc edilmişdir. Bədii sənətkarlığını cilalamaq üçün yazıçı qədim dünyanın görkəmli təmsil ustası Ezopu, fransız şairi Zafenteni rus təmsil yazanı A.Qrilovu dəfələrlə oxumuş, onların yaradıcılığındakı sənətkarlıq məsələlərinə yaxından bələd olmuşdur. Bunula yanaşı o, klassik Azərbaycan sənətkarlarından Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabirin də bədii irsindən çox şeylər öyrənmişdir.

MƏMMƏD ASLAN

(1939)

Məmməd Aslan 1939-cu ildə Kəlbəcər rayonunun Laçın kəndində dünyaya gəlib. 1957-ci ildə indiki N.Tusi adına Azərbaycan Dövlət Redaqoji Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1962-ci ildə ali təhsilini tamamlayaraq anadan olduğu Kəlbəcərə qayıtmış, müəllimlik fəaliyyətinə başlamışdır. Bir müddət rayonda çıxan «Yenilik» qəzetində məsul katib işləmişdir. Müxtəlif illərdə şairin «Dağ ürəyi», «Səhəri kim açır», «Səsimə səs ver», «Bizdən sonra nə qalır», «Ürək möhlət verəydi», «Dəvələr niyə gövşəyir», «Ərzurumun gədiyinə varanda» adlı şeirlər kitabı çapdan çıxmışdır.

İlk uşaq şeirlərini şair 70-ci illərdə yazmış, həmin vaxtdan etibarən uşaq və gənclər mətbuatında müntəzəm olaraq əsərləri dərc olunmuşdur. Onun şeir, nağıl və poemalarında kövrək bir qəlbin döyüntüsü, milli ənənələrə bağlılıq daha çox nəzərə çarpır. «Quzunu harda sularsan», «Tənha ev», «Sağalmaz yara», «Alma ağacı», «Biz ovçuyuq», «Ditdili mindim çay keçdim», «Tənha qurbağa», «Suxluca», «Ütü» və s. əsərlərində dərin bir lirizm, lakoniklik, güclü poetik duyum özünü göstərir.

Məmməd Aslan klassik ədəbi ənənələrdən, folklor qaynaqlarından kifayət qədər faydalanan sənətkardır. Folklor motivlərini bədii sənətin aynasında əks etdirmək Məmməd Aslanın uşaq əsərləri üçün daha xarakterikdir. O, uzun müddət Azərbaycan televiziyasında «Dərədən, təpədən» verilişini aparmış, uşaqların zövqünü oxşamış, onların mənəvi tərbiyəsinə xidmət göstərmişdir. Süjetli uşaq şeirinin ən yaxşı nümunəsi olan «Xatirənin bəhanəsi» əsərində balaca Xatirənin kosmosa uçmaq istəyi bədii dillə qələmə alınıb. Atası qazanı döyərək raket formasına salmağa çalışır. Lakin balaca Xatirə kuklasız kosmosa getmək istəmir. Əslində qız müxtəlif bəhanələr gətirərək kosmosa uçmaqdan yayınmağa çalışır. Beləliklə, uşaq kosmosa uçmaqdan boyun qaçırır. Şair balaca qızın psixoloji vəziyyətini sadə, yığcam dillə belə ifadə edir:

Qızım, qızım, qız ana!
Qzım girdi qazana.
Qazanı təkərlədim,
Qanad taxdım, pərlədim.
Hava verdim pər üçün,
Yol açdım təkər üçün.
Uğuldadı qazança,
İstədi qazan uça,
Elə bu vaxt xatirə
Qışqırdı birdən-birə:
Kuklalarım olmasa,
Mən uçmaram kosmosa.

Şairin «Böyürtkan-böyrü tikan», «Qəribə bığlar», «Nehrəm, çalxan», «Nənəm xalça yuyur», «Alma ağacı» şeirlərində də folklordan bacarıqla faydalanmanın bəhrəsini görürük.

ZAHİD XƏLİL

(1942)

Müasir uşaq poeziyasında Zahid Xəlilin adı və imzası ön sıralardadır. Bədii yaradıcılığa şeirlə başlayıb. Şairin ilk şeiri 1958-ci ildə «Yeni Yevlax» qəzetində dərc olunub. «Uşaq çıraqlar» (1969) ilk şeirlər kitabından sonra o dərhal ədəbi aləmdə tanınmış, müxtəlif mətbuat orqanlarında onlarla şeiri dərc olunmuşdur. Kitabda şairin kiçik şeirləri və mənzum nağılları toplanmışdır.

Əsərlərinin əksəriyyəti süjetli şeirlərdən ibarətdir. Sadə süjetli hadisə və əhvalatlardan konkret nəticə çıxarmaq oxucuların ixtiyarına buraxılır. Kitabın kiçik yaşlı uşaqlar tərəfindən sevildiyi aydın olduqdan sonra «Gənclik» nəşriyyatı həmin kitabdakı « Qarışqalar» şeirini 1971-ci ildə ərəb, fars dillərində yenidən kitab şəklində buraxmışdır. «Mən rəngləri tanıyıram» (1972) şeirlər kitabı isə şairin yaradıcılıq laboratoriyasının daha da genişləndiyindən, poetik təfəkkürünün itiləndiyindən xəbər verirdi. Kitabda insanların daxili aləminə işıq salınır, uşaqların qavraya biləcəyi bir tərzdə həyat və cəmiyyət haqqında onlarda ilkin təsəvvür yaradılır. Müəllif azyaşlı uşaqlara ev və çöl heyvanları, onların məişətdə davranışı haqqında bitkin təsəvvür verir, təbiətə və canlılara sevgi, qayğı hissi oyadır. «Şanapipik» şeirində yazılır:

Dimdiyi var iynə kimi,
Gözləri var düymə kimi!

Təkcə bir beytlə şair balaca oxuculara Şanapipiyin necə quş olduğu barədə ilkin təsəvvür verib. Z.Xəlilin «Göydən üç alma düşdü» (1974), «Quşlar, quşlar» (1977), «Torağaylar oxuyur» (1979) şeirlər toplusu balaca oxucular tərəfindən maraqla qarşılanmışdır.

Şairin 1974- cü ildə nəşr olunan « Göydən üç alma düşdü» kitabı yaradıcılığının püxtələşməsindən xəbər verirdi. Bu kitabdakı təbiət şeirləri həm məzmununa, həm də keyfiyyətinə görə fərqlə-

nir. 1977-ci ildə işıq üzü görən «Quşlar, quşlar» kitabında Zahid Xəlil əvvəlki əsərlərindəki tendensiyaya sadiq qalmış, uşaq və gənclərə təbiət, onun gözəllikləri, müxtəlif heyvanlar haqında kifayət qədər geniş məlumat verməyə çalışmışdır. Burada cüllüt, anqut, qızıl qaz və s. barədə verilən məlumat kiçik oxucuların yaş və bilik səviyyəsinə uyğundur. «Torağaylar oxuyur» kitabı şairin bütün əsərlərinə xas olan sadə, lakonik dilinə, süjet xəttinin cəlbediciliyinə görə Zahid Xəlilin yeni nailiyyəti kimi dəyərləndirilir. Həmin kitaba daxil olan şeirlərin birində şair yazır:

Bax bu ağac gilasdı,
Yaz gəldi bu ağacın,
Budağından gül açdı!

Zahid Xəlilin lirik şeirlərində süjetli hadisələrə üstünlük verməsi gec-tez onun uşaq bədii nəsrindən istifadə edəcəyindən xəbər verirdi. 1980-ci ildə nəşr olunan «Ballıca» kitabı bu qənaətin doğru olduğunu bir daha təsdiq etdi. «Ballıca»da incə, mənalı yumor daha çox üstünlük təşkil edir. Əsər 40 min tirajla çap olunmuşdur. Buraya müəllifin müxtəlif illərdə yazdığı hekayə, nağıl, nagıl-povestləri toplanmışdır. Onun «Çiyələk çayının dibindəki oğlan», «Goğrafiya dərsində taxılan eynək», «Peçenyedən yaranmış qız», «Üçbucaq ölkənin adamları», «Çıraq nənənin nağılları» əsərləri istər bədii keyfiyyətinə, istərsə də ideya-məzmun xüsusiyyətinə görə uşaq ədəbiyyatımızın maraqlı örnəklərindəndir.

1982- ci ildə «Literaturnaya qazeta»da dərc olunan «Kölgələr» və «Limonad içməyin» hekayələrinə görə qəzetin mükafatını alan şair, «Zdravstvu! Djırtdan» kitabına görə ümumittifaq miqyasında keçirilən «ən yaxşı uşaq kitabı» müsabiqəsində mükafata layiq görülmüşdür.

Zahid Xəlilin əsərləri İtaliya, litva, Estoniyada, Özbəkistanda, Ukraynada, Gürcüstanda çap olunmuş, Türk Uşaq Ədəbiyyatını tədqiq edən Beynəlxalq Cəmiyyət tərəfindən Moskvada keçirilən simpoziumun və Riqada keçirilən «Məktəbəqədər yaşlı uşaqlar üçün ədəbiyyat» ümumittifaq konfransının iştirakçısı, uşaq ədəbiyyatını tədqiq edən beynəlxalq təşkilatın, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin üzvüdür.

TOFİQ MÜTƏLLİBOV

(1929-1992)

Tofiq Mütəllibov öz dəsti-xətti, poetik təfəkkürü, fəal sənətkar mövqeyi olan şairdir. Çoxsaylı şeirlərində, poemalarında, klassik ədəbiyyatdan tərcümələrində, hər şeydən əvvəl, parlaq, bütöv, qaya kimi mətin şəxsiyyəti dayanır. Onu ömründə bir dəfə görməyənlər poetik yaradıcılığına nəzər salanda orda vətənini sevən, insanları xoşbəxt görmək istəyən, torpağa və həyata bağlı şəxsiyyət görür. Poeziyası da şəxsiyyətinə bənzəyir – sadə, səmimi, duyğu və məhəbbətlə dolu. Ürəyinə, beyninə, duyğu və hisslərinə təsir etməyən heç nə yazmayıb. İnsanlarda xeyirxahlıq görüb xeyirxahlıqdan, səmimiyyət görüb səmimiyyətdən yazıb. Buna görə də xalq tərəfindən həmişə sevilib, şeirləri, nəğmələri ekranlardan, efirlərdən düşməyib. İndiyə qədər təxminən 30-a yaxın kitabı işıq üzü görüb. «Kəkliklər oxuyanda», «Gözəllikdən doymur ürək», «Görüş yerimiz», «Sevənlərin ürəyi» «İncəlik gülü» və s. kitabları bu gun də balaca və yaşlı oxucuların, gənclərin əlindən düşmür. Çünki bu kitabdakı şeirlər, poemalar həm sənətkarlıq, həm də ideya-məzmun cəhətdən maraqlı və cəlbedicidir. İnsanı yaşamağa, yaratmağa, səmimi münasibətlərə çağırır:

Qoy çatsın yaşımız yetmişə, yüzə,
Gözlər ox olmasın, baxışlar nizə.
Gəlin «can» söyləyək bir-birimizə,
Vaxtsız qocalmamaq, ölməmək üçün.

Baharın gəlişini şairlərin çoxu tərənnüm edib, təbiətin oyanmasını, gözəlləşməsini hər sənətkar öz poetik imkanları səviyyəsində sənətə gətirib. Bütün dövrlərdə təbiət yaradıcı insanın ilham mənbəyinə çevrilib. Bu sözlərin zaman keçdikcə çoxu unudulur, oxucuların yaddaşından silinir. Lakin yaddaşlarda, ürəklərdə yaşayanları da az olmayıb. Bu mənada T.Mütəllibovun təbiət şeirlərini uğurlu hesab etmək olar. Ona görə ki, həmin şeirlərdə təkcə təbiət tərənnüm olunmur, həm də

təbiətin özünü görür və onun gözəlliklərini yaxından duyur, hiss edirik:

Könül dilə gəlir: bu lövhəni çək,
Uçur nəğmələri şəhərə, kəndə.
Bahar gözəlləşir qızları görcək,
Qızlar gözəlləşir bahar gələndə.

Son beytdə şair baharla qızların gözəlləşməsinin vəhdətini, qarşılıqlı əlaqəsini verməklə oxucuda assosiasiya yaradır, onu gözəlliyin yeni bir məqamı və çaları ilə tanış edir. «Mənim oyuncaqlarım», «Saat», «Pəncərədən baxıram» kitablarındakı şeirlərdə də uşaqların sevinc hissləri, daxili aləmi, maraq dairəsi nəzərdən qaçırılmamışdır. «Saat» şeirində müəllif balaca qəhrəmanının dili ilə deyir:

Söylə bir nədən
Səhər - axşam sən,
Çıq-çıq edirsən?
Balaca qızam,
Çox azdır yaşım.
Yazılarından
Çıxmayır başım.
Bircə «6» nı
Tanıyıram mən.
Çünki bu zaman
Sevimli atam
Qayıdır işdən.

Şairin «Xumar» şeiri süjetli əsərdir. Şeirin lirik qəhrəmanı anasından ayrı düşür. Xumar bağda gəzərkən təsadüfən ona rast gəlir və nə üçün ağladığını soruşur. Nəhayət, Xumarın köməkliyi ilə qız anasını tapır. Anası Xumara dil-ağız edəndə Xumar ona belə cavab verir:

Burda ay xala
Nə igidlik var,
Bu vəzifəmdir,
Söylədi Xumar.

Nəğməkar şair adı Tofiq Mütəllibova daha çox yaraşır. Təkcə onu demək kifayətdir ki, bu günə kimi müxtəlif bəstəkarlar üç yüzə qədər şeirinə mahnı bəstələyiblər. Bu populyarlığın səbəbi çox sadədir: Tofiq Mütəllibovun hər misrasında, hər beytində musiqi duyumu, nəğmə ahəngi var. Şeirlərinin hər birində sevən odlu ürək, incə şair qəlbi var. O nədən yazırsa-yazsın, qəlbini riqqətə gətirməyən, ürəyinin oduna bələnməyən misralara müraciət etmir. Bütün hallarda özünü, taleyini, şəxsiyyətini ifadə edir. «Gözəlliklər məskəni», «Gözlərinə toxundu», «Payız toyları», «Özbək bacım», «Nişan üzüyü», «Xatirələr dənizi», «Abşeron bağlarında» və s. şeirlərini oxuyanda bu sözlərin həqiqət olduğuna bir daha inanırıq. Şair «Gözəlliklər məskəni» şeirində deyir:

Arzular qartal tək dağlar aşırlar,
Çaylar dilə gəlib coşub-daşırlar.
Qocalar da burda cavanlaşırlar-
Meşələr yamyaşıl, havalar sərin-
Bura məksənidir gözəlliklərin.

Yəqin ki, bu misra oxucularımızın hamısının yadındadır. Şairin indiyə qədər çap olunan 30-a qədər kitabının hər birindəki mahnılara nəzər yetirəndə qulağımıza hansısa məşhur Azərbaycan sənətçisinin səsi, avazı gəlir. Bu mahnının sözlərini Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Flora Kərimova, Sara Qədimova, Tükəzban İsmayılova oxuyub. Müğənnilər bir qayda olaraq Tofiq Mütəllibovun mahnılarını oxumağa can atır, buna xüsusi həvəs göstərirdilər. Çünki o, professional mahnı müəllifi idi. Sözün sirrini-sehrini bildiyi kimi, musiqinin mahnı sənətinin də dilini yaxşı bilirdi.

Sənət sahəsindəki çoxillik, səmərəli fəaliyyətinə görə «əməkdar İncəsənət xadimi» fəxri adına, iki ümumittifaq, on iki respublika nəğmə müsabiqəsində mükafata layiq görülüb. Qəmbər Hüseynli tərəfindən bəstələnən «Cücələrim» mahnısı bir neçə dilə tərcümə olunub. Onu da qeyd edək ki, «Cücələrim» şeiri yaxın onilliklərin ədəbi məhsulu olsa da, qibtəedilə-

cək kütləvilik qazanıb, klassik ədəbi irs nümunəsinə çevrilib. Sovet dövründə yazılan uşaq şeirləri sırasında bu cür populyar olan ikinci bir şairi nümunə göstərmək mümkün deyil. İstər-istəməz qarşıya belə bir sual çıxır: şeirin bu qədər şöhrət və nüfuz qazanmasının səbəbi nədir? Cavab sadədir: T.Mütəllibov uşaq təbiətinə, qəlbinə, hiss və düşüncəsinə yaxşı bələd olan şair idi. Şeirlərini «uşaq dilində» səsləndirməyi bacarırdı. Ümumiyyətlə, XX əsr uşaq ədəbiyyatı tarixində Tofiq Mütəllibovun özünəməxsus yeri var. Onun uşaq şeirləri həm məzmununa, həm də poetik xüsusiyyətlərinə görə yeni və orijinaldır. Bu şeirlərdə müəllif uşaqların psixologiyasını, yaş xüsusiyyətlərini, maraq və meyllərini incəliklərinə kimi göstərə bilmişdir.

Uşaq ədəbiyyatının özünəməxsus, spesifik xüsusiyyətləri var. Bu cür əsərlərin dili sadə, oxunaqlı, uşaqların yaş və bilik səviyyəsinə uyğun olmalıdır. Ümumiyyətlə şeiri həddən çox informasiya, elmi məlumatlarla yükləmək olmaz.

Uşaq şeirləri, birinci növbədə uşaqların marağını artırmalı, onların bədii zövqünü cilalamalıdır. Tofiq Mütəllibovun uşaqlar üçün nəzərdə tutulan şeirlərində uşaq ədəbiyyatına verilən tələblər tamamilə qorunub saxlanıb. Onun uşaq şeirlərində insan, cəmiyyət, təbiət, müxtəlif ev və çöl heyvanları haqqında zəngin informasiya verilir. Bu zaman müəllif təbiiliyə, inandırıcılığa, səmimiyətə daha çox diqqət yetirir. Çünki uşaq qəlbi, zehni qeyri-səmimi nə varsa qəbul etmir. Təkcə şairin «İlan təbiəti» şeirindəki bir misra ilə bunun həqiqət olduğunu göstərə bilərik:

Dovşanı izləyərək,
Ağzını açdı ilan.
Kirpiylə rastalaşanda,
Sürüşüb qaçdı ilan.

Fikir versək görərərik ki, şair təkcə bir misrada bir neçə çöl heyvanının təbiətini, xüsusiyyətini, davranışını çox sadə və təbii dillə – sənət dili ilə ifadə etməyi bacarmışdır.

«Mənim oyuncaqlarım», «Saat», «Pəncərədən baxıram» əsərləri də uşaq psixoloğiyasını, hiss və həyacanlarını doğru-dürüst əks etdirmişdir.

Şairin «Danışan qayalar», «Meşə nağılı» pyesləri A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında tamaşaya qoyulub. Tofiq Mütəllibov bir müddət SSRİ Yazıçılar İttifaqının Uşaq və Gənclər Ədəbiyyatı Şurasının üzvü olmuş, uşaq ədəbiyyatının təşkilati-yaradıcılıq problemlərinin həyata keçməsinə yaxından köməklik göstərmişdir.

İLYAS TAPDIQ

(1934)

Azərbaycan uşaq ədəbiyyatının çağdaş simalarından olan İlyas Tapdığın şeirlərində incə lirizm, emosionallıq, etnoqrafik yaddaş, vətənpərvərlik çox güclüdür. Saz- söz beşiyi olan Gədəbəydə anadan olan şairin yaradıcılığında xalq poeziyasının, aşıq yaradıcılığının təsiri hər an hiss olunur. Ata-övlad məhəbbəti, uşaq və yeniyetmələrin gələcəyinə həssas şair narahatçılığı onun şeirlərinin təsir gücünü artırır:

Mən İlyasam, bir həmdəmim yar idi,
Xəyalıma yerlər, göylər dar idi,
Cavan idim, bir həmdəmim var idi,
Ata oldum, üç paradır ürəyim.

İlyas Tapdığın «Cıgal Bilal, Qoçaq Bilal» adlı irihəcmli poema və şeirlər yazmaqla yanaşı, uşaqlar üçün də maraqlı, yaddaqalan şeirlər yaratmışdır. Onun « Təpələr» (1969), « Bir evim var (1971), « Çimnaz oynayır (1971) kitabları göstərdi ki, o uşaq psixologiyasını, istəyini, maraqlarını yaxşı bilən sənətkardır. «Çimnaz oynayır» kitabındakı şeirlər rus dilinə tərcümə olunmuş, Moskvanın «Detskaya literatura» nəşriyyatında nəşr edilmişdir. Şairin uşaqlar tərəfindən maraqla qarşılanan şeirlərindən biri də « Aü niyə qaçır»dır. Uşaq göyü seyr edərkən ayın hərəkət etdiyini görüb təəccüblənir. Anası uşabın marağını hiss edən kimi bu maraqlı təbiət hadisəsinin mahiyyətini ona başa salmağa çalışır:

Ana: Qaçan ay deyil,
Oğlum. buluddu
Odur bax, ayın
Üzünü tutdu

Uşağın marağı təkcə ayın qaçmasına yönəlməyib. Buludların göydəki hərəkəti də onun diqqət mərkəzindədir və bunun səbəblərini anasından öyrənmək istəyir:

Ana: Görürsən necə,
Soyuq yel əsir ?
Daldalanmağa
Bulud yer gəzir.

Adətən uşaqlar həmişə ətraf aləmlə maraqlanır, müxtəlif təbiət hadisələrinin mahiyyətini anlamağa çalışır, az müddətdə çox informasiya almaqda maraqlı olurlar. Şair bu yaşda olan uşaqların psixologiyasını döğru-dürist əks etdirməyə çalışmışdır. Əsas məqsəd isə göy cisimlərinin hərəkətini uşaqlara başa salmaqdır. Şeir maraqlı bir sonluqla bitir. Uşaq yerinə uzanan kimi hər şey qaydaya düşür:

Gəlir yerinə,
Uzanır Laçın,
Daha nə bulud,
Nə də ay qaçır.

«Təpələr» kitabındakı eyni adlı şeir da uşaqların çox sevdiyi şeirlərdəndir. Bu əsərdə müəllif uşaqlara daha çox informasiya verməyə, onların təfəkkürü genişləndirməyə çalışmışdır:

Dəvənin yunundan
Toxunur gəbələr
Gəbələr üstündən
Boylanır dəvələr,
Dəvələrin belində
Dayanır təpələr,
Təpələrin üstündə
Oynayır nəvələr.

«Təqvimə düşən oğlan» əsəri vətənpərvərlik, igidlik, mərdlik kimi insani sifətlər təbliğ edir. Şair suda batan balaca Sevdanı xilas edən Vahidin igidliyini, fədakarlığını təqdir edir, gənclərin hamısını bu cür görməyi arzulayır:

İgid, hünərvər
Oğullarıyla
Fəxr edir vətən.
İstər balaca,
İstər böyük
Xilaskarıyla
Fəxr edir vətən.

TOFİQ MAHMUD

Tofiq Mahmud oğlu Mehdiyev 1931-ci il noyabr ayının 5-də Naxçıvan MR-nın Şahbuz rayonunda anadan oub. 1954-cü ildə ADU-nun filologiya fakultəsinin bitirib. İlk şeri 1953-cü ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunub. Gənclik illərindən Henrix Heynenin vurğunu olan Tofiq Mah- mud, müasir Azərbaycan ədəbiyyatının S.Vurğun, R.Rza, S.Rəhimov, M.Hü- seyn, Ə.Vəliyev kimi tanınmış ədəbi simaların yaradıcılığına dərindən bələd olub. 1954-cü ildə Yazıçılar İttifaqında "Gənclər günü" münasibətilə keçirilən tədbirdə oxuduğu ilk şerini S.Vurğun təqdir edib. Ədəbi fəaliyyətinə "Azərbayan müəllimi" və "Göyərçin " jurnallarında başlayıb. Xüsusən "Göyərçin " jurnalındakı fəaliyyəti onu uşaq əsərləri yazmağa sövq edib. Az müddətdə "Qı- zımın sualları", "Dağlar","Utancaq oğlan", "Dibçək", "Qoz ağacı", "Bu işıqla qalacağam" şeir kitabları nəşr olunub. "Yerə dağılan muncuqlar" və "Şən şerlər" kitabı Lenin komsomolu mükafatına layiq görülüb. Uzun müddət Yazıçılar İttifaqı Uşaq və Gənclər Ədəbiyyatı bölməsinin ictimai əsaslarla sədri, 1958-ci ildən isə respublikauşaq fondunun Bakı şöbəsinin sədri vəzifələrində işləyib.

Tofiq Mahmud ədəbiyyata XX əsrin 50-ci illərində gəlmiş, uzun müddət "Göyərçin" uşaq jurnalının redaktoru olmuş, "Alpinist", "Meşədə səs", "Qızımın sualları", "Dalğalar", "Dibçək", "Kəpənək gözəlliyi" kitabları ilə professional uşaq yazıçısı olduğunu təsdiq etmişdir. Onun ilk işıq üzü görən əsəri "Səfərə çıxıram" adlı şerlər kitabıdır. Onun ardınca "Buzovna qayaları", "Ana qucağı", "Ulduzlar, düşüncələr" kitabları çapdan çıxmışdır.

Təkcə poetik sahə ilə deyil, nəsr yaradıcılığı ilə də məşğul olan Tofiq Mahmud "Pəncərəyə toxunan budaq", "Gecə qapı döyülür", "Munqular" povestləri ilə yaxşı bir naşir olduğunu da göstərdi. Şairin əsərlərində həmişə bir işıq, fikir dolğunluğu özünü göstərir. Şair şerlərinin birində yazır:

Dözə-dözə dərdə, sərə,
Hər əzaba tablamışam
Ömrüm boyu zərrə-zərrə,
Ancaq işıq toplamışam

Bu işıq seli şairin "Danimarka" uşaqları şerindən də keçir. Şeirdə dünyanın hər yerindəki uşaqların təbəssümünü, sevinc hisslərini görürük.Şair qələmə aldığı mövzudarı mükəmməl sənət nümunəsinə çevirmək üçün yaradıcılığın bütün əzablarına sinə gərir, az sözlə böyük məna ifadə etməyə çalışır. O bu hisslərini və məqsədlərini poetik dillə belə qələmə alır:

Bu yerə, bu göyə, bu kainata,
Baxa bilməyirəm ötəri gözlə.

Tofiq Mahmud şerlərində vətəni bütöv görmək istəyir. Azərbaycanı iki hissəyə ayıran Araz dərdini, Cənub həsrətini daim diqqətdə saxlayır, Təbrizə, Cənubi Azərbaycanın başqa regionlarına qalın duman arxasından baxmasına dərin təəssüf hissi keçirir. Təbrizdəki uşaqların ana dilində oxuyub-yaza bilməməsi şairi kədərləndirir, o inanır ki, nə vaxtsa bu uşaqlar öz ana dilində təhsil alacaqlar. " Təbriz və arzu" şerində şair bu cür hisslərini, duyğularını poetik misralarla dilə gətirir.

Bədii əsərləri ilə oxucuların diqqətini cəlb edən şair tərcüməçilik fəaliyyəti ilə də ədəbiyyatımıza yeni töhfələr vermiş, A.Blok, J.Rayniş, K.Sinikov, A.Barto və başaqlarından xeyli sayda əsərlər tərcümə etmişdir.

Ədəbiyyat və incəsənət sahəsindəki fəaliyyətinə görə uşaq ədəbiyyatı şurasının sədri, habelə SSRİ Yazıçılar İttifaqı Ümumittifaq uşaq və gənclər ədəbiyyatı şurasının üzvü olmuşdur. O, uşaq ədəbiyyatı sahəsindəki fəaliyyətinə görə maarif xadimi döş nişanına layiq görülmüşdür.

Tofiq Mahmud 1997-ci il avqustun 4-də 66 yaşında dünyasını dəyişib.

RAFİQ YUSİFOĞLU

(1950)

Rafiq Yusifoğlu ADPU-nun filologiya fakultəsini bitirib. 1966-cı ildən respublika mətbuatında şer və nəşr əsərləri, tərcümələri dərc olunmağa başlayıb. Bədii əsərləri müxtəlif dərsliklərə düşüb, eyni zamanda bir neçə xarici dilə tərcümə olunub. Uşaq və gənclər ədəbiyyatı tənqidçilərinin Moskvada keçirilən birinci, ikinci, üçüncü Ümumittifaq Seminarlarının, Qazaxıstanda keçirilən uşaq ədəbiyyatı günlərinin iştirakçısıdır.

İndiyə qədər şairin «Ətirli düymələr», «Ocaq yeri», «Aylı cığır», «Qəm karvanı», «Həsrət köçü», «Şirin yağış» şeirlər kitabı «Bahar qatarı» nəşr əsəri «Xatirə kəcunəsi» publisistik yazıları «Kitabi-Dədə Qorqud» adlı kitabı işıq üzü görüb. «Qəm karvanı» (M.Füzuliyə həsr olunub- M.B) poeması əsasında, televiziya şeirləri əsasında «Bütün Azərbaycan əsgər olmalı» ədəbi tamaşaları hazırlanıb. Şairin uşaqları üçün yazdığı «Ətirli düymələr» kitabı Azərbaycan Yazıçılar Birliyinin, Mətbuat və İnformasiya Nazirliyinin mükafatlarına layiq görülüb. O, «Göyərçin» jurnalında şöbə müdiri, məsul katib, Azərbaycan Dövlət Televiziyasının «Xəbərlər» baş redaksiyasında «Elm, mədəniyyət, incəsənət şöbəsinin müdiri vəzifələrində çalışıb. Hal-hazırda «Göyərçin» jurnalının baş redaktorudur.

Rafiq Yusifoğlu uşaq psixologiyasını yaxşı bilən sənətkardır. Bunu «Çiçək yağışı» adlı şeirlər kitabında aydın görmək mümkündür. Kitabı diqqətlə oxuyanda məlum olur ki, burdakı şeirlərin hamısı uşaqlar üçün döğrudan da çiçək, məhəbbət və gözəllik yağışıdır. Kitabdakı «Sap cığırı» şeirində şair gözəl, həm də maraqlı bir tablo yaradıb.

Xəbəri yox xəbərdən,
Nənəm corab toxuyur.
Dalıb öz dunyasına,
Asta-asta oxuyur.
Sap cığır uzanır,

Gedirəm qarasına.
Düz nənəmin yanından,
Güllərin arasına.
Sən demə bu cığırı,
Bizim pişik salıbmış.
Yumağı siçan ilə,
Tay-dəyişik salıbmış.

Uşaq dünyasına yaxın olan şair şeirlərində daha çox informasiya verməyə çalışır, bir-birindən maraqlı bədii lövhələr yaratmaqla balacaların zövqünü oxşamağa nail olur. Bu mənada «Göyərçin» kitabxanası seriyasından buraxılan kitablar çox maraqlıdır. Seriyaya daxil olan «Böyük arzuya gedən yol» kitabına əlamətdar günlərlə bağlı bayramlara həsr olunan şeirlər toplanıb. Şeirlərin hamısında vətən sevgisi, milli qürur hissi daha çox nəzərə çarpır, hələ uşaq yaşlarından gələcəyin vətəndaşlarında milli mentalitet formalaşdırılır. «Möcüzəli xəzinə» də həmin seriyaya daxildir. Buraya türkmən, alman, litva, qazax, moldov, fransız, və s. dildən dünya xalqlarının nağılları toplanmışdır.

Rafiq Yusifoğlunun uşaq şeirlərinin böyük bir qismi çöl heyvanları və quşlar haqqındadır. Quşlar haqqında uşaq şairlərimizin bir neçəsi şeirlər yazıb, onlara qarşı uşaqlarda sevgi hissləri oyatmağa çalışıblar. Rafiq Yusifoğlunun bu sıradan yazdığı şeiri də uşaqların yaddaşından silinmir, onların diqqətini cəlb edir.

A quşcuğazlar nə yaraşıqlısız,
Can kimi bəslənməyə layiqsiniz.
A bəxdəvərlər, ananız gəldimi?
Qondu budaq üstünə dincəldimi?

R.Yusifoğlunun son illərdə çap etdirdiyi uğurlu şeirlər toplusundan biri də «Söz çəməni»dir. Bu toplunu dərslik kimi də qəbul etmək olar. Çünki kitabda müəllif şeir vasitəsi ilə uşaqlara fonetika, morfologiya, sintaksis və leksika haqqında bilgi verir. Şair kitabların birinə yazdığı ön sözdə deyir: Mən

də vaxtilə elə düşünürdüm ki, uşaq ədəbiyyatı elə uşaq-muşaq ədəbiyyatıdır. Ancaq sonra uşaqlar üçün yazanda gördüm və hiss etdim ki, uşaqlar üçün yazmaq heç də böyüklər üçün yazmaqdan asan deyil». Şairin «Qəm karvanı» poemasını oxuyanda görürük ki, o döğrudan da sözə, sənətə yüksək qiymət verən, sözdə zərgər dəqiqliyi axtaran ədəbi şəxsiyyətdir. Poemada M.Füzuli yaradıcılığı milli poeziyanın ən yaxşı örnəyi kimi təqdim olunur. Füzuli sənətindən bir damla götürməyi, nəsə öyrənməyi yaradıcılıq kredosu hesab edir.

Rafiq Yusifoğlu həm də tanınmış ədəbiyyatşünas kimi milli ədəbiyyatın klassik və müasir mərhələləri ilə bağlı elmi axtarışlar aparır. Azərbaycan poeması: axtarışlar və perspektivlər» elmi monoqrafiyasının «Ədəbiyyatşünaslığın əsasları» və «Uşaq ədəbiyyatı» dərsliklərinin müəllifidir.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. Abid Ə., Gənc yazıçılarımıza nəsihətimiz, "İnqilab və mədəniyyət" jurnalı, 2 noyabr 1929-cu il, №777, (2783).

2. Ağayev Ə., Ədəbi tənqidimizi yüksək səviyyəyə qaldıraq, "Ədəbiyyat" qəzeti, 9 avqust, 1950, №22, (599).

3. Аманов Р., Детская литература, Таджикистана, 1981, с.238.

4. Alışanov Şirindil. Sözün estetik yaddaşı. «Elm», 1994.

4. Azərbaycan ədəbiyyatı məsələləri, Bakı, "Elm", 2006, s. 208

5. Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında, "Ədəbiyyat" qəzeti, 28 avqust, 1948.

6. Azərbaycan Sovet Yazıçılarının II qurultayı, "Ədəbiyyat" qəzeti, 24 aprel, 1954.

7. Azərbaycan Yazıçılarının II qurultayı qarşısında, "Ədəbiyyat və incəsənət" qəzeti, 27 mart, 1954, №13, (746).

8. Azərbaycan Yazıçılarının X qurultayı, Bakı, Azərnəşr, 1998, s.236.

9. Azərbaycan Sovet uşaq ədəbiyyatı antologiyası (poeziya), Bakı, 1976, s.289.

10. Azərbaycan Sovet uşaq ədəbiyyatı antologiyası (nəsr), Bakı, 1976, s.358.

11. Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı, II cild, Bakı, "Elm", s.256.

12. Azərbaycan Sovet yazıçılarının II qurultayının qərarı, "Ədəbiyyat və incəsənət" qəzeti, 8 may, 1954

13. Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı, XIX-XX əsrlər, Bakı, "Nasir", 2008, s.256.

14. Bağırzadə Ə., Uşaq ədəbiyyatına artıq diqqət verməli, "Gənc işçi", 14 yanvar, 1940, №1,

15. Buxarin M.İ., Şer, poetika və SSRİ-də şairlik yaradıcılığının vəzifələri, "Kommunist" qəzeti, 2 sentyabr, 1934, №206, (4229).

16. Баху Мтатабуринин. Энсиклопедический словарь, М., 1987. с.192

17. Бабушкина А.П., История русской детской литературы, М., 1978, с.480.

18. Belinski V.Q., Seçilmiş məqalələr, Bakı, 1988, s.234.

19. Belinski V.Q., Seçilmiş məqalələr, Bakı, "Azərnəşr", 1948, s.256.

20. Белинский В.Г., Полное собрание сочинения, М., Издотельство Академия Наук ССР, 1954, с.450.

21. Белинский В.Г., О детьские психологии, журнал "Семья в школе", 1961, №6, с. 36-39

22. Белинский В.Г., Полн. соб., соч., М., 1984,с. 88.

23. Бегок Б., Неискаемый родник, журнал "Детская литература", 1968, № 10. с.112-118

24. Бегок Б., Дети смеются, М., 1971, с. 91.

25. Bəktaşi İ., XX əsr uşaq mətbuatında ədəbiyyat, Bakı, "Azərnəşr", 1965, s.56.

26. Борев Ю., Эстетика, М., "Политиздать", 1975, с.376.

27. Будагов П.А., Литетатурние языки и языковые стил, М., 1967, с.376.

28.Cəfərova Y.,Rəsul Rza və uşaq ədəbiyyatı, 10.01.03, Azərbaycanədəbiyyatı, fil. elm. nam. alim. dər. al –maq üçün təqd. ed. dis., N.Tusi adına AzDPU, Bakı, 1998, s.130.

29. Gəncəli N., Uşaqlar üçün yüksək keyfiyyətli əsərlər yaradaq, "Ədəbiyyat" qəzeti, 25 fevral, 1950, №6, (583).

30. Чуковский К., От в двух до пяти, М., 1956, с.286.

31. Детям нужны хорошие книги, Т., "Раммам", 1978, с.324.

32. Детская литература, М., 1980, с.324.

33. Детская литература (сборник статей), М., 1985, с.190.

34. Джафаров Т., Азербайджанская детская поезия в конце ХЫХ и начале XX веков. Автореферат, канд.наук. филол.

35. Əbülhəsən Ə., Uşaq ədəbiyyatı haqqında, "Ədəbiyyat" qəzeti, 16 may, 1950, №14, (591).

36. "Ədəbiyyat və incəsənət " qəzeti, 26 fevral, 1972.

37. Ədəbiyyat və incəsənət " qəzeti, 28 fevral, 1972.

38. Ədəbiyyat və incəsənət " qəzeti, 20 noyabr,1954.

39. Əfəndiyev E., Azərbaycan uşaq ədəbiyyatı haqqında düşüncələr, "Ulduz" jurnalı, 1982, №4, s.67-69

40. Əfəndiyev H., Pereverzev və onun ədəbiyyat sistemi haqqında, "Hücum" jurnalı, 1931, №1, s. 2-4

41. Əhmədov A.Ş., Müasir uşaq poeziyası, Dil və ədəbiyyat (nəzəri, metodik jurnal), Bakı, 1999, BDU, №4 (29), s. 28-30

42. Əhmədov A.Ş. Müasir Azərbaycan uşaq poeziyası (1980-1990), monoqrafiya, Bakı, ADPU, s.116.

43. Əhmədov C. Uşaq və zaman, Bakı, "Yazıçı", 1986, s.163.

44. Əliyev V., 1970-80-ci illər Azərbaycan uşaq ədəbiyyatının ideyabədii istiqamətləri, fil. elm. nam. al. dər.al. üçün təq. olun. disser., Bakı, N.Tusi ad. AzDPU, 1996, s.138.

45. Əsədullayev S., Estetiçeskiy ideal soüialğnaə aktivnost pisatelğə, Baku, "Yazıçı", 1982, s. 231

46. Əzizov Ə., Azərbaycan sovet uşaq ədəbiyyatının inkişaf yolları, (1920-1945), Bakı, "Gənclik", 1968, s.56.

47. Fərhadov F., Hacıyev A., Azərbaycan uşaq ədəbiyyatı tarixi, Bakı, 1981, s.110.

48. Hacıyev A., Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq, Bakı, Yazıçı, 1986, s.263.

49. Hacıyev A., Uşaqlar üçün yazanda, "Ədəbiyyat və incəsənət" qəzeti, 1972, 12 avqust, №33, (1691).

50. Həsənov Q., Uşaq ədəbiyyatı məsələlərinə dair, "Gənc işçi", 5 fevral, 1940.
51. Həsənli B., Azərbaycan uşaq ədəbiyyatı, Bakı, "Mütərcim", 2008, s.295-297
52. Hüseyn M., Böyük bolşevizm sənəti uğrunda, "İnqilab və mədəniyyət" jurnalı, 1931, №6, s. 76-82
53. Халил Р., Детская литература Азербайджана, М., 1987, с.224
54. Халилов З., Истоки, основные факторы становления и этапы развития Азербайджанской детской и юношенской литературы, Дис. док. фил. наук, Баку, АДД, 1989, с.279.
55. İbrahimov M., Ədəbiyyatımızın ideya saflığı və yüksəlişi uğrunda, "Ədəbiyyat" qəzeti, 17 aprel, 1950, № 29, (600).
56. "İnqilab və mədəniyyət" jurnalı, 1928, №1, s. 58-60
57. "İnqilab və mədəniyyət" jurnalı, 1935, №3, s. 72-81
58. "İnqilab və mədəniyyət" jurnalı, 1934, №8, s. 32-37
59. Yazıçıların II Ümumittifaq qurultayı qarşısında "Literaturnaya qazeta" nın baş məqaləsi, 2 aprel, 1954
60. Ярмыш Ю., Детская литература У., 1982, с.236
61. Yusifoğlu R., Uşaq ədəbiyyatı, Bakı "Şirvan", 2006, s.268
62. Kazım Ə., Azərbaycan uşaq ədəbiyyatı tarixinə dair, "Ədəbiyyat" qəzeti, 6 iyun, 1938.
63. Kiçiklər üçün böyük ədəbiyyat uğrunda, "Ədəbiyyat və incəsənət" qəzeti, 8 yanvar 1966, № 2 (1958)
64. Köçərli F., Seçilmiş əsərləri, Bakı, 1963, s.192.
65. Köçərli F., Balalara hədiyyə, Bakı, 1967, s. 389.
66. Köçərli F., Azərbaycan ədəbiyyatı, I hissə, Bakı, "Elm" 1978, s. 276.
67. Köçərli F., Azərbaycan ədəbiyyatı II hissə, Bakı, "Elm",1978, s. 271
68. "Kommunist" qəzeti, 1934, 2 sentyabr, №206 (4299).
69. "Kommunist" qəzeti, 1934, 17 iyun, №142.
70. "Kommunist" qəzeti, 1929, 25 oktyabr, №251, (2757).
71. Qarayev Y., Meyar şəxsiyyətdir, Bakı, "Yazıçı", 1988, s.356
72. Qarayev Y., Min ilin sonu, Bakı, "Nurlan", 2002, s.132
73. Quliyev M., Ədəbiyyat cəbhəsində mübarizə, "İnqilab və mədəniyyət" jurnalı, 1930, №1, s. 22-24
74. "Literaturnaya qazeta" nın redaksiya məqaləsi (Yazıçıların qurultayı qarşısında), "Ədəbiyyat və incəsənət" qəzeti, 10 aprel, 1954.
75. Литературный энциклопедический словарь, М., 1987, с. 218.
76. Макаренко А.С., О детской литература и детском чтения, М., "Детгиз", 1955, с. 184.
77. Маршак С.Я., Воспитание словам. М, 1964,с. 242.

78. Маршак С.Я., О большой литература для маленких. М, ФНХЯ, 1934, с. 231.
79.Məmmədov Ə., Azərbaycan uşaq ədəbiyyatı. Bakı, "Elm", 1977, s. 162.
80. Məmmədov X., Həsənov A., Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı, Bakı, "Nasir", 2001, s. 268.
81. Məmmədova S., Azərbaycan uşaq dramaturgiyası, 1970-80, Bakı, "Elm", 2005, s. 151.
82. Məmmədov M.,Babayev Y.,Cavadov T., Pedaqoji mühit və uşaq ədəbiyyatı, Bakı, "Maarif", 1992, s.286
83. Məhərrəmova C., Azərbaycan uşaq ədəbiyyatında ənənə və novatorluq. Bakı, "Maarif", 1998, s. 125.
84. Mirzəyev Ə., Azərbaycan uşaq ədəbiyyatına dair dərs vəsaiti, Gəncə, "İlkin", 2004, s. 143.
85. Mirzəyev Ə., Folklor və Azərbaycan uşaq poeziyası. Gəncə, "Əskəroğlu", 2002, s 153.
86. Namazov Q., Azərbaycan sovet uşaq və gənclər ədəbiyyatının inkişaf mərhələləri, fil. elm. dok . al. dər. al üç.dissertasiya, 1987, s. 361.
87. Novruzov Q., Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1984, s.33.
88. Novruzov O., S.Vurğun və uşaq ədəbiyyatı, fil. elm. nam. alim. dər. al.diss.alim üç. təq. ol. diss. Bakı, BDU, s. 136.
89. Nemanzadə Ö.F., Cocuq ədəbiyyatı məsələləri. "Yeni məktəb"jurnal, 1926, №10, s. 21-25.
90. Nəbiyev B., Böyük Vətən Müharibəsi və Azərbaycan ədəbiyyatı, Bakı, "Elm", 1977, s.
91. Nəbiyev B.,Uşaq ədəbiyyatını böyük tələblər səviyyəsində. "Azərbaycan" jurnalı, 1971, № 8, s. 149-157.
92. Nəbiyev B., Hərənin öz yolu var."Çinar-ÇAP", Bakı, 2005, s. 465.
93. Nəbiyev B., Roman və müasir qəhrəman. Bakı, "Yazıçı", 1987, s. 268.
94. Osmanlı V., Azərbaycan romantikləri. Bakı, "Yazıçı", 1985, s. 224.
95. "Pravda" qəzetinin baş məqaləsi. 11 may, 1951.
96. Rəfili M., Ədəbi irsə diqqət, "İnqilab və mədəniyyət" jurnalı, 1928, № 7, s. 64-65.
97. Rüstəmova Q., Müasir Azərbaycan uşaq nəsrinin inkişaf problemləri (1970-1980-cı illər), 10.01.03-Azərbaycan ədəbiyyatı, fil.elm. nam.alim. dər al. üç.təq. ed.dis, Bakı, BDU, 1997, s. 145.
98. Rza R., Uşaq ədəbiyyatının ideya və bədii səviyyəsini yüksəltməli. "Kommunist" qəzeti, 9 yanvar, 1952.
99. Rzaquluzadə M., Azərbaycan şura cocuq ədəbiyyatınının nailiyyətləri, "İnqilab və mədəniyyət" jurnalı, 1935, №10, s. 41-43

100. Rzaquluzadə M., Oktyabr nəsilinə layiq cocuqədəbiyyatı, "Ədəbiyyat" qəzeti, 20 noyabr, 1934.
101. Rzaquluzadə M., Azərbaycan sovet uşaqədəbiyyatında mövzu və keyfiyyət məsələsi, "Azərbaycan" jurnalı, 1955, № 8, s. 114-137.
102. Rzaquluzadə M., Cocuq ədəbiyyatı yaradaq "İnqilab və mədəniyyət" jurnalı, 1926, №10, s. 56-59.
103. Rzaquluzadə M., Qəhrəmanov Ə.H., Uşaq ədəbiyyatı, Bakı, "Azərnəşr", 1948, s.58
104. Rzaquluzadə M., Uşaq ədəbiyyatına diqqəti artıraq, "Ədəbiyyat və incəsənət" qəzeti, 11 dekabr, 1954, № 97 (736).
105. Rzaquluzadə M., Uşaq və gənclər ədəbiyyatı, "Ədəbiyyat" qəzet, 24 aprel, 1944, 20 noyabr, 1954
106. Sabir M.Ə., "Hophopnamə", Bakı 1954, s 293
107. Salmanov Ş., Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf mərhələləri -10.01.03- Azərbaycan ədəbiyyatı -10.01.08- Ədəbiyyat nəzəriyyəsi, fil. elm. dok al. dər. al. üç. təq. ol. dis., M.EA-nın Nizami adına Ədəbiyyat İnstitutu, Bakı, 1996, s. 369.
108. Saraclı Ə., Azərbaycan yazıçıları cümhuriyyət dönəmində, Bakı, "Elm", 2007, s. 256.
109. Səhhət A. , Əsərləri, II cilddə, II cild, Bakı, 1976 s. 278.
110. Seyidzadə M., Cocuq ədəbiyyatında dönüş yaratmalı, "Kommunist" qəzeti , 1 mart, 1934.
111.Seyidzadə M., Yüksək keyfiyyətli əsərlər yaradaq, "Ədəbiyyat" qəzeti, 14 iyun, 1940.
112.Seyidov F., Uşaq ədəbiyyatında tərbiyə məsələləri, XIX- XX əsrlər, Bakı, 2006, s. 265.
113. Şəmsizadə. N., Azərbaycançılıq, Bakı, "Nurlan", 2006, s.190.
114. Talıbzadə A.Ş., Məktəblərimiz, "Azərbaycan" qəzeti, 14 mart, 1919, № 136
115. Talıbzadə K., Sənətkarın şəxsiyyəti, Bakı, "Yazıçı", 1978, s. 278.
116. Teatrımız yeni mövsümdə. "Ədəbiyyat" qəzeti, 4 sentyabr, 1949, № 25, (566)
117. Trinc Ə., "Kommunist" qəzeti, 15 iyun, 1934, №140.
118. Uşaq ədəbiyyatının inkişafı ilə ciddi məşğul olmalı, baş məqalə, "Ədəbiyyat" qəzeti, 15 aprel, 1954.
119. Uşaqlarımıza yüksək keyfiyyətli əsərlər verək, "Ədəbiyyat və incəsənət" qəzeti, 12 iyul, 1954, №24,(751).
120. Uşaqlar və gənclər ədəbiyyatının yeni yüksəlişi uğrunda, "Azərbaycan müəllimi" qəzeti, 13 noyabr, 1966.
121. Uşaq ədəbiyyatının inkişafı ilə ciddi məşğul olmalı, baş məqalə, "Ədəbiyyat" qəzeti 15 aprel,1951.
122. Uşaq ensiklopediyası: Nədir, Kimdir, III cilddə, II cild, Bakı AYEBR, 1987, s.334.

123. Uşaq ensiklopediyası: Nədir, Kimdir, III cilddə, II cild, Bakı AYEBR, 1988, s.326.
124. Uşaq bədii ədəbiyyatı məsələlərinə dair müşavirə, "Azərbaycan gəncləri"qəzeti, 22 iyun, 1949.
125. Uşaqlar üçün dəyərli əsərlər yaradaq, "Ədəbiyyat" qəzeti, 5 iyul, 1949
126. Веселовски А.Н., Историческая поэтика, Л., 1940, с.647.
127. Vəliyev İ., Ədəbiyyatda insan konsepsiyası, Bakı, "Günəş", 1998, s. 369
128. Vurğun S., Balalarımız üçün gözəl əsərlər yaradaq, I hissə, "Ədəbiyyat" qəzeti, 27 sentiyabr, 1944.
129. Vurğun S., Balalarımız üçün gözəl əsərlər yaradaq, II hissə, "Ədəbiyyat" qəzeti, 10 oktyabr, 1944.
130. Vurğun S., Balalarımız üçün gözəl əsərlər yaradaq, III hissə, "Ədəbiyyat" qəzeti, 8 oktyabr, 1944.
131. Vurğun S., Əsərləri, Bakı, "Elm", 1972, s. 351.
132. Yazıçıların II Ümumittifaq qurultayı qarşısında. 1954.
133. Zeynallı H., Ədəbi tənqidimizdə yanlışlıqlar haqqında, "İnqilab və mədəniyyət" jurnalı, 17 aprel, 1930
134. Qasımlı M., Ozan-Aşıq sənəti, Bakı«Uğur»,2007,
135. Şaiq A., Xatirələrim, Bakı, s. 234
136. Hasilova X., Uşaqlar üçün maraqlı əsərlər yaradaq, « Azərbaycan » jurnalı, 1966, №2,
137. Məmmədov Xeyrulla. Sultan Məcid Qənizadə, Bakı, «Yazıçı», 1988
138. Mustafayev C., Dağlar duruluq bağışlar, «Ədəbiyyat və incəsənət» qəzeti, 6 iyul, 1984, № 27
139. Anar. Əli Kərimin təbəssümü, «Ədəbiyyat və incəsənət» qəzeti, 27 mart, 1981
140. Alışanov Ş., Sözün estetik yaddaşı, Bakı, Elm, 1994, s. 225
141. Q.Yaşar. «Realizm: Sənət və həqiqət», Bakı, «Elm», 1980, səh.255

MÜNDƏRİCAT

Dəyərli dərslik 3

Giriş 8

I fəsil

UŞAQ ƏDƏBİYYATINDA MİLLİ MƏFKURƏ
VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI 12

Şifahi xalq ədəbiyyatı və klassik ədəbi irsimiz 17
Mərasim və məişət folkloru 19
Əmək nəğmələri 22
Bayatılar 27
Laylalar 28
Atalar sözü və məsəllər 30
Nağıllar 32
Lətifələr 34
Uşaq folkloru 35
Dastanlar 42
«Kitabi-Dədə Qorqud» dastanları 44
Dastani-Əhməd Hərami 46
Aşıq yaradıcılığı 48
Nizami Gəncəvi 50
Məhəmməd Füzuli 53

II fəsil

UŞAQ ƏDƏBİYYATININ
TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ 57

Uşaq ədəbiyyatının spesifikası 66
Azərbaycan uşaq mətbuatının yaranması 75

III fəsil

MAARİFÇİ-REALİST
VƏ ROMANTİK ƏDƏBİYYAT 82

Abbasqulu ağa Bakıxanov Qüdsi 82
Qasım bəy Zakir 85
Seyid Əzim Şirvani 88
Firudin bəy Köçərli 91

Sultanməcid Qənizadə....94
Süleyman Sani Axundov....96
A.Çernyayevski....99
Səfərəli bəy Vəlibəyov....102
Abbas Səhhət....104
Abdulla Şaiq Talıbzadə....110
Cəlil Məmmədquluzadə....115
Rəşid bəy Əfəndiyev....119
Mirzə Ələkbər Sabir....122
Əbdürrəhim bəy Haqverdiyev....127

IV fəsil

MARKSİST ESTETİKANIN
UŞAQ ƏDƏBİYYATI METODOLOGİYASI
(XX əsrin 20-30-cu illəri)....131

Uşaq ədəbiyyatında totalitar təfəkkür
(XX əsrin 40-50-ci illəri)....151

V fəsil

UŞAQ ƏDƏBİYYATINDA
YENİ İNSAN AMİLİ....174

Uşaq ədəbiyyatında sənətkarlıq məsələləri....187
Uşaq ədəbiyyatının tədqiqi tarixi....201
Uşaq ədəbiyyatı müstəqil yaradıcılıq sahəsi kimi....219

Çağdaş uşaq ədəbiyyatı

Mikayıl Rzaquluzadə....229
Mircəlal Paşayev....232
Mikayıl Müşfiq....235
Rəsul Rza....238
Mirmehdi Seyidzadə....241
Mirvarid Dilbazi....247
Əli Kərim....249
Xanımana Əlibəyli....252
Səməd Behrəngi....254
Hüseyn Kürdoğlu....256
Teymur Elçin....260
Hikmət Ziya....264
Məmməd Aslan....265

Zahid Xəlil.....267
Tofiq Mütəllibov.....269
İlyas Tapdıq.....274
Tofiq Mahmud 277
Rafiq Yusifoğlu 279

İstifadə olunmuş ədəbiyyat 282

XANIM MUSTAFAYEVA

AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI

Bakı – «Elm» – 2011

«ELM» REDAKSİYA-NƏŞRİYYAT
VƏ POLİQRAFİYA MƏRKƏZİ

Direktor: **Ş. Alışanlı**
Mətbəənin müdiri: **Ə.Məmmədov**

Formatı: 60x84 1/16. Həcmi: 18,25 ç.v.
Tirajı: 500. Sifariş № 29.
Qiyməti müqavilə əsasında

«Elm» RNPM-nin mətbəəsində çap edilmişdir
(İstiqlaliyyət, 8) .